Rezonans SAİB .

ISSN (online): 2709-7846
ISSN (print): 2709-7854
ISSN - L: 2709-7846

# SOSİOLOGİYA. SOSİAL PSİXOLOGİYA. SİYASƏT

(Elmi araşdırmalar jurnalı)

# SOCIOLOGY. SOCİAL PSYCHOLOGY. POLITICS

(Journal of scientific research)

**Cild 3**
**N 1**
**Bakı -2023**

https://asosindex.com.tr/index.jsp?modul=journal-page&journal-id=2550

http://www.gias.ge/Home/JournalListDetail/1073

ARƏN Reyestr №: 4307
ISSN (print): 2709-7846
ISSN (online): 2709-785
ISSN - L: 2709-7846

# SOSİOLOGİYA. SOSİAL PSİXOLOGİYA. SİYASƏT
**(Elmi araşdırmalar jurnalı)**

# SOCIOLOGY. SOCIAL PSYCHOLOGY. POLITICS
**(Journal of Scientific Research)**

**Cild 3**
**№1**

**Bakı – 2023**

**Təsisçi:**
**“REZONANS”**
**Sosial Araşdırmalar İctimai Birliyi**

**Baş redaktor:**
**Ramilə DADAŞOVA,** siyasi elmlər doktoru, dosent

**Baş redaktorun müavinləri:**
**Səadət MƏMMƏDOVA,** sosiologiya elmləri doktoru, dosent
**Südabə HÜSEYNOVA,** psixologiya üzrə fəlsəfə doktoru, dosent

**Məsul katib:**
**Novruz NURİYEV**

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

**Sosiologiya və sosial psixologiya üzrə:**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Bəhruz Cabbarov**
Fəlsəfə elmləri doktoru, professor **Eyyub Kərimov**
Sosial elmlər üzrə fəlsəfə doktoru, dosent **Ersin Müezzinoğlu** (Türkiyə)
Sosiologiya üzrə fəlsəfə doktoru **Farzad Qasımzadeh** (İran)
Sosiologiya elmləri doktoru, professor **Hüseyn Qaraşov**
Fəlsəfə elmləri doktoru, professor **İlham Məmmədzadə**
Fəlsəfə elmləri doktoru, professor **İzzət Rüstəmov**
Fəlsəfə elmləri doktoru, professor **Qızılgül Abbasova**
Psixologiya elmləri doktoru, professor **Məcid Mahmud Alilou** (İran)
Hüquq elmləri doktoru, professor **Mayis Əliyev**
Fəlsəfə elmləri doktoru, professor **Muxtar Yaxyayev** (Rusiya)
Fəlsəfə elmləri doktoru, professor **Mübariz Süleymanlı**
Sosiologiya elmləri doktoru, professor **Rafail Həsənov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent **Rəşad Əsgərov**
Psixologiya elmləri doktoru, professor **Rəna İbrahimbəyova**
Psixologiya elmləri doktoru, professor **Rəna Qədirova**
Fəlsəfə elmləri doktoru, professor **Rəna Mirzəzadə**
Fəlsəfə elmləri doktoru, professor **Sakit Hüseynov**
Fəlsəfə elmləri doktoru, professor **Tahirə Allahyarova**
Pedaqogika üzrə fəlsəfə doktoru **Tünzalə Verdiyeva**
Sosiologiya üzrə fəlsəfə doktoru, dosent **Üzeyir Şəfiyev**
Psixologiya elmləri doktoru, professor **Zarema Akbiyeva** (Rusiya)
Hüquq elmləri doktoru, dosent **Zaur Məmmədov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent **Zeynəddin Şabanov**

**Siyasət üzrə:**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Ainur Nogayeva** (Qazaxıstan)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Adem Sagir** (Türkiyə)
Uluslararası Siyaset Profesörü, **Ali Asker** (Türkiyə)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Almaz İsmayılova** (Rusiya)
Siyasi elmlər doktoru, professor **Amir Ahmed Khuhro** (Pakistan)
Tarix elmləri doktoru, professor **Artur Qereviç Dalqatov** (Rusiya)
Siyasi elmlər doktoru, professor **Asem Nauşabayeva Hekimoglu** (Türkiyə)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Can Kakışım** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Christopher Gunn** (ABŞ)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Elnur Kəlbizadə**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Elvin Talışinski**

Tarix elmləri doktoru, professor **Eynulla Mədətli**
AMEA-nın müxbir üzvü **Hacıfəxrəddin Səfərli**
Tarix elmləri doktoru, professor **İbrahim Ethem Atnur** (Türkiyə)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **İshak Turan** (Türkiyə)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Kəmalə Ruintən**
Tarix elmləri doktoru, professor **Kemal Çiçek** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Quram Marxulia** (Gürcüstan)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Masaoumeh Daei** (İran)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Nasirəddin Əlizadə** (İran)
Akademik **Nərgiz Axundova**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, Professor **Numan Aruç** (Şimali Makedoniya)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, Professor **Nurgun Koç** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Okan Yeşilot** (Türkiyə)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Oleq Kupçik** (Ukrayna)
Tarix elmləri doktoru, dosent **Sevinc Əliyeva**
Tarix üzrə fəlsəfə doktoru, dosent **Sübhan Talıblı**
Tarix elmləri doktoru, professor **Yaroslav Pilipçuk** (Ukrayna)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Zaur Əliyev**

**REDAKSİYA HEYƏTİNİN ÜNVANI:**
**AZ11075, Azərbaycan Respublikası, Bakı şəhəri,**
**A.M.Cümə 19/69, bina 28, mənzil 28**
**Tel.: (+994 55) 768 94 26**
**E–mail: ssps.journal2020@gmail.com**
**http: // www.sosiologiya-jurnali.az**

**© Sociology. Social psychology. Politics**
**© www.sosiologiya-jurnali.az**

**Founder:**
**“REZONANS” Sosial Research Community**

**Editor-in-chief:**
**Ramila DADASHOVA**, Doctor of Political Sciences, Associate Professor

**Deputy editor-in-chief:**
**Saadat MAMMADOVA**, Doctor of Sociological Sciences, Associate Professor
**Sudaba HUSEYNOVA**, Doctor of Philosophy in Psychology, Associate Professor

**Executive secretary:**
**Novruz NURİYEV**

**EDITORIAL BOARD MEMBERS:**

**On Sociology and Social Psychology:**

Doctor of philosophy in pedagogy, associate professor **Bahruz Jabbarov**
Doctor of Philosophy, Professor **Eyyub Karimov**
Doctor of Philosophy in Sociology **Farzad Gasimzadeh** (Iran)
Doctor of Sociology, Professor **Huseyn Garashov**
Doctor of Philosophy, Professor **Ilham Mammadzade**
Doctor of Philosophy, Professor **Izzat Rustamov**
Doctor of Philosophy, Professor **Gizilgul Abbasova**
Doctor of Psychological Sciences, Professor **Majid Mahmoud Alilou** (Iran)
Doctor of legal sciences, professor **Mayis Aliyev**
Doctor of Philosophy, Professor **Mukhtar Yakhyayev** (Russia)
Doctor of Philosophy, Professor **Mubariz Süleymanli**
Doctor of Sociology, Professor **Rafail Hasanov**
Doctor of philosophy, associate professor **Rashad Asgarov**
Doctor of Psychological Sciences, Professor **Rena Ibrahimbeyova**
Doctor of Psychological Sciences, Professor **Rena Gadirova**
Doctor of philosophy, professor **Rena Mirzazade**
Doctor of Philosophy, Professor **Sakit Huseynov**
Doctor of Philosophy, Professor **Tahira Allahyarova**
Doctor of Philosophy in Pedagogy **Tunzale Verdiyeva**
Doctor of Philosophy in Sociology, Associate Professor **Uzeyir Shafiyev**
Doctor of Psychological Sciences, Professor **Zarema Akbiyeva** (Russia)
Doctor of legal sciences, associate professor **Zaur Mammadov**
Doctor of philosophy, associate professor **Zeynaddin Shabanov**

**On Politics:**
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Ainur Nogayeva** (Kazakhstan)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Adem Sagir** (Turkiye)
Professor of International Politics, **Ali Asker** (Turkiye)
Doctor of Philosophy in History, associate professor **Almaz Ismayilova** (Russia)
Doctor of Political Sciences, Professor **Amir Ahmed Khuhro** (Pakistan)
Doctor of historical sciences, Professor **Artur Gerevich Dalgatov** (Russia)
Doctor of Political Sciences, Professor **Asem Naushabayeva** Hekimoglu (Turkiye)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Can** Kakışım (Turkiye)
Professor, Doctor of History **Christopher Gunn** (USA)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Elvin Talishinski**
Doctor of historical sciences, professor **Eynulla Madatli**
Corresponding member of ANAS **Hajifakhraddin Safarli**
Doctor of historical sciences, professor **Ibrahim Ethem** Atnur (Turkiye)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Ishak Turan** (Turkiye)

Doctor of Philosophy in political sciences, associate professor **Kamala Ruintan**
Doctor of historical sciences, professor **Kemal Çiçe**k (Turkiye)
Doctor of historical sciences, professor **Guram Marxulia** (Georgia)
Doctor of Philosophy in History, Associate Professor **Masaoumeh Daei** (Iran)
Doctor of Philosophy in History, Associate Professor **Nasireddin Alizadeh** (Iran)
Academician **Nargiz Akhundova**
Doctor of Philosophy in Political Sciences, Professor **Numan Aruç** (North Macedonia)
Doctor of Philosophy in Political Sciences, Professor **Nurgun Koç** (Turkiye)
Doctor of historical sciences, professor **Okan Yeşilot** (Turkiye)
Doctor of Philosophy in History, Associate Professo**r Oleg Kupchik** (Ukraine)
Doctor of historical sciences, associate professor **Sevinj Aliyeva**
Doctor of philosophy in history, associate professor **Subhan Talibli**
Doctor of historical sciences, professor **Yaroslav Pilypchuk** (Ukraine)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Zaur Aliyev**

**ADRESS OF THE EDITORIAL BOARD:**
**AZ11075, Republic of Azerbaijan,**
**Baku city, A.M.Juma 19/69, building 28, apartment 28**
**Tel.: (+994 55) 768 94 26**
**E-mail: ssps.journal2020@gmail.com**
**http: // www.sosiologiya-jurnali.az**

**© Sociology. Social psychology. Politics**
**© www.sosiologiya-jurnali.az**

**MÜNDƏRİCAT**
**TABLE OF CONTENTS**

**Sosiologiya və sosial psixologiya**
**Sociology and social psychology**

**Aydan ÜZEYİRLİ**
Boşanma sosial hadisə kimi......6

**Aynurə ABİYEVA**
Əlil uşaqların fəaliyyətlərinin məhdudlaşdırılmasının aradan qaldırılmasında assistiv texnologiyanın əhəmiyyəti......11

**Hümbət ƏLİYEV**
Birinci Qarabağ müharibəsinin başlaması və məcburi köçkün düşmüş əhalinin vəziyyətinə təsiri......17

**Leyla İSMAYILOVA**
Dövlətin sosial fəaliyyətində pensiya təminatinin yeri......28

**Nihad ƏSƏDOV**
Narkomaniya və alkoqolizm kriminal halların mənbəyi kimi......37

**Orxan ŞƏRƏFXANOV**
Şəxsiyyət anlayışı və onun formalaşmasına təsir edən amillər......43

**Ramil ŞAHHÜSEYNLİ**
Azərbaycanda turizm kompleksinin rəqabət qabiliyyətliyinin optimallaşdırılması siyasəti......49

**Rafail QULİYEV**
Azyaşlı məktəblilərin qamət pozuntusunun profilaktikası üzrə tədris materiallarının təhlili......54

**Rauf ABBASOV**
Azərbaycanda sovet dövründə sosial işin təşkili və inkişafı tarixi......59

**Rövşən QAFARLI**
Bəşəriyyətin əsas sosial ekoloji problemləri......64

**Salatın QULİYEVA**
Yeniyetməlik dövrünün yaş xüsusiyyətləri......68

**Tünzalə VERDİYEVA**
İnsan alveri qurbanları ilə sosial iş......73

**Zeynəb BAĞIROVA**
Qadınların görünməyən əməyi......84

**Siyasət**
**Politics**

**Ərrəhman ƏHMƏDOV**
Qədim türklərdə dövlətçilik və mədəniyyət.....................................................................................91

**Hacıfəxrəddin SƏFƏRLİ**
Araz-türk cümhuriyyəti və Naxçıvanın erməni təcavüzündən qorunması.......................................103

**Kərim RZAYEV**
ABŞ-ın Cənubi Qafqaz Siyasəti.........................................................................................................112

**Məhəmməd MƏMMƏDLİ**
İran İslam Respublikasinin Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasəti.........................................................................................................................................118

**Musamil MUSABƏYLİ**
Regional təhlükəsizlik anlayışı..........................................................................................................123

**Rüfət İSLAMOV**
Formalaşan yeni dünya düzənində Ukraynanın geostrateji önəmi, Ukrayna uğruna mübarizə - Rusiya və Qərb konfrantasiyası........................................................................................................131

**Ürfan MƏMMƏDZADƏ**
XX əsrin 20-ci illərində Azərbaycan SSR-də siyasi çəkişmələr fonunda ərazi bütövlüyü məsələsi.........................................................................................................................................140

# Sosiologiya və sosial psixologiya

# Sociology and social psychology

**UOT 364.044.24**

**Aydan ÜZEYİRLİ***

# BOŞANMA SOSİAL HADİSƏ KİMİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 16 fevral 2023; çapa qəbul edilmişdir: 21 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 16, 2023; accepted for publication: 21 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Bu məqalə boşanmanın sosial-psixoloji aspektlərini, onun növlərini və səbəblərini təhlil etmək, boşanmanın sosial nəticələrini və boşanmadan sonrakı həyatı araşdırmaq, boşanmanın uşaqlara olan təsirlərini müəyyənləşdirmək məqsədilə yazılmışdır.

Boşanma – həyatları boyu sürəcəyi, hər zaman yan-yana və bir-birlərinə dəstək olacağı inamıyla qadın və kişi tərəfindən qurulmuş "Rəsmi" birliyin, ailə institutunun, sona çatmasının hüquqi müddətini ifadə etməkdədir. Adətən boşanma həm hüquqi, həm psixoloji, həm sosial, həm də ictimai bir müddətdir. Yoldaşlar və uşaqlar üçün zədə və travma olma ehtimalı olan bir həyatdır və bəzi evliliklər üçün təəssüf ki, qaçılmazdır.

***Açar sözlər:*** *Evlilik, qadın-kişi münasibəti, qarşılıqlı anlaşılmazlıq, böhran vəziyyəti, boşanma.*

## Giriş

Boşanma – qadın və kişi arasında qanuni, romantik və cinsi evlilik bağlarının bitirilmə qərarını ehtiva etməkdədir. Evliliyin qanuni bağı məhkəmədə həll edilməkdədir. Romantik bağın həll edilməsi isə daha çətin ola bilər və zaman ala bilər. Hansı səbəblə olursa olsun (ictimai təzyiqlər, fərdi uyğunsuzluq, müzakirəli və problemli ayrılıq) hər boşanma sıx bir stresə gətirib çıxarmaqdadır. Boşanmanın yaratdığı stress üstündə ən çox dayanılan mövzudur.

Şübhəsiz boşanma ruhi, ictimai və iqtisadi ölçüləri ilə yoldaşlar və uşaqların həyatlarını kökündən dəyişdirir. Yoldaş və uşaqların həyatlarının necə təsirlənəcəyi, daha doğrusu nə dərəcədə mənfi təsirlənəcəyi, yoldaşların boşanma mərhələsində edəcəkləri əməkdaşlığına və quruluşçu yanaşmalarına bağlıdır. Evlilik birliyinin sona çatmasındakı səbəb və üsul nə olursa olsun, əhəmiyyətli olan bu nöqtədə qarşıya çıxan problemlərin necə həll ediləcəyidir. Evlilikdən boşanmaya keçid müddəti şübhəsiz ki, çətin və streslidir. Bu dövrdə hüquqi və psixo-sosial müddət bir döyüşə çevrilərək, uşaqların inkişafı və gələcəkləri ilə əlaqədar mövzularda ünsiyyət qurma və əməkdaşlıq etmənin bir tərəfə buraxılaraq yoldaşlar arasındakı düşməncə duyğuların ön plana çıxıb istiqamətləndirici olması, xüsusilə də uşaqların, qarşı tərəfə zərər vermək üçün bir vasitə və silah kimi istifadə edilməsi bu müddətdəki ən böyük təhlükə və uzun müddət bərpa edilməsi qeyri-mümkün münasibətlərə gətirib çıxaracaq böyük zədələrin yaradıcısıdır [8].

**Boşanmanın sosial – psixoloji aspektləri**

İki yetkin insan bütün fədakarlıqları ilə, sevgi və hörmətləri ilə evliliyin meydana gəlməsinə çalışır. İctimai dəyərlərimiz baxımından müqəddəs hesab edilmiş bir təsisat olan evlilik möhkəm təməllər üzərinə qurulmalıdır. Bunun üçün səy göstərmək lazımdır. Məqsəd birlikdə bir yastıqda yaşlanmaq, bu həyatı yaxşısıyla pisiylə paylaşmaqdır.Yenə bu iki yetkin insan birlikdə yaşamağa qərar verdiyi halda zamanla müxtəlif səbəblər nəticəsində artıq birlikdə yaşamamaq qərarı da verə bilərlər. Evlilik üçün mübarizə edən fərdləri dəstəkləyən ictimai təşkilatlar boşanmaya qarşı bir şəbəkə meydana gətirirlər [5].

* *Azərbaycan Universiteti, magistr. Azərbaycan, Bakı*
*E-mail:* uzeyrli.aydan@gmail.com

Evlənmək istəyən cütlüklər hamısı dəstəklənib ürəkləndirilərkən, boşanmanın qarşısında ictimai dəyər mühakimələri hər zaman maneələr meydana gətirir. Bu vəziyyət, bəlkə də, bizi biz edən mədəni şəxsiyyətimizlə əlaqədar bir vəziyyətdir. Boşanma qərarı almaq mədəni kodlarımızla əks bir vəziyyətdir. Tamamilə sahibləndiyimiz evlilik müəssisəsinin artıq zədələnməyə başlamasıyla hər iki tərəf də bu vəziyyətdən təsirlənməyə və özünü tənha hiss etməyə başlayar. Cəmiyyətin bir çox vəziyyətdə təsdiqləmədiyi bu boşanma vəziyyətində cütlüklər nə edəcəklərini bilməyən insanlara çevrilirlər. Boşanan şəxslərin yaşadıqları təməl duyğular təklik, tənhalıq, çarəsizlik, hirs, hirslilik, qayğı və qorxu duyğularıdır.

Tərəflərin bədbəxt olduğu evlilik çətinliklər yaradır. Təbii ki, ağıllı və yetkin olan heç bir cütlük boşanmaq üçün evlənmir. Lakin işlər düşünüldüyü kimi getmirsə və tərəflər üçün evlilik artıq ağır yükə çevrilməyə başlamışdırsa, evlilik xoşbəxtlikdən çox bədbəxtliyin qaynağı olmağa başlamışdırsa boşanmaq daha doğru bir variant ola bilər. Cütlüklər evlənmək üçün necə səmimi idilərsə, boşanma vəziyyətində də eyni səmimiyyəti və dürüstlüyü göstərə bilməlidir [3].

Kişilər boşanma qərarı qarşısında qadına nisbətən daha güclü görünsələr də, ən az qadınlar qədər bu vəziyyətdən təsirlənirlər. Cəmiyyət içində boşanmış bir kişiyə göstərilən tənqidi yanaşma qadınla müqayisədə daha azdır. Belə cəmiyyətdə boşanmış bir kişi qadınla müqayisədə daha rahat hərəkət edə bilir və yenidən evlənməsi də daha asan ola bilər.

Boşanmış qadının cəmiyyətdəki mövqeyi fərqlidir. Boşanmış olmaq ictimai dəyərlər çərçivəsində qadınlar üçün güclü bir təzyiq ünsürüdür. Belə ki, bəzi qadınlar "boşanmış qadın" kimi görünməkdən qorxduqları üçün boşanma qərarını təxirə sala bilərlər. "Boşanmış qadın" olmaq çox zaman onu ictimai yaşayışını dəyişdirmək məcburiyyətində qoyur, artıq hərəkətlərinə daha çox diqqət yetirmək məcburiyyətində qalırır. Ancaq unudulmamalıdır ki, bu ictimai mühakimələri meydana gətirən və tətbiq edən də və belə bir cəmiyyəti formalaşdıran da bizlərik. Boşanmaq dünyanın sonu deyil. Həyat davam edir [7].

**Boşanmanın uşaqlara təsiri**

Boşanma evli olan cütlərin artıq ayrı yaşamağa qərar verməkləri ilə başlayır. Lakin boşanma qərarını vermək də asan olmur. Cütlüklərin boşanma qərarını vermələri üçün keçən müddət, ailədə zədə yaradan müddətdir. Ailədəki uşaq bu müddətdən ən çox təsirlənən fərd ola bilər. Uşaq bu dünyaya gəldiyi ilk andan etibarən lazımlı olan bütün ehtiyaclarını ana-atasından götürür. Ana-atası onun varlığı və sağlam inkişafı üçün sevgi, hörmət, güvən, şəfqət, istilik, qayğı kimi bir çox ehtiyaclarını ödəyirlər. Boşanmaya gedən problemli müddətdə isə evdə yaşananlar uşaqlara mənfi təsir göstərir. Bu dövrdə valideynlərin öz aralarındakı ünsiyyətin xüsusiyyəti də uşağa müəyyən təsir göstərir. Boşanma uşağın həyatında yaşana biləcək ən böyük zədədir.

Uşaqlar bu vəziyyətdən – boşamadan fərqli şəkildə təsirlənirlər. Uşaqlar boşanmadan sonra özlərini təhlükəsizlikdə və etibarda hiss etmək istəyirlər. Boşanmadan sonra uşaq anası ilə qalmağa başlayır. Ancaq güvən hiss etmirsə, davamlı bir narahatlıq başlaya bilər. Uşağın özünü etibarda və təhlükəsizlikdə hiss etməsi üçün ana və atanın üzərinə düşən bəzi vəzifələr vardır [6].

Əgər uşaq anada qalırsa, ana uşağa atasıyla əlaqədar mənfi xarakterli fikirlər aşılamamalıdır. Köhnə yoldaşı uşağının atasıdır və uşaq bütün həyatı boyunca atasını görəcək. Ata da eyni həssaslıqda olmalı və ana ilə əlaqədar mənfi qiymətləndirmələr etməməlidir. Cütlər öz aralarındakı problemlərə uşaqları alət edilməməlidirlər. Onların uşaq üzərindən bir-birlərinə xəbər göndərmələri də düzgün hesab edilnir [9].

Boşanmanın uşaqlar üzərindəki təsirlərini yüngülləşdirmək üçün boşanma məsləhətçiliyi lazımlı və olduqca əhəmiyyətlidir. Bunun üçün Hettin uşaqlara kömək etməyi məqsəd qoyan proqramda aşağıdakı mövzular üzərində dayanılması vurğulanmışdır:

-Uşaqlar boşanma hadisəsi ilə üzləşərkən tək olmadıqlarını anlamalıdırlar;
-Boşanmaya özlərinin səbəb olduqları fikirlərindən imtina etməlidirlər;
-Təsirli ünsiyyət və iddialılıq bacarıqları qazanmalıdırlar;
-Problemi həll etmək bacarıqları qazanmalıdırlar;
-Stress və narahatlığı boşalma texnikaları istifadə edərək azaltmalıdırlar;

- Hirslərini idarə edə bilmək bacarıqları qazanmalıdırlar [2].

**Boşanmadan sonrakı sosial həyat**

Boşanmadan sonrakı həyatla bağlı bir sıra mərhələlər vardır:

a) Boşanmaya qərar verən tərəf və reaksiyalar;

Qadının boşanma qərarı qarşısında ərin davranışı: Qadınların boşanma qərarına ərlərin diqqət etməməsi və ya qəbul etməməsi ilə bağlı davranışlarının nisbəti yüksəkdir. Bu vəziyyət evlilik müddətində yoldaşlar arasındakı romantik bağların pozulması, yoldaşların bir-birinə yadlaşması ilə əlaqəli ola bilər.

Arvadının öz istəyinə uyğun davranması vəziyyətlərində hədələyici hərəkət edən ər boşanmaya qərar verilərkən də eyni vasitəyə müraciət edə, onun qərarını dəyişdirmə israrlı səy göstərə bilər [10].

Ərin boşanma qərarı qarşısında qadının davranışları: Boşanmaya əri qərar verən qadınların çoxu ya bu vəziyyəti qəbul edir, ya da razısalma yoluyla boşanmağa çalışırlar. Qadınlar tərəfindən laqeydlik, ya da hədələmək halları daha az təsadüf edilir. Bu vəziyyət qadının özünü çarəsiz, məhrum hiss etməsindən qaynaqlanır. Xüsusilə də, sosial və iqtisadi vəziyyəti aşağı oaln qadınlar boşandıqdan sonra necə yaşayacaqlarını düşünüb razılaşmağa məcbur olurlar.

Evliliyə son verilməsini tələb etməyən tərəfdə suallar yarana bilər. Səbəb mənəmmi? – deyə düşünər, inana bilməz, inkar edər, bir müddət hirs, depressiya keçirə bilər. Xüsusilə də boşanma ani, gözlənilməz olduqda, ya da xəyanət ehtiva etdikdə yaşananlar daha sarsıdıcı ola bilər. Ayrılıq qərarını istəyən tərəf günahkarlıq hiss etdiyi halda, digər tərəf tərk edilmək və sevilməyə layiq olmamaq kimi hisslər yaşyır. Boşanmanın ilk ili olduqca çətindir. Həm kişi, həm də qadın özünə inamı, etibarı itirir, təklik və təcrid olunma hisslərindən əziyyət çəkir. Tərəflər yorğunluq, depresiya vəziyyətində ümumi somatik şikayətlər edə bilərlər. Bunlar insanın ailə vəziyyətindəki dəyişikliyi dərk etməkdə çətinlik çəkildiyini göstərir [7].

Boşanma qərarı qarşısında yaxınların davranışları: İstər evliliyin başlanğıcında, istər evlilik dövründə və istərsə də evliliyin sona çatması mərhələsində qohumların müəyyən müdaxiləsi qaşılmazdır. Zaman keçsə də uyğunlaşmaqla bağlı problemlərin ortadan qalxmaması, yoldaşlar arasındakı uçurumun böyüməsi yaxınları tərəfindən boşanmanın qəbul edilməsinə səbəb olur.

İşləyən qadın üçün boşanma və boşanmanın nəticələri: İşləyən qadınların boşanma nisbətinin işləməyənlərə görə altı dəfə çox olduğu müəyyən olunmuşdur. İşləyən qadınların professional sahədə və evində iki fərqli rola sahib olması, hər iki yöndə müvəffəqiyyəti təmin etməsini çətinləşdirir. İşləyən qadından həm işində müvəffəqiyyət, həm qayğıkeş ana, həm sadiq həyat yoldaşı, həm də baxımlı qadın olması gözlənilir. Bu vəziyyət qadınların iş saatlarının uyğunlaşdırılması və məhsuldarlıqla bağlı problemlər yaşamasına gətirib çıxarır. İşləyən qadının yoldaşından daha müvəffəqiyyətli olması da problemlərə səbəb ola bilər. Təhsili nə səviyyədə olursa olsun romantik zəkasını inkişaf etdirməyən insanlar evlilikdə problem yaşayır. Təhsil səviyyəsi ilə boşanma artımı paralellik göstərir [4].

**Nəticə**

Boşanmanın səbəb və nəticələrinin araşdırılması ilə bağlı ümumiləşdirmələr və çox yönümlü qiymətləndirmə etmək, həmçinin boşanmış fərdlərin və ailələrin mövcud vəziyyətlərini və necə bir müdaxiləyə ehtiyac hiss etdiklərini təyin etmək, sağlam bir nəticə çıxarmaq əhəmiyyətlidir.

Boşanmış qadınlar cəmiyyətdən mənəvi dəstək gözləyir. Onlara qarşı ayrı-seçkilik və damğalayıcı davranışların aradan qaldırılması, onlara anlayışla yanaşılması, mənfi münasibət göstərilməməsi vacib şərtdir. Müxtəlif psixo-sosial və iqtisadi problemləri olan boşanmış qadınlar bu problemlərin aradan qaldırıla bilməsi üçün sosial xidmət eksperti, psixiatr və psixoloq kimi ekspertləşmiş işçilərin dəstəyinə ehtiyac duyurlar.

Edilən araşdırmalar boşanmış qadınların özlərinin və himayələrində olan şəxslərin təmin edilməsi ilə əlaqədar iqtisadi, psixo-sosial xüsusiyyətli problemlərdən əziyyət çəkdiklərini, bu

çətinlikləri həll etmək bacarıqlarının olmamasını və buna görə də sosial işçilərin köməyinə ehtiyac hiss etmələrini aşkar etmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1.Anthony Giddens. Sosyoloji. Ankara: Aytaç Yayın Evi, 2005, 704s.
2.Doğan Cüceloğlu. İnsan və Davranışı – Pisikolojinin Temel Kavramları. İstanbul: Remzi Kitap Evi. 1991, 608s.
3.Enver Özkalp. Davranış Bilimləri. Eskişehir: Anadolu Üniversitesi yayın evi. 2003, 301s.
4.Gander M. J. Çocuk ve Ergen Gelişimi. // [Elektron resurs]. URL: http://www.bosanmacocuk.htm. Müraciət edilmişdir: 12.12.2022
5.Özen Şirvanlı. [Elektron resurs] // URL: Çocuk Gelişim http://www.ingilish.com Müraciət edilmişdir: 12.11.2022
6.Serap Alptekin Boşanma ve Çocuk. // [Elektron resurs]. URL: http://www.serapalptekin.com. Müraciət edilmişdir: 1.11.2022
7.Sinan Yıldız. Boşanma ve Kadın. // [Elektron resurs]. URL: http://www.ruzgarterapi.com Müraciət edilmişdir: 10.11.2022
8.Suna Saygın Boşanmanın Çocuğa Etkileri. // [Elektron resurs]. URL: http://www.pdrkariyer.com/ailememektuplar. Müraciət edilmişdir: 13.11.2022
9.Tarja Pösö, Marit Skivenes and June Thoburn. Adoption from care. international perspectives on children's rights, family preservation and state intervention. Bristol: Bristol University Press.2021, 286 pp.
10.Turan Özturk. Sosyoloji (Toplum Bilim). İstanbul: Sürat Yayınları, 1996. 256s.

**Aydan UZEYIRLI**

## DIVORCE AS A SOCIAL PHENOMENON

### Summary

This article was written in order to analyze the socio-psychological aspects of divorce, its types and reasons, to examine the social consequences of divorce and life after divorce, and to determine the effects of divorce on children.

Divorce - refers to the legal term of the end of the "Official" union, family institution, established by a woman and a man with the belief that it will last throughout their lives, will always be side by side and support each other. Divorce is usually a legal, psychological, social and social term. It's a life of potential injury and trauma for partners and children, and for some marriages, unfortunately, it's inevitable.

**Key words:** *Marriage, male-female relationship, mutual misunderstanding, crisis situation, divorce.*

**Айдан УЗЕЙИРЛИ**

## РАЗВОД КАК СОЦИАЛЬНОЕ ЯВЛЕНИЕ

### Резюме

Данная статья написана с целью анализа социально-психологических аспектов развода, его видов и причин, изучения социальных последствий развода и жизни после развода, определения влияния развода на детей.

Развод – это юридический термин окончания «официального» союза, семейного института, созданного женщиной и мужчиной с верой в то, что он продлится всю их жизнь, всегда будут бок о бок и будут поддерживать друг друга. Развод обычно являетсяюридическим, психологическим, социальным и социальным термином. Это жизнь потенциальных травм для партнеров и детей, и для некоторых браков, к сожалению, это неизбежно.

**Ключевые слова:** *Брак, отношения мужчины и женщины, взаимное непонимание, кризисная ситуация, развод.*

**Rəyçi: s.ü.f.d., dosent Üzeyir ŞƏFİYEV**

UOT 369.06

**Aynurə ABİYEVA***

# ƏLİL UŞAQLARIN FƏALİYYƏTLƏRİNİN MƏHDUDLAŞDIRILMASININ ARADAN QALDIRILMASINDA ASSİSTİV TEXNOLOGİYANIN ƏHƏMİYYƏTİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 fevral 2023; çapa qəbul edilmişdir: 20 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 15, 2023; accepted for publication: 20 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalədə assistiv texnologiyaların sağlamlıq imkanları məhdud uşaqların həyatında mühüm rol oynadığı və onların cəmiyyət həyatında aktiv iştirak etmələrində kömək etdiyi izah edilmişdir.

Cəmiyyət daxilində bəzi insan qrupları vardır ki, onlar daha çox diqqət və qayğı tələb edir. Bunlardan biri sağlamlıq imkanları məhdud olan uşaqlardır. Onların cəmiyyətə inteqrasiyasında təhsilin və texnologiyanın mühüm əhəmiyyəti vardır.

Məqalədə assistiv texnologiyalara hansı köməkçi məhsulların daxil olduğu və onların əldə olunmasında nə kimi problemlərin meydana çıxdığı göstərilib.

**Açar sözlər:** *assistiv texnologiyalar, sağlamlıq imkanları məhdud uşaqlar, köməkçi məhsullar, maneələr, assistiv texnologiyanın strategiyaları*

## Giriş

Sağlamlıq imkanları məhdud olan uşaqlar müxtəlif təcrid formaları ilə üzləşirlər ki, bu da onları səhiyyə, təhsil və sosial xidmətlərdən məhrum edə, ailə və cəmiyyətdə iştiraklarını məhdudlaşdıra bilər. Bu təcrid gələcək məşğulluq imkanlarına və vətəndaş həyatında iştiraka uzunmüddətli təsir göstərə bilər.

Dəstəkləyici xidmətlər və texnologiyalar sağlamlıq imkanları məhdud olan uşaqlara cəmiyyətdə öz yerlərini tutmağa, ailələrinə və cəmiyyətə töhfə verməyə imkan yarada bilər.

Assistiv texnologiyaya əlilliyi olan insanların fəaliyyətini yaxşılaşdıran məhsullar və əlaqəli xidmətlər daxildir. Bu, uşaqların inkişafı və sağlamlığı üçün, eləcə də həyatın müxtəlif sahələrində iştirak etmək üçün vasitə ola bilər. Bunlara ünsiyyət, hərəkətlilik, özünə qulluq, ev işləri, ailə münasibətləri, təhsil, oyun və istirahət daxildir. Assistiv texnologiya həm uşaqların, həm də onların ailələrinin həyat keyfiyyətini artıra bilər [6, s.5].

## Assistiv texnologiyalar və onların əhəmiyyəti

Assistiv və ya köməkçi texnologiya həm köməkçi məhsullar, həm də əlaqəli xidmətlər üçün ümumi termin kimi istifadə olunur. Köməkçi məhsullar köməkçi cihazlar kimi də tanınır.

Assistiv texnologiyanın müxtəlif tərifləri var: onlardan ikisi burada təqdim olunur. Fəaliyyət, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı köməkçi məhsul və texnologiyanı əlilliyi olan şəxsin fəaliyyətini yaxşılaşdırmaq üçün uyğunlaşdırılmış və ya xüsusi olaraq hazırlanmış hər hansı məhsul, alət, avadanlıq və ya texnologiya kimi müəyyən edir. Beynəlxalq Standartlaşdırma Təşkilatı köməkçi məhsulları daha geniş şəkildə əlillər tərəfindən və ya əlillər üçün istifadə olunan, xüsusən istehsal olunan və ya ümumiyyətlə, mövcud olan hər hansı məhsul kimi müəyyən edir: bədən funksiyalarını/strukturlarını və fəaliyyətlərini qorumaq, dəstəkləmək, öyrətmək, ölçmək və ya

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistr. Azərbaycan, Bakı*
*E-mail:* aynure.abiyeva.99@gmail.com

əvəz etmək; dəyərsizləşmələrin, fəaliyyət məhdudiyyətlərinin və ya iştirak məhdudiyyətlərinin qarşısını almaq üçün cihazlar, avadanlıq, alətlər və proqram təminatı.

Köməkçi məhsullarla bağlı xidmətlərə tövsiyə, uşağın qiymətləndirilməsi, resept, maliyyələşdirmə, sifariş, məhsulun hazırlanması, məhsulun uşağa uyğunlaşdırılması, uşağın və ya ailə üzvlərinin təlimi, texniki qulluq və təmir daxildir. Fəaliyyəti pozan əsas şərtlərin diaqnostikası və monitorinqi üçün tibbi cihazlar və klinik ekspertiza da tələb oluna bilər. Hər bir assistiv texnologiya növü öz qiymətləndirmə üsullarını tələb edir, məsələn, məhsulun uyğunlaşdırılması və ya dəyişdirilməsi yolları. Xidmətlərin göstərilməsi ilə məşğul olan işçilərin yanlış qiymətləndirmə və uyğunlaşdırma ilə bağlı potensial zərərin qarşısını almaq üçün lazımi biliyə malik olmaları vacibdir. Müvafiq xidmətlər assistiv texnologiyadan istifadənin nəticələrinə əhəmiyyətli təsir göstərə bilər.

Assistiv texnologiya sağlamlıq imkanları məhdud uşaqların müstəqilliyini artırmaq və təkmilləşdirmək üçün güclü vasitədir. Bu, sağlamlıq imkanları məhdud uşaqlara mobil olmağa, daha effektiv ünsiyyət qurmağa, daha yaxşı görməyə və eşitməyə və öyrənmə fəaliyyətlərində daha dolğun iştirak etməyə kömək edir. Bundan əlavə, assistiv texnologiya uşaqların öz hüquqlarından istifadə etməsinə kömək edir, dəyər verdiyi şeyləri etməklə sağlamlıq imkanları məhdud olan və olmayan uşaqlar arasında fərqləri aradan qaldırır. O, təhsil, sosial və istirahət imkanlarına çıxış və iştirak vasitələrini təmin edir, daha böyük fiziki və zehni funksiyaları gücləndirir və özünə hörməti artırır, təhsil xidmətləri və fərdi dəstək xərclərini azaldır.

Sağlamlıq, hərəkətlilik və təhsil kimi sahələrdə faydaların olması assistiv texnologiyanın istifadəsi ilə əlaqələndirilir. Təhsilə çıxışı yaxşılaşdırmaq və məktəbdə nailiyyətləri artırmaqla assistiv texnologiya sağlamlıq imkanları məhdud olan uşaqların həyatına müsbət sosial-iqtisadi təsir göstərə bilər.

Sağlamlıq imkanları məhdud olan uşaqların həyatın bütün aspektlərində iştirakını və daxil edilməsini asanlaşdırmaqla, assistiv texnologiya mənlik imicinə, özünə hörmət və özünə dəyər hissinə təsir göstərə bilər [7].

Assistiv texnologiyalar uşağın özünə inamını və müstəqillik hissini artıra bilər. Məktəbdə mübarizə aparan uşaqlar çox vaxt tapşırıqlarla bağlı kömək üçün valideynlərdən, qardaşlardan, dostlardan və müəllimlərdən hədsiz dərəcədə asılıdırlar. Assistiv texnologiyalardan istifadə edərək, uşaqlar müstəqil işləməkdə uğur qazana bilərlər.

Yardımçı məhsullar sağlamlıq imkanı məhdud olan uşaqlara evdə, məktəbdə və cəmiyyətdə gündəlik fəaliyyət və tapşırıqlarla daha yaxşı məşğul olmağa kömək edə bilər. Məsələn, əlil arabasından istifadə etmək sağlamlıq imkanı məhdud olan uşağın evlərinin ətrafında daha sərbəst hərəkət etməsinə, cəmiyyət daxilində səyahət etməsinə və məktəbə getməsinə imkan verir [8].

Assistiv texnologiya bu şəkildə kömək edə bilər:

-Oyun və qarşılıqlı əlaqə üçün uşağın fəaliyyətini və imkanlarını təkmilləşdirməklə uşağın iştirakını, rifahını, özünə inamını və özünə hörmətini artırmağa imkan verir;

-Uşağın uzunmüddətli sağlamlıq nəticələrini yaxşılaşdıraraq, onun uzunmüddətli sağlamlıq və sosial qayğıya ehtiyacını azaltmağa kömək edir;

-Uşağın təhsil nailiyyətlərini təkmilləşdirməyə şərait yaradır;

-Valideynlərin qayğı yükünü azaltmağa imkan verir;

-Uşaqların valideynlərdən asılılığı azaldıqca, sağlamlıq və sosial xidmətlərlə bağlı xərclər də azalmağa başlayır.

Bu faydaları həyata keçirmək üçün yardımçı məhsullar yüksək keyfiyyətli və yerli şəraitə uyğun olmalıdır və uşaqların onlardan necə istifadə edilməsinə dair biliklərin öyrədilməsinə ehtiyac vardır [4, s.274].

Yardımçı məhsullar uşağın fəaliyyət məhdudiyyətindən və şəxsi məqsədindən asılı olaraq bir çox formada ola bilər. Telefonlar və kompüterlər kimi yüksək texnoloji cihazlar sağlamlıq imkanları məhdud olan uşaqlar üçün həqiqətən faydalı ola bilər, lakin daha sadə, aşağı texnologiyalı

avadanlıqlar da təsirli ola bilər. Yardımçı məhsullar çox pul tələb etməyə bilər, çünki onlar tez-tez yerli şəraitdə və hətta evdə ucuz qiymətə hazırlana bilər.

Yardımçı məhsullara aşağıdakıları misal göstərmək olar:

-Hərəkət üçün: əl ağacı/dəyənək, qoltuqağacı, duş/hamam/tualet üçün kreslo, tutacaqlar, protezlər, əlil arabası.

-Görmə üçün: eynəklər, audiopleyerlər, brayl yazı avadanlığı, böyüdücülər, ekran oxuyucuları.

-Eşitmə üçün: işıq/vibrasiyalı həyəcan siqnalları, qapalı altyazılı displeylər, eşitmə cihazı, video əlaqə cihazları.

-Ünsiyyət üçün: ünsiyyət lövhələri/kitabları/kartları, ünsiyyət proqramı, səs texnologiyasına işarə.

-Qavrama qabiliyyəti üçün: ünsiyyət vasitələri, səs yazıcıları, sadələşdirilmiş mobil telefonlar və vaxtı idarə etmək üçün cihaz [3].

-Süni intellekt texnologiyaları: Süni intellektlə bağlı olan sahələr son dövrlərdə çox inkişaf etmişdir. Sağlamlıq imkanları məhdud uşaqların qarşılaşdıqları problemlər bu sahədən də kənarda qala bilməz.

Bu baxımdan istifadə olunan proqramlardan biri *Mind Machine İnterface (MMI)* və *Brain-Computer İnterface (BCI)* - dır. Bu proqramların köməyi ilə sağlamlıq imkanları məhdud uşaqlar öz fikirləri ilə robotları idarə edə bilirlər. Bunun nəticəsində uşaqlar öz fikirlərini həyata keçirirlər.

Massaçusets Texnologiya Universitetində 2016-cı ildə eşitmə problemi olan sağlamlıq imkanları məhdud uşaqlarla əlaqədar yeni bir kəşf olunmuşdur. Belə ki, eşitmə problemi olan uşaqlar bluetooth vasitəsilə öz fikirlərini digər insanlara çatdıra biləcək əlcək geyinirlər. Bundan sonra cihaz sağlamlıq imkanları məhdud uşaqların əl hərəkətlərini ona qoşulu olan kompüterə ötürür. Kompüterin köməyi ilə bu məlumatlar səsə çevrilir ki, bu da insanların onları daha yaxşı başa düşməsinə kömək olur. Məhz bu texnologiya gələcəkdə eşitmə problemi olan sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətdə aktiv rol olmalarında böyük əhəmiyyətli olacaqdır [5].

Həmçinin, Azərbaycanda da bu məsələ ilə bağlı bir sıra işlər görülür. Məsələn, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Heydər Əliyev Fondunun dəstəyi və sifarişi əsasında Azərbaycanın "NeyroTex" şirkəti tərəfindən kor və görmə qabiliyyəti zəif olan sağlamlıq imkanları məhdud uşaqlar üçün dünyada ilk dəfə olaraq səslə idarə olunan mini kompüterlərin sınaq nümunələri hazırlanmışdır. Bu mini kompüterlərin əsas məqsədi kor və görmə qabiliyyəti zəif olan sağlamlıq imkanları məhdud uşaqların hamısının texnologiyalardan bərabərhüquqlu istifadə etməsidir.

Bu yeni qurğu digərlərindən ona görə fərqlənir ki, onun monitoru və klaviaturası yoxdur və bütün əmrlər mikrofon ilə idarə olunur. Bu mini kompüterin bir sıra imkanları vardır. Bunlara səsli əmrlər vasitəsilə onlayn rejimdə son yeniliklərlə tanış olmaq, elektron mətnləri səsləndirmək, elektron poçtdan istifadə etmək, bundan əlavə, telefon zənglərini qəbul etmək və onları cavablandırmaq aiddir. Kompüterdə bütün əmrlər və proqram təminatı azərbaycan dilindədir [1].

**Assistiv texnologiyaların istifadəsi imkanları**

Daha əvvəl qeyd edildiyi kimi, assistiv texnologiyalar sağlamlıq imkanları məhdud uşaqların qarşılaşdıqları maneələri azalda və ya aradan qaldıra bilər. Bununla belə, məhsul və xidmətlə bağlı maneələr səbəbindən belə texnologiyanın əldə edilməsi həmişə mümkün olmur. Bu maneələrə aşağıdakılar aiddir:

*Məlumat əksikliyi:* Bir çox sağlamlıq imkanları məhdud uşaqlar və onların ailələri yardımçı məhsullar və xidmətlər haqqında məhdud məlumatlıdırlar. Bu, uşaqlar və onların ailələri üçün hansı köməkçi texnologiyaların mövcud və ya uyğun olduğunu və onların necə faydalı ola biləcəyini bilməkdə çətinlik yaradır.

*Qanunvericilik, siyasətlər və milli proqramlar da daxil olmaqla idarəetmənin yoxluğu:* 2005-ci ildə keçirilmiş "Əlilliyi olan şəxslər üçün imkanların bərabərləşdirilməsi üzrə standart qaydaların həyata keçirilməsi üzrə hökumətin fəaliyyətinə dair qlobal sorğu" müəyyən etmişdir ki,

iştirak etmiş 114 ölkədən 50%-i müvafiq qanunvericilik aktlarını qəbul etməmişdir və 48%-nin assistiv texnologiya ilə təminat məsələsində müvafiq siyasətləri yoxdur.

*Xidmətlərin çatışmazlığı:* Assistiv texnologiya xidmətləri çox vaxt sağlamlıq imkanları məhdud olan uşaqların yaşadığı yerdən uzaqda yerləşir. Yuxarıda qeyd olunan qlobal sorğuda iştirak etmiş 114 ölkənin 53%-i assistiv texnologiyanın təmin edilməsi ilə bağlı proqramlara başlamamışdır. Qeyri-hökumət təşkilatlarının ölkə miqyasında dayanıqlı xidmət göstərmə sistemlərini inkişaf etdirmək üçün nadir hallarda maliyyə vəsaiti və ya imkanları olur. Məhdud coğrafiya əhatə dairəsi ilə, onların xidmətləri tez-tez assistiv texnologiyanın xüsusi növlərinə diqqət yetirir.

Cari xidmətin göstərilməsi ədalətli deyil. Bərabərsizliklər təkcə ölkənin müxtəlif ölkələrində və ya regionlarında, yaxud müxtəlif iqtisadi şəraitdə yaşayan insanlar arasında deyil, həmçinin müxtəlif qüsurları, cinsləri, yaşları, dilləri və mədəniyyətləri olan insanlar arasında da aşkar edilmişdir. Uşaqların köməkçi texnologiyadan istifadə etmək ehtimalı böyüklərdən daha azdır. Azaldılmış maliyyə imkanları ilə yanaşı, xidmətlər yalnız kişi işçilər tərəfindən təmin edildikdə, müəyyən bölgələrdə qızların assistiv texnologiyaya çıxışı mədəni baxımdan qeyri-mümkündür.

*Məhsulların əksikliyi:* Bir çox ölkələrdə köməkçi məhsulların istehsalı yoxdur və ya istehsal kiçik miqdarda aparılır. O, təkcə kəmiyyət baxımından deyil, həm də məhsulların çeşidləri, modelləri və ölçüləri baxımından kiçikdir. Köməkçi məhsulların istehsalı üçün lazım olan materiallara və avadanlıqlara məhdud çıxış istehsala mane ola bilər. Bazarla bağlı amillər də istehsalı məhdudlaşdıra bilər. Assistiv texnologiya və ya satınalma qabiliyyəti haqqında məlumatlılığın az olması məhdud tələbata səbəb olur. Bu, istehsalla əlaqədar marağın azalması ilə nəticələnir. Yerli bazarların az olduğu ərazilərdə yerli istehsal sərfəli olmaya bilər. Bundan əlavə, assistiv texnologiya ilə bağlı rüsum və idxal vergiləri yerli müəssisələri material, avadanlıq və ya köməkçi məhsulları idxal etməkdən çəkindirə bilər.

Yardımçı məhsulların geniş çeşidlərinin qlobal miqyasda mövcud olmasına baxmayaraq, onlar hər yerdə mövcud deyildir. Buna görə də məhsulun tədqiqi və inkişafı hələ də tələb olunur.

*Əlçatmaz yerlər:* Fiziki cəhətdən əlçatmaz yerlər assistiv texnologiya üçün maneə kimi çıxış edir**.** Məsələn, əlçatmaz nəqliyyat sistemləri və ya xidmət mərkəzləri sağlamlıq imkanları məhdud uşaqların ehtiyac duyduqları xidmətlərə və məhsullara asan çıxışının qarşısını alır. Bundan əlavə, fiziki maneələrə pilləkənlər və ya zəif işıqlandırma aiddir. Həmçinin, əlil arabasının qiymətindən və ya mövcudluğundan asılı olmayaraq, uşaq onu əlçatmaz evdə, yolda və ya məktəbdə istifadə edə bilməyəcək.

*İnsan resurslarının çatışmazlığı:* Köməkçi texnologiyanın qarşısındakı digər maneə məhsulların istehsalı və ya uyğunlaşdırılması və xidmətlərin göstərilməsi üzrə lazımi təlim keçmiş kadr çatışmazlığıdır. Bir çox ölkələr reabilitasiya heyətinin qeyri-kafi sayda olduğunu bildirir.

*Maliyyə maneələri:* Köməkçi məhsulların alınması, saxlanması və dəyişdirilməsi xərcləri, həmçinin əlaqəli xidmətlər və səyahət xərcləri əsas maneədir. Xərclər uşaqlar üçün xüsusilə yüksək ola bilər, çünki onlar böyüdükcə köməkçi məhsulların dəyişdirilməsinə və ya tənzimlənməsinə ehtiyac duyulur. 114 ölkə arasında aparılan qlobal sorğuda müəyyən olunmuşdur ki, onların 36%-i assistiv texnologiyanın inkişafı və təchizatı üçün maliyyə vəsaiti ayırmayıb [6, s.18].

Uşaqlar üçün assistiv texnologiya onlara uyğun olmalıdır. Bu o deməkdir ki, məhsullar uşaqların ehtiyaclarına və ətraf mühit şəraitinə cavab verməlidir. Bu, həm də o deməkdir ki, onlar təhlükəsiz və davamlı olmalıdır və tətbiq oluna bildikdə, onlar lazımi uyğunluq və dəstək təmin etməlidir. Nəhayət, onlar əlçatan, əldə edilə bilən və saxlanıla bilən və ölkədə xidmətlər ən qənaətcil və sərfəli qiymətə olmalıdır.

Assistiv texnologiyanın təmin edilməsi strategiyaları mövcudluq, əlçatanlıq, əlverişlilik, uyğunlaşma, məqbulluq və keyfiyyət prinsiplərini nəzərə almalıdır.

*Mövcudluq:* Xidmətlər və məhsullar uşaq icmalarına mümkün qədər yaxın olmalıdır.

*Əlçatanlıq:* Xidmətlər və məhsullar onlara ehtiyacı olan hər bir uşaq üçün əlçatandır. Cinslər, əlillik qrupları, sosial-iqtisadi qruplar və coğrafi bölgələr arasında uyğunsuzluğun qarşısını

almaq üçün onların çatdırılması ədalətli olmalıdır. Əlçatanlıq xidmətlərə və məlumatlara fiziki və koqnitiv girişi əhatə edir. Fiziki əlçatanlıq, məsələn, binaların əlçatan olması, işıqlandırmanın uyğun olması, Brayl əlifbasında işarələrin mövcud olması və səs-küy səviyyəsinin aşağı olması deməkdir. Koqnitiv əlçatanlıq o deməkdir ki, şifahi və yazılı məlumat və göstərişlər aydın və sadədir, dil və simvollar mücərrəd deyil, konkretdir, məhsulların istifadəsi asandır.

*Əlverişlilik:* Xidmətlər və məhsullar ehtiyacı olan hər bir uşağın ailəsi üçün əlverişlidir. Onların bir çoxu pulsuz və ya subsidiya verilməyənə qədər assistiv texnologiyanı ödəyə bilməyəcək.

*Uyğunlaşma:* Xidmətlər və məhsullar fərdi uşaqların ehtiyac və tələblərinə uyğun olmasını təmin etmək üçün uyğunlaşdırılır və dəyişdirilir. Onlar həm fərdi amillər (məsələn, sağlamlıq vəziyyəti, bədən quruluşu, bədən funksiyası, tutum, cins, yaş, etnik mənsubiyyət və üstünlüklər), həm də ətraf mühit amilləri (məsələn, fiziki mühit, psixososial mühit, iqlim və mədəniyyət) baxımından fərdlərə uyğunlaşmalıdırlar. Bundan əlavə, uşaqlar böyüdükcə və inkişaf etdikcə fiziki dəyişikliklərə uyğunlaşdırılmalıdır. Bir uşağın köməkçi məhsulu nə qədər tez-tez dəyişməsi onun nə qədər sürətlə inkişaf etməsindən və böyüməsindən asılıdır ki, bu da zamanla uşaqlar arasında dəyişir. Zəif uyğunlaşdırılmış məhsullara görə təzyiq yaraları, ağrılar və deformasiyalar kimi yeni və ikinci dərəcəli sağlamlıq problemlərinin qarşısını almaq vacibdir.

*Qəbuledicilik:* Xidmətlər və məhsullar uşaqlar və onların ailələri üçün məqbuldur. Bu, onları təminat prosesinə cəlb etməklə və ehtiyaclarını, üstünlüklərini və gözləntilərini nəzərə almaqla asanlaşdırılır. Cihazların və əlaqəli xidmətlərin uşaqlar və onların ailələri üçün məqbul olmasını təmin etmək üçün səmərəlilik, etibarlılıq, sadəlik, təhlükəsizlik, rahatlıq və estetika kimi amillər nəzərə alınmalıdır. Xüsusilə rahatlıq və estetika ilə bağlı ehtiyaclar, üstünlüklər və gözləntilər fərdi olsa da, mövcud dizaynlar həm qızlar, həm də oğlanlar üçün uyğun olmalıdır.

Ətraf mühitin əlçatanlığı müəyyən növ assistiv texnologiyadan istifadə etmək üçün zəruridir və buna görə də məhsulun məqbul olmasına təsir göstərir. Hökumətlər fiziki mühitə, nəqliyyata, informasiya və rabitə vasitələrinə və ictimaiyyət üçün açıq və ya təqdim edilən digər obyekt və xidmətlərə çıxışı təmin etmək üçün məsuliyyət daşıyırlar. Buraya mənzil, məktəblər, tibb müəssisələri, yollar və nəqliyyat, eləcə də informasiya və rabitə xidmətləri daxildir.

*Keyfiyyət:* Xidmətlər və məhsullar müvafiq keyfiyyətdədir. Məhsulun keyfiyyəti qüvvə, davamlılıq, tutum, təhlükəsizlik və rahatlıq baxımından tətbiq olunan texniki standartlar və ya təlimatlar vasitəsilə ölçülə bilər. Milli standartlar qəbul edilməyibsə, məhsulların hazırlanmasında Beynəlxalq Standartlaşdırma Təşkilatının müvafiq beynəlxalq standartlarına üstünlük verilməlidir. Xüsusi xidmət keyfiyyətləri kadr hazırlığı tələblərinə və xidmət təlimatlarına uyğunluq baxımından, xidmətlərin ümumi keyfiyyəti isə nəticələr, istifadəçi məmnuniyyəti və həyat keyfiyyəti baxımından ölçülə bilər [2].

**Nəticə**

Müasir dövrdə assistiv texnologiyalarının mövcudluğu bir çox sağlamlıq imkanları məhdud uşaqların həyatını müəyyən qədər yüngülləşdirməyə imkan verir. Assistiv texnologiya uşaqların həyatını daha rahat edir, onların fiziki, koqnitiv və sosial cəhətdən fəaliyyət göstərməsinə yardımçı olur. Assistiv texnologiyaların inkişafı sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına, müstəqil şəkildə hərəkət etməsinə və cəmiyyətdə digər insanlarla bərabər hüquqlara sahib olmalarına kömək edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1.Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi // [Elektron resurs]. URL: https://mincom.gov.az/az/ Müraciət edilmişdir: 1.12.2022

2.Convention on the Rights of Persons with Disabilities. New York, United Nations. https://www.un.org/development/desa/disabilities/convention-on-the-rights-of-persons-with-disabilities.html// [Elektron resurs]. URL: https://mincom.gov.az/az/ Müraciət edilmişdir: 1.1.2023

3.How Can Technology Assist Children with Developmental Disabilities? // [Elektron resurs]. URL:https://www.futurelearn.com/info/courses/children-with-developmental-disabilities/0/steps/60064/ Müraciət edilmişdir: 3.1.2023

4.Kristin S., Marshall H. R., Assistive technology for kids with learning disabilities. // [Elektron resurs]. URL: https://www.readingrockets.org/article/assistive-technology-kids-learning-disabilities-overview/ Müraciət edilmişdir: 1.1.2023

5.Məmmədova M., Quliyeva N., Əhmədov S. Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiya prosesində İKT-nin rolu. // "Elektron tibbin multidissiplinar problemləri" mövzusunda I respublika elmi-praktiki konfransı, Bakı, 24 may, 2016-cı il. s.273-276

6.Speech-Language and Hearing Associates of Greater Boston, PC. // [Elektron resurs]. URL: https://www.spedchildmass.com/ Müraciət edilmişdir: 1.1.2023

7.Unicef, World Health Organization, "Assistive Technology for Children with Disabilities: Creating Opportunities for Education, Inclusion and Participation", a discussion paper. // [Elektron resurs]. URL: https://www.assistive-tech-web.pdf/ Müraciət edilmişdir: 5.1.2023

8.WHO. ICF Browser. Chapter 1 Products and technology: World Health Organization // [Elektron resurs]. URL:https://www.apps.who.int/classifications/icfbrowser/ Müraciət edilmişdir: 5.1.2023

**Aynura ABIYEVA**

**THE IMPORTANCE OF ASSISTIVE TECHNOLOGY IN ELIMINATING THE LIMITATION OF ACTIVITIES OF DISABLED CHILDREN**

**Summary**

There are certain groups of people in society that require more attention and care. One of them is children with limited health opportunities. Education and technology are important in their integration into society.

This article also shows which auxiliary products are included in assistive technologies and what problems there are in their acquisition. At the same time, it was explained that assistive technologies play an important role in the lives of children with disabilities and help them actively participate in society.

**Key words:** *assistive technologies, children with disabilities, assistive products, barriers, strategies of assistive technology*

**Айнура АБЫЕВА**

**ЗНАЧЕНИЕ АССИСТИВНЫХ ТЕХНОЛОГИЙ В УСТРАНЕНИИ ОГРАНИЧЕНИЯ АКТИВНОСТИ ДЕТЕЙ-ИНВАЛИДОВ**

**Резюме**

В обществе есть определенные группы людей, которые требуют большего внимания и заботы. Одна из них – дети с ограниченными возможностями здоровья. Образование и технологии важны для их интеграции в общество.

В данной статье также показано, какие вспомогательные продукты входят в ассистивные технологии и какие проблемы возникают при их приобретении. При этом разъяснялось, что ассистивные технологии играют важную роль в жизни детей с ограниченными возможностями и помогают им активно участвовать в жизни общества.

**Ключевые слова:** *ассистивные технологии, дети с ограниченными возможностями, ассистивные изделия, барьеры, стратегии вспомогательных технологий*

**Rəyçi: f.ü.f.d., dosent Rəşad ƏSGƏROV**

UOT 364.044.22

**Hümbət ƏLİYEV***

# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNİN BAŞLAMASI VƏ MƏCBURİ KÖÇKÜN DÜŞMÜŞ ƏHALİNİN VƏZİYYƏTİNƏ TƏSİRİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 10 mart 2023; çapa qəbul edilmişdir: 15 mart 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: March 10, 2023; accepted for publication: 15 March 2023; published online: 30 March 2023*

**Xülasə**

Bu məqalədə Birinci Qarabağ müharibəsinin başlaması, onun əhaliyə vurduğu siyasi, iqtisadi, sosial və psixoloji zərərlər araşdırılmışdır. Həmçinin münaqişələrin, münaqişələr zamanı yaranan zoraklıqların növlərinə baxılıb. Qaçqın və məcburi köçkün düşmüş əhalinin post-müharibə dönəmindəki vəziyyətləri, hökumət və beynəxalq təşkilatların dəstəklərinə və onlar tərəfindən həyata keçirilən sorğu və tədqiqatlara çox saylı mənbələr hesabına baxılmışdır. Araşdırma çərçivəsində Azərbaycan Respublikasına və xalqına dəyən zərərlər bir neçə kateqoriyada birləşdirilərək müqayisəli təhlil edilmişdir. Həmçinin münaqişələr və müharibələr haqqında beynəlxalq səviyyəli alimlərin fikir və tezislərinə nəzər yetirilmişdir.

**Açar sözlər:** *Qarabağ, Müharibə, Sosial-Psixoloji təsirlər, Qaçqın, Məcburi Köçkün*

## Giriş

Müxtəlif siyasi-ictimai qurluşlu bütün cəmiyyətlərdə münaqişələr tarix boyu olmuşdur. Bunun baş verməsi cəmiyyətdə patoloji hal kimi yox, təbii hal kimi başa düşülməlidir. Unutmaq olmaz ki, münaqişə və əməkdaşlıq ictimai inkişaf prosesində həmişə qarşılıqlı əlaqədə olmuşdurlar. Münaqişə latınca konfliktus sözündən əmələ gəlib toqquşma mənasını verir. Münaqişə məqsədləri uyğun gəlməyən, öz məqsədlərini həyata keçirmək naminə bir-birinə qarşı mübarizə aparan iki və daha çox tərəfin toqquşmasıdır [6, s. 582].

Siyasi münaqişələrə aid edilən onun təbiət haqqında elmdə müxtəlif fikirlər olmuş və tarixən bu fikirlər inkişaf dövrü keçərək öz doğru və yanlışlığını isbat etmişdir. Bu gün də bu mübahisələr davam etməkdədir. Belə ki, siyasi analtiklər, sosialoqlar, tədqiqatçılar hələ mübaribənin səbəblərini, mənşəyini, tarixini, onun siyasi və sosial nəticələrini araşdırmaqdadır. Bu araşdırmaların özü də müxtəlif metod və vasitələrlə aparılır. Siyasətin mahiyyətini dərk etmək üçün “münaqişə anlayışının məzmunun müəyyənləşdirilməsinə” iki istiqamətdə münasibət bildirilmişdir. A.Tokvil, Q.Zimmel, K.Bouldinq, İ.Kozer kimi alimlər hesab edirlər ki, münaqişələr siyasətin başlıca mənbəyidir. Digər qrupa daxil olan E.Dyurkheym, M.Veber, C.Dyui araşdırmaçılar isə bildirirlər ki, siyasətin mahiyyətini başa düşmək üçün münaqiçələr ikinci dərəcəli əhəmiyyətə malikdir. Münaqişələr siyasi proseslərin anomaliyası, siyasətin özü isə “sosial həmrəyliyin müdafiəsi” kimi də qiymətləndirilir. Təbii ki, müair dövrümüzdə yeni keyslər meydana gələrək başqa alternativ yanaşmaları ortaya qoymaqdadır. Bu yanaşlar isə hər bir araşdrımaçının baxış bucağından və hadisələrin mahiyyətindən olduqca asılıdır.

Münaqişələr siyasi birliklər arasında formalaşır və meydana gəlir. Ancaq ictimai birliklərin də bu prosesdə iştirakı istinasızdır. Münaqişənin mənbəyi qrupların mənafelərinin müxtəlifliyi ilə şərtlənir. Bunlara daxil olan maraqlar da münaqişə yaratma prosesində iştirak edir. Milli maraqların vaz keçilməzliyi və onun hər hansı bir ölkənin milli təhlükəsizliyinin təmini üçün də olduqca həyati

* *Azərbaycan Universiteti, magistr. Akı, Azəraycan*
*Email:* humbat.aliyev@student.au.edu.az

əhəmiyyətə malikdir. Bir sözlə cəmiyyətin həyatı açıq və gizli, dinc və zorakı xarakter daşıyan münaqişələrin, ziddiyyətlərin təsiri altında inkişaf edir. Münaqişə horizontal və vertikal istiqamətdə baş verə bilər. Siyasi və sosial strukturun daxilində yaranan münaqişə horizontal, rəhbər strukturlarla tabelikdə olanlar, nəzarətedici orqanlarla onların tabelyində olan fərdlər, qruplarla təşkilatlar və liderlə idarə edilənlər arasında olan münaqişəni əks etdirənlər isə vertikal istiqamətdirlər.

Müharibələr ciddi və mürəkkəb hadisələrdir, insanların sosial həyatına çox müxtəlif təsirlər göstərir. Müharibələrin insanların sosial həyatına təsiri müharibənin şiddətindən, müddətindən, regional və mədəni amillərdən, ehtiyatlardan istifadə ilə bağlı müxtəlif amillərdən asılıdır.

Müharibələr insanların ailələri, dostları və icmaları arasında əlaqələri kəsə bilər. Müharibələr insanları köçürə, məcbur edə və ya öldürə, beləliklə də, onların ailələrini, icmalarını və cəmiyyətlərini parçalaya bilər. Eyni zamanda, müharibələr nəticəsində insanların gündəlik həyatı ciddi şəkildə zədələnə bilər. Müharibələr insanların evlərini, iş yerlərini və məktəblərini dağıda, əsas infrastrukturu və səhiyyəni məhv edə bilər.

Müharibələr insanların sosial və mədəni strukturlarına da zərər verə bilər. Mədəniyyətlər, dillər, adət-ənənələr və sosial strukturlar itirilə və ya dəyişdirilə bilər. Müharibələr həmçinin cəmiyyətlərdə etibarsızlıq, qorxu və paranoyya hisslərini artıra, cəmiyyətləri qütbləşdirə və uzun sürən düşmənçilik və münaqişələrin mənbəyi ola bilər.

Lakin müharibələrin insanların sosial həyatına təsiri təkcə mənfi deyil. Müharibələr həm də insanların davamlılıq, yaradıcılıq və həmrəylik kimi müsbət xüsusiyyətlərini ortaya qoymasına səbəb ola bilər. İnsanlar müharibənin çətinliklərinə tab gətirməli ola bilər və bu, insanlara innovativ həllər tapmağa və sosial həmrəyliyi artırmağa kömək edə bilər.

Müharibələr insanların psixoloji sağlamlığına da ciddi təsir edə bilər. Müharibənin şiddətindən, müddətindən, travmatik təcrübələrə məruz qalan insanların təcrübə və itkilərindən asılı olaraq insanların psixoloji sağlamlığa uzunmüddətli və mənfi şəkildə təsir edə bilər. Müharibələr insanların yaşadıqları sıx stress səbəbiylə travma sonrası stress pozuqluğu (PTSP) kimi psixoloji problemlər yaşamasına səbəb ola bilər. Bu pozğunluq şiddətli hadisələrdən sonra insanların təkrar xatırlamaları, yuxularının pozulması, hiper sayıqlıq və travmatik hadisələrdən qaçma davranışları kimi simptomları göstərir. Müharibələr insanların depressiya, narahatlıq və digər psixoloji pozğunluqların inkişaf riskini də artıra bilər. Müharibənin itkiləri, dağıntıları, ölümü və ağrıları insanların şüurunda ciddi təəssürat yarada bilər. Müharibə zamanı insanlar, xüsusən də mülki əhali özlərini ciddi təhlükə altında hiss edə bilər ki, bu da narahatlıq, qorxu və digər psixoloji problemlər yarada bilər.

Müharibələr də insanların sosial dəstək şəbəkələrinin sıradan çıxmasına və psixoloji ehtiyaclarının ödənilməsinə səbəb ola bilər. Müharibə zamanı insanlar tez-tez bir-birlərindən ayrılmalı olurlar. Bu, insanların sosial dəstəyini itirməsinə səbəb ola bilər ki, bu da onların psixoloji sağlamlığına mənfi təsir göstərə bilər. Nəticədə müharibələr insanların psixoloji sağlamlığına ciddi təsir göstərə bilər. Müharibənin intensivliyi və müddəti, travmatik təcrübələrə məruz qalma dərəcəsi insanların psixoloji sağlamlığında mühüm rol oynayır. Müharibənin insanların psixoloji sağlamlığına təsiri bir sıra amillərdən, o cümlədən insanların sosial dəstəyindən, itkilərdən və travmatik təcrübələrdən asılıdır.

**Birinci Qarabağ müharibəsinin təsirləri**

Müharibə həmçinin tarix boyu çoxlu canlar almışdır. Onun səbəb olduğu problemlər onun bitməsindən sonra daha çox hiss edilir. Təbii ki, müharibələrin mənşəyinə baxsaq, onlar müxtəlif səbəblər üzündən verə bilər. Müharibənin mənşəyi, yaranışı və təkamülü ilə bağlı ilk fikirlər Qədim Şərq ölkələrində meydana çıxmışdır. Bütün elm və sənət sahələrində olduğu kimi yenə də, Qədim Şərq xalqları eynilə müharibə məsələsinə ilk olaraq münasibət bildirmişlər. Müharibənin mənşəyinə bilavasitə toxunmuş dövrün görkəmli şəxsiyyətləri sırasına Fridrix Ratsel (Xalqşünaslıq), Alfred Teyar Mehen (Dəniz gücünün tarixə təsiri), Helford Makinder (Tarixin coğrafi oxu), Rudolf Staynmes (Müharibənin fəlsəfəsi), Q.İ. Nikolai (Müharibənin biologiyası) və digərlərini aid etmək

olar. Müasir geosiyasət XX yüzilliyin II yarısı və XXI yüzillikdə ənənəyə sadiq qalaraq müharibə mövzusundan, onun mahiyyətindən, mənşəyi və səbəblərinin araşdırılmasından yan keçmədi. Əsərlərinə toxunmaq istədiyimiz tədqiqatçılardan xüsusən Fernan Brodeli, Z.K.Bjezinskini, Samuel Hantinqtonu, V.S.-Tyan-Şanskini və L.N. Qumil- Müharibə, onun mənşəyi və öyrənilməsi (Tarixşünaslıq və mənbəşünaslıq) 29 yovu qeyd etmək olar [6, s.12].

Qarabağ müharibələri də öz mənşəyi və mahiyyəti ilə fərqlənən savaşlardan biridir. Azərbaycanın öz qonşusu tərəfindən siyasi və ərazi iddiaları ilə məruz qaldığı I Qarabağ savaşı bir şox fəlakətlərə səbəb olmuşdur. Bu fəlakətlərin sosial, psixoloji, iqtisadi və ekoloji nəticələri xalqımızın həyatın bir müddət öz mənfi təsirlərini göstərmişdir. Ermənistan-Azərbaycan münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi SSRİ-nin dağılması və postsovet respublikalarının öz müstəqilliyinə qovuşması dövründə, qonşu Ermənistanın Azərbaycan Respublikasına ərazi iddiaları, bəzi xarici geosiyasi qüvvələrin təsiri və yardımı ilə etnik separatizmin qızışdırılması zəminində meydana çıxmış və nəinki Cənubi Qafqazın, eyni zamanda, bütün Avrasiya bölgəsinin, Avropa və dünyanın təhlükəsizlik mühitinə çox mənfi və pozucu təsir göstətən regional münaqişələrdən birinə çevrilmişdir. Bu münaqişənin qarşısının vaxtında alınmaması və bəzi beynəlxalq, regional və yerli qüvvələrin ondan öz geosiyasi maraqları çərçivəsində istifadə etmək cəhdləri, sonrakı illərdə ciddi qeyri-humanist faciələrə, qırğın və qətliamlara, bu tipli onlarla yerli və regional münaqişənin başqa ərazilərdə alovlanmasına səbəb olmuşdur. Bu münaqişənin nizama salınması və onun ağır maddi və mənəvi nəticələrinin aradan qaldırılması, demək olar ki, dünyanın bütün aparıcı dövlətlərinin, beynəlxalq və regional təşkilatlarının gündəliyində mühüm yer tutur [7, s. 831].

1980-ci illərin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib. Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin sonlarında SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçiblər.

1987-ci ilin sonlarında Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından qəddarlıqla deportasiya prosesi başlayıb. 1988-1989-cu illərdə Ermənistanın müxtəlif şəhər və rayonlarında yaşayan azərbaycanlılar da eyni aqibətlə üzləşiblər. Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulub, onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirilib, 1154 nəfər isə yaralanıb. Onlar erməni zorakılığından öz həyatlarını xilas etmək üçün Azərbaycana sığınmaq məcburiyyətində qalıblar.

Azərbaycanlılar 1988-ci ilə qədər Ermənistan ərazisində kompakt şəkildə yaşayıblar. Lakin sovet hakimiyyəti Dağlıq Qarabağ ərazisində yaşayan ermənilərdən fərqli olaraq, azərbaycanlıların kompakt məskunlaşdığı ərazilərə Ermənistan SSR daxilində muxtar status verməyib [4].
Ermənilərin Qafqaza sonradan köçürülərək Qarabağa yerləşdirilməsi Rus-Qacar müharibəsi fonunda baş verdi. 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsi ilə ermənilərin Qafqaza köçürülməsi işi daha da sürətləndi. Xüsusilə, İrəvan, Naxçivan və Qarabağ kimi streteji keçmiş xanlıq ərazilərinə köçürülən ermənilər burada demoqrafik vəziyyəti dəyişdirirdi. Sovet hakimiyyətinin bərqərar olması ilə Qarabağda yaşayan ermənilərə muxtar vilayət idarəçiliyi verilməsinə baxmayaraq, Qarabağın Azərbaycanın suverənliyində saxlanılması qeydi də xüsusilə verilmişdir. Yuxarıda da yazdığımız kimi Sovetlərin süqutuna yaxın zaman ərzində erməni separatistləri öz niyyətlərini həyata keçirmək üçün fəaliyyətlər planı hazırlayırdılar. Büllütenlərin paylanılması, Moskovaya aktların, saxta birləşmə sənədlərinin göndərilməsi, qanunsuz silahlı birləşmələrin Qarabağ ərazisinə yerləşdirilməsi, azərbaycanlıların yaşadığı kəndlərə hücumların edilməsi və s. kimi təxribatlar sonda dəhşətli müharibəyə səbəb oldu.

Bütün bunların nəticəsində 15 müttəfiq respublikanın altında müxtəlif millətləri birləşdirən Sovet İttifaqı 1990-cı illərə gəldi. Özü ilə bu respublikalar arasında çoxşaxəli problemlərin həllini tapmaqda çətinlik çəkirdi. Böyük Avropa dövlətlərinin, ABŞ-ın təzyiqləri qarşısında Sovet İttifaqı dövründə həyata keçirilən zülm və işğalçı siyasətdən əl çəkərək yeni bir prosesə qədəm qoymaq istəyən Qorbaçov oldusa da, bu uğursuzluqla nəticələndi. Beləliklə, qlobal iqtisadiyyatın və ideologiyanın kölgəsində uzun illər Sovet İttifaqının nəzarətində olan bölgələrdə daha yeni və daha güclü aktorlar rol oynamağa başladı. Bu prosesi istədiyi kimi idarə edə bilməyən sovet rəhbərliyi Qərb dövlətlərinin təzyiqi ilə fərqli siyasi prosesin başlamasına imkan verdi.
Birinci Qarabağ müharibəsinin əhalinə təsirini bir neçə istiqamətdə qruplaşdırmaq olar. Onlardan birincisinə baxaq:

Məcburi köçə məruz qalma: Miqrasiya cəmiyyətlərin tarix boyu həm xarici, həm də daxili səbəblərə məruz qaldıqları bir hadisədir. Miqrasiya fenomeninin bu gün bir çox elmlərin və dünya ictimai rəyinin marağında olması terminin tərifi üzərində dayanmağı tələb edir. Miqrasiya, bu gün coğrafiya, demoqrafiya, iqtisadiyyat, sosiologiya, sosial psixologiya, hüquq və s. bütün sosial elmlər üçün ümumi maraq sahəsidir. Elmin əksər sahələrində miqrasiya fenomeninin müxtəlif aspektləri müzakirə olunur. Sosioloji baxımdan miqrasiyanın digər səbəbləri, xüsusilə coğrafi, demoqrafik, siyasi və iqtisadi səbəblər də araşdırılır. Bu səbəblər arasındakı əlaqə, həmçinin miqrasiyaya məruz qalan qrupların yaşadıqları mədəni dəyişmə problemi də araşdırılır.

Keçmiş əsrlərdə yaşanan köçlər daha çox tarixi məlumat kimi qalsa da, çağımızda yaşanan köçlər sosiologiya elmi tərəfindən çoxölçülü şəkildə işlənir. Ən ümumi mənada miqrasiya fərdlərin və ya icmaların faktiki yaşayış yerinin könüllü və ya məcburi, daimi və ya müəyyən müddət ərzində baş verən fiziki yer dəyişməsidir. Bu tərifdən də anlaşıldığı kimi, miqrasiya məcburi və ya könüllü olaraq yaşanan bir vəziyyətdir. Könüllü miqrasiya insanların öz istək və gözləntilərinə uyğun olaraq bir ölkədən digərinə və ya regiona köçməsidir. Məcburi köç isə ayrı-ayrı şəxslərin iradəsinə zidd olaraq müxtəlif qüvvələrin təsiri və ya məcburiyyəti altında baş verir. Məsələn, müxtəlif sosial, iqtisadi, təhlükəsizlik və s. bu məsələlərlə bağlı qəbul edilmiş qərarların icrası zamanı əhalidə yaranan mobillik məcburi miqrasiyanı təşkil edir. İmmiqrant isə beynəlxalq hüquq sənədlərində sadalanan siyasi meyarlara görə deyil, yalnız iqtisadi səbəblərə görə daha firavan həyat səviyyəsinə nail olmaq üçün vətəndaşlıq etdiyi ölkədən başqa ölkəyə köçən şəxsdir. Mühacirlər vətəndaşlıq olduqları ölkənin müdafiəsindən faydalanmağa davam edir və öz iradə və istəkləri ilə bu səyahətə çıxırlar. İmmiqrant qəbul edən ölkələr immiqrasiya siyasətlərindən asılı olaraq ərizələri qəbul edə və ya rədd edə bilər. Bu ölkələrin bu mənada təməl insan hüququndan irəli gələn öhdəlikləri yoxdur [2].

Miqrasiya növlərini araşdırmaq istəsək, daxili miqrasiya və xarici miqrasiya anlayışlarına rast gəlirik. Daxili miqrasiya, milli sərhədləri aşmır və ölkə daxilində baş verir. Digər tərəfdən, xarici miqrasiya əhalinin ölkə hüdudlarından kənara köçürülməsidir. Dağlıq Qarabağ konteksində bu anlayışlara baxsaq burada miqrasiya prosesini izah edə bilərik. Hələ müharibə başlamamışdan əvvəl Ermənistan SSR-də yaşayan azərbaycanlıların zorla öz doğma diyarlarından köçürülməsi prosesi baş verməkdə idi. Bu Ermənistan SSR vətəndaşı olan azərbaycanlıların məruz qaldığı zorakı deportasiya idi ki, nəticədə bir ölkədən başqa bir ölkəyə doğru baş verdi. Bunların təsnifatlaşdırılması və bu köçürülənlərin statusu isə qaçqınlar adlandırıldı. Digər tərəfdən isə Dağlıq Qarabağda müharibənin başlaması ilə orada yaşayan azərbaycanlıların erməni separatçı qüvvələri tərəfində çıxarılması baş verdi. Dağlıq Qarabağ ərazisi Azərbaycanın tam süverənliyində olan və beynəlxalq hüquq, eləcə Sovet hakimiyyəti qurulandan sonra qəbul edilən qərarlara görə də Azərbaycanın ayrılmaz bir tərkib hissəsidir. Nəticədə zorakı miqrasiya ilə bir qrup formalaşdı ki, bunlar da məcburi köçkünlər idi. Məcburi köçkünlər "Xarici hərbi təcavüz, müəyyən ərazilərin işğalı və ya mütəmadi atəş altında saxlanması nəticəsində Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerlərini tərk etməyə məcbur olub ölkə hüdudlarında başqa yerə köçmüş şəxslər bu Qanunun məqsədləri üçün məcburi köçkün hesab olunurlar" [6].

Etnik azərbaycanlıların öz tarixi yurd-yuvalarından köçkün düşməsi birbaşa olaraq 1988-ci ildən başlamış və 1994-cü il atəşkəs sazişinə kimi davam edən Dağlıq Qarabağ münaqişəsinin bir nəticəsi idi. İki qonşu Cənubu Qafqaz ölkəsi arasındakı gərginliyi artıran bu vəziyyət təqribən 1 milyon azərbaycanlının öz yurdularını zorla tərk etməsinə səbəb olmuşdur. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin 2010-cu il statistikasına əsasən, məcburi köçkünlərin sayı etnik azərbaycanlılar, regionun kürd, rus və türk əhalisi də daxil olmaqla 586013 nəfər təşkil edir [8].

Qaçqınlar və məcburi köçkünlər bir çox problemlərlə üzləşdilər. Bu problemlər sığınacaq, qidalanma, işsizlik, təhsil və təhlükəsizlikdən tutmuş bir çox sahədə müxtəlif formalarda özünü göstərdi.

Sığınacaq məsələsi: 1992-ci ildə qəbul edilmiş Qaçqınların və Məcburi Köçkünlərin statusu qanuna görə Azərbaycanda köçkünlər və qaçqınlar pulsuz sığınacaq və kommunal xidmətlərlə təmin olunmalıdırlar. Lakin iqtisadi böhran və dövlət gəlirlərinin məhdudluğu bu öhdəlikləri əvvəlcədən nəzərdə tutulmuş həcmdə yerinə yetirməyə imkan vermədi. Köçkünlərin əksəriyyəti yaşayış üçün müvafiq olmayan şəraitdə yaşadılar. Onların təmiz sudan və sanitariya xidmətlərindən istifadə etmək imkanları xeyli məhduddur. Rəsmi statistikaya əsasən köçkünlətin dörddə biri dostlarının və qohumlarının evində yaşayırdı. Onların əksəriyyəti çadır düşərgələrində, ictimai binalarda (məsələn, mətkəblərdə), tikintisi tamamlanmamış binalarda, turist və səhiyyə komplekslərinin tikintilərində, dəmir yol vaqonlarında, qazmalarda və s. müvəqqəti yaşayış yerlərində yaşamışlar. Ümumdünya Ərzaq Proqramının yardımını alan və kənd yerlərində məskunlaşmış köçkünlərin əsas hissəsini əhatə edən son sorğusunda müəyyən etmişdir ki, köçkün ailələrinin üçdə iki hissəsi bir otaqdan ibarət olan sığınacaqda yaşayırdı. Onların 70 faizinin mətbəxi yox idi. 40 faizi isə tualeti başqa ailələrlə bölüşmüşlər. Dünya Bankı tətəfindən maliyyələşdirilən başqa bir sorğunun da nəticələri eyni acınacaqlı yaşayış şəraitini aşkar etmişdir. Həm kənd, həm də şəhər yerlərində məskunlaşan və sorğuda iştirak etmiş məcburi köçkünlərın əksəriyyətinin tapdığı sığınacaq cəmi 1 otaqdan ibarət olmuş və onların 18 faizinin isə yaşadığı evdə və ya onun yaxınlığında sudab istifadə etmək imkanı olmamışdır.

Köçkünlərin yaşadığı sığınacaqların tipi barəsində cədvəl məlumatı: [3, s.50]

| Sığınacaq | Köçkünlərin sayı | Faizlə |
|---|---|---|
| İctimai binalr, məktəblər, uşaq bağçaları və yataqxanalar | 167133 | 29 |
| Qohumların və dostların evi | 49843 | 26 |
| Çadır düşərgələri və başqa yaşayış yerləri | 94517 | 16.4 |
| Tikintisi tamamlanmamış binalar | 42648 | 7.4 |
| Dəmir yolu vaqonları və yol kənarı tikililər | 39190 | 6.8 |
| Qanunsuz zəbt olunmuş mənzillər | 34003 | 5.9 |
| Fermalar və blindajlar | 31122 | 5.4 |
| Sanatoriyalar, istirahət evləri, turist bazaları və sağlamlıq düşərgələri | 17866 | 3.1 |
| CƏMİ | 576321 | 100 |

Dağlıq Qarabağın ətraf rayonlardan isə 600 min nəfərdən çox soydaşımız öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburən köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti məskunlaşmışlar. Bundan başqa, respublikamızın Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının, Ağcabədi, Ağdam, Ağstafa, Füzuli, Tərtər, Goranboy, Gədəbəy, Qazax və Tovuz rayonlarının sərhədyanı yaşayış məntəqələrindən 100 min nəfərdən çox soydaşımız təhlükəsizlik baxımından öz daimi yaşayış yerini tərk etmək məcburiyyətində qalmışdır [9].

Köçkünlərin gəlirləri və işlə təminatı: Müharibə nəticəsində məcburi köçə məruz qalmış məcburi köçkünlərin əsas problemlərindən biri də onların məşğulluqlarının təmin olunması idi. 90-

cı illərin əvvələri Azərbaycan üçün ağrılı zamanlar olduğundan bu məsələnin qısa zamanda həll edilməsi olduqca çətin olmuşdu. Rəsmi statistikalara görə əmək qabiliyyətli olan köçküblərin yalnız üçdə biri işləyirdilər. Dünya Bankının maliyyələşdirdiyi sorğunun o zamanki nəticələrinə əsasən 36 faizi özünü formal olaraq işsiz sayırdı, halbuki münaqişədən əvvəl onların cəmi 8 faizi işsiz idi.

Köçkünlərin kənd yerlərindəki məsunlaşanlarının isə üçdə ikisi özlərini minimal ərzaq və digər tələbat malları ilə ödəmək imkanına malik deyildi.Onların böyük bir hissəsi isə kənd təsərrüfatı işçiləri idilər. Torpaqların işğal olunması onların vəziyyəti çətinləşdirirdi. Faktiki olaraq onların torpaqla təmin olunması mümkün olmadığından onlar əmək fəaliyyətləri dayanmışdı. Statistik məlumatlara əsasən köçkünlərin yalnız 10 faizinin torpaqda işləmək imkanları mövcud idi. Əksəriyyətinin isə iqtisadi çətinliklər ucbatından bu imkanı olmamışdır. Buna görə də bu məsələni həll etmək üçün əsas üsullardan biri peşə qabiliyyətlərinin artırılması ola bilərdi. Köçkünlərin peşə səriştələrinin artırılması, onların yeni peşələrə yiyələnməsinə böyük ehtiyac var idi. Buna görə də bir sıra beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları kiçik bizneslə məşğul olmaq istəyən məcburi köçkünlərə kreditlər ayıran onlara bu sahədə müvafiq hazırlıq verən proqramları maliyyələşdirməyə başladılar. Bu proqramlara kiçik çörək bişirmə sexlərindən və avtomobil təmiri emalatxanalarından tutmuş qadın koorperativlərinə qədər bir sıra kiçik müəssisələrə kömək etdilər. O dövrdə bank sektorundan kənarda kredit proqramlarına dair müvafiq qanunvericilik olmadığından mikro-kredit proqramlarının dairəsi və səmərəsi zəif idi. Köçkünlərin yaşayışı əsasən hökumət tərəfindən ayrılan müavinət və təqaüdlərdən və beynəxalq humanitar təşkilatların göndərdiyi ərzaq yardımlarından asılı olmuşdur. Bu müavinətlər böyük olmasa da, köçkün ailələrin büdcəsinin bir hissəsini təşkil edirdi və ailələrə xeyli kömək edirdi.




ÜƏP-nin ərzaq payı alan kənd köçkün ailələrin gəlir mənbələri:

Ümumdünya Ərzaq Proqramının sorğusu göstərirdi ki, Proqramın ərzaq paylarını alan bütün köçkünlər çörək müavinətini, təxminən yarısı isə uşaq müavinətini yığıb saxlayırdı. Birlikdə bu müavinətlər Proqramın yardımını alan şəxslərin nağd pul və digər gəlirlərinin ümumi həcminin 18 faizini təşkil edib [14].

Sağlamlıq və Qidalanma: Məcburi köçkün və qaçqınların həyati məsələlərindən olan sağlamlıq vəziyyətləri o dövrdə sistematik olaraq öyrənilmişdir. Belə ki, Beynəlxalq Səhiyyə Təşkilatı, USİAD və UNİSEF tərəfindən 1996-cı ildə aparılmış tədqiqatın nəticələrinə görə qaçqın və məcburi köçkünlərin sağlamlıq vəziyyəti yerli əhalinin vəziyyətindən bir xeyli pisdir. Bu onların həyat standartlarının aşağı olması, onların daha pis qidalanması və içdikləri suyun keyfiyyətsiz olmasından qaynaqlanırdı. Tədqiqatın nəticəsi göstərdi ki, 5 yaşa qədərki məcburi köçkün uşaqları

yerli yaşıdlarına nisbətən daha tez ishala tutulur. Belə ki, xəstlənmə halları müvafiq olaraq 23.4% və 15.2%-dir. Yerli əhaliyə nisbətən köçkünlər arasında ur(zob) xəstəliyi daha geniş yayılıb (23% və 9.8%). Bu xəstəliyin geniş yayılması ciddi problemlərdən idi. Çünki zehni cəhətdən geri qalmanın əsas səbəblərindən olan yod çatışmazlığından xəbər verir.

1996-cı ilin tədqiqatının nəticələrinə görə, köçkünlərin azyaşlı uşaqları xronniki olaraq kifayət dərəcədə qidalanmır. Bu uşaqların 5 yaşa qədər olanları arasında geri qalma riski böyükdür. Hətta UMCOR (1997) və World Vision (1998) təşkilatlarının apardığı tədqiqatların nəticələri, köçkünlərin qidalanma çatışmazlığı ilə bağlı narahatlığını daha gücləndirirdi. UMCOR-un tədqiqatı, müayinə edilmiş (hamilə olmayan) qadınların 79 faizində qanazlığının (anemiyanın) olduğunu göstərir. Həmçinin World Vision təşkilatı tərəfindən aparəlmış tədqiqatın nəticəsi olaraq bildirilmişdir ki, müayinə edilmiş uşaqların 30 faizi kifayət dərəcədə qidalanmır. Buna görə də bir sıra beynəlxalq təşkilatlar bunun qarşısını almaq və aclığı müəyyən dərəcədə də olsa, dayandırmaq məqsədi ilə gərgin iş aparmışdır. Azərbaycana göstərilən ərzaq yardımının ən böyük hissəsini əlaqələndirən Ümumdünya Ərzaq Proqramı kənd yerlərində məskunlaşmış 200 min məcburi köçkünə enerjiyə olan minimal tələbatlarının yarısını ödəyən ərzaq səbəti təqdim etmişdir.

Köçkünlərin digər bir problemi də uşaq ölümləri və 50 yaşdan yuxarı insanlar arasındakı ölümlərin artmasıdır. Məcburi köçkünlərin böyük bir hissəsi münaqişədən əvvəlki dövrdə öz doğma yurdları olan yaylaqlardan və kənd həyatından böyük şəhər və qəsəbələrdə çətin şəraitdə yaşamaq məcburiyyətində qaldılar. Onların həm müxtəlif cür sosial və psixoloji təzyiqlər altında olmaları, həm də yeni şəraitə uyğunlaşa bilmədikləri üçün müəyyən yaş qrupunda olanlar həyatlarını itirməyə başladılar [11].

Münaqişədən zərər çəkənlərin psixoloji vəziyyəti. Qarabağ münaqişəsi nəticəsimdə münaqişə qurbanlarının psixoloji vəziyyətinin araşdırılması olduqca vacib məsələlərdən biridir. Burda insanlar bir çox faktorlu zorakılığa məruz qalıblar. Əslində zorakılığı bir neçə şəkildə təsnifləndirmək olar. Siyasət alimi Fred R.fon der Meden zorakılığı 5 ümumi növünü müəyyələşdirir. Primordial (əzəli) zorakılıq etnik, milli və ya dini qruplar kimi insanların içində doğulduğu təməl icmalar arasındakı münaqişədən yaranır. Məsələn, İraqda sünnilər və şiələr, Ukraynada ruslar, Tibetdə tibetlilər və çinlilər arasındakı döyüşlər primordial zorakılığın nümunələridir. Bu, Kvebek, İspaniyanın Bask ölkəsi, Şimali İrlandiya kimi protestant və katoliklərin, demək olar ki, tayfa düşmənçiliyi etdiyi inkişaf etmiş ölkələrdə də ola bilər.

Separatçı zorakılıq bəzən primordial münaqişənin böyüməsi nəticəsində müstəqil məqsəd kimi müəyyənləşdirir. Şri-Lankanın şimalındakı tamillər 1983-cü ildən 2009-cu ilə qədər ayrılmaq üçün döyüşdülər, 60 mindən çox insan öldürüldü. 1960-cı illərdə iqbolar Nigeriyadan ayrılıb öz yeni dövlətləri Biafranı qurmağa çalışırdılar, ancaq onlar uzun və məsrəfli bir müharibədə məğlub edildilər.

İnqilabi zorakılıq mövcud rejimi devirmək və ya dəyişdirmək məqsədi daşıyır. Eləcə də, çevrilişlər nəticəsindəki zorakılığa haqq qazandırmaq məqsədi ilə bildirilir ki, o, adətən inqilaba, korrupsiyaya və xaosa qarşı yönəlir [12, s. 339].

Göründüyü kimi bütün bunlar nəticəsində zorakılıq baş verir. Bu baş verən zorakılıqları təhlil etsək, onların hər birinin məqsəd və hədəfləri fərqlənə bilər. Ancaq nəticələri eynidir. Insanalara sosial, iqtisadi, psixoloji travmalar yaşadır. Dağlıq Qarabağ münaqişəsinin də bu zorakıları doğurduğu ortadadır. Bu zorakılığı həm primordial, həm də separatçı növlərinə aid etmək olar. Çünki savaş tərəflər arasında etnik toqquşmalar baş vermişdir. Ermənilərin həyata keçirmək istədikləri azərbaycanlıları etnik təmizləmə siyasəti buna sübutdur. Onlar öz niyyətlərini həyata keçirmək üçün azərbaycanlılara qarşı kütləvi qırğınlara başladılar. Buna ən bariz örnək Xocalıda baş verən hadisələrdir.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə XX yüz ilin II yarısında Azərbaycan türklərinin tarixində ən böyük faciə Xocalı qırğını baş verdi. Həmin gecə saat 23:00-da ermənilər üç istiqamətdən Xocalıya hücum etdi. Bu hücumda Ermənistan Respublikası Silahlı Qüvvələrinin tabeliyində olan silahlı qruplar, muzdlu əsgərlər, özünü Artsax Xalq Azadlıq Ordusu adlandıran

Dağlıq Qarabağın erməni bölmələri və 366-cı rus hərbi alayı iştirak etmişdi. Bu hücumda Xankəndi tərəfdən öndə olan 366-cı alayın hərbi texnikası, onların ardınca rus-erməni silahlı dəstələri, Əsgəran istiqamətindən isə mindən çox silahlı quldurlar daha çox fəallıq göstərirdilər [5, s. 29].

Xocalı Soyqırımını törətməkdə ermənilərin əsas məqsədlərindən biri əhaliyə psixoloji olaraq qorxu hissini vermək idi. Bunu erməni komandiri Serj Sarkisyan da etiraf etmişdir. Erməni komandan Serj Sarkisyana Xocalının işğalı barədə sual verəndə, o, ehtiyatla cavab verdi ki: "Biz bu barədə ucadan danışmamağı üstün tuturuq." Qurbanların sayına gəlincə, onun sözlərinə görə, "çox şey şişirdilib", qaçan azərbaycanlılar da müqavimət göstərib. Baş vermiş hadisələr barədə Sarkisyan daha səmimi və sərt danışdı: "Lakin, zənnimcə, əsas məsələ tamam başqadır. Xocalıya qədər azərbaycanlılar hesab edirdilər ki, bizimlə oyun oynaya bilərlər, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu (stereotipi) qıra bildik. Bax bu da baş verdi. Həmçinin nəzərə almaq lazımdır ki, həmin cavanların arasında Bakı və Sumqayıtı qaçıb tərk etmiş insanlar da var idi." Sarkisyanm mövqeyi Qarabağ müharibəsinin ən qəddar qırğına digər tərəfdən baxmağa məcbur edir. İstisna deyil ki, bu kütləvi qırğın qismən də olsa, əvvəlcədən düşünülmüş qorxutma aktı idi [13, s. 201].

Burdan da aydın olur olur ki, ermənilər azərbaycanlılara qarşı təkcə fiziki terror yox, həm də psixoloji terror törətmişlər. Bunlar da öz növbəsidə posttravmatik stress pozuntusunun baş verməsinə səbəb olur. Posttrammatik stres pozuntusunun əlamətlərini 4 qrupa bölmək olar.

1. Həmin o dəhşətli hadisə ilə bağlı zorla gələn düşüncələr aiddi. Qəfildən hanısa fikir həmin xatirəni canlandırır. O insan stress keçirdir, həyacanlanır. Bəzən daha kəskin forması olur ki, buna da “flaşbacklər” deyirlər. Həmin hadisəni sanki indi imiş kimi yaşayır. Sanki onlar özlərini hal-hazırda olduqları sakit bir mühitdə yox, dəhşətli döyüşün ortasında hiss edirlər.

2. Yayınma, qaçış. Beynimiz eyni anda baş verən 2 hadisəni birləşdirir. Dəhşətli hadisə ilə başqa hadisə arasında bağ qura bilər. İnsan o hadisədən sonra o hadisəni xatırladacaq nəsnələrdən qorxur. Həmin obyektlərdən qaçmağa çalışır.

3. İnsanın idrakında və əhvalında baş verən neqativ dəyişikliklər aid edilir. İnsan özü və başqaları, dünya haqqında mənfi fikirdə olur. Özünü daim günahlandırır. Mənim ucbatımdan oldu, mənə görə oldu və s. PTSP olan insanlar yaddaşında problemlər ola bilər.

4. Hiper-oyanıqlıq. İnsan daha reaktiv olur. Ani bir şeydən qıcıqlanır, hər hansı bir kiçik səsə səksənə bilər. Hansına nəsnə evdə yerə düşsə, kiçik miqyaslı səslər partlayış səslərini andırsa, o zaman o insanda reaktivlik baş verə bilər. Yəni özünü yenidən müharibə meydanında hiss edə bilər [15].

Xocalıdan sağ qurtulanların və münaqişənin digər zərər çəkənlərinin hər biri bu psixoloji pozuntunun hər birini yaşayıblar. Xocalı sakinlərindən olan Südabə Cavadova o günü belə xatırlayır: “Faciədən sonra hər gün Ağdama meyit gətirirdilər. Hamısını bir-bir gözdən keçirirdik. Araşdırırdıq ki, görək bizimkilərin də meyiti gəlibmi. Elə olurdu ki, bir gündə 20-30 cəsəd gətirilirdi. Onlar elə günə salınmışdılar ki, tanımaq qeyri-mümkün idi. Gələn girovlara baxırdıq, şükür edirdik ki, uşaqlarımız nə yaxşı girovluqda qalmayıblar, ölmək bundan yaxşıdır. Meyitlər polad məftillə bir-birinə bağlanılmışdı. Biz bunların hamısını öz gözlərimizlə görürdük, ciyərimiz yanırdı. Amma baxmaq məcburiyyətində idik. Doğmalarımızı axtarırdıq. Düz mart ayının axırına qədər meşədən meyit gətirildi. Rəhmatlik atamla birgə onların hamıs yoxlayırdıq, üzlərinə, bədənlərinə baxırdıq. Həmin vaxt çöllərdə qaldıq. Başımızı salmağa bir daxma da yox idi. Sonradan Bərdə rayonda bir yataqxanaya sığındıq” [1, s.57].

Yekun olaraq qeyd edək ki, Birinci Qarabağ müharibəsinin əhaliyə təsirləri olduqca böyük oldu. Sosial, siyasi, iqtisadi, ictimai təsirlərdən əlavə olaraq psixoloji təsirlər əhalinin həyat və yaşayışına böyük zərbələr vurdu. Bu təsirləri aşağıdakı kimi kateqoriyalaşdırmaq olar.

Siyasi təsirlər:

- Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına hücum olundu.
- Regionda qanlı müharibə başladı və sabitlik pozuldu.
- Azərbaycan Respublikasının suverənliyi və ərazi bütövlüyü pozuldu.

- Ölkəmizin 20 faizə qədər ərazisi işğal olundu.
- Mərkəzi hakimiyyətin formalaşması prosesinə ağır təsirlər göstərdi.

Sosial təsirlər:

- Ermənistan SSR-də yaşayan azərbaycanlılar öz doğma yurdlarından qaçqın halına salındı.
- Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlardan insanlar məcburi kökçün vəziyyətinə düşdü.
- Böyük qaçqın və məcburi köçkün özlərindən qovuldu.
- Qaçqın və məcburi köçkünlərin sığınacaqlarda yerləşdirilməsi üçün böyük çadır şəhərçikləri və daha sonra binalar tikildi.
- İşsizliyin ölkə üzrə miqyası artdı.
- Yurdlarından digərgin düşənlərin sağlamlıq, səhiyyə və qida problemləri yarandı.
- Ümumi olaraq sosial vəziyyət gərginləşdi.

İqtisadi təsirləri:

- Müharibə ölkənin iqtisadi həyatına böyük zərbə vurdu.
- Fərdi evləri, ictimai binalar, səhiyyə və mədəniyyət ocaqları, şəhər və qəsəbələr müharibə nəticəsində dağıdıldı.
- Yollar və infrastruktur sıradan çıxdı.
- Təbii resurslarla zəngin olan ərazilər işğal olundu.
- Qeyri-sabitliyə görə iri korparasiyalar ölkəyə yatırım etməkdən çəkindi.
- Ekologiyaya ziyan vurularaq meşə sahələri, 2 milli park və 4 milli qoruq, 200 təbii mədən, fauna və geoloji abidələr erməni silahlı qüvvələri tərəfindən nəzarət altına alındı.
- 5 su anbarı, 7296 hidravlik qurğu, 36 nasos stansiyası, 26 ədəd suvarma və su təchizatı sistemləri dağıdıldı.

Psixoloji təsirləri:

- Savaş zamanı insanlar fiziki və cinsi zorakılığa məruz qaldılar.
- Bu da öz növbəsində psixoloji zorakılığı öz ilə gətirdi.
- Xocalı faciəsi isə Azərbaycan xalqına ağır travma yaşatdı.
- Ermənilərin dinc əhalini qorxutmaq istəyi psixoloji təsirləri daha da artırırdı.
- İnsanlar post-müharibə dövründə posttravmatik stress pozuntusu yaşadılar.
- Əhalidə natamamlıq kompleksi yaranmağa başladı.
- Faciədən qurtulan insanlar xeyli müddət onun psixoloji təsirindən çıxa bilmədi.

**Nəticə**

Bəşər tarixi boyu münaqişə və müharibələr insanların həyatında əhəmiyyətli hadisələrdən olmuşdur. Təbii ki, bu hadisələrdə qalib və məğlub anlayışları da özünü göstərmiş, qabil tərəf müharibənin gətirdiyi qənimətlər hesabına öz yaralarını sarmağa çalışmış və psixoloji üstünlüyü ələ almışdır. Məğlub tərəf isə müharibənin təsirlərindən olduqca böyük zərbələr alaraq həm ərazi, həm iqtisadi, həm də psixoloji itkilərə məruz qalmışdır. Beynəlxalq münaqişələr təkcə dövlətlər və onların rəhbərləri arasında toqquşma deyil, həm də getdikcə daha çox etnik qruplar arasındakı beynəlxalq sərhədləri keçən zorakılıq nəticəsində artır. Güclü münaqişələrə əhəmiyyətli təsirə malik amil kimi qruplararası fərqlərin və bir araya sığmayan qrup mənsubiyyətlərinin vacibliyi şübhə altına alan tədqiqatçılar var. Münaqişənin struktur izahları ətraf mühitin və davranışın əlamətləri arasında vasitəçilik edən proseslərə ümumiyyətlə az diqqət yetirilir. Diqqət daha çox qıt ehtiyatlara və resurslara da cəmlənə bilər. Beynəlxalq münaqişələrin konstruktivist izahları ilə psixoloji təhlilləri arasında daha böyük təbii uyarlıq var. Rasional seçimin konstruktivistlərin dialoqu sosial psixologiya ilədir. Konstruktivistlər seçimin rəhbərlərin mənsubiyyəti - onların öz dövlətlərini və ya qruplarını necə müəyyən etməsi, kim olması və başqaları ilə nisbətdə özlərini necə görməsi ilə dərindən məlumatlandırılan anlyışını inkişaf etdirirlər. Konstruktivistlər kollektiv mənsubiyyəti təsis edən kollektiv və ya bölüşdürülən (ümumi) inamları, norma yaradılması və ona riayət edilməsi proseslərini daxil etmək üçün beynəlxalq münaqişələrin psixoloji izahlarının adətən rəhbərlərin

inamları, təsəvvürləri (obrazları) mühakimələrini mərkəzə qoyan repertuarını genişləndirdilər. Realist və liberallardan fərqli olaraq konstruktivistlər mənsubiyyət və maraqları verilən (əzəli) kimi deyil, daha çox özgələr ilə qarşılıqlı təsir nəticəsində yarandığını müdafiə edirlər. Bütün bu elmi izahlarda münaqişələrin psixologiyasını anlamağa imkan verir. Ona görə də bilmək lazım idi ki, Birinci Qarabağ müharibəsi son deyil. Biz məğlub tərəf olmayacayıq. Tarix isə bunu sübut etdi. Vətən Müharibəsində itirdiklərimizi geri qazana bildik.

**İstifadə edilmiş ədəbiyyat**

1.“Xocalı Şahidləri danışır”, “Azərbaycan” qəzeti, Bakı, 2018

2.Amnesty International. // [Elektron resurs]. URL: https://www.amnesty.org.tr/. Müraciət edilib: 10.02.2023

3.Azərbaycan Respublikasında İnsan inkişafı haqqında hesabat, 1999-cu il,. [Elektron resurs]. URL:https://www.azstat.org/Kitweb/zipfiles/00282.pdf Müraciət edilib: 10.02.2023

4.Azərbaycan Respublikasının Prezidentinin veb-saytı, “Ermənistan-Azərbaycan münaqişəsi”. // [Elektron resurs]. URL: https://president.az/az/pages/view/azerbaijan/karabakh Müraciət edilib: 12.02.2023

1. Boran Ə. Xocalı Soyqırımı: Səbəbləri, həyata keçirilmə üsulları vı nəticələri. Bakı: Azərnəşriyyat, 2014, 224s.
2. Əfəndiyev M. Siyasi Elmin Əsasları. Bakı: Siyasət, 2004, 604s.
3. Həsənov Ə. Azərbaycanın Geosiyasəti. Bakı: Zərdabi LTD” MMC, 2015. -1056 s.
4. İnternal Displacement Monitoring Center, “Azerbaijan: After Some 20 years, İDPs Still Face Barriers to Self-Reliance”, 10 December 2010
5. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi // [Elektron resurs]. URL:http://idp.gov.az/az/content/1/parent/1 Müraciət edilib: 10.03.2023
6. Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında, Azərbaycan Respublikasinin Qanunu. // [Elektron resurs]. URL: http://idp.gov.az/az/law/92/parent/15, Bakı şəhəri, 21 may 1999-cu il, № 669-IQ Müraciət edilib: 9.03.2023
7. Osman Ö., Hüseyin V. Dağlık Karabağ Göçmenlerinin Sosyo-Ekonomik Sorunları. // Bilig Güz / 2009, Sayı 51: 139-170
8. Rozkin, Kord, Mideyros, Cons. Siyasət Elminə Giriş. Bakı:Teas PRESSı, 2019 – 416 s.
9. Tomas de V. Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında. Bakı: İlay M MC. 2008. 344 səh.
10. Ümumdünya Ərzaq Proqramı, 1999
11. Youtube platforması, “Əkinçi” kanalı, “Hərbçilərin post-müharibə dövründə psixoloji vəziyyəti” | Rövşən Süleymanov. // [Elektron resurs]. URL: https://youtu.be/6_rvsQKXYSM Müraciət edilib: 10.02.2023
12. Zamanov O. Müharibə, onun mənşəyi və öyrənilməsi (Tarixşünaslıq və mənbəşünaslıq). // Azərbaycan Areologiyası. 2017, Cild 20, № 1, s. 17-40

**Humbat ALIYEV**

**THE BEGINNING OF THE FIRST KARABAKH WAR AND ITS IMPACT ON THE SITUATION OF THE FORCIBLY DISPLACED POPULATION**

**Summary**

In this article, the beginning of the First Karabakh war and the political, economic, social and psychological damage it caused to the population were investigated. The types of conflicts and violence arising during conflicts were also considered. The situation of the refugee and internally displaced population in the post-war period, the support of government and international organizations, and the surveys and researches carried out by them, have been reviewed through numerous sources. Within the framework of the research, the damages to the Republic of

Azerbaijan and its people were combined into several categories and analyzed comparatively. The opinions and theses of international scientists about conflicts and wars were also reviewed.

**Keywords:** *Karabakh, War, Social-Psychological effects, Refugee, IDP*

**Гумбат АЛИЕВ**

**НАЧАЛО ПЕРВОЙ КАРАБАХСКОЙ ВОЙНЫ И ЕЁ ВЛИЯНИЕ НА СОСТОЯНИЕ ВЫНУЖДЕННЫХ ПЕРЕСЕЛЕНЦЕВ**

**Резюме**

В данной статье исследовано начало Первой карабахской войны и нанесенный ею политический, экономический, социальный и психологический ущерб населению. Также были рассмотрены виды конфликтов и насилия, возникающие во время конфликтов. Положение беженцев и вынужденных переселенцев в послевоенный период, поддержка правительства и международных организаций, проведенные ими опросы и исследования рассмотрены в многочисленных источниках. В рамках исследования ущерб, нанесенный Азербайджанской Республике и ее народу, был объединен в несколько категорий и проанализирован сравнительно. Также были рассмотрены мнения и тезисы зарубежных ученых о конфликтах и войнах.

**Ключевые слова:** *Карабах, война, социально-психологические последствия, беженец, вынужденный переселенец.*

**Rəyçi: s.e.d., professor Rafail HÜSEYNOV**

UOT 364

**Leyla İSMAYILOVA***

# DÖVLƏTİN SOSİAL FƏALİYYƏTİNDƏ PENSİYA TƏMİNATININ YERİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 17 fevral 2023; çapa qəbul edilmişdir: 20 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 17, 2023; accepted for publication: 20 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalə belə bir postulata əsaslanır ki, hər bir dövlətin diqqət mərkəzində ölkə əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına, yaşayış minimumunun təmin edilməsinə yönəlmiş sistem formalasdırmaq durur. Bu məqsədlə dövlət müvafiq sosial siyasət həyata keçirir. Həmin siyasət cəmiyyətin həyat fəaliyyətindəki məhdudiyyətlərin aradan qaldırılmasına, layiqli həyat səviyyəsinin təmin edilməsinə nail olmaq üçün cəmiyyətdə sosial-iqtisadi tarazlığın təmin edilməsinə nail olmağa yönəldilmiş tədbirlər sistemi kimi səciyyələndirilir. Müvafiq olaraq, sosial müdafiə sistemi, sosial xidmət, sosial müavinət, pensiya təminatı, pensiya hüququ və s. anlayışlar dövlətin sosial siyasətinin mühüm aspektləri kimi araşdırılır. Məqalədə Azərbaycan Respublikasında pensiya təminatı və bu sahədə aparılan ardıcıl islahatlar ətraflı təhlil edilir, göstərilir ki, dövlətimizin qanunverici və icraedici orqanları bu məsələləri özlərinin sosial siyasətində başlıca prioritet hesab edirlər.

**Açar sözlər:** *dövlətin sosial siyasəti, sosial müdafiə sistemi, sosial xidmət, sosial müavinət, pensiya təminatı, pensiya hüququ, Azərbaycan Respublikasında pensiya islahatları*

## Giriş

Cəmiyyətin sosial strukturuna daxil olan bütün ictimai təbəqələrin həyat şəraiti və fəaliyyətinin yaxşılaşdırılması, o cümlədən ahıl nəslin, ümumiyyətlə, yardıma ehtiyacı olan əhali kütləsinin yaşayış minimumunun təmin edilməsi müasir demokratik dövlətin daxili siyasətinin prioritet vəzifələrindəndir. Bu məqsədlə dövlət müvafiq ***sosial siyasət*** həyata keçirir.

Dövlətin sosial siyasəti ölkə əhalisinin həyat fəaliyyətindəki məhdudiyyətlərin aradan qaldırılmasına, layiqli həyat səviyyəsinin təmin edilməsinə nail olmaq üçün dayanıqlı sosial-iqtisadi inkişafı və ictimai tarazlığı təmin etməyə yönəldilmiş tədbirlər sistemidir. Sosial siyasətində dövlət əhalinin bütün təbəqələrinin maraq və tələbatlarını nəzərə alır. Bu tələb ödənilmədikdə dövlətin həyata keçirdiyi tədbirlər kifayət qədər səmərəli olmur və sosial-iqtisadi inkişafda davamlılıq təmin edilmir. Odur ki, dövlət özünün sosial siyasətində əhalinin sosial müdafiəsinin sistemli halda təmin edilməsi məsələlərini daim diqqət mərkəzində saxlayır.

**Sosial müdafiə sistemi: üsulları, təminat formaları**

***Sosial müdafiə sistemi*** dövlətin əhalinin sosial problemlərini aradan qaldırmaq və minimum yaşayış gəlirini təmin etmək üçün gördüyü tədbirlər proqram-konsepsiyasıdır, əhalinin rifah səviyyəsini müəyyən edən başlıca sənəddir. Sosial müdafiə sistemini əhalinin mövcud problemlərini həll etməyə yönəldilmiş sosial və iqtisadi tədbirlər toplusu kimi də səciyyələndirə bilərik. Sosial müdafiə sisteminə nə qədər çox diqqət yetirilərək dəyişən şəraitə zamanında uyğunlaşdırılırsa, əhalinin sosial problemləri də bir o qədər tez həllini tapır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistr. Bakı, Azərbaycan*
*e-mail*: teranepiriyeva@icloud.com

Sosial müdafiə siyasətinin qarşıya qoyduğu məqsədlərin uğurla həyata keçirilməsində onun icrasının ***üsulları*** müstəsna əhəmiyyət kəsb edir. Burada seçim əhalinin sosial müdafiəsinin istiqamətləri və ya sahələri ilə bağlıdır. Bura aiddir:
-əhaliyə sosial xidmətlərin göstərilməsi;
-əlillərin və sosial müdafiəyə ehyiyacı olan digər kateqoriyalı şəxslərin sosial müdafiəsi;
-sosial müavinət, sosial yardım və kompensasiyaların ödənməsi;
-pensiya təminatı [15, s.6].

Sosial müdafiə tədbirlərinin əsas diqqət mərkəzində olan bu həssas qruplara eyni zamanda dövlət tərəfindən sosial xidmət də göstərilir. ***Sosial xidmət*** dedikdə? dövlət tərəfindən təyin edilmiş şəxslərin onların məişətdəki ehtiyaclarının ödənilməsinə köməyi nəzərdə tutulur.

Dövlətin sosial fəaliyyətində ***pensiya təminatı sistemi*** xüsusi yer tutur. Çünki pensiya təminatı əhalinin ən həssas qrupunu əhatə edir və onların problemlərinin həlli sosial vəziyyətlərinin yaxşılaşdırılmasına kömək edir. Həm də pensiya təminatı daha geniş əhali kütləsini əhatə etdiyinə görə daim diqqət mərkəzində saxlanılır.

Sosial təminatın bir növü olan pensiya qanunla nəzərdə tutulan formada təyin edilir, müvafiq qanunvericiliyə əsasən tənzimlənir və çoxçalarlılığı ilə seçilir. Mahiyyətinə gəldikdə, pensiya əhalinin müəyyən yaş qrupuna, habelə müxtəlif səbəblərə görə təyin edilən dövlət ödənişləridir.

Ümumiyyətlə, *"pensiya"* anlayışının etimologiyasına nəzər salsaq, onun latın dilindəki "*pensio*" sözündən olub, hərfi mənasının "ödəmə" demək olduğunu görərik [12, s.42]. İzahlı lüğətlərdə pensiya qanunla müəyyən edilən hallarda əlilliyə, qocalığa və ya sağlamlıq imkanları məhdud vətəndaşlara dövlət tərəfindən verilən pul yardımı kimi izah edilir. Bunula belə, elmi ədəbiyyatda kifayət qədər geniş araşdırılan pensiya anlayışına müxtəlif yanaşmalar mövcuddur. Belə bir yanaşma üstünlük təşkil edir ki, pensiya əmək qabiliyyətini itirən yaşlılara, əlillərə və ailə başçısını itirənlərə yaşaya bilməsi üçün dövlət və qeyri-dövlət təşkilatları tərəfindən verilən ödəmələrdir [9, s.43].

Deyilənləri ümumiləşdirsək, belə bir nəticəyə gəlmək olar ki, pensiya dövlətin öz tələbatlarını ödəyə bilməyən əhali qruplarının minimum yaşayış imkanlarını yaxşılaşdırmağa yönələn sosial fəaliyyətidir və buna görə cəmiyyətdə ictimai tarazlığın qorunub saxlanması baxımından xüsusi əhəmiyyətə malikdir.

Dövlətin həyata keçirdiyi sosial təminat sisteminin əsas hissəsini təşkil edən pensiya sisteminin özünəməxsus *hüquqi* aspekti, mahiyyəti və xarakteristikası var. Onun bu aspektindən bəhs edərkən xüsusi qeyd etmək lazımdır ki, pensiya hüquqi münasibətlər çərçivəsində fəaliyyət göstərən bir sistemdir. Pensiya hüquq münasibətləri bütün pensiya sistemini və onun həyata keçirilmə prosesini tənzimləyir. Mayıs Əliyevin yanaşmasına görə, *pensiya hüquq münasibətləri* anlayışı altında qanunun müəyyən etdiyi yaş həddinə çatdıqda və ya pensiyanın hər hansı bir növünü əldə etmək statusu yarandıqda həmin şəxslərlə sosial təminat orqanları arasında pensiyaların təyin edilməsi zamanı yaranan və sosial təminat hüquq normaları ilə tənzim olunan ictimai münasibətlər başa düşülür [9, s.172].

Pensiya hüququ qanunda müəyyən edilən şərtlərdən hər hansı biri olduqda reallaşır:
-yaşa görə pensiya almaq hüququ yarandıqda;
-həssas qruplara aid edilən, sağlamlıq imkanları məhdud şəxs statusu aldıqda (əlilliyə görə);
-ailə başçısını itirdikdə;
-müəyyən müddət peşə fəaliyyəti ilə məşğul olaraq qanunla müəyyən edilən iş stajı əldə etdikdə.

Vətəndaşlarla sosial təminat orqanları arasında pensiya hüquqi münasibətləri qanunla müəyyən edilən konkret vaxtadək davam edir və pensiyanın növünə görə dəyişir. Məsələn, əgər hər hansı bir şəxs müvəqqəti olaraq əmək qabiliyyətini itirdiyinə görə əlil statusu ilə pensiya alırsa, bu müddət başa çatdıqdan sonra həmin şəxsin pensiya almaq statusu qüvvədən düşmüş olur [ 9, s.172-173].

Pensiya sistemi özü çox geniş anlayışdır və qanuna əsasən sosial sığorta prinsipi əsasında formalaşan pensiya sistemi xarakterik xüsusiyyətlərinə görə bir neçə qrupa ayrılır. Burada iki əsas

qolu fərqləndirmək vacibdir: əmək pensiyaları və sosial pensiyalar. Əmək pensiyalarına bunlar daxildir:

-yaşa görə,
-əlilliyə görə,
-ailə başçısını itirməyə görə,
-xidmət illərinə görə.

Xidmət illərinə görə pensiya əmək pensiyalarına daxil olduğu halda sosial pensiya qrupuna aid edilmir [9, s.43-45].

**Azərbaycan Respublikasında sosial müdafiə sisteminin formalaşması və inkişafı**

Azərbaycanda sosial müdafiə sistemi, onun əsas tərkib hissəsi kimi pensiya təminatı tədrici təkamül yolu keçmiş, müxtəlif dəyişikliklərə məruz qalmışdır: baza hissəsi, pensiya hüququ zaman keçdikcə dəyişdirilmiş, pensiya yaşı artırılmışdır. Bunula belə, pensiya sisteminin müstəqillikdən əvvəlki dövrünə nəzər salsaq görərik ki, onun mahiyyəti özünü hazırda daha çox doğruldur. Belə ki, sovet hakimiyyəti dövründə pensiya almaq imkanları olduqca məhdud idi. Dövlət öz mənafeyinə uyğun gələn pensiyanı əsasən müəyyən əhali kateqoriyasına şamil edirdi. Həm də sovet hakimiyyəti dövründə “pensiya” anlayışının yerində daha çox “təqaüd” terminindən istifadə edilirdi. Başlıcası isə, mövcud sistemə əsasən dövlət tərəfindən əsasən təqaüd (pensiya) xüsusi statusa malik şəxslərə verildiyi halda, 1935-ci ildən etibarən pensiya almaq hüququ əldə edən kolxozçulara pensiyanı dövlət deyil, onların işlədiyi kolxoz verirdi.

Pensiya sahəsindəki bu qeyri-stabillik balanslı olmayan xərclərin yaranmasına gətirib çıxarırdı. Buna görə də ölkəmiz müstəqillik əldə etdikdən sonra pensiya sahəsində disbalansı aradan qaldırmağa cəhd göstərildi. İlk növbədə sovet hakimiyyəti dövründən qalan sosial sığortaya əsaslanmayan pensiya təminat sistemi dəyişdirildi. Nəzərə alsaq ki, müstəqilik əldə etdikdən sonra ölkənin bütün iqtisadi, siyasi və sosial sferalarında əsaslı dəyişikliklər baş verdi, bazar iqtisadiyyatına keçildi, pensiya təminat sisteminin yeni şəraitdə artıq özünü doğrultmadığı aydın oldu. Buna görə də dövlət sosial fəaliyyətində əsaslı dəyişikliklər edərək, pensiya təminat sisteminə dair bir sıra yeni qərarlar qəbul etdi. Həm də burada təkcə keçmiş təcrübəyə tənqidi yanaşmaqla kifayətlənməyib, beynəlxalq təcrübələrdən də faydalandı.

Hər bir demokratik dövlətdə olduğu kimi, ölkə vətəndaşlarını əsas hüquq və azadlıqlarının əsaslı təməli ilk növbədə dövlətin ali qanununda – konstitusiyasında təsbit olunmalıdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədri olduğu komissiya tərəfindən hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilən Azrbaycan Respublikasının Konstitusiyası belə bir təməl rolunu oynayır. Konstitusiyanın “Sosial inkişaf və dövlət” adı ilə verilmiş 16-cı maddəsinin 1-ci bəndində deyilir: “Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır”. Bu mühüm sənədin “Sosial təminat hüququ” barədə 38-ci maddəsində ölkə vətəndaşlarının sosial təminat hüququ təsbit olunaraq göstərilir: “Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir [6].

Bilavasitə pensiya islahatı sahəsində ilk əsaslı addım 2001-ci il iyulun 17-də atılmış, ”Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası” qəbul edilmişdir. 2001-2005-ci illərdə icrası nəzərdə tutulan bu sənədin “Giriş”ində 1995-2000-ci illərdə işləyənlərin orta aylıq nominal əmək haqqının 3 dəfə, orta aylıq pensiyanın məbləğinin 4 dəfə artdığı qeyd olunsa da, vəziyyətin qaneedici olmadığı göstərilirdi: “Bununla yanaşı əmək haqqının və pensiyanın orta aylıq məbləği hələlik əhalinin tələbatını tam həcmdə ödəmək səviyyəsində deyildir. Eyni zamanda pensiya sisteminin idarə olunması, pensiyaların müəyyən edilməsi və əhaliyə verilməsi mexanizmi günün tələblərinə cavab vermir. Bu baxımdan vətəndaşların pensiya təminatının onların minimum həyat səviyyəsinin ödənilməsi səviyyəsinə çatdırılması və bütövlükdə pensiya işinin müasir tələblərə uyğun qurulması ölkədə pensiya islahatının aparılmasını zəruri edir” [3].

Konvensiyada həyata keçirilməsi planlaşdırılan pensiya islahatlarının prinsipləri sırasında vətəndaşların Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş sosial təminat hüququnun yerinə yetirilməsi, onların minimum yaşayış səviyyəsini təmin edən pensiyaların müəyyən edilməsi vurğulanırdı. Bu sənədə əsasən sovet hakimiyyəti dövründən qalmış pensiya yığımları sığorta-pensiya sistemi ilə əvəz edildi, hər kəsin işlədiyi müddət ərzində dövlətə vergi olaraq ödədiyi məbləğin onun fərdi uçot hesabında toplanması qaydası tətbiq edildi. Belə hesab edilir ki, bu yenilik bazar iqtisadiyyatına keçmiş ölkəmizin sosial münasibətlər sisteminə müsbət təsir göstərəcək.

Əhalinin maddi tələbatları ilə minimum yaşayış gəliri arasında fərqi azaltmaq istiqamətində aparılan tədbirlər tədricən öz səmərəsini verməyə başlayırdı. Bu, ölkədə pensiya təminatının təkmilləşdirilməsinin davam etdirilməsinə imkan yaradırdı. 2006-ci il yanvarın 1-dən qüvvəyə minən "Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının qanunu" həmin istiqamətdə növbəti addım oldu [10].

Yeni qanuna əsasən ölkədə əmək pensiyalarının sosial sığorta prinsipi əsasında təyin edilməsinə başlandı. Bunun üçün ölkədə fərdi uçot tətbiq edilməklə işləyən vətəndaşları əhatə edən sosial sığorta-pensiya sisteminin təməli qoyuldu. Həm də vətəndaşların işlədikləri müddət və fərdi hesablarında toplanan kapitalın miqdarı barədə məlumatların Dövlət Sosial Müdafiə Fondunun məlumat bazasında elektron uçotu aparılmasına start verildi. Fərdi hesabda toplanan vəsaitin hər yeni ilin əvvəlində ötən ildə baş vermiş inflyasiyaya uyğun indeksləşdirilməsi yığılan məbləğin itkiyə məruz qalması riskini aradan qaldırır, bununla da dövlətin sosial təminat sisteminə vətəndaşların inamını artırır. Bu modelin uzunmüddətli uğurlu tətbiqi pensiya təminatı sistemində yeni inkişaf mərhələsinə yol açdı, tədricən həyata keçirildiyinə, insanların yeni mühitə tam inteqrasiyasını təmin etməklə aparıldığına görə mənfi təsiri olmadı.

Lakin həyat yerində saymır, yeni tələbatlar formalaşır. Bu isə pensiya təminatı sisteminin də yeni reallıqlara uyğunlaşdırılmasını tələb edir. Prezident İlham Əliyevin 2008-ci il dekabrın 30-da imzaladığı "2009-2015-ciillərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı" yeni çağırışlara daha bir cavab oldu. Bu yeni sənəddə qeyd edilirdi ki, 2006-cı ildən etibarən ölkəmizdə yeni, beynəlxalq təcrübədə özünü doğrultmuş üçpilləli struktura (baza, sığorta və yığım hissələrindən ibarət) əsaslanan əmək pensiyaları sisteminin tətbiqi sayəsində əldə olunmuş ilkin təcrübə yeni sistemin yüksək sosial səmərəliliyini göstərir və beləliklə də pensiya təminatında sığorta prinsiplərinə keçid təmin edilmişdir. Bununla yanaşı, sığorta-pensiya sisteminin dayanıqlı və müstəqil inkişafına nail olunması üçün əsas məqsəd və vəzifələrin, həyata keçiriləcək tədbirlərin müəyyənləşdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanırdı. "Dövlət Proqramında" yeni məqsəd və vəzifələrinin həyata keçirilməsinin əsas istiqamətləri belə göstərilirdi:

-- sığorta-pensiya sisteminin fəaliyyətinin aktual modellər əsasında təkmilləşdirilməsi;
-- məcburi dövlət sosial sığortası sahəsində fəaliyyətin təkmilləşdirilməsi;
-- əmək pensiyası təminatının təkmilləşdirilməsi;
-- dövlət sosial sığorta sistemində fərdi uçotun inkişafı;
-- sığorta-pensiya sistemində yığım komponentinin tətbiqi;
-- qeyri-dövlət pensiya institutlarının inkişafı [13].

Prezident İlham Əliyevin bundan cəmi on ay sonra 2009-cu il oktyabrın 27-də imzaladığı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasinin qanunu" bu sahədə növbəti addım oldu. 2010-cu il yanvarın 1-dən qüvvəyə minən bu qanuna görə hər il 6 ay artırılmaqla kişilər üçün pensiya yaşı 63, qadınlar üçün isə 60 yaş müəyyənləşdirildi. Bununla yanaşı, "Əmək pensiyaları haqqında" qanunun 8-ci maddəsi yeni redaksiyada verilərək, çoxuşaqlı qadınların, sağlamlıq imkanları məhdud uşağı olan anaların, uşaqlarını təkbaşına böyüdən ataların və qəyyumların əmək stajı hər uşağa görə bir il azaldılmaqla yaşa görə əmək pensiyası almaq hüququ təsbit edildi [11].

"Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsinə istinad edilməklə, yaş həddinə edilən növbəti dəyişikliyə əsasən bu həddin 2017-ci il iyulun 1-dən başlayaraq kişilər üçün 2021-ci il iyulun 1-dək, qadınlar üçün isə 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılaraq 65 yaşa çatdırılması nəzərdə tutulur. Göründüyü kimi, kişilər artıq 2021-ci ildə göstərilən həddə çatmışlar, qadınlar isə 2023- cü il iyunun 30-dək 63 yaşından pensiyaya çıxmaq hüququna malikdirlər. Bu istiqamətdə addımlar əhalinin sosial müdafiəsində sığorta sisteminin rolunun daha da gücləndirilməsi ilə əlaqələndirilir [16].

Prezident İlham Əliyevin 2018-ci il dekabrın 21-də təsdiq etdiyi "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun pensiya təyin edilməsi prosesinin maksimum asanlaşdırılmasına yönəldilmidir. 2019-cu il yanvarın 1-dən qüvvəyə minən dəyişikliyə əsasən, pensiyaların pensiya hüququ yaranan şəxsin heç bir müraciəti olmadan, sənəd təqdim etmədən və pensiya hüququ yaranan gün ərzində elektron qaydada təyin edilməsinə başlanılmışdır. Pensiya təyin olunandan sonra həmin şəxsə bu haqda, həmçinin pensiyanın məbləği, bank kartını əldə edəcəyi bankın filialı və müraciətin vaxtı barədə sms, e-mail və ya rəsmi məktubla məlumat verilir [16].

Bu yenilikdən məqsəd pensiyaçıların qanunla müəyyən edilmiş hüquqlarını daha rahat həyata keçirmələrinə şərait yaratmaqdır.

Dövlətin sosial fəaliyyətində ***əlilliyə və ailə başçısını itirməyə görə pensiya*** almaq hüququ da mühüm yer tutur. Müasir dövlətçilik ənənələrinə görə, insanların zəruri tələbatlarının ödənilməsi, ehtiyacı olan vətəndaşlara qanunların müəyyən etdiyi çərçivədə kömək göstərilməsi daim diqqət mərkəzindədir.

***Əlilliyə görə pensiya*** əsasən sağlamlıq imkanları məhdud olan şəxslər üçün təyin edilən dövlət ödənişləridir. Başvermə səbəbinə görə əlillik anadangəlmə ola bilər, hansısa bir xəstəlikdən sonra yaranar, yaxud müəyyən qəza nəticəsində baş verə bilər. Pensiya sistemi ilə bağlı qanunvericiliyə əsasən, əlilliyə görə pensiyalar onun yaranma səbəbi nəzərə alınmaqla daimi və ya müvəqqəti olur. Əmək qabiliyyətinin itirilmə dərəcəsinə görə qanunla təsdiq olunmuş formada əlilliyin müxtəlif dərəcələri təyin edilir.

Bəs, kim əlil hesab edilir? Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 29 avqust tarixli 99 nömrəli qərarı ilə təsdiq olunmuş "Əlilliyin müəyyən olunması meyarlarına dair" Əsasnamənin "Ümumi müddəalar" adlanan birinci bölməsində deyilirdi ki, "anadangəlmə, xəstəlikdən və ya xəsarətdən doğan əqli və ya fiziki qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs tibbi-sosial ekspert komissiyası tərəfindən ekspert müayinəsindən keçirildikdən sonra müvafiq rəy çıxarılması yolu ilə əlil sayılır. Bütün əlillərə qanunvericiliklə müəyyən olunmuş növdə sosial yardım göstərilir. Əlilliyə görə təqaüd (pensiya) ancaq əlillik müəyyən edildiyi hallarda təyin edilir. Əlilliyin ağırlığından asılı olaraq birinci, ikinci və üçüncü dərəcəli əlillik təyin edilir" [8]. Hansı səbəblərin əlillik hesab edildiyi isə əlilliyə dair ayrıca bir sənəddə -- "Tibbi sosial ekspert komissiyaları" haqqında Əsasnamədə göstərilmişdir.

Həmin vaxtdan keçən iyirmi beş il ərzində mövcud qanunlara mütəmadi əlavə və düzəlişlər edilərək, müasir tələblərə uyğunlaşdırılmışdır. Bu sahədə mühüm dövlət sənədləri sırasında "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nı ilk növbədə qeyd edə bilərik [14]. Prezident İlham Əliyevin 2018-ci il mayın 31-də imzaladığı "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunu bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Yeni qanunun preambulasında deyilir: "Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsaslarını və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələrini müəyyən edir, əlilliyə səbəb olan risklərin, əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını, əlilliyi olan şəxslərin reabilitasiyasını, cəmiyyətin həyatında tam həcmdə iştirakını və sosial inteqrasiyasına şərait yaradılmasını, onlara aid olan strategiya və proqramlara dair qərarların qəbulu prosesinə fəal cəlb olunmasını, əlilliyi olan şəxslərin hüquq və

azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətləri tənzimləyir" [7].

AR Nazirlər Kabineti tərəfindən 2022-ci il mayın 13-də qəbul edilərək iyulun 1-dən qüvvəyə minən qərar həmin qanundan və digər dövlət sənədlərindən irəli gələn vəzifələrin həlli baxımından əhəmiyyətli yeniliklərdəndir. Bu qərarla "Əlilliyin müəyyən olunması meyarları" yeniləşdirilərək təsdiq edilmiş, "Əlliliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə"də müəyyən dəyişikliklər edilmişdir [2].

Hərbi xidmət zamanı yaranan əlilliyə görə pensiya təyin edilməsinin iki əsas şərti var. Burada xidmət dövründə və xidmətdən buraxıldıqdan sonrakı üç ay ərzində əlilliyin yaranması nəzərdə tutulur. Əgər hərbi xidmətdən sonrakı üç ay ərzində həmin şəxsdə əlillik yaranıbsa, bunun səbəbinin xidmət zamanı aldığı zədə və ya travma ilə bağlı olması mütləqdir.

Dövlətimizin sosial müdafiə sistemində yer alan digər məsələ ***ailə başçısını itirməyə görə*** pensiya hüququdur. Elmi ədəbiyyatda bu pensiyaya ailə başçısı itirildikdə həmin ailənin kifayət qədər yetərli əmək qabiliyyəti olmayan üzvlərinə dövlət tərəfindən ödənilən pul yardımı kimi izah verilir. Burada ailə başçısının itirilməsi dedikdə, sadəcə onun vəfat etməsi nəzərdə tutulmur, itkin düşməsi halı da bura aid edilir. Ailə başçısı vəfat etdikdə ilk növbədə onun ailə üzvləri müəyyənləşdirilir. Əgər ər-arvad arasında ölümdən öncə nikah pozulmuşdursa, onda qarşı tərəfin pensiya almaq hüququ olmur. Qeyd edək ki, belə hallarda dini nikah pensiya hüququ üçün əsas götürülmür. Bununla yanaşı, əgər ailə başçısının ögey övladları varsa və azı beş il onları himayəsində saxlayıbsa, bu zaman həmin övladların da digərləri ilə eyni pensiyanı almaq hüququ yaranır.

Ölkə qanunvericiliyi öz valideynlərini itirdiyinə görə pensiya-müavinət alan uşaqların sonra başqaları tərəfindən ovlaqlığa götürüldüyü hallarda da dövlət qayğısına təminat verir. Onlara verilən bu hüquq ilk dəfə Azərbaycan Respublikasının Ailə Məcəlləsində öz əksini tapmışdır. Məcəllənin "Valideynlərin ölümünə görə pensiya və ya müavinət hüququnun saxlanması" barədə 129-cu maddəsində deyilir: "Övladlığa götürülmə vaxtınadək ailə başçısını itirməyə görə pensiya, dövlət müavinəti almaq hüququna malik olan yetkinlik yaşına çatmayanlar bu hüququ övladlığa götürüldükdən sonra da saxlayırlar" [4].

Həmin hüquqlar da daxil olmaqla ölkə vətəndaşlarının sosial təminatı məsələləri dövlətin sosial fəaliyyətində, onu tənzimləyən hüquqi aktlarda konkret ifadəsini taparaq, sosial siyasətinin mühüm prioritetlərindən biri kimi qalmaqdadır. Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inin "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" adlandırılması həmin qayğının əyani ifadəsidir həmin sənəddə növbəti onillikdə reallaşdırılmalı olan Milli Prioritetlərdə sosial təminat sisteminin daha da yaxşılaşdırılması xətti mühüm yer tutur. Sənədin "Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət" bölməsində göstərilir: "Sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağı gəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatı gücləndirilməlidir. Bu məqsədlə ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunmalıdır" [1].

Ölkə əhalisinin həssas təbəqəsi bu qayğının bəhrəsini artıq 2023-cü ildə hiss edəcəklər. Baş nazir Əli Əsədov Milli Məclisdə 2022-ci il dekabrın 19-dakı çıxışında bu barədə demişdir: "Növbəti ilin dövlət büdcəsində əhalinin, şəhid ailələrinin, qazilərin sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi üzrə islahatların davam etdirilməsi, inflyasiya təzyiqi nəzərə alınmaqla həssas əhali qruplarına sosial dəstək tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Təsadüfi deyil ki, 2023-cü ilin dövlət büdcəsinin cari xərclərinin 67 faizi məhz sosialyönlü xərclərdir (15,2 mlrd. manat). Bütün bunlar cənab Prezidentin qiymət artımı məsələlərinə olduqca həssaslıqla yanaşdığını və aztəminatlı əhalinin sosial rifahının yaxşılaşdırılmasının daim xüsusi diqqətində olduğunu göstərir" [5].

**Nəticə**

Dövlətin sosial fəaliyyətində pensiya təminati problemi müasir cəmiyyətin davamli sosial-iqtisadi inkişafi üçün əsas şərtlərdən biri kimi ölkədə ictimai məmnunluq və asayişin təmin edilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Məhz buna görə hər bir demokratik dövlət öz sosial siyasətinin qanunvericilik bazasını daim təkmilləşdirməyə, onu dəyişən zamanın tələblərinə uyğunılaşıdirmağa çalışır. o cümlədən Azərbaycan Respublikasında pensiya və digər sosial təminatları tənzimləyən qanunvericilik aktlarına zaman keçdikcə zəruri əlavə və dəyişikliklər edilməsi sosial sahəyə dövlətin qayğısından xəbər verir.

Bütün bu qərarları ilə dövlət sosial sferasını tənzimləməklə əhalinin rifah səviyyəsini yaxşılaşdirmağa çalışır. Yardıma ehtiyacı olan əhali təbəqəsinin zəruri tələbatına uyğun təkmilləşdirilən sosial təminat sistemi, o cümlədən pensiya təminati zaman keçdikcə öz səmərəsini göstərməyə başlayir. Nəzərə alsaq ki, hər bir ölkənin insan kapitalının inkişafı əhalinin həyat səviyyəsindən asılıdir, ona görə bu istiqamətdə atılan addımların ictimai tərəqqi baxımından müstəsna əhəmiyyət daşıdığı aydın olar.

Nəzərə almaq lazımdır ki, pensiya təminatı, bütövlükdə sosial təminat sistemi əhalinin kifayət qədər geniş təbəqəsini əhatə etdiyinə görə bu sahənin inkişafı yalnız həmin sistemin əhatə etdiyi sosial təbəqənin deyil, cəmiyyətdə ümumi sosial rifahın yüksəldilməsinə ciddi təsir göstərir. Odur ki, bu sahəyə nə qədər çox diqqət ayrılırsa, bir o qədər də əhalinin güzəranı yaxşılaşır. Bunu nəzərə alan Azərbaycan Respublikasının qanunverici və icraedici hakimiyyət orqanları bu həssas əhali qrupuna göstərilən diqqət və qayğını özlərinin sosial siyasətində başlıca prioritet hesab edir, ardıcıl islahatlar aparmaqla pensiya sistemini daim təkmilləşdirməyə çalışırlar.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər /Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir // [Elektron resurs]. URL: https://president.az/az/articles/view/50474 Müraciət edilmişdir: 12.02.2023

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixli qərarı (iyulun 1-dən qüvvəyə minmişdir). // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/49623 Müraciət edilmişdir: 12.02.2023

3. Azərbaycan Respublikasında pensiya islahatı Konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2001-ci il tarixli 767 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir). // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/4412 Müraciət edilmişdir: 13.02.2023

4. Azərbaycan Respublikasinin ailə məcəlləsi. // [Elektron resurs]. URL: https://www.e-qanun.az/framework/46946 Müraciət edilmişdir: 12.02.2023

5. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Milli Məclisdə çıxışı. 09 Dekabr 2022 – ci il. // [Elektron resurs]. URL: https://nk.gov.az/az/article/2546/ Müraciət edilmişdir: 12.02.2023

6. Azərbaycan Respublikasının Konstitusiyası. 2002, 2009 2016-ci illərdə qəbul edilmiş əlavə və dəyişikliklərlə. // [Elektron resurs]. URL: https://www.e-qanun.az/framework/897 Müraciət edilmişdir: 10.02.2023

7. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının qanunu (2018-ci il). // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/39591 Müraciət edilmişdir: 11.02.2023

8. Əlilliyin müəyyən olunması meyarlarına dair Əsasnamə (1997-ci il). https://az.wikisource.org/wiki/%C6%8Flilliyin_m%C3%BC%C9%99yy%C9%99n_olunmas%C4%B1_meyarlar%C4%B1na_dair_%C9%99sasnam%C9%99 Müraciət edilmişdir: 11.02.2023

9. Əliyev M.N. Sosial təminat hüququ (*Dərslik*). Bakı: Adiloğlu, 2007, 464 s.

10. Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının qanunu (2006-ci il yanvarın 1-dən qüvvəyə minmişdir). // [Elektron resurs]. URL: https://www.e-qanun.az/framework/11566 Müraciət edilmişdir: 13.02.2023

11. "Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasinin qanunu. // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/18659 Müraciət edilmişdir: 12.02.2023

12. Əşrəfova *R.S.* Azərbaycanda pensiya təminatı sisteminin formalaşması və təkmilləşdirilməsi. Bakı: Elm, 2007, 260 s.

13. 2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı. // [Elektron resurs]. URL: qanun.az/framework/15995 Müraciət edilmişdir: 12.02.2023

14. 2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası. // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/28572 Müraciət edilmişdir: 11.02.2023

15. Rəcəbli H. Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi (Ali məktəblər üçün dərs vəsaiti). B.: MBM, 2012, 408 s.

16. Yaşa görə əmək pensiyası / Azərbaycan Respublikası Əmək və Əhalinin sosial Müdafiəsi Nazirliyinin izahatı. // [Elektron resurs]. URL: https://www.sosial.gov.az/category/yashagoreemekpensiyası Müraciət edilmişdir: 12.02.2023

**Leyla ISMAYILOVA**

**THE ROLE OF PENSION PROVISION IN THE SOCIAL ACTIVITY OF STATE**

**Summary**

The article is based on such a postulate that the focus of every state is to form a system aimed at improving the living conditions of the country's population and ensuring the minimum living wage. For this purpose, the state implements an appropriate social policy. That policy is characterized as a system of measures aimed at eliminating restrictions on the life activity of the society, ensuring socio-economic balance in order to achieve a decent standard of living. Accordingly, social protection system, social service, social allowance, pension provision, pension right, etc. concepts are examined as important aspects of the state's social policy. In the article, the pension provision in the Republic of Azerbaijan and the successive reforms in this field are analyzed in detail, it is shown that the legislative and executive bodies of our state consider these issues as the main priority in their social policy.

**Key words:** *social policy of the state, social protection system, social service, social benefit, pension provision, pension right, in teh Respublic of Azerbaijan pension reforms*

**Лейла ИСМАИЛОВА**

**МЕСТО ПЕНСИОННОГО ОБЕСПЕЧЕНИЯ В СОЦИАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ ГОСУДАРСТВА**

**Резюме**

Статья основывается на постулате о том, что любое демократическое государство уделяет особое внимание на формирование системы, направленную на улучшение условий жизни населения страны, обеспечение прожиточного минимума. В этих целях государство проводит соответствующую социальную политику. Характеризуется эта политика как система мероприятий, направленная на искоренение ограничений в жизнедеятельности общества, достижение обеспеченности достойного уровня жизни. Соответственно, понятия система социальной защиты, социальное обслуживание, социальное пособие, пенсионное обеспечение, пенсионное право и др. рассматриваются как важные аспекты социальной политики государства. В статье обстоятельно анализируются пенсионное обеспечение в Азербайджанской Республике и проводимые в этой области последовательные реформы,

отмечается, что законодательные и исполнительные органы нашего государства рассматривают эти вопросы приоритетными в своей социальной политике.

**Ключевые слова:** *социальная политика государства, система социальной защиты, социальная служба, социальное пособие, пенсионное обеспечение, пенсионное право, пенсионные реформы в Азербайджанской Республике*

**Rəyçi: f.ü.f.d., dosent Zeynəddin ŞABANOV**

UOT 316.354

**Nihad ƏSƏDOV***

# NARKOMANİYA VƏ ALKOQOLİZM KRİMİNAL HALLARIN MƏNBƏYİ KİMİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 13 fevral 2023; çapa qəbul edilmişdir: 18 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 13, 2023; accepted for publication: 18 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalədə gənclərə aid submədəniyyətlədə narkomaniya və alkoqolizm hallarının genişlənməsi, bununla bağlı gənclərin həyatında yaranan problemlər, aludəçi gənclərin ailələri ilə münasibətləri, narkotik və alkoqolun onların həyatlarına vurduğu zərər və nəticələr tədqiq edilir.

Zaman nə qədər irəliləsə də, narkomaniya və alkoqolizm problemi öz aktuallığını qoruyub saxlayır. İstər ölkəmizdə, istərsə də digər ölkələrdə narkomaniya və alkoqolizm problemi sosial bəla oaraq qalmaqdadır. Valideyinlərin öz narkotik aludəçisi olan övladlarından, övladların narkomaniya və alkoqolizmə qurşanan valideyinlərindən utanması halları hələ də davam edir. Hər iki tərəf öz problemlərini gizlətməyə çalışır. Gənclər öz maraq dairələrinə uyğun sosial birliklərdə cəmləşərək submədəniyyətlər yaradır, öz problemlərini öz həmyaşları ilə çözməyə cəhd edirlər.

**Açar sözlər:** *gənc, submədəniyyət, narkomaniya, alkoqolizm.*

## Giriş

Sosiologiya, antropologiya və kulturologiyada geniş istifadə edilən s"ubmədəniyyət" (lat. sub — altında və cultura — mədəniyyət; mədəniyyətyanı) anlayışı əksəriyyətin ümumi mədəniyyətindən fərqlənən modern mədəniyyət, həmçinin bu mədəniyyətin daşıyıcıları olan qruplar kimi xarakterizə edilir. Submədəniyyət çoxluğun mədəniyyətindən öz dəyərlər sistemi, danışıq jarqonu, davranış mədəniyyəti və geyimi ilə fərqlənməyə çalışır. Milli, demoqrafik, ixtisas, coğrafi və digər əsaslar üzrə formalaşan submədəniyyətlər təsnif edilir. Ən diqqəti çəkən isə gənclərə xas olan submədəniyyətdir.

Elmi ədəbiyyatda "narkomaniya" (yun. νάρκη /narkē/ – yuxvία}} /mania/ – cəzb etmə, ağılsızlıq) — narkotik vasitələrdən istifadə etdikdə yaranan xroniki xəstəlik kimi izah edilir.

Mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddələrə narkotik maddələr deyilir. Narkomaniya digər vərdişlərə görə daha təhlükəlidir: narkodilerlər (narkotikləri satan insanlar) həmişə yeni alıcı axtarışında olurlar. Onlar maddi imkanı aşağı olan gəncləri tapdıqları kimi asanlıqla maddi imkanı çox yaxşı olan gəncləri də tora sala bilirlər. Abstinensiya halı çox əziyyətli olduğuna görə narkotikdən istifadə edən gənc yeni doza əldə etmək üçün əlindən gələni edir. Narkotikdən istifadə edənlərin əksəriyyəti gənc ikən ölür – onlar cinsi yolla yoluxan infeksiyalara, o cümlədən HİV-lə və ya hepatit C-yə yoluxur, bəziləri isə uzun müddət müalicə alaraq ailəsi və cəmiyyət üçün bir yükə çevrilir.

**Opiatlar (Morfin və Heroin)** - Tiryək Laləsindən Alınan Narkotiklərdir.

Morfindən təbabətdə çox güclü ağrıkəsici kimi istifadə edirlər. Heroin isə sintetik üsulla morfindən alınır. Heroin təsirinə və asılılıq yaratma qüvvəsinə görə ən güclü narkotik vasitələrdən biri hesab edilir. Opiatları həm tütünə qarışdırıb çəkmə, həm qoxulama, həm də vena daxilinə

*Azərbaycan Universiteti, magistr. Azərbaycan, Bakı
*e-mail*: esedov.nikosum11234@gmail.com

yeritməklə qəbul edirlər. Əksər hallarda ilk əvvəl bütün ağrılar yox olur, yuxulu durum başlayır, əfval dəyişir. Sonradan ətraflar ağırlaşır, ağızda quruluq yaranır, bütün orqanizmə sanki istilik yayılmağa başlayır. Daha sonra isə ürəkbulanma və qusma başlayır. Abstinensiya zamanı əzələlərdə ağrılar, gözlərin yaşarması, burundan ifrazat, tərləmə, ishal, arasıkəsilməyən əsnəmə, hərarət və yuxusuzluq və ən əsası, nəyin bahasına olursa olsun, yenidən opiat qəbul etmək istəyi yaranır. Tiryəkdən istifadə edən şəxslər adətən tənəffüsün dayanmasından dünyasını dəyişirlər.

**Amfetaminlər.** Amfetaminlər psixiatriyada geniş istifadə olunur. Məsələn, ekstazi - qeyri-rəsmi şəkildə istehsal edilən amfetamindir. Daxilə həblər şəklində qəbul edirlər. Qəbuldan sonra insanda ruh yüksəkliyi, oyanıqlıq, fiziki qüvvənin artması müşahidə olunur. Ekstazi həblərini qeyri-qanuni olaraq diskotekalarda satırlar - bir həb ekstazi 6-8 saat müddətində rəqs etməyə şərait yaradır. Abstinensiya başladıqda isə narahatlıq və həyəcan, əfvalın pozulması, aqressiya, fikirlərin qarışması və sayıqlamalar yaranır.

**Hallusinogenlər.** LSD - ən çox tanınan hallüsinogendir. Adından bilindiyi kimi preparat hallüsinasiyalar (qarabasmalar) yaradır. Preparat şəklində LSD ilk dəfə psixiatriyada istifadə etmək üçün işlənilmişdir. LSD və digər hallüsinogenlər müvəqqəti olaraq şüuru dəyişməyə qadir preparatlar olduğuna görə onlardan alkoqolizmi müalicə etmək üçün istifadə edirlər. Preparatı qəbul etdikdən bir neçə dəqiqə sonra ətraf başqa cür qəbul olunur, təfəkkür prosesləri dəyişir və uyğun olaraq davranış dəyişir. LSD-dən də ekstazidən olduğu kimi rəqs yığıncaqlarında istifadə edirdilər.

**Kokain.** Cənubi Amerikada yetişən Eritroksilon Koka adlanan kolun yarpaqlarından alınır. İlk əvvəl ondan da yalnız təbabətdə ağrıkəsici və damardaraldıcı kimi istifadə edirdilər. Kokaini burundan, venadaxili və dərialtı inyeksiyalar şəklində daxil edirlər. Orqanizmə daxil olduqdan 1 saat sonra onun təsiri azalır və tükənir. Lakin bu müddətdə qəbul edən insanda bir çox hallar baş verir: əfval ruhiyyə çox yüksəlir, özünə inam və özünüqiymətləndirmə artır, əqli və fiziki göstəricilər yüksəlir, cinsi fəallıq yüksəlir. Bir saatdan sonra isə əksinə, əfval korlanır, özünütənqid artır, seksual aqressiya halları baş verir. Abstinensiya dövründə qüvvədən düşmə, depressiya, yuxusuzluq və ya əksinə, yuxululuq, davranış dəyişiklikləri baş verir. Kokain digər narkotiklərə nisbətən daha bahalı olur.

**Çətənə (Kannabis, Konoplya, Həşiş, Marixuana).** Bu bitkidən alınan preparatların əslində çox yaxşı təsirləri vardır - bəd xassəli şişləri dağıdır, mikrobları məhv edir, göz daxili təzyiqi azaldır, ürəkbulanmanın qarşısını alır, ağrıları kəsir, qıcolmaların qarşısını alır. Eyni zamanda ağciyər xərçəngi riskini xeyli yüksəldir. Çətənədən hazırlanan maddələri həm qida ilə, həm də tütünə qarışdırıb çəkirlər. Xoş əfvaldan başqa çətənə yuxulu vəziyyət də yaradır. Abstinensiya dövründə isə ("lomkalar" zamanı) yuxu pozğunluğu, ətrafların əsməsi və tərləmə qeydə alınır. Hind çətənəsindən hazırlanan narkotik maddələr digər qrupdan olan maddələrə nisbətən daha az asılılıq yaradır, onları qəbul edən insanlar uzun müddət digər narkotik istifadə edənlərdən seçilir - onlarda şüuri və davranış pozğunluqları gec qeydə alınır. Lakin uzun müddət çətənədən istifadə edən insanlarda (daima narkotik istifadə edənlərdə) nəyi isə etmək həvəsi ölür (amotivasiya inkişaf edir), onlar oxumur, işləmək istəmir, həyatda heç bir məqsədə xidmət etmirlər. Getdikcə bu insanlarda debilizm inkişaf edir. Çox hallarda gözlərin konyuktivasında qansızmalar olur - bu əlamətə görə onların məhz çətənədən istifadə etməsi bəlli olur [1], [2].

**Fiziki təsirləri**

**Beyin və Mərkəzi Sinir sistemində:**

Dəlilik, erkən ağlını itirmə, şüur itgisi, yuxusuzluq, iflic, sayıqlama (sayıqlama, lağlağılıq, ağıl xarici davranışlar), hallüsinasya (qorxu, xəyal görmə, eşitmə və s.) zəka və yaddaş pozğunluqları.

**Həzm sistemində:**

Ürəkbulanma, qusma, qarın ağrıları, qəbizlik, ishal, mədə və bağırsaq pozğunluqları, qanama və yaraları, gastrit, xora və s.

**Qaraciyərdə:**

Bu zəhərin orqanizmdən atılmasında ən ağır vəzifə bu orqanlara düşməkdə olub, qaraciyər və böyrəklərdə böyük qəza və tıxanmalara, qaraciyərdə çatışmazlıq, yağlanma, sərtləşmə ( sirroz) problemini yaradır.

**Böyrəklərdə:**

Albumin, qan və sidik çoxalması, tıxanmalar, çox ağır böyrək xəstəlikləri.

**Gözlərdə:**

İşıq və məsafədə uyğunlaşmazlıq, çəplik, gecə korluğu, göz bəbəyi böyüməsi və ya kiçilməsi, göz iflici.

**Tənəffüs Sistemində:**

Nəfəs darlığı, öskürək, boğulma hissi, tənəffüs iflici.

**Qanda:**

Qansızlıq, qan zəhərlənmələri, qan hüceyrələrində şəkil və miqdar dəyişiklikləri, qanın laxtalanması və qanqren [3].

**Narkomaniyanın fəsadları:**

Narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Narkomaniya yaddaş və təfəkkürü pozur, həyata, siyasi proseslərə qarşı qeyri-ciddilik yaradır. Cəmiyyətin böhranlı dövründə narkomanlıq artır, sosial münasibətlərə pis təsir göstərir.

Narkomaniya orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün azalmasına gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların qaraciyər və böyrəyin zəhərlənməsilə nəticələnir. Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatitdir. Ən qorxulu xəstəliklər orqanizmə qan vasitəsilə daxil olur və vena vasitəsilə qəbul olunan narkotiklərdən istifadə edən narkomanlar qan ilə tez-tez rastlaşırlar. Rəsmi statistikaya görə son beş ildə Azərbaycanda narkomanların sayı 10 dəfə artıb. Son məlumatlara əsasən respublikada narkomanların rəsmi sayı 31 mindən nəfərdən artıqdır. Azərbaycanda daha geniş istifadə olunan narkotiklər tiryək, heroin, çətənə, həşiş, ekstazi, kokain və LSD-dir.

Dünyada 2 milyon narkoman var ki, onların 40-45% qadın və uşaqlardır.

Azərbaycan Respublikası mühüm tranzit məntəqəsidir, xüsusən Əfqanıstandan Rusiya və Avropaya heroin nəqli nəticəsində Azərbaycan Respublikasında Narkotilk maddələrin daxili istehlakı artmaqda davam edir. Heroin istifadəçilərinin əksəriyyəti 64.6% iri şəhərlərdə Bakı, Sumqayıt, Gəncə və Lənkəranda cəmlənib.

**Narkomaniyaya qarşı mübarizə**

Narkomanlıq cəmiyyətin özəyi olan ailəni dağıdır, qeyri-stabil şəraitin yaranmasına səbəb olur. Narkomaniya təhlükəsinə qarşı mübarizəni gücləndirmək məqsədilə Azərbaycan Respublikasının prezidenti 26 avqust 1996-cı ildə "Narkomaniya və narkotika dövriyyəsinə qarşı tədbirlər haqqında" fərman verilmişdir. 1999-cu ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Narkotik vasitələr psixotron maddələrin qanunsuz dövriyyəsi haqqında" qanun qəbul etmişdir. Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların perekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın qaşısının alınması ilə bağlı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiqlənmişdir.

Narkomaniya uzun illərdir dünyanın ən böyük problemlərindən biri kimi bəşəriyyəti düşündürür və narahat edir. Cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniyaya meyl təəssüflər olsun ki, günü-gündən çoxalmaqdadır. Əksərən də yeniyetmə və gənclər arasında daha çox müşahidə olunur. Çünki onlar daha çılğın və emosionaldırlar. İstəklərini həyata keçirmək üçün ən gözlənilməz yollara əl atırlar. Bu da təbii ki, onları könüllü olaraq narkotik alverçilərinin klienti edir. Hazırda bəşəriyyət qarşısında duran ən mühüm məsələlərdən biri narkotiklərin qeyri-qanuni dövriyyəsi kimi təhlükəli cinayətkarlıqla qətiyyətli mübarizə aparmaqdır. Narkobiznes hazırda çox mənfəətli kriminal sahələrdən biridir. Bununla yanaşı ondan əldə edilən gəlirlər başqa transmilli cinayətlərə, xüsusən də terrorçuluğun maliyyələşdirilməsinə və törədilməsinə yönəldilir. Bu da öz növbəsində onun təhlükəliliyini daha da çoxaldır. Dünyanın

müxtəlif qaynar bölgələrində həyata keçirilən terror aktları, qırğınlar, dağıntılar, günahsız insanların, xüsusən də uşaqların ölümü ilə nəticələnən qorxunc hadisələrin çoxu beynəlxalq narkobiznes hesabına həyata keçirilir və günü bu gün də davam etməkdədir.

Təəssüflə qeyd etməliyik ki, bizdən asılı olmayan səbəblər ucbatından narkomaniya Azərbaycanda bu gün ən ağrılı problemlərdən birinə çevrilmişdir. Azərbaycan narkotizm bəlasına düçar olmuş ölkələr sırasındadır. Belə ki, Əfqanıstandan gətirilən narkotik vasitələrin MDB ölkələrinə və Avropaya aparılmasında Azərbaycanın işğal altındakı ərazilərindən tranzit yolu kimi istifadə edilirdi.

Qeyd edək ki, hazırda bütün dünyada olduğu kimi, Azərbaycanda da narkotik istifadəçilərinin böyük bir hissəsini gənclər və yeniyetmələr təşkil edir. Onların sayı isə ildən-ilə çoxalmaqdadır. Belə həblər ilk dəfə yeniyetmələrə və gənclərə pulsuz verilir. Onlar bundan asılı olduqdan sonra pulla almağa məcbur olurlar. Bu gənclər pul tapmadıqda isə hər cür cinayətə əl atmağa səy göstərirlər. Bu, bir tərəfdən cinayətkarlığın inkişafına şərait yaradırsa, digər tərəfdən gənc nəslin həyatının puç olmasına gətirir və milli genefondu təhlükə altına alır. Fikir versək görərik ki, ilk narkotik maddə istifadə etməyə başlayanların çoxu depressiyadan qurtulmaqdan ötrü bu yola əl atır.

Narkomanlıq da narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. Bu dəhşətli xəstəlik dinindən, dilindən, irqindən, sosial vəziyyətindən, mənşəyindən, vəzifəsindən və s. asılı olmayaraq hamı üçün eyni dərəcədə təhlükə yaradan bir şeydir. Bu, onunla izah oluna blər ki, narkomaniya öz-özlüyündə cinayətkarlığı, zorakılığı və korrupsiyanı yaradır. Qazanılmış immun çatışmazlığı sindromunun sürətlə artmasına təkan verir, sosial-iqtisadi inkişafı ləngidir, ailələri dağıdır, bütövlükdə cəmiyyəti sosial partlayışlara tərəf aparır. Xüsusilə təəssüfləndirici haldır ki, bu gün hər kəs bu bəlanın dərinliyini başa düşə bilmir. Çox təəssüf ki, narkomaniyanın qarşısını almaq deyəndə ən çox gənclərlə işləmək planda götürülür. Amma bizim ən böyük işimiz ailələr ilə olmalıdır. Çünki problemlərin mənbəyi çox vaxt ailədir. Valideynin uşağının narkoman olduğunu başa düşə bilməməsi təsəvvür edilməzdir.

Narkomaniyaya aludə olanlar bilməlidirlər ki, onlar təkcə özlərini deyil, ailələrini və bütöv nəsillərini məhv edirlər. Onlar bilməlidirlər ki, narkomaniyaya qurşananda onların QİÇS-ə yoluxma ehtimalı daha da çoxalır. Onların sabah dünyaya gətirdikləri uşaqlar belə xəstə olurlar. Buna görə də çox geniş təbliğata ehtiyac vardır. Biz narkomaniyaya qarşı mübarizəyə deyil, müharibəyə keçməliyik. Çünki qarşımızdakılar çox böyük gücə malikdirlər. Onlar sadəcə peşəkarlıqla qurulan tələlərin qurbanlarına çevrilirlər. Biz gənclərə narkomafiyaların narkodilerlər vasitəsilə onları necə tora saldıqlarını başa salmalıyıq. Artıq tora düşəndən sonra ona "Narkomaniya pisdir!" deməyin heç bir mənası yoxdur. Buna dünyada xroniki xəstəliklər deyirlər. Onu müalicə etmək o qədər də asan deyildir. Bu gün dünyanın hər yerində olduğu kimi Azərbaycanda da narkomaniya cavanlaşaraq davam edir. Narkomaniya artıq bizim universitetlərimizə, məktəblərimizə daxil olurl.

İctimai yerlərdə tütün məhsullarının istifadə olunmasına məhdudiyyət qoymaq lazımdır. Çünki narkomaniyaya aparan yol əksər hallarda siqaretdən başlayır. Yetkinlik yaşında tütündən istifadə edən uşaqlar və gənclər narkomaniyanın bir addımlığında olurlar. Artıq dünyanın əksər ölkələrində ictimai yerlərdə siqaretin çəkilməsinə məhdudiyyətlər qoyulmuşdur.

**Nəticə**

Təəsüflər olsunki, narkomaniya və alkoqolizm haqqında geniş miqyaslı tədbirlər aparılmasına baxmayaraq geniş bir miqyası əhatə edə bilmir. Narkotik vasitələrin gənclərin arasında yayılması, onların həyat fəaliyyətinə təsir etməsi, onlara necə ziyanların vurulması haqqında danışılır. Bu mövzuda kifayət qədər məqalələr və kitablar yazılmasına baxmayaraq bu bəlanın qarşısını ala bilmədiyi bariz bir nümunəsidir. Bu mövzu nə qədər aktual olsada gənclərə nə qədər məlumatlar verilsə belə gün keçdikcə bu bəlaya düçar olanların sayı daha çox artır. Çalışaq bu bəlanın qarşının alınmasına daha çox töhvələr vermək lazımdır.

**İstifadə edilmiş ədəbiyyat**

1.Alkoqol içkilər və narkotik asılılığının müalicəsi // [Elektron resurs]. URL: https://medvoyage.az/services/treatment-of-alcohol-drug-addiction-262. Müraciət edilib: 5.01.2023

2.Maqsudova F. Gəncləri narkomaniya bəlasından qoruyaq! // [Elektron resurs]. URL:https://nmdk.gov.az/page/post/1527/Gencleri-narkomaniya-belasindan-qoruyaq. Müraciət edilib: 5.01.2023

3.Məmmədhəsənov T. Narkomaniya asılılığın ən ağır növüdür. // [Elektron resurs]. URL: https://nmdk.gov.az/page/post/1492/Narkomaniya-asililigin-en-agir-novudur. Müraciət edilib: 6.01.2023

4.Narkomaniya, narkobiznes və ona qarşı mübarizədə kitabxanaların rolu: metodik vəsait / Tərt. ed. L.Əhmədova; elmi red. K.Tahirov; red. A.Abdullayeva.- Əlavə və dəyişikliklərlə.- Bakı, 2019.- 44 s.

5. Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır. / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. R.Məmmədli ixt.red. və burax.məsul Ş. Qəmbərova; red.K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 51 s.

6.Narkoman və alkoqoliklərin sayı açıqlandı/ // [Elektron resurs]. URL: http://femida.az/az/news/76401/narkoman-ve-alkoqoliklerin-sayi-aciqlandi-1500-u-qadinlardir

7. Narkomaniya və alkoqolizm asılılığından xilas olmaq üçün mərkəz yaradıldı. // [Elektron resurs]. URL:https://oxu.az/press-releases/554473. Müraciət edilib: 7.01.2023

8.Rəhimova A. Narkomaniya, onun psixoloji səbəbləri və məktəbdə görülməli işlər. // [Elektron resurs]. URL: http://www.tipii.edu.az/az/article/522-narkomaniya-onun-psixoloji-sabablari-va-maktabda-gorulmali-islar. Müraciət edilib: 5.01.2023

9.Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. Bakı şəhəri, 5 dekabr 1997-ci il № 135. // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/4165. Müraciət edilib: 6.01.2023

**Nihad ASADOV**

## DRUG ADDICTION AND ALCOHOLISM AS A SOURCE OF CRIMINAL INCIDENTS

**Summary**

The article examines the spread of drug addiction and alcoholism in the youth subculture, the related problems in the lives of young people, the relationships of addicted young people with their families, the harm and consequences of drugs and alcohol on their lives.

No matter how much time has progressed, the problem of drug addiction and alcoholism remains relevant. Both in our country and in other countries, the problem of drug addiction and alcoholism remains a social problem. There are still cases of parents being ashamed of their drug-addicted children, and of their children's parents who are addicted to drugs and alcohol. Both sides try to hide their problems. Young people gather in social associations according to their interests, create subcultures, and try to solve their problems with their peers.

**Key word:** *youth, subculture, drug addiction, alcoholism.*

**Нихад АСАДОВ**

## НАРКОМАНИЯ И АЛКОГОЛИЗМ КАК ИСТОЧНИК КРИМИНАЛЬНЫХ ПРОИСШЕСТВИЙ

**Резюме**

В статье рассматривается распространение наркомании и алкоголизма в молодежной субкультуре, связанные с этим проблемы в жизни молодежи, взаимоотношения зависимых молодых людей со своими семьями, вред и последствия употребления наркотиков и алкоголя на их жизнь.

Сколько бы времени ни прошло, проблема наркомании и алкоголизма остается актуальной. Как в нашей стране, так и в других странах проблема наркомании и алкоголизма остается социальной проблемой. До сих пор известны случаи, когда родители стыдятся своих детей-наркоманов, а также родителей своих детей, зависимых от наркотиков и алкоголя. Обе стороны пытаются скрыть свои проблемы. Молодые люди собираются в социальные объединения по интересам, создают субкультуры, пытаются решить свои проблемы со сверстниками.

**Ключевые слова:** *молодежь, субкультура, наркомания, алкоголизм.*

**Rəyçi: p.ü.f.d., Tünzalə VERDİYEVA**

**SOSİOLOGİYA. SOSİAL PSİXOLOGİYA. SİYASƏT**
**SOCIOLOGY. SOCIAL PSHYCHOLOGY. POLITICS 2023 Cild 3, N 1**

**43-48**

**UOT 364.62**

**Orxan ŞƏRƏFXANOV***

# ŞƏXSİYYƏT ANLAYIŞI VƏ ONUN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 fevral 2023; çapa qəbul edilmişdir: 20 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 15, 2023; accepted for publication: 20 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalədə "şəxsiyyət" anlayışının tərifi verilmiş, şəxsiyyətə xas başlıca xüsusiyyətlər, onu digərlərindən fərqlədirən cəhətlər qeyd olunmuşdur. Burada insanın şəxsiyyət kimi formalaşmasına təsir edən əsas amillərin əhəmiyyəti vurğulanmışdır.

Şəxsiyyəti fərddən və fərdiyyətdən fərqləndirən cəhətlər və əlamətlər mövcuddur. Hər üçü insana aid əlamətləri və xüsusiyyətləri özündə birləşdirir. Şəxsiyyətin formalaşmasına bir sıra amillər təsir edir. Əsasən də bioloji amil olan irsiyyət bununla yanaşı ətraf mühit, tərbiyə, ünsiyyət, ailə kimi amillər göstərilə bilər. Cəmiyyətin əsas sosial məsələlərindən biri də insanın şəxsiyyət kimi formalaşmasıdır.

**Açar sözlər:** *şəxsiyyət, fərd, insan, bioloji amillər, psixoloji amillər, sosial amillər*

## Giriş

Yeni doğulmuş körpə hələ şəxsiyyət deyil. Şəxsiyyətə çevrilmə insanın ünsiyyət və sosial fəaliyyəti zamanı ictimai münasibətləri dərk etdikdə baş verir. Şəxsiyyətin formalaşması prosesi sosializasiya (ictimailəşmə) adlanır. Sosializasiya insanların sosial həyata adaptasiya, uyğunlaşma prosesidir. Sosial adaptasiyanı insanların sosial mühitə qısa bir müddətdə alışması, uyğunlaşması kimi də anlamaq olar. Şəxsiyyətin formalaşması prosesi individin tədricən böyüməsi ilə baş verir. Şəxsiyyətin formalaşmsı dövründə fərd ümumi qəbul olunmuş yolları keçir. Yəni fərd cəmiyyət həyatına adaptasiya olur, sonrakı mərhələdə isə fərd öz maraqlarını aydınlaşdırır, onları nümayiş etdirməyin yollarını axtarır.

Sosial psixoloji amillərin şəxsiyyətin formalaşmasına təsirindən qabaq şəxsiyyət, fərd və fərdiyyət anlayışları arasında mövcud olan oxşar və fərqli cəhətləri analiz edək.

İnsan fərd kimi doğulandan sonra bir çox amillərin təsiri ilə o, şəxsiyyətə çevrilməyə başlayır. Amillərin insana təsiri nəticəsində insanda bir sıra sosial keyfiyyətlər formalaşır. Sosial keyfiyyətlərin yaranması və inkişaf etməsi şəxsiyyəti fərddən fərqləndirən başlıca cəhətdir.

### "Şəxsiyyət" anlayışının mahiyyəti

"Şəxsiyyət" anlayışı bir sıra dillərdə eyni mənşəyə malikdir. Azərbaycan və ingilis dilində olan mənasına fikir verək. Azərbaycan dilində olan "şəxsiyyət" sözü əsasını ərəb sözü "şəxs" sözündən götürmüşdür və hansısa konkret şəxsi simanı, sifəti bildirir. İngilis dilində "şəxsiyyət" - "personality"mənasını verir və sözün əsası iki latın ifadəsindən - "per" və "sona" sözlərindən götürmüşdür ki, bu da bir növ "vasitəsilə danışır" mənasını ifadə edir. Qədim dövürdə Yunanıstanda və Roma imperiyasında bu söz aktyorun teatr tamaşasında istifadə etdiyi "maska" mənasını ifadə edirdi. Uzun zamandan sonra "persona" sözü indiki dövrdə daşıdığı mənanı yəni "personality" -

* *Azərbaycan Universiteti, magistr. Azərbaycan, Bakı*
*e-mail*: orkhansharaf@gmail.com

"şəxsiyyət" mənasında işlənməyə başlanmışdır. Buradan aydın olur ki, insanın üzü, sifəti onun şəxsiyyətini ifadə edir. Təsadüfi deyildir ki, hər bir insanın şəxsiyyət vəsiqəsində üzünü əks etdirən şəkili yer alır. İnsanın üzü onun identifikatoru rolunu oynayır. Hər bir şəxsin sifəti fərqli quruluşa, fərqli cizgilərə, fərqli formaya malikdir. Mövcud olan hər bir fərqliliklər şəxsin özünəməxsusluğunu, hansı yaş kateqoriyasına mənsub olduğunu ifadə edir. Bununla yanaşı bizim sifətimiz xarakterimizi, emosiyalarımızı, keçirdiyimiz hissləri hətta insan orqanizimində olan xəstəlikləri əks etdirir [6, s.123-125].

Fərd sosial münasibətləri öz-özünə deyil, yalnız özünün aktiv fəaliyyəti ilə mənimsəyir. Bu baxımdan fəaliyyət şəxsiyyətin formalaşmasının əsas qaydalarından biri kimi qiymətləndirilməlidir. Fəaliyyətin bir sıra növləri var. Körpəlik dövründən gənclik dövrünədək vasitəsiz emosional ünsiyyət, əşyavi-manipulyativ fəaliyyət, rollu oyunlar, təlim fəaliyyəti, intim şəxsi ünsiyyət, tədris-peşə fəaliyyəti növlərinə rast gəlinir.

Vasitəsiz emosional ünsiyyət çağanın anası ilə spesifik dialoqudur. Əşyavi-manipulyativ fəaliyyət prosesində kiçik uşaq oyuncaqları sökə-sökə, bu yandan o yana sürüyə-sürüyə, bir-birinə qoşa-qoşa onların xassələrini dərk edir.

Rollu oyunların isə mahiyyəti insan münasibətlərinin mənimsənilməsi prosesidir. Təlim fəaliyyəti zamanı uşaqlar sosial təcrübəni məqsədəuyğun surətdə qavrayırlar. İntim-şəxsi ünsiyyət onun həyatının əsas hissəsinə çevrilir. Fəaliyyətin vəzifələri müəyyən zamandan sonra dəyişilir, o, gələcəyə istiqamət almağa başlayır və peşə-tədris xarakteri daşıyır. Bu fəaliyyət növlərini xarakterinə görə iki hissəyə ayırmaq olar:

Birinci hissəyə, vasitəsiz emosional fəaliyyət, rollu oyunlar, intim şəxsi ünsiyyət aiddir. Bu prosesdə azyaşlılar insan münasibətlərini, onların vəzifə və qaydalarını öyrənirlər.

İkinci hissəyə, əşyavi manipulyativ fəaliyyət, təlim fəaliyyəti, tədris peşə fəaliyyəti daxildir. Bu müddət ərzində isə uşaq və yeniyetmələrdə idrak prosesləri, intellektual bacarıqlar inkişaf edir.
Fərd şəxsiyyətə çevrilmə mərhələsində həm də fərdiyyət əlamətlərini özündə daşıyır. Fərdiyyət və şəxsiyyət anlayışları məzmunca qismən oxşardır. Əgər fərdiyyət anlayışı insanın spesifik əlamətlərini, orijinallığını əks etdirirsə, şəxsiyyət məfhumu daha çox insan müstəqilliyini, iradə möhkəmliyini, şəxsi simasını, prinsipiallığını, problemli zamanlarda mütəqil qərar qəbul etmək bacarığını göstərir. Fərdiyyət anlayışına xarakter, temperament, psixi proseslərin cərəyanetmə xüsusiyyətləri, formalaşmış qabiliyyətlər daxildir [8].

Şəxsiyyət spesifik xüsusiyyətlərə malik fərdiyyətdir. Fərdiyyət şəxsiyyətin originallığını, onu digər insanlardan fərqləndirən cəhətləri, onun psixikasının və şəxsiyyətinin spesifik xüsusiyyətləri anlamını verir. Şəxsiyyətin orijinallığı isə onun əqli, iradi və hisslər aləmində özünü göstərir. Məsələn, düşüncənin orijinallığı bilgilərin yenidən xüsusi formada işlənməsində biruzə verir. Fərdiyyət insanın temperament növlərində, tələbatlarında, xarakter xüsusiyyətlərində, maraq dairəsində, intellektində, bacarıqlarında və s. kimi spesifik əlamətlərində özünü göstərir [7, s.57-59].

Şəxsiyyətin formalaşmasına bir sıra amillər təsir göstərir. Əsas amillərə irsiyyət, mühit, tərbiyəni aid etmək olar. Şəxsiyyətin formalaşmasında, ilk növbədə, təbii, bioloji və anadangəlmə amillərlə xarici, yəni tərbiyənin, təlimin və sosial mühitin qarşılıqlı təsiri nəticəsində baş verən inkişaf prosesi nəzərdə tutulur. Şəxsiyyətin formalaşmasında bioloji yoxsa sosial amillər məsələsi hələ də mübahisəli formada qalmaqdadır. Aydındır ki, insan bioloji, təbii quruluşa malik olsa da o, tarixi inkişafın məhsuludur. İnsanın bütün psixi prosesləri ictimai amillərin təsiri ilə şərtlənir. Bu da bilinir ki, şəxsiyyət öz təbiəti etibarilə ictimaidir və onun bütün psixi xassə və keyfiyyətlərinin inkişaf mənbəyi və yaradıcı fəallığı sosial mühitdə və cəmiyyətdədir. Belə ki, bunlar heç də şəxsiyyətin bioloji, təbii varlıq olduğunu inkar etmək demək deyildir. Sözsüz ki, insanın psixi inkişafı üçün müvafiq təbii, bioloji imkanının olması da vacibdir. İnsanın beyni, sinir sistemi və s. olmalıdır. İnsanın təbii xassələri psixi inkişafın vacib amilini təşkil edir. O cümlədən, bununla yanaşı, təbii xassələr özlüyündə nə insanın xarakterini, bacarığını, nə də maraqlarını, əqidələrini

müəyyən etmir. Beynin quruluşu bioloji orqan kimi şəxsiyyətin təməlidir. Şəxsiyyətin bütün xass və keyfiyyətləri isə sosial varlığın məhsuludur. Buna görə də tipik beyinə sahib olan uşaq cəmiyyətdən kənar böyüdülərsə, o heç bir zaman şəxsiyyətə dönüşə bilməz. İnsanın sinir quruluşu ətraf mühiti qavramaq üçün müəyyən anadangəlmə imkanlara sahibdir. Ancaq ki, insanın hər hansı bacarığı məhz fəaliyyət zamanı, sosial həyat imkanlarında formalaşır.

Müasir psixologiyada insan şəxsiyyətində iki amilin - bioloji və sosial amillərin təsirilə formalaşan nəzəriyyələr önəmli yer tutur. Şəxsiyyətin formalaşması dedikdə, insanın müəyyən keyfiyyətlərə (zehni, psixi, əmək, mənəvi və s.) sahiblənməsi və özünü inkişaf etdirməsi başa düşülür. Şəxsiyyət birdən-birə formalaşmır; o, müəyyən mərhələlərdən keçir. Psixoloqlar 3-6 yaşında olan uşaqların da şəxsiyyətin müəyyən əlamətlərinə malik olduğunu deyirlər.

İnsan şəxsiyyəti bir sıra amillərin təsiri və qarşılıqlı fəaliyyətinin nəticəsi kimi formalaşır. Bu prosesdə bioloji və sosial amillərin özünəməxsus əhəmiyyəti var [9].

**İrsiyyətin əhəmiyyəti.** İnsan bioloji varlıq kimi dünyaya gəlir, bunun üçün də irsiyyət qanunu öz təsirini göstərir. İrsiyyətin maddi daşıyıcıları genlərdir. İrsən fiziki əlamətlər (qamət, sifət quruluşu, gözün və saçın rəngi və s.), habelə fizioloji əlamətlər (sinir sisteminin tipi, sinir hüceyrələrinin miqdarı və s.) nəsildən-nəslə keçir.

Bəzi empirik faktlar əsasında qabiliyyətlərin irsən keçməsi haqda müəyyən rəylər irəli sürülür. Məsələn, dünya şöhrətli bəstəkarlardan Baxın 16, Ü.Hacıbəyovun 4 nəslinin öyrənilməsi əsasında bu nəsillərdə çoxlu musiqiçi olduğu müəyyən edilmişdir. Lakin bu fikri təkzib edən digər faktlar da vardır. Belə ki, A.S.Puşkinin 256 nəvə, nəticə və kötükcəsi içərisində heç bir şair və yazıçı olmamışdır.

İnsan nə hazır qabiliyyətlə, nə də "ağ lövhə" kimi doğulur. O, müəyyən təbii imkanlarla dünyaya gəlir. Təbii imkanlara sinir sisteminin və beyin quruluşunun xüsusiyyətləri, analizatorlar sistemi (görmə, eşitmə, danışıq aparatı və s.) daxildir. İnsan genləri və onların mutasiyaları ilə kombinasiyaları həddən artıq çox olduğu üçün (insanın hər bir hüceyrəsindəki xromosomlarda təxminən 20 min gen olur) tam eyni irsi imkana malik olan iki adam tapmaq çətindir. İnsanın təbii imkanları dəyişməz deyildir. Onlar həyat şəraitinin, tərbiyə və mühitin təsiri ilə dəyişə bilər [7, s.52-54].

**Mühitin əhəmiyyəti.** Mühit dedikdə, başlıca olaraq, sosial, qismən isə təbii-coğrafi mühit nəzərdə tutulur. Təbii mühit-ərazinin relyefi, fauna və florası, havanın tərkibi və təzyiqi şəxsiyyətin inkişafına, onun mənəvi cəhətdən yetkinləşməsinə əhəmiyyətli təsir göstərən amillərdir. Təbii mühit anlayışına dağ, dərə, hava, su, meşələr, günəş və s. aiddir. Nümunə üçün: fiziki inkişafda, insanın sağlamlığında hava və suyun mühüm rolu olduğunu heç kim inkar etmir. Bununla yanaşı, şəxsiyyətin inkişafında sosial mühit, sosial münasibətlər əsas yer tutur. İnsan müəyyən bir mühitdə doğulur və boya-başa çatır. Bunun üçün də istər-istəməz həmin böyüdüyü mühitin təsirinə məruz qalır. "Mühit" ifadəsi məzmunca geniş olub, insana təsir edən xarici amillər quruluşunu - insanın həyat və fəaliyyəti üçün vacib olan təbii və ictimai şəraiti əhatə edir. Mühit insana müsbət və ya mənfi təsir edə bilər. İnsanlar üçün yaradılan əlverişli mənzil-məişət şəraiti, mədəni-maarif, təhsil və sağlamlıq ocaqları, əmək və istirahət şəraiti, insan münasibətləri şəxsiyyətin inkişafına əsaslı təsir edən sosial mühit amillərinə aiddir. Şəxsiyyətin formalaşmasında sosial mühit amili daha böyük təsirə malikdir. Sosial mühiti iki növə ayırsaq: mikro və makromühit formasında olar. Mikromühit fərdi birbaşa əhatə edən mühitdir (ailə, məktəb, dostluq mühiti). Makromühit isə cəmiyyət həyatıdır, geniş sosial mühit anlayışıdır. İnsanın inkişafına hər iki mühit növü güclü təsir edir. Uşaqlıqda mikromühitin təsiri daha böyük olur. Körpəlikdən heyvan sürüsünə düşən uşaqların həmin heyvanın xüsusiyyətlərini mənimsəməsi faktları sübut olunmuşdur.

Mikromühit geniş sosial mühitin tərkib hissərlərindən biridir. Cəmiyyətdə baş verən dəyişikliklər ailədə, məktəbdə, iş yerində də özünü göstərir. Cəmiyyətin demokratik xüsusiyyəti, hüququn aliliyi, ədalət prinsipləri şəxsiyyətin inkişafı üçün böyük rola sahibdir. Biri məşhur fizik

Pifaqordan soruşub: "Uşağımı ağıllı, tərbiyəli böyütmək üçün mən nə edə bilərəm?" Alim deyib: "Əgər övladınız ədalətli cəmiyyətdə böyüyərsə, heç nədən narahat olmayın. Digər halda verdiyiniz tərbiyənin də müsbət nəticəsi olmayacaqdır. İnsanın xasiyyətinin, xarakterinin formalaşmasında mühitin əhəmiyyəti ilə bağlı Azərbaycan filosofu Siracəddin Urməvi (1198-1283) önəmli fikirlər bildirmişdir. Siracəddin, deyirdi ki, insanın xasiyyəti anadan gəlmə deyil, həyatda formalaşır. O, qeyd edirdi: "Atası xristian olan körpəni müsəlman tərbiyə edərsə müsəlman olacaqdır". Onun fikrinə görə, uşağın saya (ağ) beynində xeyir və ya şər sonradan iz buraxır.

Sosial mühit daima dəyişir və yenilənir. Bu mühitdə insan aktivdir, fəaliyyətdədir və fəaliyyət prosesində insan, öz mühitini dəyişdirir. Sosial mühit əlverişli qurulduqda, tənzim edildikdə şəxsiyyətin təbii imkanlarının açılmasına, inkişaf etməsinə şərait yaranır. Bunu qiymətləndirmədikdə neçə-neçə rəssamlıq, musiqi bacarığı olan insan adi ömür yaşayır, onlarda olan bacarıq inkişaf üçün sosial şərait uyğun olmadığından qapalı qalır. Sosial imkan (geniş və işıqlı mənzil, uşaqlar üçün xüsusi guşə, pulsuz təhsil almaq üçün tədris müəssəsi, yazı ləvazimatı, asudə vaxtın səmərəli təşkil edilməsi imkan, bacarıq və fitri istedadı inkişaf etdirəcək dərnək, stadion və s.) təmin olunması şəxsiyyətin tipik inkişafına, tərbiyə işinin düzgün formalaşmasına böyük təsir edir [2, s.180-182].

Şəxsiyyətin formalaşmasına, əsasən məktəb yaşlı uşaqlara ailə mühiti çox böyük təsir göstərir. Ailə onların maraq və tələbatlarının həyata keçməsi üçün lazımi imkan formalaşdırır. Şəxsiyyətin formalaşmasına mühitin, yoxsa irsiyyətin daha çox təsir göstərdiyi ilə bağlı sosial araşdırmaçılar arasında vahid fikir birliyi mövcud deyil. Bir sıra tədqiqatçılar isə şəxsiyyətin inkişafında mühit və irsiyyətin təsirinin dəqiq ölçülməsinə cəhd etmişlər. Çox ziddiyyətli nəticələr əldə etmişlər. Nəticələrə əsasən aydın olmuşdur ki, fərqli-fərqli adamların formalaşmasında irsiyyət və mühitin təsir payı eyni deyil. Bəzi insanlarda irsiyyət bəzilərində isə mühitin təsiri daha çox yer almışdır.

**Tərbiyənin əhəmiyyəti.** Şəxsiyyətin formalaşmasında tərbiyə çox böyük təsirə sahibdir. Mühit insana mənfi təsir göstərə bildiyi halda, tərbiyə məqsədyönlü təsirə sahibdir. İnsanın təbii mühitə münasibəti tərbiyə ilə əlaqədardır. Tərbiyə mühitin mənfi təsirlərini neytrallaşdıra bilir. Buna görə də hər kəs mühitin mənfi təsirinə eyni dərəcədə zərər görmür. Tərbiyə insanın təbii bacarıqlarının üzə çıxarılmasına dəstək olur. Şəxsiyyətin formalaşması sosial münasibətlər quruluşu ilə birbaşa bağlıdır. Tərbiyədən geniş mənada söz açılanda əsasən bu cəhəti – ictimai münasibətlər, həmçinin, ailə münasibətləri quruluşunun insana təsirini nəzərdə tuturlar. Ailədə uşaqların sosial inkişaf imkanları müxtəlif amillərlə şərtlənir, onlardan ikisini ayrı qeyd etmək gərəkir. Birinci növ amillərə ailə münasibətləri – ata ilə ana, valideynlərlə uşaqlar, bacı ilə qardaş, və s. arasındakı münasibətlər aiddir. Ailənin maddi durumu, mənzil şəraiti ikinci növ amillər sırasına aiddir.

Fərqli-fərqli istiqamətlərdə fəaliyyət göstərməklə uşaq müxtəlif tərbiyə keyfiyyətləri, düzgün davranış vərdişləri formalaşdırır. Cəmiyyətin, müəllim və valideynlərin tələbləri müəyyən müddətdən sonra insanın daxili tələblərinə çevrilərək, onun rəftar, davranış və fəaliyyətini idarə edir. Bununla da, təhsil özünütəhsillə, tərbiyə isə özünütərbiyə ilə birləşir [5, s.6].

Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi önəm verilməlidir. Valideyin ilə övlad arasında bağ o qədər möhkəm olmalıdır ki, övlad valideyinin onun tərəfində olduğunu hiss etməlidir. Eyni zamanda, valideynin övladına qarşı empatiya hiss olmalıdır. Özünü uşağın yerinə qoymalı, qadağaların ona necə təsir etdiyini hiss etməlidir. Uşaqlar ailədə məhəbbətlə böyüdülməlidir. Bir Çin atalar sözündə deyildiyi kimi: "Uşağınız ovcunuzda saxladığınız quş kimidir, möhkəm sıxsanız ölə bilər, boş buraxsanız uçub gedəcəkdir". Uşaqlarımıza bir şəxsiyyət kimi yanaşmalıyıq, onların dərdinə şərik olmalıyıq, dostları olmalıyıq, dəyərli olduqlarını hiss etdirməliyik.

Ailədə ata ilə ananın münasibəti hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir edir. Övladlar yaşa dolduqca həmin münasibətləri qavrayırlar, bu zəmində də oğlan və qızların xarakter əlamətləri formalaşır [1].

Araşdırmalara əsasən, ata və anaların çoxunun ailə tərbiyəsi haqqında biliklərinin ümumi xarakter daşıdığı müəyyən olub. Tədqiqatlardan müəyyən edilmişdir ki, uşağın sağlam psixoloji inkişafa sahib olması üçün onun ana ilə emosional ünsiyyəti xüsusən də, ilk üç ildə böyük rola malikdir. Uşağın psixoloji ehtiyacını sevgi, məhəbbət, ülvi hisslərin toplusu kimi dəyərləndirmək olar. Buna görə də müasir dövrdə valideynlərin pedaqoji savadlılığı və mədəniyyətinin yüksəldilməsi önəmlidir. Əsasən də, anaların savadlı olması uşağın tərbiyəsində, ailədaxili münasibətlərin düzgün qurulmasında vacibdir. Ər-arvad, valideyn-uşaq və uşaq-uşaq münasibətləri ailə tərbiyəsinin əsaslarıdır.

**Ünsiyyətin əhəmiyyəti**. Ünsiyyət həm nitq vasitəsilə həm də nitqdən kənar vasitələrin köməyliyi ilə baş tutan qarşılıqlı münasibətlərdir. Ünsiyyət insanlar arası əlaqə vasitəsidir və o cümlədən ünsiyyət bir inkişaf prosesidir. Hər hansı insan birliyi digər insan birliyi ilə qarşılıqlı təmas, əlaqə qurmadan anlaşa bilməzlər. Ünsiyyəti başqa təriflə izah etsək, "ünsiyyət iki və ya daha çox insanın əlaqələrini müəyyən etmək və ya birliyə istiqamətlənmiş qarşılıqlı təsirdir". Ünsiyyət prosesi cürbəcür yollarla baş verir. Bu yolların içində xüsusi yer tutan nitqdir.

Ünsiyyət zamanı bir sıra çətinliklər yaranır. Bu çətinliklər əsasən psixoloji və sosial xüsusiyyət daşıyır. Belə çətinliklər insanın müəyyən fərdi-psixoloji xarakterə sahib olmağından qaynaqlanır. Psixoloqların fikrinə görə, ünsiyyət zamanı baş verən çətinlikləri həll etmək üçün şəxslərdə ünsiyyət vərdişlərini formalaşdırmaq lazımdır. Müasir dövürdə ünsiyyət vərdişini formalaşdırmaqdan ötəri psixoloji-sosial treninqlərdən istifadə edilir.

Ünsiyyət vərdişlərinin formalaşması üşün qrup metodundan istifadə edilir. Qrup metodu həmçinin şəxsiyyətin formalaşması üçün vacib olan özünüdərketmə, qarşılıqlı təsir bacarıqlarını da inkişaf etdirmiş olur. Müasir dövrdə sosial-psixoloji treninq zamanı ilkin olaraq vasitə kimi cürbəcür qrup diskussiyalarından və rollu oyunlardan, tamaşalardan istifadə olunur. Ünsiyyət zamanı qrup üzvləri bir-birilərinə psixoloji təsir edirlər [3, s.17-19].

**Nəticə**

Hər bir valideyn övladının şəxsiyyət kimi formalaşmasını təşkil etməlidir, onun mühitinə və tərbiyəsinin düzgün qurulmasına önəm verməlidir. Müəllimlər şagirdlərdə ünsiyyət vərdişlərinin, qrup işinin aparılması, etik prinsipləri aşılamalıdır və şagirdlərin asudə vaxtlarının səmərəli təşkilinə istiqamət verməlidir. Siqaret, alkoqol və narkotik maddələrdən istifadənin ziyanları və fəsadları işıqlandırılmalıdır. Onları cinayətkarlıq və ya digər hər hansı deviant hərəkətlərdən çəkindirməldir. Sosial qabiliyyətlərin inkişaf etdirilməsi üçün tədris müəssələrində müxtəlif maarifləndirici klublar təşkil olunmalıdır məsələn: diskussiya klubu, xarici dil klubu. Sağlamlığın möhkəmləndirilməsi və fiziki tərbiyə bacarıqlarının inkişaf etdirilməsi üçün yeniyetmə və gənclərin çoxluq təşkil etdiyi bölgələrdə məhəllələrdə, tədris müəssisələrində idman alətləri ilə zənginləşdirilməsi önəmlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Allahverdiyeva L. Uşaq şəxsiyyətinin formalaşmasında ailədaxili münasibətlərin rolu. // [Elektron resurs]/ URL: https://nuhcixan.az/news/cemiyyet/20402-usaq-sexsiyyetinin-formalasmasinda-ailedaxili-munasibetlerin-rolu. Müraciət edilib: 12.12.2022

2.Elmamuz B.İ., Elmamuz M.İ., Qurbanəlizadə F.Q. Şəxsiyyətin inkişafının ilkin təbii şərtləri və sosial şəraiti. // Tarix və onun problemləri. 2012, N 1, s.179-183

3.Həmzəyev M.A., Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Dərs vəsaiti, Bakı:Elm və Təhsil. 2007, 180s.

4. Həsənli S. Şəxsiyyətin uğurlu sosiallaşmasına sosial rolların təsiri. // [Elektron resurs]/ URL: https://psixologiyainstitutu.az/2020/11/30/s%C9%99xsiyy%C9%99tin-ugurlu-sosiallasmasina-sosial-rollarin-t%C9%99siri/. Müraciət edilib: 15.12.2022

5. Həsənov C. Şəxsiyyətin inkişafında və formalaşmasında təlim-tərbiyənin rolu//Respublika.- 2010.- 28 oktyabr.- S. 6.

6. Larry Hjelle, Daniel Ziegler "Personality Theories: Basic Assumptions, Research, and Applications", 3th ed., Washington, DC: Hemisphere. 1992, 402 p.

7. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik / Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə. Bakı: ADU nəşriyyatı, 2007. 626 s.

8. Şəxsiyyətin inkişafı və tərbiyəsi. // [Elektron resurs]/ URL: http://www.celilabad-adpu.az/dosyalar/7_muhazire.pdf Müraciət edilib: 12.12.2022

9. Xəlilov R. Şəxsiyyət insanın sosial səciyyəsi kimi. // Xəzər Xəbər, N 322, Oktyabr 2013, s.26-28

10. Uşaq şəxsiyyətinin formalaşmasında valideynlərin rolu. // [Elektron resurs]/ URL: https://aztehsil.com/news/4566-uaq-xsiyytinin-formalamasnda-valideynlrin-rolu.html. Müraciət edilib:15.12.2022

**Orkhan SHARAFKHANOV**

## THE CONCEPT OF PERSONALITY AND FACTORS INFLUENCING ITS FORMATION

**Summary**

In the article, the definition of the concept of "personality" is given, the main features specific to the personality and the aspects that distinguish it from others are mentioned. Here, the importance of the main factors influencing the formation of a person as a personality is emphasized.

There are aspects and characteristics that distinguish a personality from an individual and from an individual. All three combine human traits and characteristics. A number of factors influence the formation of personality. Heredity, which is mainly a biological factor, can also be indicated by factors such as environment, education, communication, and family. One of the main social issues of society is the formation of a person as a personality.

**Keywords:** *personality, individual, human, biological factors, psychological factors, social factors*

**Орхан ШАРАФХАНОВ**

## ПОНЯТИЕ ЛИЧНОСТИ И ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ЕЕ ФОРМИРОВАНИЕ

**Резюме**

В статье дается определение понятия «личность», упоминаются основные черты, присущие личности, и аспекты, отличающие ее от других. Здесь подчеркивается значение основных факторов, влияющих на формирование человека как личности.

Существуют аспекты и характеристики, отличающие личность от индивидуума и от индивидуума. Все три сочетают в себе человеческие черты и характеристики. На формирование личности влияет ряд факторов. На наследственность, которая в основном является биологическим фактором, также могут указывать такие факторы, как окружающая среда, образование, общение и семья. Одной из главных социальных проблем общества является формирование человека как личности.

**Ключевые слова:** *личность, индивидуум, человек, биологические факторы, психологические факторы, социальные факторы.*

**Rəyçi: p.e.d., professor Rəna Qədirova**

UOT 332.12

**Ramil ŞAHHÜSEYNLİ***

# AZƏRBAYCANDA TURİZM KOMPLEKSİNİN RƏQABƏT QABİLİYYƏTLİYİNİN OPTİMALLAŞDIRILMASI SİYASƏTİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 21 fevral 2023; çapa qəbul edilmişdir: 25 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 21, 2023; accepted for publication: 25 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalədə Azərbaycanda turizm sektorunun inkişafı ilə bağlı mövcud potensial amillər nəzərdən keçirilmişdir. Burada potensialın səmərəli şəkildə istifadəsi və ölkə büdcəsinə turizm sektorundan daxilolmaların intensivləşdirilməsi məqsədilə bir sıra təkliflər verilir. Turizm sahəsi ilə bağlı qəbul edilmiş müvafiq dövlət proqramları, qərar və sərəncamlardan irəli gələn məsələlərin optimal həlli yolları analiz edilir. Məqalədə, həmçinin, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən quruculuq-bərpa işləri zamanı bölgənin turizm imkanlarının da nəzərə alınması ilə bağlı kompleks təkliflər təqdim olunur. Bir sıra sahələr üzrə şəhərciklərin salınması, əcnəbi qonaqların diqqətini cəlb etmək üçün ultramüasir ekskursiya planlarının tərtib olunması və s. amillər bu təkliflərin mahiyyətini təşkil edir. Burada fərdi və koorporativ müştərilərə göstərilən xidmət səviyyəsinin gəlir və xidmət sahələri baxımından fərqli və oxşar cəhətləri mühüm əhəmiyyət kəsb edir. Müasir tələblərə cavab verən turizm şəhərciklərinin, açıq hava altında və ya qapalı mühitdə olmasından asılı olmayaraq yaradılması, turistlərin kütləvi marağını cəlb edən kosmos, kitab, rəsm və memarlıq kimi sahələrdə maraqlı layihələrin həyata keçirilməsi qeyd edilən təkliflər arasında yer alır.

**Açar sözlər**: *kreativ turizm, sosial siyasət, sosial xidmət, Rəsm və Memarlıq şəhərciyi, Kitab şəhərciyi, Kosmos şəhərciyi*

## Giriş

Yurdumuzun bizlərə təqdim etmiş olduğu təbii sərvətlərinə, resurslarına öncədən düşünülmüş və planlaşdırılmış qayda ilə yanaşıb məhsuldar şəkildə istifadə edərək qurub, yaratdığımız təqdirdə ondan bəhrələnmək daha zövqlü və cazibədar olacaq. Bu zövqü isə başqa insanlar ilə paylaşmaq üçün bizə ən gözəl imkanı verən vasitə turizmdir ki, "hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib" [1]. Təbii olaraq bu imkanları reallaşdırmaq üçün ən böyük təkanı isə özündə bu sektorun davamlı tərəqqisi və iqtisadiyyatın başlıca sahələrindən olması məqsədini ehtiva edən ölkə başçısı İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" vermişdir. Azərbaycan Respublikasında turizm sektorunun ən əsas inkişaf prioritetlərindən birinin "rəqabət qabiliyyətli turizm infrastrukturu və turizm industriyasının yaradılması" olduğunu bilərək "Dövlət Proqramında" əks olunan "rəqabət qabiliyyətli müasir turizm kompleksləri yaratmaq və bu sahədə yeni iş yerlərinin açılmasını təmin etməyin" qarşıda aşılması labüd olan məsələlərdən olduğu açıq göstərilmişdir.

## Azad edilmiş ərazilərdə turizmin inkişafı imkanları

* *Azərbaycan Turizm və Menecment Universiteti, magistr. Azərbaycan, Bakı*
*e-mail:*ramil.sahhuseynli@gmail.com

44 günlük müharibə nəticəsində tarixi qələbə ilə azad etdiyimiz Qarabağ və Şərqi Zəngəzur torpaqları Faradeyin "xəyal qanadlarında uçan elm möcüzələr yaratmağa qadirdir" [2] aforizmində deyildiyi kimi əslində bizə bu möcüzəvi torpaqlarda möcüzələr yaratmaq xəyalını qurmağa və Azərbaycanın hər sahədə olan elmli insanlarının yaradıcı təfəkkürü, dünyagörüşü və zəngin təxəyyüllərindən doğan ideyaları ilə bu böyük vəzifənin öhdəsindən gəlmək imkanı vermiş olur. Belə ki, Prezident İlham Əliyevin "Masallı, Lerik və Göygöl rayonlarının təyin olunmuş yeni icra hakimiyyətlərinin başçıları ilə görüşündə" vurğuladığı kimi: "Azərbaycan ərazi baxımından o qədər də böyük ölkə deyil, bizim üçün hər qarış torpaq qiymətlidir, dəyərlidir və Azərbaycanın çox böyük perspektivləri var, çox böyük potensialı var. Buna görə də xüsusilə həm inşaatda, həm kənd təsərrüfatı sahəsində, turizm sahəsində bütün qaydalara riayət edilməlidir. Baxmaq lazımdır, yaradılan obyektlər nə dərəcədə bu və ya digər bölgənin memarlıq üslubuna cavab verir, nə dərəcədə müasir normalara cavab verir, bunun inşaat zamanı əmsalı normalara uyğundur, yoxsa yox".

Təbii ki, Qarabağ və ətraf rayonların turizm imkanlarından tam istifadə üç əsas amil təmin edildikdən sonra mümkün olacaq ki, bunlar da ərazilərdə təhlükəsizliyin təmini, əhalinin oraya qayıdışı və infrastrukturun yaradılmasıdır [3]. Bunun üçün "Prezidentin bu bölgələrdə şəhərsalma normaları qorunur" sözünə istinad olaraq ilk öncə master planların hazırlanması ilə ümumilikdə yaşayış komplekslərini, kənd və şəhərləri özündə birləşdirən elə infratruktur layihələri qurula bilər ki, həm əhalinin o torpaqlara qayıdışına böyük stimul olsun və həm də ki, böyük turist axınına səbəb olmaqla daha çox sahələrdə inkişafa və iş yerlərinin açılmasına, ümumi rifah halının yüksəlməsinə, həm maddi o cümlədən mənəvi şövqə, yüksəlişə səbəb olsun.

Düşmən tapdağından təmizlənmiş Qarabağ və Şərqi Zəngəzur torpaqları yeni turizm növlərinə uyğun quruculuq işlərinin aparılması üçün bir çox cəhətləri ilə bərabər həm çox uyğundur həm də ərazisi olduqca əlverişlidir. Deməli, tarixi torpaqlarımızda yaradıla biləcək və bununla da yeni tarixin yaranması və yazılmasına başlanğıc ola biləcək kreativ turizm növləri ilə müşayiət olunan bu bölgələrimizin ən maraqlı diyara çevrilməsi üçün dünyanın ən cazibədar tikili, şəhər, kənd və s. layihələrinin, master planlarının qurulmasına böyük ehtiyacı var. Bu minvalla sıfırdan qurulacaq, yenidən yaradılacaq olan bu bölgələrin özündə təkcə istirahət və ya ziyarət tipli turizmin təşkili nəzərdə tutulmamalı, bütün bunlarla bərabər Azərbaycan Respublikasına aid bu əsrarəngiz ərazilər müasir insanın müasir tələbləri "inkişaf etməsi, insanların yeni bilgilər əldə etməklə birbirindən fərqli sahələr üzrə ilhamlanması və daha yaradıcı işlərin görülməsinə təkan verəcək həm gözlərini, həm də xəyal dünyalarını bəsləyəcək" sahələr üzrə turizm məhsulları hazırlana bilər. Beləliklə, bu ərazilərdə turizm infrastruktur və komplekslərinin, ümumiyyətlə yaşayış məskənlərinin sözü gedən layihələr əsasında qurulmasını bir sıra nümunələrlə göstərə bilərik.

**Kosmos şəhərciyi**

Qurulan bu şəhərcik nəinki Azərbaycan, bütün dünyada çox maraqla qarşılana və özündən söz etdirə bilər. İndi hal hazırda başqa planetlərdə həyatın var olub, olmaması üzrə davam edən araşdırmalar və yaxud da bəzi planetlərdə məsələn, Marsda yaşayışın qurula biləcəyi ideyaları və bu mövzularda yazılan kitablar və çəkilən filmlər ilə kosmos sahəsinə maraq üst səviyyələrə yüksəlmiş və bu sahədə çalışıb çalışmamasından asılı olmayaraq hər bir insanın diqqətində əhəmiyyətli yer tutmuşdur. Nəhayət, bu həvəs o dərəcədə yüksəlmişdir ki, nəticədə maddi dəyəri çox yüksək olan kosmos turizmi adında yeni turizm növünün yaranmasına səbəb olmuşdur. Sonralar bir sıra müxtəlif sahələrdə ixtisaslaşmış Cənubi Afrika kompüter mühəndisi Mark Shuttlewort, Kanadalı rəssam Gul Laliberte və s. kimi milyonçu və milyarderlər fərqli zamanlarda kosmosa səyahət etmək ünvanına sahib olmuşlar. Belə ki, bu səyahətlərin olduqca bahalı olması həqiqəti zatən hər bir insanın gerçəkləşdirə bilməyəcəyi və onun arzularında sadəcə xoş bir xəyali macəra olaraq qalacağı reallığı bizə onu deməyə əsas verir ki, "niyə biz bu xəyali macəranı öz araşdırılaraq seçilmiş və bu məqsəd üçün əlverişli sayıla biləcək bir ərazimizdə Kosmos şəhərciyi adında unikal bir şəhərcik yaratmayaq?" Bu sahəyə çox maraq və tələbin olduğunun fərqində olaraq bu təklif ilə qurulacaq olan bu heyrətamiz dünyanın həm insanlara kosmosa fiziki səyahət etmək arzusunun reallaşması ilə

bu təcrübənin yaşadılmasında, həmçinin kosmos barədə çox da bilgisi olmayan insanların məlumatlanması, kosmos sahəsində daha böyük araşdırmaların edilməsinə, baxış bucaqlarının genişlənməsi və gördüklərindən, yaşadıqları bu təcrübədən ilhamlanaraq yeni kəşflərin olunması, yeni məhsulların istehsalına təkan verməsi özünü əhəmiyyətli dərəcədə doğrulda bilmək potensialına malik olduğunu göstərir. Nəticədə, kosmos turizmi üçün inşa olunan, böyük turizm axınına səbəb olması gözlənilən və yerli əhalinin yaşadığı Kosmos şəhərciyində sağlamlıq, təhsil, iş, istirahət, əyləncə və s. kimi həyat şəraitini təmin edəcək evlər, binalar və otellər, təhsil ocaqları, mağazalar, müəssisələr və digər zəruri infrastrukturların göy cisimləri, planet və kosmik gəmilər formasında planlanması günümüz və gələcəyə uzun müddətli yatırım olacaqdır.

**Kitab şəhərciyi**

"Hər kitab özü bir xəzinə olmaqla yanaşı, həm də neçə-neçə başqa xəzinələrə açardır". Qədimdən bəri insanların öyrənməsi, bir şeyləri kəşf etməsi və öyrəndiklərini öz təcrübələri ilə birləşdirib öyrədə bilməsinin təməlində başlıca yer tutan kitablar ən böyük sığınacaq rolunu oynamışlar. Beləliklə, "Kitab şəhərciyi" adlı nağıllar aləmini anımsadacaq belə bir unikal yerin qurulması fövqəladə bir təsir qoyacaqdır. Belə bir qeyri-adi diyarda inşa olunacaq restoran, kafelər, təhsil və digər müəssisələr, memarlıq abidələri, pilləkən, skamyalar və başqa obyektlərin kitablar formasında inşası dünyaya gözəl bir nümunə və əhəmiyyətli bir mesaj olacaqdır. Bununla bərabər bu şəhərciyə uyğun dünya kitab oxucularına çox cazibəli gələ biləcək böyük bir kitabxananın təsis edilməsi məqsədə uyğun addım olacaqdır. Kitab şəhərciyində qurulacaq olan bu tikililərin həm öz yazıçılarımızın, həm də dünya yazıçılarının və əsərlərinin adlarını daşıyan kitablar formasında inşası isə görünməmiş bir sərgi xarakteri daşıyacaq və insanlarda Azərbaycanın bu möhtəşəm diyarını görməyə olan şövqünü daha da artıracaq.

**Oyuncaqlar aləmi**

Oyuncaqlar olur, bəlkə də, uşaqların əsl dostları. Bəlkə də valideynləri, qohumlarından daha yaxın olurlar onlara. Onları sadəcə izləyən, qarışmayan, olduqları kimi qəbul edən və onları düzəltməyə çalışmayan yeganə, səssiz dostları. Hər bir uşağın xəyal dünyasının genişlənməsində izi olan bu oyuncaqlar, əsas ünsiyyət qura bildikləri tək ruhsuz varlıqlardır. Fərqli oyuncaqların uşaqlarda fərqli təsirləri qoyduğunun fərqində olaraq müxtəlif hekayələrə sahib oyuncaqların müxtəlif yaradıcı şüurların xəyali məhsulları olaraq ortaya çıxdığını bilirik. Bunu Professor Aydın Talıbzadənin nağıllarımız haqqında söylədiyi "uşaqlar dünyaya nağıllardan boylanar, nağıldan nağıla buğda boyda böyüyərlər..." [4] gözəl kəlamlarında görmək mümkündür. Beləliklə, başqa bir nümunə olaraq qeyd etdiyimiz "Oyuncaqlar aləmi" adındakı bu şəhərciyin dağlıq, qayalıq bir ərazimizdə qurulması ilə bu fantastik dünyanın oyuncaq modelləri əsasında inşa edilməsi və Kapadokya bölgəsindəkinə bənzər balonlar vasitəsilə insanların bu füsunkar, görməli yerləri gəzməsi ölkəmizin cəlbediciliyini daha neçə qat artıracaq və turistlərin diqqətini çəkmək və onların bu torpaqlara geniş axınının başlamasında mühüm rol oynayacaqdır.

**Rəsm və Memarlıq şəhərciyi**

"Rəng harmoniyasının əsas hədəfi insan ruhudur. Rənglərin insanların düşüncə, hiss, duyğu və davranışlarına təsir etdiyi" [5] həqiqəti imkan verir ki, istedadlı rəssam, dizayner və memarlarımızın potensiallarını ortaya çıxarmaqlarına şərait yaratmaqla elə bir şəhərcik quraq ki, o, ilk baxışdan insanları özünə cəzb etmək qabiliyyətində olsun və kütləvi turizm axınına səbəb olsun.

**Nəticə**

Beləliklə, bir bütünün fərqli parçalarının birləşməsi ilə mədəniyyətin beşiyi sayılan Qarabaqda "Rəsm və Memarlıq şəhərciyi" adında rəssamı, memarı və başqa sənətkarların yaradıcı şüuru, düşüncələri ilə qanunla nizamlanmış formada küçələrin, müxtəlif obyektlərin, tikililərin mükəmməl rəng harmoniyasında anlamlı şəkillərin çəkiləcəyi belə bir bölgənin qurulması Azərbaycan mədəniyyətinin dünyaya nadir ifadəsi olacaqdır.

Bölgələrdə qurulan bu unikallığın daxilində yerli əhalinin yaşayışının təmin olunması, yəni inşa olunacaq obyektlərin, tikililərin yalnızca turistlərin yerləşməsi üçün nəzərdə tutulmaması, cəmiyyətin inteqrasiyası ilə bir yaşayış komplekslərinə çevrilməsi insanlarda yaradılacaq bu

əsrarəngiz diyara köçmək üçün böyük stimul yarada və bu da "Böyük Qayıdış" prosesinin daha da sürətləndirilməsinə mühüm təkan verə bilər.

**İstifadə edilmiş ədəbiyyat**

1. Beynəlxalq Kuklaçı Günü: Beynəlxalq Kuklaçı Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait. Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020. 35 s.

2.Hüseyin Akyüz, Hz. Peygamberin hadislerinde renklerin dili // Atatük Üniversitesi İlahiyat Fakültesi Dergisi, Sayı: 41, Erzurum 2014, s.373-397

3.Qarabağı Qafqazın ən böyük turizm məkanına çevirmək olar. // [Elektron resurs]. URL: https://fed.az/az/turizm/qarabagi-qafqazin-en-boyuk-turizm-mekanina-cevirmek-olar-arasdirma-99594. Müraciət edilib:27.01.2023

4. Loğmanoğlu S. Azərbaycanda turizmin inkişaf istiqamətləri geniş və çoxsahəlidir // Yeni Azərbaycan.- 2011.- 24 fevral.- S.3.

5.Xəyal qanadlarında uçan elm möcuzələr yaratmaga qadirdir. // [Elektron resurs]. URL: https://www.sozler.im/q/1FDJP/xeyal-qanadlarinda-ucan-elm-mocuzeler-yaratmaga-qadirdir/ Müraciət edilib:28.01.2023

**Ramil SAHHUSEYNLI**

## POLICY FOR OPTIMIZING THE COMPETITIVENESS OF THE TOURISM COMPLEX IN AZERBAIJAN

**Summary**

In the article, the existing potential factors related to the development of the tourism sector in Azerbaijan are considered. At the same time, a number of proposals are made for the purpose of efficient use of this potential and the intensification of income from the tourism sector to the country's budget. Optimal solutions to the issues arising from the relevant state programs, decisions and orders adopted in the field of tourism are analyzed. The article also presents complex proposals regarding the consideration of the tourism opportunities of the region during the construction and restoration works carried out in our territories freed from occupation. Building campuses in a number of areas, drawing up ultra-modern excursion plans to attract the attention of foreign guests, etc. factors form the essence of these proposals. Different and similar aspects of the level of service provided to individual and corporate clients in terms of income and service areas are important here. The creation of tourist towns that meet modern requirements, regardless of whether they are open-air or indoor, and the implementation of interesting projects in the fields of space, books, painting and architecture, which attract the mass interest of tourists, are among the mentioned proposals.

**Keywords:** *creative tourism, social policy, social service, Art and Architecture campus, Book campus, Space campus*

**Рамиль ШАХГУСЕЙНЛИ**

## ПОЛИТИКА ПО ОПТИМИЗАЦИИ КОНКУРЕНТОСПОСОБНОСТИ ТУРИСТИЧЕСКОГО КОМПЛЕКСА В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

В статье рассмотрены существующие потенциальные факторы, связанные с развитием сферы туризма в Азербайджане. При этом вносится ряд предложений с целью эффективного использования этого потенциала и интенсификации поступлений от туристической сферы в бюджет страны. Анализируются оптимальные пути решения вопросов, вытекающих из соответствующих государственных программ, решений и распоряжений, принятых в сфере туризма. Также в статье представлены комплексные предложения по учету туристических возможностей региона при проведении строительно-реставрационных работ на наших освобожденных от оккупации территориях. Строительство кампусов по ряду направлений, составление ультрасовременных экскурсионных планов для привлечения внимания иностранных гостей и т. д. факторы составляют суть этих предложений. Здесь важны разные и схожие аспекты уровня обслуживания индивидуальных и корпоративных клиентов по доходам и направлениям обслуживания. Создание туристических городков, отвечающих современным требованиям, вне зависимости от того, открытые они или закрытые, реализация интересных проектов в области космоса, книги, живописи и архитектуры, привлекающих массовый интерес туристов, относятся к числу приоритетных задач. упомянутые предложения.

**Ключевые слова:** *творческий туризм, социальная политика, социальное служение, кампус искусств и архитектуры, кампус книги, кампус космонавтики.*

**Rəyçi: f.e.d, professor Rəna Mirzəzadə**

UOT: 364.044.26

**Rafail QULİYEV***

# AZYAŞLI MƏKTƏBLİLƏRİN QAMƏT POZUNTUSUNUN PROFİLAKTİKASI ÜZRƏ TƏDRİS MATERİALLARININ TƏHLİLİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 10 mart 2023; çapa qəbul edilmişdir: 15 mart 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: March 10, 2023; accepted for publication: 15 March 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalədə azyaşlı məktəblilərin qamət pozuntusunun profilaktikası üzrə tədris materiallarının təhlili verilir. Qeyd edilir ki, insanın qaməti əsasən ətraf mühitin göstərdiyi təsirlərin hesabına formalaşır. Qamətin tərbiyəsi uzun çəkən bir proses kimi uşaqlıq dövrünü əhatə edir. Sakit vəziyyətdə və eləcə də hərəkət zamanı bədənin şaquli vəziyyətdə saxlanılması sinir sisteminin, hərəkət aparatının və qamətin inkişafına güclü təsir göstərir.

Bədənin şaquli vəziyyətdə saxlanılmasında dayaq-hərəkət aparatının və xüsusən onurğa sütununun böyük rolu vardır. Sağlamlığın möhkəmləndirilməsi və qamətin tərbiyə olunması bilavasitə ətraf mühitdə olan real şəraitdən asılıdır.

**Aşar sözlər:** *qamət, profilaktika, fiziki hərəkətlər, mütəhərrik oyunlar, onurğa sütunu, qamət pozuntusu.*

## Giriş

Məktəbyaşlı uşaqların qamət pozuntusunun dinamikasının təhlili göstərir ki, bu problem ibtidai siniflərdən başlayır və getdikcə qamətində qüsuru olan uşaqların sayı daha da artır. Bu faktı nəzərə alaraq qamət pozuntusu üzərində aparılan profilaktik işlərin ibtidai yaş dövrünün ilkin mərhələsindən başlanılması daha məqsədəuyğundur.

İlkin profilaktika işləri xəstəliklərin yaranması və inkişaf etməsinə müqavimət göstərmək məqsədi ilə aparılır. Bu məsələ ilə bağlı kifayət qədər tədqiqat işləri aparılmışdır. Tədqiqat işlərinin böyük əksəriyyəti fiziki tərbiyə proseslərinin təkmilləşdirilməsi üzərində qurulmuşdur. Çünki orqanizmin düzgün inkişaf etməsi üçün əsas şərt fiziki hazırlığın normal vəziyyətdə olmasıdır. Ona görə də fiziki tərbiyə üzrə orta ümumtəhsil məktəbləri üçün tərtib edilmiş təhsil proqramlarında tərbiyəvi, maarifləndirici və sağlamlaşdırıcı vəzifələr paralel qaydada həll edilir. Çünki məktəblilərin normal fiziki inkişafı və iş qabiliyyətlərinin formalaşması bilavasitə fiziki tərbiyənin vəzifələrini yerinə yetirməyin hesabına həyata keçirilir. Lakin elmi-metodik ədəbiyyatların təhlili göstərir ki, fiziki tərbiyə ilə bağlı qarşıya qoyulan vəzifələr tam həll olunmur. Məsələn, sağlamlığın möhkəmləndirilməsi vəzifələrinin həll edilməsi üçün konkret profilaktika istiqamətli xüsusi material demək olar ki yoxdur [2, s.23-25].

Hal-hazırda mütəxəssislər tərəfindən məktəbyaşlı uşaqların fiziki tərbiyəsinin təmin edilməsi ilə əlaqədar tərtib olunmuş ən müxtəlif proqramlar mövcuddur. Lakin onların hər birində müəyyən çatışmazlıqlar var. Belə ki, qamət pozuntularının profilaktikasına aid məsələlərə kifayət

* *Bədən Tərbiyəsi və İdman Akademiyası, magistr. Azərbaycan, Bakı*
*E-mail:* rafael_770@mail.ru

qədər diqqət yetirilməmişdir. Proqram materiallarında bu məsələnin həlli ilə bağlı metodikaların məzmunu müasir dövrün tələblərinə tam cavab verə bilmir. İstifadə olunan materialların məzmunu çox az olduğuna görə onun səmərəsi də aşağı olur. Çünki materialın az olması nəticəsində qarşıya qoyulan vəzifələri sistemli şəkildə həll etmək olmur.

Aşağı sinif məktəblilərində qamət əsasən dayanıqsız xarakter daşıyır. Boyun uzununa doğru sürətli artım dövründə uşağın sümük, oynaq-bağ aparatında və əzələ sistemində inkişaf eyni vaxtda getmir. Uşağın pozası uzun müddət davam edən fiziki və psixi iş qabiliyyətlərinin təzahür etməsi üçün hazır olmur. Kiçik yaşlı uşaqlarda düzgün qamət vərdişinin sabit formada olmamasının əsas səbəbi əzələ kütləsinin az olması ilə bağlıdır [5, s.31-32].

Qeyd etdiyimiz kimi qamət ilk növbədə funksional xarakterli anlayışdır. Onu daim sabit və dəyişməz bir vəziyyət kimi səciyyələndirmək olmaz. Bədənin müxtəlif vəziyyətlərdə düzgün saxlamaq və hərəkətləri icra etmək qabiliyyətlərinin pozulması ilk növbədə mərkəzi sinir sistemində düzgün olmayan reflekslərin formalaşması nəticəsində əmələ gəlir. Bundan belə bir nəticəyə gəlmək olar ki, düzgün pozanın vərdiş halına keçməsi üçün onların sistematik qaydada təkrar olunması tələb olunur.

Yaranan qüsurların profilaktikası üçün ən önəmli vasitə sistematik fiziki hərəkət məşğələləri hesab olunur. Məktəbdə fiziki hərəkət məşğələlərinin əsas forması isə bədən tərbiyəsi dərsləri hesab olunur. Ona görə də ibtidai sinif şagirdlərinin qamət pozuntusu problemlərinin həll edilməsi üçün bədən tərbiyəsi dərslərini təkmilləşdirməyin yollarını müəyyən etmək lazımdır [1, s.33-37].

**Aşağı sinif şagirdlərinin qamətinin yaxşılaşdırılması problemləri**

Təlim prosesində aşağı sinif şagirdlərində qamətin yaxşılaşdırılması problemlərinin həll edilməsi üçün fiziki tərbiyə sahəsində fəaliyyət göstərən mütəxəssislər müəyyən təkliflər irəli sürürlər:

1.*Əlavə məşğələlərinin aparılması*. Qamət pzuntularının profilaktikası və korreksiya edilməsi ilə bağlı mövcud olan metodikaların böyük əksəriyyətində qeyd olunur ki, qamətin düzgün formalaşması istiqamətinə yönəldilən xüsusi hərəkətlər bu məsələnin müsbət qaydada həll edilməsini təmin edir.

2.*Tənəffüslərdə bədən tərbiyəsi dəqiqələri və mütəhərrik oyunların istifadə edilməsi*. Məlum olduğu kimi məktəb illərinin ilkin mərhələlərindən başlayaraq hərəkət fəallığı kəskin surətdə aşağı düşür və işçi vəziyyətlə bağlı statik yüklər artır. Bununla yanaşı aşağı yaşlı məktəblilərdə statik dözümlüyün inkişaf səviyyəsi aşağı olduğuna görə onlar üzülmə prosesinə tez məruz qalırlar. Bu məsələ ilk növbədə hərəkət analizatorunun yaş xüsusiyyətləri ilə bağlıdır. Adətən bu məsələ ilə bağlı yaranmış problemlərin həll edilməsi üçün istifadə edilən metodikalar xəbərdarlıq və poza üzülmələrinin aradan qaldırılması xarakteri daşıyırlar.

3.*Fiziki tərbiyə məşğələlərinin təkmilləşdirilməsi*. Əvvəllər aparılan tədqiqatlarda fiziki hərəkət məşğələlərində qamətin düzgün formalaşdırılması üçün bir neçə metodika tərtib edilmişdir. Bu metodikalar əsasən qol hərəkətləri üzərində qurulmuşdur. Fiziki tərbiyə üzrə məktəb proqramını diqqətlə təhlil etsək görərik ki, onu düzgün təşkil etməklə qamət pozuntularını aradan götürməklə yanaşı fiziki qabiliyyətlərin inkişaf etdirilməsi və hərəki vərdişlərin təlimini də həyata keçirmək olar [5, s.12-15].

Beləliklə, qamətin düzgün formalaşdırılması üçün metodiki baxımdan müxtəlif dərsdənkənar fiziki tərbiyə formalarının düzgün istifadə edilməsi ilə müəyyən nəticələr əldə edilsə də, onlar ancaq eksperimental xarakter daşıyırlar. Bu proses bir sıra iqtisadi çətinliklərlə bağlıdır.

Belə ki, bəzi nəticələrin əldə edilməsi üçün orta ümumtəhsil məktəblərində olan maddi-texniki baza mövcud tələblərə cavab vermir. Çünki hərəkətlərin böyük əksəriyyətinin əsas mahiyyəti bu və ya digər əzələ qruplarının inkişaf etdirilməsi ilə bağlıdır.

İbtidai siniflər üçün fiziki tərbiyə üzrə kompleks proqramın və bəzi müəlliflərin tərtib etdikləri proqramların təhlili göstərir ki, qamətin düzgün formalaşdırılması probleminin həlli ilə bağlı materiallar, ancaq gimnastika bölməsində nəzərdə tutulmuşdur. Lakin bu bölmədə materialların mənimsənilməsi üçün nəzərdə tutulan vaxt çox azdır. Proqram materiallarının tələblərinə görə təlim prosesində müəllim uşaqlara geniş əhatəli bacarıq və vərdişləri öyrətməli və onların fiziki qabiliyyətlərinin inkişaf səviyyəsini yüksəltməlidir. Lakin bu vəzifələrin həll edilməsi üçün verilən vaxt məhduddur. Buna görə də çox zaman aşağı yaşlı məktəblilərlə aparılan fiziki tərbiyə prosesinin şagirdlərin sağlamlıqlarının yaxşılaşdırılması üçün səmərəsinin səviyyəsi aşağı olur. Bəzi mütəxəssislər hesab edirlər ki, düzgün qamət vərdişinin bərpa olunması üçün ən azı 2 il sistematik məşğələlərin aparılması tələb olunur. Digər mütəxəssislər isə qamət pozuntularının profilaktikası üçün sistematik qaydada həftədə iki dəfə 10 dəqiqə xüsusi hərəkətlərin tətbiq edilməsi daha məqsədəuyğundur [4, s.9-15].

Bu problemin səmərəli şəkildə həll edilməsi üçün vasitələrin müvafiq qaydada seçilməsinin böyük əhəmiyyəti vardır. Fiziki tərbiyə ilə bağlı nəticələrin əldə edilməsi üçün ən müxtəlif vasitələrdən isitifadə oluna bilər. Lakin təlim-tərbiyə vəzifələrinin həll edilməsi üçün fiziki hərəkətlərin xüsusi çəkisi daha yüksəkdir. Ona görə də qamət pozuntularının profilaktikası və aradan götürülməsi üçün ən təsirli vasitə məhz fiziki hərəkətlər hesab olunur. Bəzi mütəxəssislər qamətin düzgün formalaşmasını təmin edən hərəkətləri iki qrupa ayırmışlar: ümumi və xüsusi.

Birinci qrupa aid olanlar insan orqanizminə ümumi təsir göstərən hərəkətlərdir. Onlar hərəkət aparatının harmonik qaydada inkişaf etməsinə təsir göstərməklə bütün əzələ qruplarını möhkəmləndirir və daha da inkişaf etdirirlər.

İkinci qrupa daxil olan hərəkətlər qamətin düzgün formalaşdırılmasında iştirak edən müxtəlif analizatorların inkişaf etdirilməsi istiqamətinə yönəldilirlər. Bir çox mütəxəssislərin fikrincə, düzgün yerinə yetirilən hərəkətlərin böyük əksəriyyəti qamətin düzgün formalaşmasına müsbət təsirlər göstərə bilər. Bəzi mütəxəssislər isə ümumi və xüsusi hərəkətlərin optimal qaydada uyğunlaşdırılmasına daha çox üstünlük verirlər. Onlar hesab edirlər ki, qamətin düzgün şəkildə formalaşdırılması üçün 30% xüsusi hərəkətlərə və 70% ümuminkişafetdirici hərəkətlərə yer vermək daha məqsədəuyğundur. Bu metodika elmi cəhətdən əsaslandırılmış və praktik baxımdan özünü doğrultmuşdur [2, s.23-25].

Məlum olduğu kimi fiziki tərbiyə dərslərində ən müxtəlif ümuminkişafetdirici hərəkətlərdən istifadə olunur. Lakin müşahidələr göstərir ki, çox zaman qamət pozuntusu ilə bağlı vəzifələri həll edərkən bəzi qanunauyğunluqlar nəzərə alınmır. Bu qanunauyğunluqlar əsasən məşğul olanların yaş və cinsi xüsusiyyətləri ilə bağlıdır.

Bir qayda olaraq, qarşıya qoyulan çoxsaylı vəzifələri həll etmək məqsədilə dərs üçün müəyyən edilən vaxt kifayət etmir. Buna görə də dərsin sıxlığını təmin etmək üçün dinamik xarakterli hərəkətlərin istifadə edilməsi daha məqsədəuyğundur. Çünki dinamik xarakterli hərəkətlər fizioloji baxımdan daha sərfəlidir. Lakin qamətin düzgün formalaşması üçün bədənin şaquli vəziyyətdə dayanmasını təmin edən statik duruş və hərəkətlərdən də istifadə etmək lazımdır. Bəzi ədəbiyyat və mənbələrdə qeyd edilir ki, statik hərəkətlərdən sistematik qaydada istifadə etməklə qamətin düzgün formalaşmasına və bəzi fiziki keyfiyyətlərin inkişaf etdirilməsinə nail

olmaq olar. Tədqiqatçılar hesab edirlər ki, aşağı yaşlı məktəblilər üçün statik gərginlik tələb edən hərəkətlərə təxminən 6-8 saniyə vaxtın sərf edilməsi kifayət edə bilər. Hərəkətlər hər bir silsilədə 4-6 dəfə təkrar edilməli və təkrarlar arasında olan vaxt 10 saniyə olmalıdır. Müəlliflər tövsiyə edirlər ki, statik gərginlikdən sonra süstləşmə və fəal hərəkətlərin tətbiq edilməsinə daha çox üstünlük verilsin [3, s.17-22].

Fiziki tərbiyədən bəhs edən bəzi metodiki ədəbiyyatlarda qeyd olunur ki, dinamik və statik gərginlik tələb edən hərəkətlər orqanizmin dözümlülük səviyyəsinin yüksəldilməsi üçün ən yaxşı vasitədir. Bununla yanaşı həmin hərəkətlər əzələ qüvvəsinin və statik dözümlüyün inkişaf etməsini təmin edir, əzələlərdə gedən qan dövranını yaxşılaşdırır, gərginliyi aradan götürür və bununla da qamətin düzgün formalaşmasına müsbət təsirlər göstərir.

**Nəticə**

Qeyd edildiyi kimi müxtəlif xarakterli qamət pozuntuları olan uşaqlarda xarici tənəffüs göstəriciləri aşağı olur. Bu, əsasən döş qəfəsinin deformasiyası və döş qəfəsində olan əzələlərin funksional qabiliyyətlərinin aşağı düşməsi nəticəsində baş verir. Ona görə də tənəffüs hərəkətləri qamət pozuntularının profilaktikası üçün istifadə edilən xüsusi vasitələrdən biri hesab olunur. Belə ki, dərindən nəfəs vermə döş qəfəsinin genişlənməsi və onurğa sütununun döş qəfəsi hissəsinin düzəlməsi ilə nəticələnir. Digər tərəfdən ədəbiyyat mənbələrində qeyd edilir ki, tənəffüs hərəkətlərinin dinamik qaydada istifadə edilməsi daha məqsədəuyğundur. Bu zaman tənəffüs əzələlərinin qüvvə və dözümlülüyünün inkişaf etdirilməsi üçün xüsusi məşğələlərin aparılmasına heç bir ehtiyac olmur. Lakin məktəb şəraitində əsas diqqət düzgün tənəffüs vərdişlərinin formalaşdırılmasına yönəldilməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Cəfərov O.M., Yolçuyev S.B. Adaptiv bədən tərbiyəsi. Bakı:ADB, 2016, 153s.
2. Qasımov H.İ., Cəfərov Q.M. İdman təbabəti, müalicə bədən tərbiyəsi və masaj. Bakı:ADBTİA, 2002, 202s.
3. Ловейко И.Д. Формирование осанки у школьников. Москва: Просвещение, 1970, 95 с.
4. Мирхайдарова Л.Г. Воспитание осанки у детей младшего школьного возраста средствами гимнастики. Дисс.к.п.н. Волгоград, 1997. 135с.
5. Шарипова Д.Д., Семенова Л.М. Воспитание правильной осанки. Т.: Медицина, 1985. 104 с.

**Rafail GULIYEV**

**ANALYSIS OF EDUCATIONAL MATERIALS ON PREVENTION OF DISORDERS OF POSTURE OF SCHOOLCHILDREN**

**Summary**

The posture of a person, being formed mainly under the influence of the external environment, is brought up for a long time, throughout childhood. Preservation of the vertical position of the body both at rest and during movements in space has a strong influence on the development of the nervous system, motor apparatus and posture of a person.

While maintaining the vertical position of the body, the musculoskeletal system and, in particular, the spinal column plays an important role. In the development of health promotion and education of posture, the leading role belongs to the conditions of the external environment.

**Key words:** *posture, prevention, physical exercise, outdoor games, spinal column, posture disorder.*

**Рафаил ГУЛИЕВ**

## АНАЛИЗ УЧЕБНЫХ МАТЕРИАЛОВ ПО ПРОФИЛАКТИКЕ РАССТРОЙСТВА ОСАНКИ ШКОЛЬНИКОВ

**Резюме**

Осанка человека формируясь главным образом под влиянием воздействия внешней среды, воспитывается длительно, на протяжении всего детства. Сохранение вертикального положения тела как в покое, так и при перемещениях в пространстве оказывает сильное влияние на развитие нервной системы, двигательного аппарата и осанки человека.

При сохранение вертикального положения тела большую роль выполняет опорно-двигательный аппарат и в частности позвоночный столб. В развитии укреплении здоровья и воспитании осанки ведущая роль принадлежит условиям внешней среды.

**Ключевые слова:** *осанка, профилактика, физические упражнение, подвижные игры, позвоночный столб, нарушение осанки.*

UOT 364

**Rauf ABBASOV***

# AZƏRBAYCANDA SOVET DÖVRÜNDƏ SOSİAL İŞİN TƏŞKİLİ VƏ İNKİŞAFI TARİXİ

**Xülasə**

Bu məqalədə Azərbaycanın SSRİ-nin tərkibində olduğu müddətdə sosial işin təşkili və tərəqqi yolu araşdırılmışdır. Müəllifin fikrincə, Azərbaycan SSR dövründə baxımsız uşaqların,təkuşaqlı anaların,əlilliyi olan şəxslərin,ağır işlərdə çalışan fəhlə və qulluqçuların, eləcə də əhalinin digər həssas təbəqələrinə göstərilən qayğı və onlar barədə dövlətin qanun və qərarlar qəbul etməsi müasir dövrdə formalaşmış sosial iş sisteminin əsasını təşkil edir. Məqalədə yekun olaraq Azərbaycanda sovet hakimiyyəti dövründə sosial siyasətin prioritet istiqamətləri,pensiya təminatının ilkin təşəkkülü kimi hadisə və prinsipləri öyrənilir və təhlil edilir.

**Açar sözlər:** *sosial iş,sosial müdafiə,sosial təminat,pensiya sistemi,sovet hakimiyyəti*

## Giriş

Azərbaycanda hal-hazırda mövcud olan müasir sosial işin ilkin əsasları hələ ötən əsrin əvvəllərində qoyulmuşdur. Belə ki, bu dövrdə Azərbaycanda sosial müdafiə sistemi ilə bağlı olan ilkin sosial təminat qanunvericiliyi barədə aktlar 1903-cü ildə qəbul edilmiş olan "İstehsalatda bədbəxt hadisələrə görə işəgötürənlərin məsuliyyəti haqqında" və 1912-ci ildə qəbul edilmiş olan "Bədbəxt hadisələrdən və xəstəliklərdən fəhlələrin sığortası haqqında" qanunlarından ibarət olmuşdur.

Lakin 20-ci əsrin əvvəllərində Azərbaycanın da tərkibində olduğu Rusiya imperiyasında "Xəstəlik zamanı fəhlələrin təminatı haqqında", "Fəhlələrin bədbəxt hadisələrdən sığortası haqqında", "Fəhlələrin sığorta məsələləri üzrə idarə və şuranın təsis edilməsi haqqında" və s. sığorta münasibətlərini tənzimləyən qanunlar qəbul olunsa da, ölkədə mövcud olan gərgin ictimai-siyasi hadisələr bütün bu və buna oxşar olan digər qanunların da həyata keçirilməsinə imkan verməmişdir.

## Azərbaycanda sovet hakimiyyəti dövründə sosial iş

Azərbaycanda sovet hakimiyyəti dövründə sosial işin təməlinin atılması müəyyən siyasi dəyişikliklərin baş verməsindən sonra mümkün olmuşdur.Bu dövrdə baş verən hadisələr ilk növbədə işçilərin əmək şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdi.Avropada xüsusilə Qərbi Avropa ölkələrində baş vermiş burjua inqilabları nəticəsində feodal qaydaları çox ağır zərbələr aldı. Həmin inqilablardan biri də Rusiyada baş verdi.Rusiya imperiyasında 1917-ci il fevral ayında baş vermiş olan inqilab Rusiyada hakimiyyətdə olan Romanovlar sülaləsinin uzunmüddətli monarxiyasına son qoydu. İmperiyanın sonuncu hökmdarı Çar II Nikolay taxtdan endirildi. Rusiyada inqilab nəticəsində hakimiyyətə mülkədarlar və burjuaziyanın nümayəndələri gəldilər. Həmin hakimiyyətə gəlmiş qüvvələr Rusiyada idarəetməni həyata keçirmək üçün Müvəqqəti Hökumət yaratdılar.O dövrdə 8 saatdan artıq işlədilən muzdlu işçilər, yəni fəhlələr Azərbaycanda 8 saatlıq iş sisteminin tətbiqini fəhlə hərəkatının əsas tələbi kimi irəli sürmüşdülər. Bolşeviklər tərəfindən yaradılmış olan Bakı Fəhlə və Əsgər Deputatları Soveti 15 aprel 1917-ci ildə 6 bənddən ibarət olan müəssisə və sənaye sahibləri ilə razılaşma əsasında qəbul edilən "Bakı rayonunda 8 saatlıq iş günü qoyulması haqqında" informasiyanı ictimaiyyətə təqdim etdi.

12 sentyabr 1917-ci ildə isə RSDF(b)P Bakı təşkilatının konfransında fəhlələr üçün 8 saatlıq iş günü tətbiq edilməsi, əmək haqqının bahalıqla bir səviyyədə tənzimlənməsi, fəhlə sinfinə normal yaşayış təmin edəcək ictimai-hüquqi xarakterli bütün tədbirlərin həyata keçirilməsini nəzərdə tutan 5 bənddən ibarət tapşırıq qəbul edildi[1].

25 aprel 1918-ci ildə yaradılan Bakı Xalq Komissarları Soveti hakimiyyətdə qaldığı cəmi 3 aylıq dövr ərzində 200-dən artıq neft mədənlərini və sənaye müəssisələrini milliləşdirməklə yanaşı,

* *Azərbaycan Universiteti, magistr. Azərbaycan, Bakı*
*Email:* rauf.abbasov@student.au.edu.az

işçilərin əməyinin mühafizəsinin təşkili, fəhlə və qulluqçuların əmək hüquqlarının müdafiəsi və s. ilə əlaqədar bir çox sosial tədbirlər planını həyata keçirmiş oldu. Azərbaycanda sosial xidmət sferası sovet sosial xidmət sistemi çərçivəsində və onun prinsipləri əsasında fəaliyyət göstərmişdir[4, s.308].

SSRİ ölkələrində sosial siyasət və sosial xidmət özünəməxsus şəkildə həll edilirdi.SSRİ-nin tərkibində olduğu müddətdə, sosial xidmətlər əsas etibarilə uşaqlara, xüsusilə valideyn himayəsindən məhrum olmuş uşaqlara ünvanlanmışdı.Şəhər,rayon,kənd,qəsəbə və eləcə də şəhərdə rayon xalq deputatları sovetlərinin himayə və qəyyumluq orqanları kimi fəaliyyətinin təşkili uşaqlarla bağlı sosial siyasətin əsaslı və birincil istiqamətdə təşkilindən xəbər verir. Həmin xalq deputatları sovetlərinin səlahiyyət çərçivələrinin geniş olması,həmçinin onlara "uşaqlara qarşı valideynlik hüquqlarının icrasının düzgün şəkildə həyata keçirilməsinə" qədər nəzarət etmək səlahiyyətlərinin verilməsi Azərbaycan SSR dövründə uşaqlara göstərilən qayğının əhəmiyyətini vurğulayan ən əsas faktorlardan biri kimi hesab edilə bilər.

Burada o da qeyd edilməlidir ki, SSRİ məkanında ,eləcə də Azərbaycanda internat müəssisələri və uşaq evlərinin geniş spektrı mövcud idi. Orada təkcə valideyn himayəsindən məhrum olmuş uşaqlar yox, eyni zamanda bəzi səbələrdən uşaqlarının təhsilini təmin etmək iqtidarına sahib olmayan ailələrin uşaqları və aztəminatlı ailələrin uşaqları təhsil əldə edə və yerləşdirilə bilirdi.

XIII əsrdə Qərbi Avropanın bir çox ölkələrində quldarlıq faktiki olaraq yoxa çıxsa da, quldarlığın ləğv olma prosesi dünyanın başqa ölkələrində daha ləng gedərək, təxminən 16-cı əsrə qədər davam etdi. Böyük Fransız inqilabı köləliyin ləğvini elan etdi. Böyük Britaniya Parlamenti 1807-ci ildə köləliyin ləğvini elan etdi və Atlantik Okean üzərində qulların daşınması və alverinin dayandırılnmasını təmin etdi. Lakin tarixi mənbələr göstərir ki, köləliyin ləğvi ilə bağlı üsyana qalxan il ölkə Haiti olmuşdur. Belə ki, 1791-ci ildə Santo-Dominqoda Tusen Luvertyurun rəhbərliyi ilə başlanan qulların üsyanı 1804-cü ildə Haitinin müstəqilliyinin elan İlkin olaraq bu sənəd çoxu Avropadan olan 20 dövlət tərəfindən ratifikasiya olundu. Bu sənədə əsasən razılaşmaya qoşulan dövlətlər dəmiryol stansiyalarında, gəmi limanlarında və digər marşrut qovşaqlarında qadın və qızların əxlaqsız həyata sövq etmək məqsədilə çıxarılmasına cəhd edən insanlara nəzarəti öhdəlik kimi götürdülər. Müqavilədə "qadın və qızların əxlaqsız həyata sövq edilməsi" kimi subyektiv bir fikir olmasına baxmayaraq hər bir dövlətin bu fikri istədiyi kimi interpretasiya etmək haqqı var idi.

Fahişəlik və seks ticarəti də müstəmləkəçilik dövründə adiləşmişdi. 1800-cü illərin əvvəllərində Avropada fahişəlik geniş vüsət almışdı, bütün Avropa dövlətləri bu sürətlə genişlənən və artan ticarətin dayandırılması üçün yollar axtarmağa başladılar. Bunun nəticəsində Avropa hökümətləri tərəfindən fahişələri və fahişəxanaları idarə etməyə cəhd etmək məqsədilə fahişəliklə bağlı müxtəlif qanunvericiliklər təqdim edildi. 1802-ci ildə Fransız ordusunun əsgərləri arasında sifilis xəstəliyinin yayılmasının qarşısını almaq məqsədilə Napaleon belə bir qanunu birinci təqdim etdi. Digər dövlətlər də Fransa rəhbərinin bu addımını davam etdirdilər və XX əsrin əvvəllərində artıq Avropa ərazisində fahişəlik qanunvericiliklə tənzimlənirdi [6].

Coğrafi məkanından asılı olmayaraq dünyanın hər yerində insan alveri bu və ya digər formada mövcuddur. İnsan alveri köləliliyin müasir formasıdır. Kölәlik tarixən istismarın ilk və ən qaba forması olub, kölə isə digər istehsal alətləri kimi sahibinin mülkiyyəti hesab edilib. Tarixən kölәlik və ona sahibkarlığa münasibətin hüquqi aspektlərində müxtəlif yanaşmalar mövcud olmuşdur. Belə ki, bəzi dövrlərdə kölәlik ictimai münasibətlər sistemi kimi hüquqi cəhətdən dəstək almış, bəzi dövrlərdə isə ona qarşı çıxılmışdır.

1910-cu ildə ABŞ qadın alverini qadağan edən ilk qanununu təqdim etdi. Bu qanunun formal adı "Ağ kölə Alveri Aktı" idi. Bu qanunvericilik İllinoisdən olan James R.Mann-ın şərəfinə daha çox Mann aktı kimi tanınırdı.

1949-cu ildə Birləşmiş Millətlərin Baş Assambleyası tərəfindən "İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" Konvensiya qəbul edildi. Buna

qədər qəbul edilən sənədlərdə qurban kimi yalnız qadın və qızlar göstərildiyindən, kişilərin və oğlanların da insan alverinin qurbanı ola biləcəyi faktı nəzərə alınmırdı. İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında Konvensiya bu faktı nəzərə aldığına görə digər beynəlxalq sənədlərdən fərqlənirdiridi. Bu Konversiyanın digər fərqləndirici xüsusiyyəti ondan ibarət idi ki, hər bir ölkənin öz sərhədləri daxilində deyil, onun kənarlarında da beynəlxalq səviyyədə insan alveri ilə mübarizə aparmalı olduğunu qeyd edir, bu halların baş verdiyi halda "qəsdən hərəkətin iştirakçısı olanların cəzalandırılmalı olduğunu" bildirirdi. 1949-cu ildə Konvensiyaya dəyişiklik edilir və alverin təsvirinə "hətta o insanın öz razılığı olduğu halda da" sözləri əlavə edilir. Beləliklə, güc tətbiq edilib-edilmədiyindən asılı olmayaraq, insan alverinin cinayət məsuliyyətinin subyekti olduğu təsdiq edildi.

**İnsan, xüsusilə də qadın və uşaqların alverinin qarşısının alınması, ləğv edilməsi və cəzalandırılmasına dair Palermo" Protokolu**

2000-ci ildə Birləşmiş Millətlərin Baş Assambleyası tərəfindən "İnsan, xüsusilə də qadın və uşaqların alverinin qarşısının alınması, ləğv edilməsi və cəzalandırılmasına dair Palermo" Protokolu qəbul edildi. Protokol 2003-cü ildə qüvvəyə mindi: bu günə qədər 159 ölkə Konvensiyanı ratifikasiya edib. Protokolda insan alverinin tərifində fahişəlik və seks alverindən başqa insan alverinin bütün növləri öz əksini tapıb. Həmçinin "3P paradiqması" kimi tanınan və bütün dünyada insan alveri ilə mübarizədə istifadə olunan alət də bu protokolda öz əksini tapmışdır [6].

3P paradiqması – təqib, müdafiə və profilaktika (Prosecution, Protection and Prevention)-bütün dünyada insan alveri ilə mübarizədə istifadə olunan fundamental çərçivələrdən biridir [8].

Təqib. İnsan alverinə effektiv ədalətli cavab bütün keyslərin digər insan oğurlu və təcavüz kimi ağır cinayətlər kimi təqib edilməsidir. Dövlətlər insan alverinin qəsdən istismar barədə məlumatlı olan vasitəçilər də daxil olmaqla bütün iştirakçılarının cinayət məsuliyyətinə cəlb edilməsini təmin etməli, həbsxanada cəzaçəkmənin əvəzinə şərti cəza, cərimə və ya inzibati sankiyaların tətbiq edilməsinə yol verməməlidir. İdeal variantda və həm də Palermo Protokoluna uyğun olaraq qurbana yölənik qanunvericilik çərçivəsi alverçilərin uğurla cəzalnadırılması ilə yanaşı qurbanlara məhkəmə qərarı ilə vurulmuş maddi və mənəvi zərərin əvəzinin ödənilməsini əhatə etməlidir.

Müdafiə. Müdafiə beynəlxalq aləmdə müasir quldarlıqla mübarizədə istifadə edilən qurbana yönəlik yanaşmanın əsas elementidir. Qurbanın effektiv müdafiəsi qurbanın müəyyən edilməsini, geniş çeşiddə xidmətlərə yönləndirmə, bu xidmətləri birbaşa təqdim etmək və ya bu xidmətləri təqdim etməsi üçün QHT-lərin maliyyələşdirilməsi və bu insanların öz həyatlarını qurmalarına dəstək göstərilməsini tələb edir. Qurbanların müyyən edilməsi bu prosesdə ilk və vacib mərhələdir. Fəal müəyyənetmə tədbirləri və lisenziyalı səhiyyə işçiləri, sosial işçilər və digər xidmət təminatçıları üçün təlimlərin təşkili dövlətin insan alveri ilə mübarizə aparmasını gücləndirilmək üçün vacibdir. Müəyyənləşdirdikdən sonra, dövlət qurbanın hüquq və ehtiyaclarının prioritetləşdirməlidir ki, o, layiqli müdafiə oluna bilsin. Xarici vətəndaşlar olan alveri qurbanlarını qorumaq üçün dövlətlər onların ölkədə qalmasını, işlə təmin olunmasını və hüquqi statusu və ya alverçilər tərəfindən törətməyə məcbur edildikləri cinayət işlərinə görə tutulmaq və ya deportasiya qorxusu olmadan xidmətlərə cəlb edilməsini təmin etməlidir. Bundan əlavə dövlət insan alveri qurbanlarının və onlarının ailə üzvlərinin təhlükəsizliyini təmin etmək üçün onları cangüdənlərlə təmin etməlidir. Belə ki, onlar alverçilər tərəfindən qorxudula və ya təhdid edilə bilərlər.

İnsan alveri qurbanının adekvat şəkildə müdafiəsi üçün hüquq-mühafizə orqanları ilə sosial xidmət təminatçıları arasında effektiv əməkdaşlığın yalnız qurban müəyyənləşdirildikdən dərhal sonra deyil, həm də qurbanın cinayət işinin tədqiqi və məhkəmə proseslərində davam etməsi vacibdir.

Qurbanlar üçün kompleks xidmətlərə təcili və uzun-müddətli xidmətlər daxildir: intensiv keys menecment, evlə təminat, yemək, tibbi və stomatoloji xidmət, hüquqi yardım, təhsil, peşə və iqtisadi imkanlar.

Profilaktika. Profilaktika tədbirləri insan alveri ilə mübarizədə global hərəkatın çox vacib komponentidir. Effektiv profilaktika tədbirləri insan alverçilərini qabaqlayan taktikalar toplusudur. Dəqiq və məqsədyönlü informasiyanın yayılması vasitəsilə icma insan alveri təhlükəsinə daha

hazırlıqlı olmanı təmin edir. Strateji müdaxilə proqramları insan alverinə məruz qalma riski altında olan əhalinin qurbana çevrilməsinin qarşısını ala bilər [8].

İnsan aleri anlayışı bir çoxları tərəfindən yanlış qəbul edilməklə, insanlarda çaşqınlıq yaradır. Hələ də, bir çoxları insan alveri qurbanı ilə qanunsuz miqrantı, cinsi istismara məruz qalmış qurbanla əxlaqsızlıqla məşğul olan qadını, əməyi istismaq olunmuş şəxslə əmək hüquqlarının pozulması ilə üzləşən şəxsləri fərqləndirə bilmirlər. Bu baxımdan insan alveri probleminə yanaşmalarda müxtəliflik, pərakəndəlik olduğundan problemin mahiyyətinin dəqiq şərhinə çətinlik yaranır. İnsan alverini tədqiq edən nəzəriyyəçilər və problemlə praktiki mübarizə aparan mütəxəssislər arasında insan alveri fenomeninin təyin edilməsi sahəsində hələ də müəyyən üst-üstə düşməyən arqumentlər mövcuddur. Bəzi hallarda isə, qurbanı təyin etmədə bir tərəf diqqəti daha çox qurbana, digər tərəf isə problemin yaranma səbəbləri və mənbələrinə yönəldir [10, s.2-5].

**İnsan alveri qurbanları ilə sosial işin təşkili**

Sosial xidmət göstərən təşkilatların əməkdaşları insan alveri qurbanlarının statusunun səmərəli şəkildə müəyyənləşdirilməsi üçün insan alveri qurbanı olmuş şəxsləri miqrant qaçaqmalçılarının fəaliyyəti səbəbindən və ya zorakı əməllərdən, yaxud da hüquqlarının pozulmasından (məsələn, məişət zorakılığından) zərər çəkmiş şəxslərdən fərqləndirməyi bacarmalıdır. Bəzi aspektlərdə bu cür zərər çəkmişlərin kateqoriyalarının oxşar ola biləcəyinə baxmayaraq, cinayət mühakiməsi nöqteyi-nəzərindən fərqli vəziyyətdədirlər. İnsan alveri qurbanlarının status və şəxsiyyətinin müəyyənləşdirilməsi istiqamətində ən səmərəli üsul hər bir konkret vəziyyətdə bütün halların və mövcud informasiyanın qiymətləndirilməsindən, həmçinin bu məsələnin aşağıda göstərilən 3 müxtəlif rakursdan nəzərdən keçirilməsindən ibarətdir:

- Hüquqi müstəvi;
- Cinayətkar;
- İnsan alveri qurbanı.

Konkret şəxsin həqiqətən də insan alverinin qurbanı olması faktını müəyyənləşdirmək üçün insan alveri anlayışının hüquqi məzmununu başa düşmək vacibdir. Xidmət göstərən təşkilatlar təşkilatlar statusun müəyyənləşdirilməsi prosesinin asanlaşdırılması üçün BMT-nin Transmilli Mütəşəkkil Cinəyatkarlıq əleyhinə Konvensiyasını tamamlayan "İnsan alverinin, xüsusilə qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolun 3-cü maddəsində verilmiş insan alverinin beynəlxalq anlayışına diqqət yetirilməlidir. BMT-nin Protokolundakı anlayışa əsasən insan alverinə aid cinayət qarşılıqlı surətdə əlaqədə olan və 1) Əməl 2) Vasitələr 3) Üsullar və 4) Məqsəd elementlərindən ibarətdir. Əməl – insanların cəlb edilməsi, daşınması, digər şəxslərə ötürülməsi, gizlədilməsi və ya təhvil alınması, vasitələr – zor tətbiq etmək hədəsi, zor tətbiq etmək və digər məcbur etmək formaları, oğurluq, dələduzluq, aldatma, təsir imkanları və ya zəiflik vəziyyətindən sui-istifadə və ya digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və s. imkan və güzəştlərin verilməsi yaxud da alınması, məqsəd – şəxsin sözügedən maddədə göstərilən yollarla istismar edilməsidir [2, s.22-23].

Birləşmiş Millətlər Təşkilatının Köləliyin Müasir Formaları İşçi Qrupu insan hüquqlarının pozulması ilə müşahidə olunan müasir köləliyin siyahısını tərtib etmişdir. Bu siyahıya aşağıdakılar daxildir:

- uşaqların alqı-satqısı
- uşaq fahişəliyi

- uşaq pornoqrafiyası
- uşaq əməyinin istifadəsi
- seks turizmi
- uşaqların hərbi qüvvələrdə istifadəsi
- əməkçi miqrantların istismarı
- qanunsuz övladlığa götürmə
- orqan ticarəti fahişəliyin digər şəxslər tərəfindən istismarı
- qadınlara qarşı zorakılıq
- məvburi nikah
- borc asılılığı
- məcburi əmək.

Qeyd etmək vacibdir ki, istisamarın İnsan Alveri Protokolunda qeyd edilən bu npvləri minimumdur. Hər bir ölkə istismatın başqa formalarını seçib əlavə edə bilər və bununla da milli qanunvericiliklə cinayət məsuliyyətinə cəlb edilən insan alverinin müxtrəlif formalarını müəyyən edə bilər [7, s.18-19].

Xidmət göstərən təşkilatlar insan alverinin qurbanları haqqında məlumatları çoxsaylı, müxtəlif maraqlı tərəflərdən əldə edə bilərlər, o cümlədən:

- Dövlət təşkilatlarından, məsələn, polis və səhiyyə orqanlarından, sosial xidmətlərdən
- Partnyor QHT-lərdən, beynəlxalq təşkilatlardan
- Səfirliklərdən, kilsələrdən, dini qurumlardan, insan hüquqları müdafiəçilərindən
- Fiziki şəxslərdən, məsələn, digər insan alveri qurbanlarından, insan alveri qurbanlarının qohumlarından və dostlarından
- Cinsi istismar məqsədilə insan alverinə məruz qalmış şəxslərin müştərilərindən

Insan alverinin qurbanı ilə əlaqə yaradan, lakin ona yardım etmək və ya onun ehtiyaclarının hamısını ödəmək iqtidarında olmayan təşkilat belə qurbanın şəxsiyyətinin müəyyənləşdirilməsi və ona zəruri kömək göstərə biləcək təşkilata istiqamətləndirilməsi üçün əlindən gələni etməlidir.

İnsan alverinin qurbanları qismində xidmət göstərən təşkilatlara kömək üçün istiqamətləndirilən şəxlərin statusunun müəyyənləşdirilməsi onların ola bilsin ki, yardıma və/və ya müdafiəyə ehtiyacı olaraq qanunsuz daşınan və ya tənzimlənməyən miqrant yaxud zorakılığa məruz qalmış və ya çətin vəziyyətə düşmüş şəxslər deyil, həqiqətən də insan alverinin qurbanları olmaları faktına əmin olmaq üçün önəmlidir. Bundan başqa, ehtimal olunan zərər çəkmiş şəxsin xidmət göstərən təşkilata başqa məqsədlərlə daxil olmaq istəyən şəxs deyil, həqiqətən də insan alverinin qurbanı olduğunu müəyyənləşdirərkən ehtiyatlı olmaq lazımdır.

İnsan alverinin qurbanları təyinat ölkələrinin çoxunda düzgün müəyyənləşdirmələr aparılmadıqda, səhvən tənzimlənməyən miqrant hesab oluna, nəticədə deportasiyaya məruz qala və ya da saxlanılma mərkəzlərinə yerləşdirilə bilər. Kömək üçün müraciət edən müxtəlif kateqoriyaya aid şəxslər üçün tələb olunan yardım və müdafiənin xarakteri insan alverinin qurbanı olmuş insanların ehtiyaclarından fərqlidir. Ehtimal olunur ki, adətən qaçaqmalçılığa məruz qalmış və tənzimlənməyən miqrantlara aid işlərdə müşahidə olunmasa da insan alveri qurbanlarının fiziki, cinsi və psixoloji məsələlərlə əlaqədar təxirəsalınmaz və kəskin tibbi ehtiyacları mövcud olur. Insan alverinin qurbanları ağır cinayətdən zərər çəkmiş şəxslər hesab olunurlar. Xidmət göstərən təşkilatların əməkdaşları onlara kömək edərək müəyyən risklərə məruz qaldıqlarına görə onlar üçün də konkret təhlükəsizlik tədbir və prosedurların həyata keçirilməsi zəruridir. Məlumdur ki, mütəşəkkil kriminal dəstələr qaçmağa nail olmuş, ya da onlara qarşı şahid ifadələri vermiş və yaxud da şahid ifadələri verməyə hazırlaşan insan alveri qurbanlarının olduğu yerləri müəyyənləşdirmək üçün beynəlxalq təşkilat və QHT-lərin müvafiq dəstək və yardım proqramlarına daxil olmağa səylər göstərmişlər.

Çox güman ki, insan alveri qurbanları ilə işlədikləri zaman müvafiq təşkilatlara bu kateqoriyaya aid olmayan, lakin mövcud vəziyyətdə köməyə ehtiyacları olan şəxslər, məsələn,

məişət zorakılığı və ya cinsi təcavüz qurbanları, gənc, hamilə qızlar yaxud da tənzimlənməyən miqrantlar da istiqamətləndirilə bilərlər. Əgər sözügedən xidmət göstərən təşkilatlar bu kateqoriyadan olan insanlara kömək edə bilmirlərsə, bu şəxsləri müvafiq yardım üçün nəzərdə tutulmuş təşkilatlara istiqamətləndirilə bilərlər. İstiqamətləndirmə prosesinin asanlaşdırılması məqsədi ilə başqa növ köməkliklər göstərən təşkilatların daim yeniləşən siyahısını saxlamaq yaxşı olardı.

İnsan alveri qurbanının statusunun müəyyənləşdiorilməsi prosesi 2 mərhələdən ibarətdir:

1.Şəxslə faktiki müsahibənin keçirilməsindən əvvəl müəyyənləşdirilə biləcək bir sıra göstəricilərin qiymətləndirilməsi;

2.Insan alveri prosesinin cəlb etmə, daşınma və istismar mərhələlərinə xüsusi diqqət yetirən bir sıra suallardan ibarət müsahibənin keçirilməsi.

*Müsahibədən əvvəl qiymətləndirmənin göstəriciləri.*

Statusun və şəxsiyyətin müəyyənləşdirilməsi prosesi sözügedən şəxsə birbaşa insan alverinə aid konkret sualların verilməsindən əvvəl hər bir faktı əhatə edən halların nəzərdən keçirilməsi ilə başlayır. Aşağıda sadalanan məslələrə aid informasiya, çox güman ki, sözügedən şəxsi istiqamətləndirilmiş təşkilatdan əldə oluna bilər, yaxud da xidmət göstərən təşkilata müstəqil şəkildə kömək üçün müraciət etmiş şəxsə gəldikdə isə, həmin informasiyanı ümumi xarakterli ilkin suallar vasitəsi ilə də əldə etmək olar.

Aşağıda sadalanan göstəricilər ümumilikdə qiymətləndirmə prosesinin asanlaşdırılması üçün nəzərdə tutulmuşdur, ümumi xarakter daşıyır və bu göstəricilərin hər biri ilə əlaqədar müəyyən müstəsnalar mövcuddur. Yerli şərait və təcrübə əlavə göstəricilərin istifadəsi və ya burada sadalanan göstəricilərin uyğunlaşdırılaması zərurətini yarada bilər. Xidmət göstərən təşkilatın işçi heyəti qiymətləndirmə prosesini müvafiq qaydada uyğunlaşdıraraq genişləndirməlidir. Bütün göstəricilər, ayrılıqda birmənalı şəkildə informasiya təqdim edilmədiyinə görə, kompleks şəkildə nəzərdən keçirməlidir.

Yaş. Bütün mövcud göstəricilər uşaqlardan və gənclərdən ibarət insan alverinin miqyasının artmasına dəlalət edir. Buna görə də şəxsin daha yaşlı olması onun insan alverinə qurban kimi cəlb olunması ehtimalını xeyli azaldır. Cinsi istismar və ya məcburi əmək məqsədi ilə insan alveri, adətən gənc yaşda olan insanları əhatə etdiyindən insan alverçiləri və onlarla əlbir olanlar bilirlər ki, köləliyə oxşar şəraitdə ağır fiziki işlə məşğul olmaq üçün daha gənc və daha yaxşı fiziki formada olan insanlar tələb olunur. Eyni sozləri cinsi istismar məqsədi ilə insan alveri haqqında da demək olar. Çünki müştərilər nisbətən yaşlılarla müqayisədə daha çox gəlir gətirəcək cavan qurbanlara üstünlük verirlər. Daxili orqanların çıxarılmasına gəldikdə isə donor nə qədər cavan və yaxşı fiziki formada olsa, insan alverçisi və mümkün alıcı üçün bir o qədər yaxşıdır. Eyni zamanda, ehtimal olunur ki, daha gənc insanları aldatmaq, məcbur etmək, nəzarət altında saxlamaq və bununla da münasib qurbana çevirmək insan alverçiləri üçün daha asandır.

Cinsi mənsubiyyət. Cinsi istismar məqsədilə insan alveri əsasən qadınları və qıları əhatə edir, çünki heteroseksual fahişəlik fahişəliyin ən böyük və ən çox gəlir gətirən forması olaraq qalmaqdadır. Lakin kişilərin, xüsusilə də yeniyetmə və cavan oğlanların fahişəlik məqsədilə alınıb-satılmaları halları da artmaqdadır və istisna təşkil etmir. Son operativ qiymətləndirmələr uşaqbazlıq, seks-turizm və kommersiya, yaxud da qeyri-kommersiya xarakterli uşaq pornoqrafiyası istehsalı məqsədilə ölkə daxilində və xaricində uşaq alveri tendensiyalarının artdığını eləcə də bu təhlükənin qızları və oğlanları eyni səviyyədə əhatə etdiyini göstərir. Əməyin istismarı məqsədilə insan alveri sahəsində cinsi mənsubiyyətin rolu və əhəmiyyəti görülən işin növündən asılıdır. Bu istismar növü mədənlərdə, zəmilərdə və yaxud da balıqçılıq gəmilərində ağır fiziki işlərin görülməsi məqsədilə nəzərdə tutulursa, bunun qadınlardan çox kişiləri əhatə edəcəyi gözlənilir. Əksinə, əgər əmək taxıl yığımı, qanunsuz emal müəssisələrində yüngül kənd təsərrüfatı işlərindən və ev köləliyi kimi işlərdən ibarətdirsə, qurbanlar çox guman ki. Qadın cinsindən molacaqlar. Istənilən yaşda kişi, qadın və ya uşaqların məcburi əmək məqsədilə istismarı adətən bir regionda cəmləşir, təbii

sərvətlərin hasilatı, balıqçılıq və məhsul yığımı kimi sahələrdə ağır fiziki iş tələb olunursa, bu iş oğlanları və kişiləri, gizli tikiş emalatxanalarında və ev işlərində qızları və qadınları əhatə edir.

Vətəndaşlıq/Milli mənsubiyyət. İnsanlar yoxsulluq, ayrı-seçkilik və digər bir sıra amillərin təsirindən insan alverinin qurbanına çevrilirlər. İnsan alveri qurbanının inkişaf etmiş ölkənin vətəndaşı olması istisna hal olmasa da, az ehtimal edilir. Təbii ki, istisnalar mövcuddur. Məsələn, konkret olaraq, cinsi istismar məqsədilə uşaq alverinə aid dəlillərin ABŞ kimi inkişaf etmiş dövlətdən olan qurbanların sayının atrması buna sübutdur. Adətən bu proses ölkədaxili insan alveri səviyyəsində baş verir. Eyni zamanda, bir sıra regionlarda bəzi milli azlıqlar əhalinin digər qrupları

ilə müqayisədə insan alverinə daha çox məruz qalırlar. Bu kontekstdə, regional və milli vəziyyət, həımçinin insan alverinə meyllər barədə məlumatlı olmaq çox əhəmiyyətlidir. İnsan alverinin ölkədaxili vı beynəlxalq modelləri ölkə daxilində böyük şəhər, beynəlxalq səviyyədə isə bir ölkənin digər ölkə ilə müqayisədə “cəlb edici” olması faktoru ilə müəyyən edilir. Iqtisadi artım və müştərilərin təlabatı insan alverinin yerli, regional və beynəlxalq səviyyələrdə istiqamətinə, miqyasına, həmçinin tərkibinə təsir edən mühüm amillərdir.

Sənədlər. İnsan alveri sxeminin coğrafi əhatəsi sənədlərin istifadəsinə və əhəmiyyətinə də təsir edir. Aydındır ki, ölkədaxili insan alveri zamanı şəxsiyyəti təsdiq edən sənədlər xarici insan alverinə aid hallarla müqayisədə elə də böyük əhəmiyyətə malik deyil. Şəxsiyyəti təsdiq edən hər hansı sənədin daim şəxsin üstündə olması qanunvericiliklə tələb edilmədikdə və inan alverçiləri öz qurbanlarını nəzarətdə saxlamaq və ya onları tabe tmək məqsədilə şəxsiyyəti təsdiq edən sənədləri onların əlindən almadıqda, bu məsələ ümumiyyətlə gündəmə gəlməyə bilər. sənədlərdən istifadə adətən qitələrarası səviyyədə insan alveri hallarına xasdır, çünki burada böyük ehtimalla təyyarə, qatar və bərələrdə bu sənədlər istifadə nəzərdə tutulur və şəxsiyyətin təsdiq edilməsi və yol sənədlərinin təqdim edilməsi tələbi səbəbində n təyinat bölgəsinə qanunsuz gəlmək imkanları çətinləşir. Sənədlər insan alveri qurbanları barədə düzgün və eyni zamanda yanlış mıəlumatlar əks etdirə bilər. Adları, soyadları və yetkinlik yaşına çatmayanların təvəllüdləri dəyişdirilərək insanlar haqqında məlumatlar saxtalaşdırıla bilər. belə vəziyyətdə insan alverçiləri immiqrasiya və ya passport yoxlamasından keçmək üçün passportlarını və digər yol sənədlərini insan alveri qurbanlarının özlərinə verir və sonra geri götürürlər. Cinsi istismar məqsədilə regional və qitələrarası insan alveri prosesində sənədlərin müsadirə edilməsi insan alverçiləri tərəfindən istifadə edilən nəzarət və məcburetmə mexanizminin adi elementidir. Odur ki, İnsan alveri qurbanında şəxsi sənədlərinin olmaması insan aılveri faktının əsaslı göstəricisi ola bilər.

Şəxsin istismara məruz qaldığı son yer. Istiqamətləndirilmiş şəxsin xidmət göstərən təşkilata istiqamətləndirilməsindən əvvəl istismara məruz qaldığı son yer haqqında məlumatların əldə olunması vacibdir. Məsələn, şəxsin polis tərəfindən fahişəxanadan çıxarılması, immiqrasiya və ya polis əməkdaşlarının fabric və ya fermaya reydi zamanı tapılmasına aid məlumatlar insan alveri qurbanının statusunun müəyyənləşdirilməsi prosesini asanlaşdırır.

Zorakılıq əlaməti. Bədən xəsarətinə aid istənilən əlamət insan alverini təsdiq edən göstərici hesab oluna bilər. Adətən, insan alverçiləri öz qurbanlarını davamlı psixoloji, və fiziki zorakılığa məruz qoyurlar. İnsan qaçaqmalçılığına aid hallarda bu cür vəziyyətlərə rast gəlinmir. Məlum faktlar göstərir ki, qanunsuz daşınan şəxslər təhlükələrə və zorakılığa daha çox məruz qalırlar. Lakin, konkret bir hadisənin insan qaçaqmalçılığına və ya insan alverinə aid olması barədə qərar çıxarmaq üçün zəruri fərqləndirmə təyinat məntəqəsinə gəldikdən sonra baş verən zorakılığın dərəcə və davamlılığını, eyni zamanda insanları gətirmiş (qəbul etmiş) şəxslərin məcbur etmək, aldatmaq, istismar etmək kimi münasibət göstərmələrinin mövcud olub-olmamasını müəyyənləşdirmək lazımdır [2, s.20-30].

İnsan alverinə məruz qalmış şəxsin müəyyən edilməsi çox vaxt cinayətin mürəkkəbliyindən və prosesə cəlb edilmiş insanların sayının çox olması səbəbində çox vaxt tələb edir. İnsan alveri qurbanın müəyyənləşdirilməsi hallarında ən çox rast gəlinən ümumi və aydın çətinlik cinayətin gizli təbiətə malik olmasıdır.

Adətən qurbanlar qurban kimi hüquqlarını bilmir, ölkənin qanunları barədə məlumatsız olur və çox hallarda yerli dildə danışmağı bacarmırlar. Bunların hamısı insan alverçilərinə öz qurbanlarına nəzarət etmələrinə, həm cinayəti, həm də qurbanları gizli saxlamağa kömək edir. İnsan alverçiləri qurbanlarının kənar dünya ilə əlaqələrini tam kontrol edirlər, bu isə qurbanın özgüvənini sarsıdır və özlərini gücsüz hesab etmələrinə səbəb olur.

İnsan alveri prosesinə daxil edilmiş əlaqələrin mürəkkəbliyi və müxtəlifliyi qurbanların sosial işçilər və polis tərəfindən müəyyən edilə bilməsini çətinləşdirir. Alverçi ilə qurban arasındakı qarşılıqlı əlaqə çoxüzlüdür, belə ki, cinayətkar öz qurbanının qanunsuz yaşayışını və iş statusunu səlahiyyətli orqanlardan gizlətməklə onu "qoruyur". Qurban özünü alverçidən asılı hiss edir, (məsələn, borc), alverçi istismar şərtlərindən (məslən, qazancın bölüşdürülməsi) qurbanın borcluluq hissinin gücləndirilməsi və ya qurbanın öz istismarında özünü günhakar hissini yaratmaq strategiyası kimi istifadə edir.

Qurbanların idarə edilməsi metodlarına heç də həmişə fiziki zorakılıq daxil edilmir. Psixoloji zorakılığın, təzyiqin və manipulyasiyanın mürəkkəb formaları insan alveri hallarında daha çox rast gəlinir. Əksər hallrda onlar fiziki zorakılığı tamamamilə əvəz edir. İnsan alveri cinayətinin araşdırılmasına ən böyük və problematik təhlükə qurbanın doğma ölkəsində yaxınlarına və qohumlarına qarşı repressiya təhlükəsidir. Bu cür qüvvəyə sahib olmaq üçün insan alverçiləri qurbanın ailə vəziyyəti barədə mümkün qədər detallı məlumata malik olmağa səy göstərirlər.

Cinsi və əmək istismarı hallarının hər ikisində nəzarətin və idarəetmənin ən güclü mexanizmlərindən biri qızın ailəsinə onun fahişəliklə məşğul olduğu barədə məlumatın çatdırılması qorxusunun yaradılmasıdır. Gender əsaslı stereotiplər kişilərin insan alverinə cəlb edilməsi hallarının aşkarlanmasına mane olan əsas baryerlərdən biridir. Adətən insan alveri fenomeni qadınlar və seks biznesi ilə assosiasiya edilir, kişilər belə bir "hadisənin iştirakçısı" olmaqdan çəkinirlər. Qurbanlar bu qədər "sadəlöhv və zəif" olmaqdan utanır, və ya tələyə düşməsinin səbəbinin anlaşılmazlıq olduğuna, alverçinin tələblərinə uyğun hərəkət etsələr əməklərinin qarşılını alacaqlarına ümid edirlər.

Əksər hallarda hüquq-mühafizə orqanlarında ixtisaslaşmış tərcüməçi də daxil olmaqla kadr çatışmazlığı və uyğun olmayan infrastruktur insan alverinə məruz qalması zənn edilən şəxslə münasib müsahibənin keçirilməsi prosesini zəiflədir. Hətta eyni dildə danışsalar belə, polislə insan alveri qurbanı fərqli leksikondan və danışıq tərzindən istifadə etdikləri üçün bir-birini anlamaya bilərlər.

İnsan alverinə məruz qalmış qurbanlar travma sonrası stress pozğunluğunun simptomlarını nümayiş etdirə bilərlər, bu isə, müəyyənləşdirmə prosesini daha da mürəkkəbləşdirir. Travmalı qurbanlar insan alverinə məruz qaldıqlarını inkar edə bilər, reallıqda baş verənləri xatırlamaya bilər, travmatik situasiyada yaddaşından silinən boşluqları həqiqətəbənzər faktlarla doldura bilər, və ya polislə əməkdaşlıq etməkdən imtina edə bilər, hətta ona qarşı aqressiv davrana bilər.

Cinayət işinin araşdırılmasına cəlb edilən səlahiyyətli şəxslər insan alveri qurbanlarının hüquq-mühafizə orqanları ilə əməkdaşlıq etmək istəmədikləri hallarrı ilə üzləşdikdə çaşqınlıq və əsəb keçirirlər. Onlar anlamırlar ki, insan alverinə məruz qalması zənn edilən şəxs polisin insan alverçisi ilə əməkdaşlıq etdiyini, rüşvət aldığını və s. düşünərək onlardan qorxa bilərlər.

Səlahiyyətli orqanlar hər bir qurbanın özünəməxsus şəxsi ehtiyacları olaba biləcəyini anlaya bilməməsi də qurbanların müyyənedilməsi prosesinə ciddi maneə yaradır. Səlahiyyətli oranlar cinayətin qurbanının müəyyənləşdirməyə çalışır, lakin onlar qurbanlara gender, immiqrasiya statusu, repressiya qorxuları, dil baryerləri və milli mənəvi dəyərlər kimi faktorları nəzərdə saxlayan fərdi həll yolları təklif etmirlər. Adətən hüquq mühafizə orqanları ilə əməkdaşlıq edəcəkləri təqdirdə qəbul edən ölkədə müyyən müddət qalacaqları, sonra isə öz doğma ölkəsinə geri göndəriləcəyi bildirir. Bu isə həmin insanlar üçün qurtulmaq istədikləri mühitə yenidən qayıtmaq deməkdir. Bu da insanların insan alveri qurbanı olaraq müyyən edilməkdən çəkinməsinə səbəb olan vacib faktordur [9].

**Nəticə**

Sosial işçilər vəkillik, psixo-maarifləndirmə və klinik müdaxilələr vasitəsilə qurbanlara birbaşa dəstək göstərməkdə (mikro), ictimaiyyəti və xidmət təminatçılarını qurbanların ehtiyacları haqqında maarifləndirmək (mezzo) və müdaxilə və müalicə proqramları üçün infrastruktur və maliyyənin müdafiəsinin (makro) təmin edilməsində rol oynaya bilər.

Sosial iş və insan alveri bir-biri ilə əlaqəlidir ki, sosial işçilər insan alverinə qarşı mübarizədə, qurbanlara kömək etməkdə və problem ətrafında daha geniş anlayışın gücləndirilməsində unikal və dəyərli rola malikdirlər.

Mikro bacarıqlar sosial işçi-müştəri əlaqəsi üçün əsasdır. Bu bacarıqlara əlaqələr qurmaq, verbal və qeyri-verbal ünsiyyətdən səmərəli istifadə etmək və müsahibə bacarıqları daxildir. Mikro

bacarıqlar planlaşdırılmış dəyişiklik prosesinin hər mərhələsində istifadə olunur. Başqa sözlə, mezo və makro səviyyəli proqramlara mikro bacarıqlar daxildir.

Aşağıdakı cədvəl planlaşdırılmış dəyişiklik prosesinin mərhələlərini və ümumi sosial iş təcrübəsində sosial işçini rollarını müəyyən edir.

| | Planlı dəyişmə prosesi Addımlar | Rollar |
|---|---|---|
| **1** | Başlanğıc, münasibət qurmaq | İnsan alverinə məruz qalmış qurbanla tanış olma, işə başlama və problemə diqqət yetirmə |
| **2** | Qiymətləndirmə | İnsan alverinə məruz qalmış şəxsin güclü tərəflərini, ehtiyaclarını, risklərini müəyyən etmək, məlumat toplamaq, təhlil etmək və şərh etmək prosesini əhatə edir. |
| **3** | Planlaşdırma | İnsan alverinə məruz qalmış şəxsin ehtiyaclarını ödəmək üçün nə etməli olduğu təsvir olunur. Məqsədlər müəyyən edilir və müştəri ilə razılaşma aparılır. |
| **4** | İcra | Sosial işçi istiqamət verir və insan alverinə məruz qalmış şəxs qarşıya qoyulan məqsədə çatmaq üçün planı icra edir. |
| **5** | Qiymətləndirmə | Sosial işçi tərəfindən qarşıya qoyulan məqsədlərə nail olub-olmadığı qiymətləndirilir. |
| **6** | Xitam | Peşəkar əlaqələr dayandırılır. |
| **7** | İzləmə (follow-up) | Müraciət edən şəxs bir müddət izlənilir, yeni problem və ya ehtiyac yaranarsa onunla yenidən peşəkar əlaqəyə başlanılır. |

İnsan alverinə məruz qalmış şəxslə ilk əlaqə telefonla, evə səfər və yaşayış yerinə baş çəkməklə qiymətləndirmə və ya müəssisə, təşkilat və ya peşəkar işçi heyətinin tövsiyəsi ilə ola bilər. Bu əlaqəyə hər iki tərəfin öz təcrübələrini birləşdirdiyi tərəfdaşlıq daxildir. Bu mərhələdə problem diqqət mərkəzindədir və müştərinin problemi necə gördüyü müzakirə edilir. Sosial işçinin müştərisi ilə inkişaf etdirəcəyi peşəkar münasibətdə verbal və qeyri-verbal ünsiyyət bacarıqları böyük əhəmiyyət kəsb edir. İnsan alverinə məruz qalmış şəxslər ilə səmimi, isti və empatik münasibət etibarlı münasibətin əsasını təşkil edir. Müştərinin ehtiyaclarını ödəməkdə təşkilatın vəziyyəti təhlil edilir. İnsan alverinə məruz qalmış şəxslər xidmətin göstərilməsi haqqında məlumatlandırılır və yardım prosesinə yönəldilir.

Sosial işçinin vəzifəsi təhlükəsizlik və təkrar travma alma ehtimalını müəyyən etmək üçün qurbanın sosial mühitinin öyrənilməsi, həmçinin anlaşılmazlıqların, stereotiplərin aradan qaldırılması, normal münasibətlərin yaradılması məqsədilə onun yaxınları və icması ilə

maarifləndirmə işinin aparılmasından ibarətdir. Məhz ailə, doğmalar və yaxınlar qurbanın bərpası prosesinə daha çox təsir göstərirlər. Ona görə də sosial işçi həmin şəxslərlə sosial əlaqələrin qurulmasında vasitəçilik funksiyasını yerinə yetirməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Ager, A., & Strang, A. . Understanding integration: A conceptual framework. // Journal of Refugee Studies. 200821,p.166–191.
2. İnsan alveri qurbanlarına birbaşa yardım haqqında BMqT-nin təlimat vəsaiti. Beynəlxalq Miqrasiya Təşkilatı. 2007, 245 s.
3. ILO 2009. Operational Indicators of Trafficking in Human Beings. // [Electron resurs]. URL:http://www.ilo.org/wcmsp5/groups/public/---ed_norm/---declaration/documents/publication/wcms_105023.pdf Retrieved [September 5, 2017] from
4. İnsan alveri: normativ sənədlər toplusu. Bakı: Nurlan. 2009, 400 səh.
5. Inter-Parliamentary Union and UNODC (2009) Combating Trafficking in Persons^ A Handbook for Parliamentarians. // [Electron resurs]. URL: https://www.unodc.org/documents/human-trafficking/UN_Handbook_engl_core_low.pdf Retrieved [August 15, 2017] from
6. Kabance, K. (2014, April 29). The Globalization of Sex Trafficking. International Affairs: Directed Research Project. // [Electron resurs]. URL:https://ucollege.wustl.edu/files/ucollege/imce/iap.kabance.drp_.pdf Retrieved [August 08, 2017] from
7. OSCE (2011). Trafficking in Human Beings: Identification of Potential and Presumed Victims: A Community Policing Approach. // [Electron resurs]. URL:http://www.osce.org/secretariat/78849?download=true Retrieved [September 5, 2017] from
8. Office to Monitor and Combat Trafficking in Persons (2017). The 3Ps: Prevention, Protection, Prosecution. Civilian Security, Democracy, And Human Rights. // [Electron resurs]. URL:https://www.state.gov/documents/organization/272970.pdf Retrieved [August 08, 2017] from
9. UNODC (2009). Anti-human trafficking manual for criminal justice practitioners. Modul 2: Indicators of trafficking in persons. // [Electron resurs]. URL: https://www.unodc.org/documents/human-trafficking/TIP_module2_Ebook.pdf Retrieved [September 5, 2017] from
10. Zeynalova M. İnsan alveri qurbanlarının reabilitasiyası və sosial reinteqrasiyasına dair metodiki vəsait. Beynəlxalq Miqrasiya Təşkilatı.2009. s. 5-9

**Tunzala VERDIYEVA**

**SOCIAL WORK WITH VICTIMS OF HUMAN TRAFFICKING**

**Summary**

Violation of human rights is both a cause and a consequence of human trafficking. Millions of people around the world are still suffering in silence from forced labor and the sale of their bodies, where they cannot save their lives. By limiting the rights of victims, traffickers take away their most natural rights and sell them as a commodity. Social workers can play a role in directly supporting victims through advocacy, psychoeducation, and clinical interventions (micro), educating the public and service providers about victims' needs (mezzo), and securing infrastructure and funding for intervention and treatment programs (macro). Social workers have a unique and valuable role in combating human trafficking, helping victims, and fostering a broader understanding of the problem.

**Keywords:** *Social work, victims of human trafficking, clinical interventions, gender, legal level*

**Тунзале ВЕРДИЕВА**

**СОЦИАЛЬНАЯ РАБОТА С ЖЕРТВАМИ ТОРГОВЛИ ЛЮДЬМИ**

**Резюме**

Нарушение прав человека является как причиной, так и следствием торговли людьми. Миллионы людей во всем мире до сих пор молча страдают от принудительного труда и продажи своего тела, где они не могут спасти свою жизнь. Ограничивая права жертв, торговцы людьми лишают их самых естественных прав и продают их как товар. Социальные работники могут играть роль в непосредственной поддержке жертв посредством защиты интересов, психообразования и клинических вмешательств (микро), информирования

общественности и поставщиков услуг о потребностях жертв (меццо) и обеспечения инфраструктуры и финансирования программ вмешательства и лечения (макро). Социальные работники играют уникальную и ценную роль в борьбе с торговлей людьми, помощи жертвам и содействии более широкому пониманию проблемы.

**Ключевые слова:** *социальная работа, жертвы торговли людьми, клинические вмешательства, пол, правовой уровень*

**Rəyçi: f.e.d, professor Tahirə Allahyarova**

UOT 316

**Zeynəb BAĞIROVA***

# QADINLARIN GÖRÜNMƏYƏN ƏMƏYİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 10 mart 2023; çapa qəbul edilmişdir: 15 mart 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: March 10, 2023; accepted for publication: 15 March 2023; published online: 30 March 2023*

**Xülasə**

Ev işləri qadınların ən yaxşı olduğu sahə olaraq qiymətləndirilir. Bunun səbəbini isə mədəni olaraq qadınların bioloji quruluşunun ev işlərinə daha uyğun olması ilə izah edirlər. Məhz buna görə də ev işləri qadınlar tərəfindən heç bir maddi qarşılığı olmadan görülməkdədir. Qadınlar ev işləri ilə məşğul olarkən muzdlu əmək bazarından kənarda qalırlar, lakin bu işlərin daim özünü yenilədiyini nəzərə alsaq, sərf etdikləri enerji və əmək kifayət qədər yüksəkdir. Bu yüksək əmək göstəricisinə baxmayaraq, istehsal olunan işin dəyəri kifayət qədər aşağıdır. Buna görə də “ödənişsiz əmək” adlanır.Bu tədqiqat işində “görünməz əmək”in qadınların həyatındakı rolu, bunun onların həyatının tamamını əhatə etməsi, qadınların ev işləri sahəsində göstərdiyi səy və bu səyin özü tərəfindən necə başa düşüldüyü, gəlirsiz əməyin qadınların həyatına göstərdiyi mənfi təsirlər, bu səbəbdən dolayı onun patriarxat cəmiyyətdə kişidən asılı vəziyyətə gəlməsi, heç bir maddi məqsədi olmadan gördüyü ev işlərinin dəyərləndirilməməsinin özünə inam hissini zədələməsi və onlarda iqtisadi asılılığı gücləndirməsi və s. kimi məsələlər öz əksini tapmışdır.

**Açar sözlər:** *görünməzlik, əmək, evdar qadınlar, gender bərabərliyi, ev təsərrüfatı*

## Giriş

Görünməz əmək, insanların geniş yayıldıqları üçün əsasən fərqində olmadıqları ev işlərini ifadə etmək üçün istifadə olunan bir termindir. Görünməz əməyə misal olaraq,qabyumaq,paltaryumaq, uşağa qayğı, yaşlı şəxslərə qayğı, yemək bişirmək,ərzaq alış-verişi və s. adını çəkmək olar. Amerika Birləşmiş Ştatları da daxil olmaqla bir çox dünya ölkələrində ev təsərrüfatlarında görünməz əmək vəzifələri əsasən evin qadınının üzərinə düşür. Birləşmiş Millətlər Təşkilatının hesabatına görə, dünyada qadınlar hər dörd saatlıq görünməz əməyin üçünü tamamlayır. Görünməz əməyin təsiri məişət sahəsi ilə məhdudlaşmır. Görünməz əmək ideyası iş yerində də özünü büruzə verir, çünki qadınlar adətən ofis mədəniyyətini qoruyan ödənişsiz, vaxt aparan işlərdə könüllü olurlar. Ofis ad günü tədbirlərinin, komanda şəklində müəyyən sosial tədbirlərin təçkili kimi fəaliyyətləri buna nümunə kimi göstərmək olar.

Bu əməyin görünməməsinin birinci səbəbi onun mübadilə dəyərinin olmamasıdır. Qadın evdə sərf etdiyi zəhmətin qarşılığını almır. Eyni zamanda iş vaxtının olmaması, iş vaxtı ilə asudə vaxtın iç-içə olması bu əməyi görünməz edir. Müasir məşğulluq şərtlərindən fərqli olaraq, ev işlərinin müəyyən edilmiş iş saatı yoxdur, işin nə vaxt başlayıb, nə vaxt bitdiyini müəyyən etmək mümkün deyil. O, həyatla iç-içədir və buna görə də dəyər yaradan əmək kimi üzə çıxa bilməz. Belə olan halda işlərdən hansının sevgi qarşılığında görüldüyü, hansının isə bir səy növü olduğu müəmmalı olaraq qalır.

Bu əməyin görünməməsinin ikinci səbəbi evdə görülən işin təbiiləşdirilməsidir. Bu vəziyyətin ən böyük səbəbi görünməz əməyin gender rolları çərçivəsində baş verməsidir. Yəni təmizlik və ütüləmə, uşaqlara və qocalara qulluq kimi məişət reproduktiv işləri qadınların təbii meylləri hesab olunur. Məişət məkanı sosial məkan deyil, “təbii” məkandır və bu məkanda görülən hər bir iş cəhd

* *Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistr. Azərbayan, Bakı*
*Email:* zynbbagirova77@gmail.com

deyil, davranışdır. Üçüncü səbəb evdə sərf olunan bu zəhmətin əvəzsiz olmasıdır. Qadınlar adətən evdə gördükləri işləri ən yaxın qohumlarına təqdim edir və sevgi qarşılığında görürlər.

**Görünməyən əmək**

"Görünməz əmək" termini Şimal-Qərb Universitetinin və Berkly Kaliforniya Universitetinin professoru, sosioloq Arlene Danielsin 1987-ci ildə yazdığı məqalənin şərəfinə adlandırılan "görünməz iş"in variasiyasıdır. Onun məqaləsində gözəgörünməz işi məsul şəxslər üçün zehni yükə çevrilən gözə dəyməyən və ödənilməmiş əmək kimi müəyyən edirdi [8].

Qadının cəmiyyətdə birinci vəzifəsinin uşaqlarına və həyat yoldaşına qayğı olduğu düşüncəsi qadınları ev içi yaşayışa daha da bağlayaraq, bu düşüncənin gələcək nəsillərə də ötürülməsinə səbəb olmaqdadır. İşləməyən və bütün ev işlərinə cavabdeh olan qadınlar iqtisadi cəhətdən həyat yoldaşından asılı vəziyyətə düşürvə çox vaxt həyatları ilə bağlı fərdi qərarlar qəbul edə bilmirlər.Bu, evdar qadınları digər qadınlardan daha çox asılı edir [5, s.165-166]. 1960-cı illərin sonu və 1970-ci illərin əvvəllərində ikinci dalğa feministlərin müzakirə etməyə başladıqları nəzəri problemlərdən biri də qadınların ödənişsiz ev əməyidir. Ancaq məsələ feministlərin bu günə qədər konkret həllər və siyasətlər müəyyənləşdirməkdə çətinlik çəkdiyi bir sahə olaraq təyin olunur. Məsələn, ev işlərinin mühüm hissəsi olan uşağa baxmalı olan ailə üzvünün qadın kimi qəbul edilməsi qadınların maaşlı işdən əl çəkib uşaqlara baxmasına səbəb olur. Bu prosesdə ictimai quruluşun cinsiyyətçi yanaşması qadını ödənişli işdən əl çəkəcək şəxs kimi müəyyən edir. Kişi uşağa baxmaq üçün işini tərk etmir. Buradakı ayrı-seçkiliyi gender anlayışını üzərindən görünməz edən, uşaq baxımının qadının əsas vəzifəsi olduğuna olan inamdır.

D. Ulusoyun "Kadınların ücretli-ücretsiz emek kıskacı" adlı araşdırmasında gün ərzində ev işlərinə sərf olunan vaxt kişilər üçün 0,72 saat, işləyən qadınlar üçün isə 4,32 saat təşkil edir. İşləyən və işləməyən qadınların cəmində bu müddət 5,28 saata çatır.Eyni araştırmada uşaq baxımı ilə məşğul olan ataların nisbəti yalnız 1,4% ikən, analar üçün bu nisbət 88% olaraq verilmişdir. Ev işlərində çox yüksək əmək əmsalı olan qadınlar işdən kənarda qalırlar və gördükləri iş üçün heç bir maaş almırlar. Qadınların işi dünya üzrə iş saatının 2/3-ni təşkil etsə də, qadınlar dünya gəlirinin yalnız 10%-ni qazanırlar.Bu, dünyada qadınların gördükləri işin müqabilində əmək haqqı almadıqlarını, eyni zamanda qadınların ümumi iş yükünün yüksək olduğunu göstərir. Bundan əlavə, qadınların məşğulluq səviyyəsinin aşağı olması qadınların sosial həyatındakı mənfilikləri bir çox cəhətdən qidalandırır. Qadınlar ev işlərini görərkən özlərini bir iş görür kimi hiss etmirlər, həm də iqtisadi cəhətdən asılılıq hiss edirlər. Tədqiqatların çoxunda evdə sərf etdikləri əməyi ailələri və uşaqları baxımından qiymətləndirsələr də, bir işə sahib olmağı daha dəyərli hesab etmişlər [11].

Qadınların sosial mövqeyi ilə bağlı araşdırmalar göstərir ki, evdən kənarda işləmək və ya işləməmək onların məişət işlərində olan məsuliyyətlərini azaltmır. Ev bütün işləyən və işləməyən qadınların bir çox rol və məsuliyyətləri üzərinə götürdüyü bir məkan kimi müəyyən edilə bilər. F. Cantekin "Fakir haneler/Yoksulluğun ev hali, toplum ve bilim" adlı jurnalında evdar qadın anlayışı işsizliyi ifadə etmir. Onun sözlərinə görə, rəsmi sənədlərdə peşənin qarşısında "evdar qadın" yazıla bilməsi və bunun qəbul edilməsi ev xanımı kimi hansı peşənin görüldüyünü ifadə etmək üçün yetərli deyil və onun peşə olmadığı anlamına gəlmir. Ona görə də evdarlıq analıq kimi "müqəddəs" vəzifələrlə cilalanmış bir məşğuliyyət kimi qiymətləndirilirdi.

Kapitalist cəmiyyətində qadın əməyinin ailədaxili reproduktiv roluna görə məişət və evdənkənar əmək vəhdət yaradır. Kapitalizmdən əvvəlki cəmiyyətlərdə qadınlar reproduktiv rolunu yalnız evdə yerinə yetirirdilər, lakin kapitalizmin inkişafı ilə "ailə maaşının" qeyri-adekvatlığı qadınları evdən kənarda işləməyə məcbur etdi.Evdə görülən iş qadına nə gəlir gətirir, nə də ona sosial status verir. Ev işinin qadın vəzifəsi kimi müəyyən edilməsi bu əməyin görünməməsinə xidmət etməklə yanaşı, həm də iş kimi qəbul edilməməsinə səbəb olur.Bu baxımdan ev işi əlavə dəyər yaratmadığı üçün məhsuldar əmək hesab edilmir, ona görə də əmək evdə sərf olunan bir iş kimi qiymətləndirilmir.Həmçinin kapitalist istehsal prosesləri baxımından izafi dəyər kimi qəbul edilmir. Bu da görünməzliyi qaçılmaz bir nəticəyə çevirir, çünki əmək sərf olunsa belə heç bir ölçüyə tabe deyil.

Zehni yük, adətən qadınların çiyinlərinə düşən, ev və ailənin idarə edilməsində cəlb olunan görünməz əməyə aid olan bir termindir. Gözəgörünməz əməyin analara təsirini araşdıran Oklahoma Dövlət Universitetinin psixoloqu Lucia Ciciolla görə, zehni yük yemək bişirmək və təmizlik kimi maddi, fiziki işlərdən fərqlənən xüsusilə gərgin əmək növüdür. Vaxt və enerji sərf etməklə yanaşı, bu tip ev işləri adətən lazımınca qiymətləndirilmir. Ciciolla bildirir: "Düşünürəm ki, bu, son illərdə müzakirə mövzusuna çevrilib, çünki kişilər uşaqların və evin qayğısına qalmaqla daha çox məşğul olub,qadınlar fiziki olaraq daha az paltar yusalar da, qadınlar paltarlarla bağlı məsuliyyəti hələ də daşıyırlar.Bu, daima yuyucu tozun mövcudluğu, bütün çirkli paltarları paltaryuyan maşına atmaq, hər zaman təmiz dəsmalların və uşaqların təmiz corablarının olmasını təmin etmək məsuliyyətidir". Qadınlar başa düşürlər ki, başqaları ilə fiziki işi bölüşsələr də, yenə də ev təsərrüfatının zehni yükünü onlar daşıyırlar və bu ruhi yük çox ağırdır.[8]

Heidi Hartmanna görə, qadınların ödənilməmiş ev əməyindən həm kapitalizm, həm də bütün kişilər faydalanır. Kişilər evdə ödənişsiz xidmətlər alır, uşaqlarına baxırlar və beləliklə, əmək bazarında qadınlar qarşısında imtiyazlı mövqe tuturlar. Kapitalizmin üstünlükləri arasında qadınların ev əmək öhdəliklərindən asılı olaraq ucuz əmək ehtiyatı yaratması, işçi qüvvəsinin sabit və sağlam təkrar istehsalı, bu tip ailə təşkilatının istehlakının artması saymaq olar. Bu müzakirələr qadınların vəziyyətini yaxşılaşdırmaq üçün siyasətin işlənib hazırlanması və konkret tələblərin irəli sürülməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Mübarizələr nəticəsində bəzi ölkələrdə analıq məzuniyyəti, atalıq məzuniyyəti, erkən pensiya və aliment hüquqları kimi qazanclar da əldə edilib.[11] Digər tərəfdən, 1970-ci illərdən bəri qadınların işçi qüvvəsində iştirakının artması feminist tədqiqatçıları ödənişli və ödənilməmiş əmək arasındakı əlaqəni araşdırmaya sövq etdi. Məlum olub ki, baxım işi qadınların əmək bazarındakı mövqeyinə, hansı işlərdə işlədiyinə, təhsil imkanlarına və özlərinə vaxt ayırmaq imkanlarına təsir edir. Qadınlar, xüsusən də uşaqları olanlar – yarım-ştat işlərə, baxım işi ilə birləşdirə biləcəkləri çevik məşğulluq formalarına məcbur edilirlər. Kişilərin əksəriyyəti əmək bazarında daha sərfəli mövqelərə malik olsa da, qadınların çevik işləməsi, onların aşağı əmək haqqı ilə kifayətlənmək istəyi, karyera perspektivlərinin daralması yoxsulluq və ailədən asılılıqla nəticələnir.[10]

Cavabını tapmağa davam edən başqa bir sual, zaman keçdikcə evdə kişi və qadın arasında əmək bölgüsü bərabərləşibmi? Araşdırmalar göstərir ki, həm ölkədən ölkəyə, həm də sosial-iqtisadi qruplar arasında fərqlər mövcuddur. Məsələn, Avropanın şimalından cənubuna getdikcə qadınların kişilərə nisbətən ev işlərinə daha çox vaxt ayırdığı, əmək bölgüsündə bərabərsizliyin artdığı görünür. Kişilərin qayğı yükünü bölüşmək istəmədiyi və dövlət qayğısının qeyri-kafi olduğu Türkiyə kimi bir çox ölkədə ev və iş həyatını uzlaşdırmağa çalışan qadınlar nənələrinin köməyinə və miqrant qulluqçuları işə götürməli olurlar. Baxım xidmətlərinin bazara inteqrasiyası baxımından bu işlərdə daha çox qadınların çalışdığı müşahidə edilir. Qadınlar da emosional əmək tələb edən işlərdə cəmləşməyə meyllidirlər [9].

Qadınların evdə ən çox zəhmət sərf etdiyi sahə uşaqlara qulluqdur. Mədəni baxımdan bütün cəmiyyətlərdə analığın müqəddəs olması uşağa qulluq etməyi qadının vəzifəsi halına gətirib. Körpələr evi və baxım xidmətləri kimi sahələrdə çatışmazlıqlar qadınların ev və cəmiyyətdə bu işlərin istehsalı ilə aradan qaldırılır. Özəl sektordan bu xidmətləri qarşılayan, lakin heç bir dövlət dəstəyi olmadan onları ödəyə bilməyənlər öz qayğı işlərini görünməz qadın əməyi ilə təmin edirlər.Qlobal miqyasda əmək qabiliyyətli qadınların 42 faizi ödənilməmiş qayğı öhdəlikləri səbəbindən ödənişli işçi qüvvəsinə qoşula bilmir [7]. Məsələn, Türkiyədə 15-49 yaş qrupunda pullu evli qadınların nisbəti yüzdə 32 ilə məhdudlaşır; evli qadınlar ödənişli işdə işləməmələrinin əsas səbəbləri kimi evdar qadın olmağı və uşaqlara baxmağı göstərirlər.

Bir çox ölkələrdə, o cümlədən inkişaf etmiş adlanan ölkələrdə yaşlılara qulluq hələ də ailə üzvləri tərəfindən həyata keçirilir. Güclü patriarxal quruluş uşağa qulluq kimi qocalara da qayğı göstərməyi qadınların vəzifələri sırasına qoymuş və ailədə qadınlar bu vəzifəni yerinə yetirmişlər. Gənc kapitalist ölkəsi olan Türkiyədə yüksək xərclər səbəbindən yaşlılara qulluq ailəyə və əsasən də qadınlara aid edilib. Hüquqi tənzimləmələrin qeyri-kafi olması və dövlət qurumlarının ehtiyacları

ödəmək üçün bu vəzifəni öhdəsinə götürə bilməməsi yaşlıların evdə qayğısına qalmağı zəruri edirdi [6, s.14].

Qadınların haqqı ödənilməyən işlərə həddindən artıq vaxt sərf eləməsi onların şəxsi qayğılara,özünə qulluğa, asudə vaxta, hətta yatmağa belə daha az zamanlarının qalmasına səbəb olur. Azərbaycan Dövlət Statistika Komitəsinin "2008-ci ildə Azərbaycanda əhalinin vaxt büdcəsindən istifadəsi üzrə" sorğunun nəticələrinə əsasən qadınlar gün ərzində haqqı ödənilməyən işlərə 6 saat 6 dəqiqə,bundan fərqli olaraq kişilər isə 2 saat 8 dəqiqə sərf edir. Gəlir gətirən işə və təhsilə sərf edilən vaxtda isə statistika bunun əksini göstərir.Belə ki, gəlir gətirən işə və təhsilə sərf edilən vaxta qadınlar 1 saat 44 dəqiqə, kişilər isə 4 saat 40 dəqiqə sərf edir. Məhz bu qadınların haqqı ödənilməyə işlərə daha çox vaxt sərf etməsinin və bu işlərin qadınlar və kişilər arasında qeyri-bərabər bölünməsinin onların şəxsi inkişafına da mane olduğunun göstəricisidir [14].

Görünməz əmək iş yükünü qeyri-bərabər bölərək, müəyyən bir şəxs və ya qrup üzərində əlavə vəzifələr və təzyiqlər yaradır. Əlavə iş təkcə insanı yormur, həm də onun ümumi rifahına zərər verir. Görünməz əmək emosional əməyə çevrilir, çünki təsirə məruz qalan fərdlər başqaları işlərini görmədikdə və ya qəbul etmədikdə özlərini dəyərsiz hiss edə bilərlər.[13]

Ev işlərinin qeyri-bərabər paylanmasını tədqiq edən psixoloqlar müəyyən ediblər ki, görünməz əmək psixi sağlamlığa zərər verən boşluq hissinə gətirib çıxarır. Məsələn, uşağın həyatında qərar vermək məsuliyyəti böyük ola bilər. Valideyn övladını təkbaşına böyütməklə bağlı bütün qərarları qəbul etməli olduqda, bu, stress, inciklik və tükənmə hissləri ilə nəticələnə bilər.

**Nəticə**

Tarix boyu qadınlar öz əməyi ilə istehsalın ən mühüm elementi olmuşdur. Texnoloji və elmi inkişaflar gender yanaşması ilə birlikdə qadın əməyini evlə eyniləşdirərkən, qadın əməyi öz görünürlüyünü itirməyə başlayıb.Bu çərçivədə evdə zəhmət və enerji sərf edilərək görülən işlər artıq dəyər hesab edilmir. Kapitalizm prosesi və istehsal mərkəzinin evdən kənara köçürülməsi qadın əməyini muzdlu əməkdən uzaqlaşdırmaqla yanaşı, qadın əməyini də ucuzlaşdırdı. O, həm də əmək mənbəyi kimi qəbul edilmişdir. Bu əmək "sevgi", "təbiiləşmə" kimi səbəblərdən qaynaqlanır.Heç bir maddi dəyəri olmasa da, aydındır ki, bir sistem dövrü böyük əmək və səy sərf etməklə əldə edilir. Bu sistemdə sərf olunan əmək qadının fitrətinin tələbi kimi qəbul edilir və əmək istehsalı sayılmır. Ona görə də qadınların bu sahədəki əməyi müəyyən mənada buxarlanır. Bağlı qapılar arxasında istehsal edilən bu əməkdən dünya xəbərsizdir və bu əmək qadınların təbii həyatlarının bir parçası kimi qəbul edilir.

Qadınların evdəki görünməz əməyinin yeganə mükafatı ehtiyaclarını qarşıladıqları ailə üzvlərindən aldıqları təqdir və sevgidir. Evdar qadınların əmək istehsalının ənənəvi tərifindən kənarda sərf etdiyi əməyin bir tərəfdən sərf etdiyi əməyi dəyərsizləşdirir, digər tərəfdən isə qadınların işsiz fərd kimi qəbul edilməsinə səbəb olur. Belə ki, evdar qadınların həyatının əhəmiyyətli hissəsini əhatə edən ev işi görünməz əmək hesab edilir və arabir təqdir cümləsindən başqa heç bir qarşılıq ala bilmirlər. Sözügedən əvəzsiz əməyə baxmayaraq, evdar qadınlar bu işləri gündəlik olaraq yerinə yetirirlər.

Hesablanmış əlavə dəyər nəticəsi göstərir ki, ev təsərrüfatındakı işlərin böyük hissəsi qadınlar tərəfindən həyata keçirilir ki, bu da gender bərabərsizliyinə səbəb olur. Qadınların ev işlərinin böyük hissəsini həyata keçirdiklərinə görə də bu işdən bir əməkhaqqı tələb etməkdə haqlıdırlar. Məhsuldarlığın həmişə ictimai qüvvə olması və eyni zamanda əmək haqqının özünəməxsus kapitalist xarakteri ev işlərinin ödənilməsini zəruri edir. Ev əməyinin ödənilməsi, mahiyyət etibarı ilə, kapitalı qadınlara tətbiq etdiyi ödənişsiz sosial xidmətlər üçün ödəməyə məcbur edir. Ona görə də bu əmək haqqı tələbi qadınların evdə gördüyü işin itkidən çox bioloji taleyi olmadığını göstərmək məqsədi daşımalıdır.

Qadınlara ev işlərinə görə verilən əmək haqqı əmək bazarında işləməsindən asılı olmayaraq bütün qadınlara verilməlidir. Çünki əmək bazarında işləmək, formalaşmış patriarxal anlayışa görə onu ev işlərindən azad etmir. Ödəniləcək əmək haqqı kişinin əmək bazarında işlədiyinə görə aldığı əmək haqqına ailə haqqı şəklində daxil edilməməli, qadının özünə ayrıca fond kimi ödənilməlidir. Ödəniləcək əmək haqqı qadınların iş həyatından uzaqlaşmasına səbəb olmamalıdır, buna görə də dövlət tərəfindən qadınların məşğulluğunun artırılması üçün tədbirlər görülməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1.Acar-Savran G. İkinci Basıma Önsöz. G. Acar-Savran ve N. Tura Demiryontan (Yay. Haz.), Kadının Görünmeyen Emeği içinde İstanbul: Yordam Kitap. 2008, s.9-16.
2.Başak S., Kıngır S., Yaşar Ş. Kadının Görünmeyen Emeği: İkinci Vardiya. Ankara: Kadın Araştırmaları Merkezi. 2013, 121s.
3.Cantek F., Fakir Haneler // Yoksulluğun Ev Hali, Toplum ve Bilim Dergisi, 2021, 89, s.102-131.
4.Çiğdem A. Kadının görünmeyen emeğinin görünür kılınması: ev içi emeğin ücretlendirilmesi,Yüksek lisans tezi. Eskişehir. 2016. 120 s.
5. Cooper Marianne. Women Leaders Took on Even More Invisible Work During the Pandemic. // [Elektron resurs]. URL:https://hbr.org/2021/10/research-women-took-on-even-more-invisible-work-during-the-pandemic. Müraciət edilib: 11.03.2023
6.Ecevit Y. Üretim ve Yeniden Üretim Sürecinde Ücretli Kadın Emeği // Yapıt Dergisi, No:85, s. 77-90.
7.Ev işlərinin görünməyən üzü, evdar qadınların dəyərləndirilməyən əməyi…// [Elektron resurs]. URL: https://femmekan.com/evdar-qadinlarin-emeyi-necheyedir/ Müraciət edilib: 1.03.2023
8.Gerşil G. Küresel Boyutta Yoksulluk ve Kadın Yoksulluğu // Yönetim ve Ekonomi Dergisi, 2015, 22, 1, s.158-181.
9. Gender göstəriciləri. [Elektron resurs]. URL: https://www.stat.gov.az/source/gender/. Müraciət edilib: 11.03.2023
10.Karakaya H. Görünmez Emek Ve Ev Kadinlari // Fırat Üniversitesi İİBF Uluslararası İktisadi ve İdari Bilimler Dergisi Cilt:2, Sayı:1,2018 73
11. Time-to-care: Unpaid and underpaid care work and the global inequality crisis. // [Elektron resurs]. URL: https://oxfamilibrary.openrepository.com/bitstream/handle/10546/620928/bp-time-to-care-inequality-200120-en.pdf. Müraciət edilib: 12.03.2023
12. What Is The Mental Load // [Elektron resurs]. URL:https://www.mindbodygreen.com/articles/what-is-the-mental-load. Müraciət edilib: 10.03.2023
13. Yeşim Dinçer. Görunmeyen Emek. // [Elektron resurs]. URL:https://feministbellek.org/gorunmeyen-emek/ Müraciət edilib: 11.03.2023

**Zeynab BAGIROVA**

## WOMEN'S INVISIBLE WORK

**Summary**

Housework is considered to be the best field for women. They explain that the reason for this is that women's biological structure is culturally more suitable for housework. That is why housework is done by women without any financial compensation. Women are left out of the wage labor market when they do housework, but given that these jobs are constantly renewing themselves, the energy and labor they expend is quite high. Despite this high labor rate, the cost of the work produced is quite low. Therefore, it is called "unpaid labor". In this research, the role of "invisible labor" in women's lives, how it covers their entire lives, the effort women show in the

field of housework and how this effort is understood by themselves, the negative effects of unpaid work on women's lives , due to this reason, she becomes dependent on a man in a patriarchal society, the fact that the housework she does without any material purpose is not valued damages her self-confidence and strengthens her economic dependence, etc. such issues have been reflected.

**Key words:** *invisibility, labor, housewifes, gender equality, household.*

**Зейнаб БАГИРОВА**

**НЕВИДИМЫЙ ТРУД ЖЕНЩИН**

**Резюме**

Работа по дому считается лучшей сферой для женщин. Они объясняют это тем, что биологическая структура женщины в культурном отношении больше подходит для работы по дому. Вот почему работа по дому выполняется женщинами без какой-либо финансовой компенсации. Женщины исключены из рынка наемного труда, когда они выполняют работу по дому, но, учитывая, что эти рабочие места постоянно обновляются, они затрачивают довольно много энергии и труда. Несмотря на такую высокую ставку труда, себестоимость произведенной работы довольно низкая. Поэтому он называется «неоплачиваемый труд».В этом исследовании роль «невидимого труда» в жизни женщин, как он охватывает всю их жизнь, усилия, которые женщины проявляют в сфере работы по дому и как эти усилия понимаются ими самими, негативное влияние неоплачиваемой работы на жизнь женщины по этой причине она становится зависимой от мужчины в патриархальном обществе, тот факт, что работа по дому, которую она выполняет без какой-либо материальной цели, не ценится, подрывает ее уверенность в себе и усиливает ее экономическую зависимость , и т. д. такие проблемы были отражены.

**Ключевые слова:** *невидимость, труд, домохозяйки, гендерное равенство, домохозяйство*

**Rəyçi: p.e.d., professor Rəna Qədirova**

# Siyasət
# Politics

**UOT: 63. 3 (47) 56.**

**Ərrəhman ƏHMƏDOV***

# QƏDİM TÜRKLƏRDƏ DÖVLƏTÇİLİK VƏ MƏDƏNİYYƏT

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 fevral 2023; çapa qəbul edilmişdir: 20 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 15, 2023; accepted for publication: 20 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalədə dünya xalqları içərisində özünün qədim dövlətçilik və mədəniyyət tarixi ilə fərqlənən türklərin bir millət kimi formalaşması və "türk" sözünün mənşəyi haqqında elmi qaynaqlara əsaslanan fikirlər, eləcə də həmin fikirlərə əsaslanaraq elmi izahlar öz əksini tapmışdır.

Daha sonra məqalədə, köçəri həyat tərzi keçirən qədim türklərdə dövlətin meydana gəlməsi və onun idarəçilik xüsusiyyətləri elmi faktlarla izah olunmuş, türk mədəniyyətinin özünəməxsusluğu və onu şərtləndirən amillər barəsində faktoloji bilgilər verilmişdir.

Məqalənin ümumi ideya xəttini isə tarixin görmüş olduğu ən böyük və ən layiqli xalqlardan olan türklərin tarix səhnəsindən siyasi, iqdisadi, hərbi və mənəvi-mədəni nailiyyətləri və onun digər xalqlara təsiri məsələləri təşkil etməkdədir.

**Açar sözlər:** *Türklər, türkçülük, türk toplumları, türk xalqları, türk dövlətçiliyi, türk mədəniyyəti, köçəri mədəniyyəti*

.

## Giriş

Tarixin tanıdığı ən qədim və ən köklü soylardan biri olan türklər, müxtəlif zamanlarda ayrı-ayrı adlar altında özləri üçün əlverişli məkanlarda məskən salıb yaşamışlar. Buna baxmayaraq türklər arasında həmişə dil və mədəniyyət birliyi mövcud olmuşdur. Lakin elə vaxtlar da olmuşdur ki, bu toplumların hamısı bir ad altında çağrılmışlar. Onlar tarixin müxtəlif dövrlərində, saka (iskit), hun, avar, tabqaç, türk, turqus, uyğur, qırğız, sabar (sabir/sibir), bulqar, xəzər, oğuz (türkmən), karluk, kimek, qıpçaq (kuman), peçenek, xalaç, yakut (saxa/saka), çuvaş, türkmən, qazax, özbək, başkurt və tatar kimi çox saylı adlar daşımışlar. Bunlardan yalnız "hun" və "türk" adları, Hun və Göytürk dövlətlərini yaradan türk toplumlarının siyasi adı olaraq geniş şəkildə istifadə olunmuşdur. Digər bir tərəfdən, "qırğız, uyğur, yakut və çuvaş" türkləri də özlərinin toplum adlarını heç bir zaman tərk etməmiş, bu günə qədər qoruyub saxlamışlar.

Tarixin müxtəlif mərhələlərində türk hökmdarlarının başlıca məqsədləri türk soyundan olan və türk dilində danışan toplumların hamısını bir dövlət ətrafında birləşdirmək olmuşdur. Tarixi mənbələrə görə bu məqsədə ilk olaraq böyük Hun hökmdarı Mete (Boqatır/Batır, E.ə.209-174) çatmışdır. Başqa bir sözlə, türkcə danışan və türk soyundan olan toplumlara ilk dəfə milli mənsubiyyətlərini başa salan, böyük bir etnos olduqlarını onlara öyrədən lider də məhz Mete olmuşdur. O, qonşu dövlətləri bir-bir məğlub edib öz hökmranlığı altına saldıqdan sonra, bütün gücünü Hun siyasi birliyini yaratmaq fəaliyyəti üzərində cəmləmişdir. Məqsədinə çatmaq üçün 25 il müzabirə aparan Mete böyüklü-kiçikli 26-ya qədər siyasi birliyi özünə tabe etmiş və onları Hun adı altında birləşdirmiş, yəni Hun dövlətini yaratmışdır. Metenin bu fəaliyyətinin nəticəsi E.ə.176-cı ilə aid bir sənəddə belə qeyd olunmuşdur: "Ox və yayı gərə bilən bütün toplumları bir ailə kimi birləşdirdim, indi onlar Hun oldular" [44, s.116]. Göründüyü kimi, Mete türk siyasi birliyini qurmaqla kifayətlənməmiş, bir dövlət altında birləşdirdiyi toplumlara bir soydan olduqlarını da başa salmışdır. "Hun olmaq" məfkurəsi Metedən sonra gələn hökmdarların Hun siyasi birliyini qoruyub

* *Azərbaycan Dövlət Pedoqoji Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan, Bakı*
*Email:* sevincaliyeva2000@gmail.com

saxlaya bilməmələri səbəbindən getdikcə zəifləmiş, tədricən yerini "qəbilə (boy)" formasına verməyə başlamışdır. Eyni zamanda Hun adı da dövlət yıxıldıqdan sonra bütün türk toplumlarının siyasi adı olmaqdan çıxmış, yerini qəbilə adlarına vermişdir.

Türk soyundan olub türk dilində danışan toplumlar ikinci dəfə "Türk" Göytürk dövləti adı altında birləşmişlər. Lakin türk adı Hun adında olduğu kimi Göytürk dövlətinin tənəzzülündən sonra tarix səhnəsindən silinib getməmişdir. Əksinə türk adı göytürklərin türk dünyası üzərində davam edən siyasi və mədəni təsirləri sayəsində genişlənə bilmiş, türk soyundan olub türkcə danışan və türk mədəniyyətini təmsil edən toplumların başlıca adı olaraq işlənməyə başlamışdır. Bu inkişafın sonunda isə türk toplumlarının böyük bir qismi özlərinin qəbilə və soy adlarını unutmuş, göytürklərin yolu ilə gedərək türk adını almışdır.

**Türklərin mədəniyyət yaratmaq və inkişaf etdirmək bacarıqları**

Dünya mədəniyyəti tarixində xüsusi çəkiyə malik olan böyük etnoslar vardır ki, bunlardan da biri, heç şübhəsiz ki, türklərdir. Türklərin dünya mədəniyyəti tarixində rolunu iki mənada onunla izah etmək olar ki, onlar özlərinin güclərini göstərmiş və əlaqədə olduqları xalqların mədəniyyətlərinə təsir edə bilmişlər. Bunlardan birincisi - ilk yurdlarının son dərəcə əlverişsiz mühit və iqtisadi şəraitinə uyğun olaraq "köçəri" həyat tərzinin olması; digəri isə qanunlar və qaydalar əsasında mütəmadi olaraq idarə olunan böyük dövlətlər qurmalarıdır. Hətta alman alimi F.K.Müllerə görə, türklər iki sahədə dünya mədəniyyəti tarixində önəmli rol oynamışlar: Birincisi-iqtisadi mühitdir ki, onlar heyvan yetişdirməyi inkişaf etdirmişlər, ikincisi – Sosial mühitdir ki, onlar fövqaladə hallarda dövlət qurmağı yaxşı bacarmışlar! [23, s.18; 31, s.4; 20, s.56; 51, s.109; 54]. Türk dühasının ana xəttini təşkil edən bu iki keyfiyyəti dəyərləndirək:

Türklər fövqaladə bir əzm göstərərək yaşamaq üçün son dərəcə əlverişsiz, sərt təbiəti və iqlimi olan bölgəni seçmiş, həmin təbiətə və iqlimə özlərini uyğunlaşdırmışlar. Daha önəmlisi isə odur ki, onlar bu təbiətə və iqlimə hökm edərək, burada yaşamağı və yüksək bir mədəniyyət yaratmağı bacarmışlar. Lakin bu nailiyyətlər asan yolla əldə edilməmişdir, onlar sərt təbiətə qarşı davamlı olaraq mübarizə aparmışlar. Şübhəsiz ki, bu mübarizə də həmin təbiət və iqlim qədər sərt və sağlam xarakterə sahib olmaqla içində yaşadıqları məkana uyğun bir həyat tərzi formalaşdırıb inkişaf etdirməklə aparılmışdır.

Qədim türklərin içində olduqları coğrafi məkanda yaşaya bilmələri və öz varlıqlarını davam etdirmələri üçün, hər şeydən əvvəl, onların özlərini yaşadıqları ərazinin təbiətinə və iqlim şəraitinə uyğunlaşdırmaları, yəni onun qədər sərt və güclü olmaları lazım gəlmişdir. Bunun üçün onlar amansız təbiət və iqlim şəraitinə qarşı cəsarətlə meydan oxumuşlar, ona ən uyğun qarşılığı verə bilmişlər. Bu qarşılıq isə yorulmadan, hər cür çətinlikləri gözə alaraq apardıqları mübarizə olmuşdur. Bu mübarizənin nəticəsi olaraq "maddi və mənəvi dözümlülük, dəmir kimi iradə, özünə güvənmək, qənaətçillik, müstəqillik və demokratizm" onların xarakterinin başlıca xüsusiyyətlərinə çevrilmişdir. Xüsusi olaraq daxili dözümlülükdən irəli gələn "fədakarlıq,sədaqət, dostluq, minnətdarlıq, vəfa, səmimiyyət, mərdlik, dürüstlük, comərdlik,qonaqpərvərlik, bir-birilərinə kömək əli uzatmaq, yarışma" kimi məziyyətlər və davranışlar da onlarda ilk vaxtlardan inkişaf edərək formalaşmışdır [20, s.17].

Bu yüksək xarakter, əsrlər boyunca türkləri ayaqda tutan dəyərlər olmuşdur. Bu üstün amillər türkün mənəvi gücünü son dərəcə artırmış və ona müqayisə olunmayan üstünlük və dəyər vermişdir. Mənəvi gücü meydana gətirən isə onların sayı deyil, məhz üstün keyfiyyətləri olmuşdur. Beləliklə də türklər bəşər tarixinə çox böyük itöhfələr verməyi bacarmışlar.

Türklərin əsil bacarıqları, içində yaşadıqları təbiət iqliminə uyğun həyat tərzi keçirə bilmələri olmuşdur. Bu, köçəri həyat tərzi idi.

Deyə bilərik ki, türkü köçəri – evli edən məhz sərt təbiət olmuşdur. Çünki onların yaşadıqları ərazinin iqlim şəraiti heyvandarlığı inkişaf etdirmək qədər əkinçilik üçün yararsız olmuşdur.

Heyvandarlıq isə türkləri köçəri bir həyat tərzi keçirməyə məcbur etmiş və onları bu həyata alışdırmışdı.[1] Beləliklə türk "köçəri həyat tərzi" meydana gəlmiş və inkişaf etmişdi.

Burada bizim "köçərilik" məfhumunu izah etməyimiz yerinə düşərdi. Çünki "köçərilik" dedikdə ağlımıza ilk olaraq qədim bir mədəniyyəti təmsil edən həyat tərzi gəlməkdədir. Lakin qeyd etmək istəyirik ki, türk köçəriliyinin ilkin köçəriliklə heç bir əlaqəsi müəyyən edilməmişdir. Bunlar təmamilə bir-birindən fərqli həyat və mədəniyyətləri təmsil etmişlər. Burada hər iki həyat və mədəniyyət arasında aparılacaq kiçik bir müqayisə bu faktı sübut edə bilər: İlkin köçərilikdə mənimsəmə təsərrüfatına əsaslanan iqtisadi fəaliyyət burada yoxdur. Yəni ilkin köçərilikdə insanlar sadəcə yığıcılıqla məşğul olmuş, hazır məhsul tapmaq üçün köç etmişlər. Lakin türk köçəriliyində iqtisadiyyat heyvandarlıq kimi sağlam bir təmələ və mənbəyə əsaslanmışdır. Yəni atlı köçərilik istehsalçılıqdır. Yetişdirdiyi heyvanlardan həm özünün tələbatını ödəyirdi, həm də ehtiyacından artıq olan malları sataraq özünə lazım olan mal və əşyanı almışdır. Digər bir tərəfdən də, ilkin köçərilikdə vətən, millət və dövlət fikri heç bir zaman olmamışdır. Türk köçəriliyində isə vətən, millət və dövlət fikri lap erkən zamanlardan meydana gəlmiş və inkişaf etmişdir. Yaşadıqları ərazinin əlverişsiz iqlim şəraiti türkləri daha sıx işbirliyinə, dözümlülük və təşkilatlanmaya məcbur etmişdir. Daha önəmlisi isə böyük sürülərin saxlanaraq idarə edilməsi türkləri təşkilat, əmretmə və hakimiyyət fikrinə hazırlamış, bu yolda ona son dərəcə önəmli olan bilik və bacarıq qazandırmışdır. Beləliklə, türklər lap erkən zamanlarda böyük dövlətlər quraraq tarix səhnəsinə çıxmışlar. Hətta onlar bununla kifayətlənməmişlər; ölkələrindən kənarlara köç etmiş, orada da təşkilatlanma bacarıqlarını göstərmiş, yerli xalqlar üzərində hakimiyyət qurmuş, yeni-yeni siyasi birliklər yaratmışlar. Hökmranlıqları altına saldıqları toplumlara isə "vətən, millət və təşkilat" məfkurəsi aşılamışlar. Məsələn, slavyanlar türkləri tanıyana qədər vətən, millət və təşkilat fikrindən son dərəcə uzaq bir toplum olmuşdu. Belə ki, slavyanlara təşkilatlanmağı və özlərini qorumağı öyrədən bulqar türkləri olmuşdur [48, s.5].

Qədim türkləri və mədəniyyətlərini araşdıran ingilis tarixçisi Arnold Toynbinin türk köçəri həyatı haqqındakı fikri belədir: Köçərilərin həyatı, şübhəsiz ki, insan məharətinin zəfəridir [30, s.5]. Vyana tarix qurumunun təmsilçisi olan Vilhelm Koppers də bu fikri dəstəkləyərək yazmışdır: Vətəni "Bozqır" olan türklərə, atın ilk əhliləşdirilməsi və bununla bağlı olaraq xarakterik bir çoban mədəniyyətinin yaradılması məqbul sayıla bilər. Bunun mənası: insanlıq tarixində ilk dəfə olmuş bir bacarıqdır. Həm də bu elə bir bacarıqdır ki, tayfaların və mədəniyyətlərin inkişafında özünəməxsus sonluqlar yaratmışdır [22, s.471, 522]. Göründüyü kimi, " türk köçəri həyatı" dövrünə görə yüksək və nümunəvi bir həyat tərzi təşkil etmişdir. Köçəri həyat yaşayan türklərin bugünkü mədəni millətlərin hələ ortaya çıxmadığı zamanda dövlət qurmaları, böyük insan dəstələrini təşkilatlandırmaları onların şübhəsiz ki, müəyyən mədəni səviyyəyə çatdıqlarını aydın şəkildə göstəricisidir. Dövlət isə yüksək və qabaqcıl mədəniyyətin məhsuludur. İbtidai və geridə qalmış mədəniyyətlərə sahib olan xalqlarda isə dövlət və təşkilat heç bir zaman olmamışdır.

**Türklərdə dövlət fikri**

Bildiyimiz kimi, insan kütlələrinin müəyyən bir mədəniyyət ətrafında toplaşması ilə meydana gələn ən böyük toplum xalqdır. Digər bir tərəfdən də, insanların qurduğu ən böyük təşkilat isə-dövlətdir.

Qədim türklər xalqa-millətə "kün", "budun" və ya "el/il" deyirdilər. Bunlardan "budun"(bod) sözünün çoxluğu olub, boylar birliyi (tayfa) mənasını verməkdədir. Çünki, "budun" qohum qəbilələrin bir təşkilat ətrafında birləşməsi ilə meydana gəlmişdir. Yəni boyların bir araya gətirilməsi ilə türk dövləti (türk eli) meydana gəlmişdir. Məsələn, Göytürk dövləti-doqquz oğuz, on-

[1] Qədim türklər üçün ən uyğun həyat "köçəri"həyat tərzi olmuşdur. Oğuzlar X əsrdə oturaq həyat tərzinə keçmiş olan soydaşlarına "yakut", yəni tənbəl deyərək onları alçaltmışlar. Türk topluluqlarının İslam dini və mədəniyyətini qəbul etmələrindən sonra oturaq həyata keçmələri sürətlənmişdir. Lakin onlar "köçəri"həyata olan duyğularını və xüsusiyyətlərini heç bir zaman öz içlərindən çıxarıb atmamışlar. Bu gün türk elləri arasında söylənən dörd amil hələ də bu keyfiyyətin davam etdiyini göstərməkdədir: "Əkin əkmə əylənərsən, bağça salma bağlanarsan, sür atını çək dəvəni, gündən- günə bəy olarsan".

ox, tölk, tarduş, karluk, turkis, ediz, izgil, çik, az, soğdak kimi türk qəbilələrinin (budunlarının) birləşməsi ilə yaranmışdır. Türklər dövlətə "el" və ya "il" adı da verirdilər. Dövlət qurmağı "illəmək", dövləti idarə etməyi isə "il tutmaq" kimi sözlərlə ifadə edirdilər. Qədim türklərdə siyasi təşkilatlanma və dövlət qurmaq düşüncəsi həyati bir ehtiyac nəticəsində meydana gəlmişdir. Qədim türklərin ana vətənində yararlı torpaqlar çox az olduğuna görə əkinçilik inkişaf etməmişdir. Bu torpaqlar heyvandarlıq üçün yararlı idi. Onlar böyük sürülər saxlayır və onlardan çoxçeşidli yeyəcək məhsullar düzəltdirdilər. Lakin həmin məhsullar onların bir il yaşamaları üçün bəs eləmirdi. Tez-tez kütləvi şəkildə heyvanların qırılması da onları bütün varlıqlarını itirmək kimi böyük iqtisadi fəlakətlə qarşı-qarşıya qoyurdu. Belə zamanlarda onlar tez-tez düşmən hücumuna da məruz qalırdılar. Beləliklə, türklər çətin durumları qabaqlayaraq öz nizamlarını və daxili sakitliklərini saxlayır, özlərini qoruyaraq mövcudluqlarını davam etdirə biləcək çarələr axtarırdılar. Bu axtarışların isə nəticəsi olaraq siyasi və əsgəri bir təşkilatın əhəmiyyətini üzə çıxarmışdılar. Xüsusən də böyük sürülərin saxlanıb idarə edilməsi, otlaqların əvvəlcədən tapılaraq qorunub saxlanması kimi fəaliyyətlər onları dözümə, iş birliyinə, ən əsası isə hökm etməyə hazırlamış, təşkilatlanmalarını asanlaşdırmışdır. Beləliklə, qədim türklər dövrlərinin ən qabaqcıl xalqlarından biri kimi idarəedici təşkilatlar quraraq böyük ordular yarada bilmişdilər. Bununla onlar qəhrəmanlığı ən böyük dəyər kimi yüksəltmişdilər.[2] Döyüş bacarıqlarını və güclərini artırmışlar. Bundan isə onlar öz varlıqlarını qorumaq və davam etdirmək üçün həyati fəaliyyətlərində istifadə etmişlər. Beləliklə, qədim türklərdə qanunlar əsasında işləyən böyük təşkilatlar meydana gəlmişdir.

**Türklərdə dövlət məfkurəsi və dövlət qurma fəaliyyəti**

Bilgə xaqan (716-734) Göytürk yazılarında ata-babalarının gördükləri işlərdən bəhs edərkən belə demişdir: "Üstündə mavi göy, altında yer yaradıldığında, ikisinin arasında insan oğlu yaradılmış. İnsan oğlunun üzərində də Bumin xaqan və İstəmi xaqan hökmdar olaraq taxtda oturmuşdur. Taxtda oturduqdan sonra, türk millətinin dövləti və adət-ənənəsini idarə etmişdir [17, s.1]. Bu sözlər sadəcə bir dövrün fəaliyyətini deyil, kökü və başlanğıcı göy,yer və insan oğlunun yaradıldığı dövrə qədər uzanan minlərlə illik bir fəaliyyətin və zəhmətin özünü ifadə etməsidir. Türklər ilk zamanlarda özlərində olduğu kimi, zaman-zaman kənara çıxaraq, getdikləri yerlərdə də yeni-yeni dövlətlər yaratmışlar. Qədim Çin, Mesopotamiya, İran, Hindistan, Cənubi Qafqaz və Anadollu mədəniyyətləri üzərində aparılmış tədqiqatlar da bütövlükdə türk mədəniyyətinin izlərinə rast gəlinməsi [22, s.444-447, 488-492; 36, s.63]. Belə ki, türklərin ta qədim zamanlardan bu yerlərə köç edərək, yerli türk tayfaları ilə qovuşub dövlət qurmaları barəsində geniş məlumatlar verilməkdədir. Hətta harda bir dövlət qurulmuşsa, orada türk mədəniyyətinin izlərinə rast gəlmək mümkündür [30, s.5-65]. Belə ki, Rasoni yazırdı: ".... harada qüdrətli və davamlı bir dövlət qurulmuşsa, orada hökmən heyvandarlıqla məşğul olan insanlar olmuşdur. Bunun kökü araşdırılsa, nəticədə Ural-Altay qövmlərinin təsiri ilə bağlılığı görünür". Bu da alimlərin istər-istəməz Şumer, Anadolu, Çin, İran, Cənubi Qafqaz kimi ərazilərdə bərqərar olmuş mədəniyyətlərin köçəri tayfalarla yaxından əlaqəsinin olduğu, onların təşkilatçılıq qabiliyyətləri olmadan bu mədəniyyətlərin çatdıqları yüksək səviyyəyə heç bir zaman yetişə bilməyəcəkləri düşüncəsində olduqlarını göstərir [6, s.166; 22, s.447, 492][3].

[2] Hər bir mədəniyyət özünü yaşadacaq və davam etdirəcək insan tipini yetişdirməyə çalışır. "Köçəri" mədəniyyətin ideal insan tipi isə "cəsur"(ürəkli) və "qəhrəman"(alp) insandır. Belə ki, köçəri bir həyat sürən qədim türk toplumları, təhlükələrlə dolu bir mühitdə yaşamış. Üstəlik bu həyat tərzində döyüşlər və köç etmək, həyatda qala bilmək və həyatı davam etdirmək üçün çətin və qaçılmaz bir amil də olmuşdur. İş belə olduqda həm toplum həyatında, həm də dövlət həyatında cəsur və qəhrəman insanlara son dərəcə ehtiyac olmuşdur. Çünki təhlükələr və çətinliklər yalnız onların cəsarət və qəhrəmanlıqları sayəsində dəf oluna bilinirdi. Köçlərin və döyüşlərin zəfərlə başa çatması yalnız onların qəhrəmanlıqları və cəsarətləri sayəsində mümkün olmuşdur. Qısaca desək, toplum və dövlətin taleyi böyük ölçüdə qəhrəmanların bacarıqlarına bağlı olmuşdur.

[3] Koppers apardığı bir tədqiqatın nəticəsini belə müəyyən etmişdir: "Qədim türklüyün Qədim Şərq mədəniyyətinin təməlləndirilməsində, daha doğrusu inkişafında iştirakı, bəzən inanıldığı və ifadə edildiyi qədər heyrət ediləcək bir fikir deyildir".

Digər bir tərəfdən, xüsusən də qədim mədəniyyətlərdən qalan dil nümunələri (məsələn, Şumer dili) bu mədəniyyətləri yaradan tayfaların Orta Asiyadan olmasına dair tutarlı faktlar əldə olunmuşdur[4]. Lakin türklərin qədim zamanları üzərində aparılan tədqiqatlar hələ başa çatdırılmamış və konkret nəticə əldə edilməmişdir.

Yazılı mənbələrin verdiyi məlumatlara görə, tarixdə təşkilatlanmış ilk türk dövləti Böyük Hun dövləti olmuşdur. Hunlardan başlayaraq bu günə qədər türklərin qurduqları dövlətlərin sayı 100-dən çoxdur. Tarixdən də məlumdur ki, heç bir etnos bu sayda dövlət qura bilməmişdir. Bunu nəzərə alaraq deyə bilərik ki, türklər tarixin heç bir dövründə dövlətsiz qalmamışlar. Çünki, onlar dövlətin xalqın varlığını qoruyan, yaşadan və inkişaf etdirən əvəzsiz siyasi bir təşkilat olduğunu bilirdilər. Türklərdə dövlət qurmaq idarə edən təbəqə ilə iş birliyində olan geniş xalq kütləsinin iştirakı ilə mümkün olurdu [13, s.218]. Daha doğrusu, xalq dövlətin həm qurucusu, həm də təməl ünsürü idi. Başqa sözlə, xalq dövlətin həqiqi sahibi olmuşdur. Bununla belə, dövlətin tənəzzülü və müstəqilliyin itirilməsi türk toplumları arasında sarsıntılara səbəb olmuşdur. Məsələn, 630-cu ildə dövlətini və müstəqilliyini itirmiş türklərin fəryadı Göytürk yazılarında “İlli (dövləti olan) xalq idim, ilim (dövlətim) indi hanı, kimə “il”(dövlət) qazandırıram” şəklində ifadə edilmişdir [27, s.71, 78].[5]

Qədim türklərdə dövlət və hüquq (il və törü) bir-birindən ayrılmayan, bir-birilərini tamamlayan, daha əsası isə bir-birilərinin mövcudluq səbəbi olan iki ünsür idi. Başqa sözlə, türklər dövləti daima qanun (törü) ilə birlikdə düşünmüş, onları bir-birindən ayırmamışlar. Daha doğrusu, türklərdə qanunsuz (törüsüz) dövlət olmamışdır [27, s.20, 22, 24, 33, 34, 38, 67, 69, 70, 77, 80; 10, s.109, 134]. Türkün və onun mədəniyyətinin ən böyük təmsilçilərindən biri olan Bilgə xaqan idi. O, həm türk dövlətinin, həm də onun qanunun (törüsinin) ölməzliyinə inanırdı. Bilgə xaqan bu inancını və düşüncəsini “üstdən göy basmasa, altdan yer yelinməsə (yəni qiyamət qopmasa), türk qövmnün dövlətini və qanununu kim poza bilər” şəklində bir ifadə ilə vermişdir. Lakin Bilgə xaqan bu inancında və düşüncəsində yanılmışdır.[6] Belə ki, ölümsüzlüyünə inandığı Göytürk dövləti onun ölümündən sonra qısa bir zamanda tənəzzül etmişdir. Halbuki, türklərin bu mənada inanclarına və düşüncələrinə görə dövlət yıxıla bilərdi, adət-ənənə isə daimi idi [19, s.25]. Həqiqətən də, türk dövlətləri zaman-zaman tənəzzül edərkən türk qayda-qanunlarını sağlam bir formada yaşadan türk toplumları daima özlərinin mövcudluqlarını qorumaqla yeni-yeni dövlətlər qura bilmişlər. Belə ki, türklər torpağın və azadlığın dövlət üçün inkar edilməz bir şərt, dəyər olduğunu qəbul edirdilər.

Hələ ilk vaxtlarda torpağın dövlət üçün dəyərini bilən türklər onu tərk olunmaz və bağışlanmaz bir məkan hesab etmişdilər. Onlar sahib olduqları və üzərində yaşadıqları torpağa “ülke, ulus (türkcə “ulus” sözü monqol dilində də eyni mənada işlənməkdədir) və ya yurt” demişdilər. Bunlardan “ulus” torpaq ilə xalqı ifadə edən bir sözdür. “Yurt” isə daha çox vətən kimi müqəddəs bir məna daşımışdır. Türklər üçün yurt sadəcə üzərində yaşanan və yaşayışlarını təmin edən bir torpaq parçası deyildir, eyni zamanda onları qoruyan “ata-babalarının ruhlarının da yaşadığı müqəddəs bir məkan idi. Türklər yalnız üzərində müstəqil yaşadıqları və heç bir sərhəd olmadan hökmranlıqlarını sürdükləri torpaqları “yurt” olaraq qəbul etmişlər. Daha doğrusu onlar üçün “yurt” - üzərində türk bayraqlarının dalğalandığı müqəddəs bir ata yadigarı idi.

Türk dövlətlərinin rəhbərləri həmişə torpağı dövlətin təməli sayan bir düşüncə içində olmuşlar. Bununla belə, vətən torpağını qorumağı və müdafiə etməyi özlərinin başlıca vəzifələri saymışlar. Şərtlər nə olursa- olsun bu vəzifələrini heç bir zaman unutmamışlar. Xüsusən də böyük Hun hökmdarı Metenin torpaq məsələsində, Çin mənbələrində öz əksini tapmış dönməzliyi sadəcə türk tarixində deyil, dünya tarixində belə bənzəri olmayan bir nümunə təşkil etməkdədir. Hun taxtına çıxarkən qonşu Tunq-hu tayfalarının ağır siyasi təzyiqlərinə məruz qalan Mete, Hun dövlət

[4] Nümunə üçün bax: [33, s.81; 55, s.304; 32, s.147-168; 5, s.10; 7, s.35-37]
[5] “Türk kara kamaq badun anca tirmiş: İllıq badun ertim, ilim amtı kanı, kimke ılıq kazqanur men tirimiş”
[6] Bilgə xaqanın düşüncə inancını geniş mənada götürsək, onun yanılmadığını da söyləmək olar. Belə ki, türk milləti tarixin hər bir dövründə dövlətsiz qalmamışdır. Bir türk dövləti yıxılarkən, onun yerini digər bir türk dövləti tutmuşdur. Beləcə türk dövlətləri silsiləsi müasir türk dövlətlərinə qədər uzanmışdır.

məclisinin müxalifliyinə rəğmən özünə aid bəzi malları bu tayfaya verməkdən belə çəkinməmişlər. Lakin dövlətə aid mal və hər hansı bir torpaq parçası istənilərkən cavabı belə olmuşdur: "Dövlətin malını və onun təməli olan torpağı kimsə verə bilməz" [21, s.53-61]. Buda göstərir ki, dünyada bir çox toplumların dövlət fikrində xəbəri olmadıqları bir zamanda türklər sağlam, köklü və inkişafda olan bir dövlət qurmaq düşüncəsinə çatmışdılar. Onların gözündə Böyük Hun hökmdarı Metenin dediyi kimi, torpaq dövlətin təməl ünsürü idi. Dövlətin təməli olan torpaq da səbəbi nə olursa-olsun, nə tərk edilə, nə də başqa xalqa verilə bilməzdi.

Türklər üçün fərd, toplum və dövlət həyatında ən mühüm amillərdən biri də istiqlal (tam müstəqillik) idi. Belə ki, türklər müstəqillikləri uğrunda daha fədakar mübarizə aparan bir xalq olmuşdur. Azadlıq və istiqlal onların mövcudluqlarının əsas şərti olmuşdur. Daha açıq şəkildə desək, onlar azadlığa və müstəqilliyə sahib olduqda özlərinin var olduqlarını qəbul edirdilər [27, s.22, 36, 69, 79, 91][7]. Məhz bunun üçün türklər hansı formada olursa-olsun müstəqilliklərini saxlamağa çalışmışlar. Hətta həyatlarında ən çətin və ən ağır mübarizəni azadlıqlarının qorunması naminə aparmışlar. Daha önəmlisi isə bu iki dəyərin ucuz tutulması türklər arasında sərt mübahisələrə səbəb olmuşdur. Belə hadisələrdən biri də e.ə.58-ci ildə "Hun Dövlət Məclisində" olmuşdur. Yəni daxili və xarici təzyiqlərə müqavimət göstərə bilməyən Hun hökmdarı Hohənyəh öz vəzirinin təklifi ilə Çinin hökmranlığını qəbul edərək vəziyyətini yaxşılaşdırmağa çalışmışdır [20, s.7-13]. Lakin onun bu hərəkəti müqavimətsiz qalmamış, dövlət məclisində kəskin mübahisələrə yol açmışdır. Mübahisələrin nəticəsində isə hunlar istiqlalı qurban verənlər və verməyənlər qruplarına parçalanmışlar.[8] İstiqlalı qurban verməyənlərin başında Hohənyəhin qardaşı Çiçi durmuşdur.

İstiqlalı qurban vermək istəyən Hohənyəh və onun tərəfdarları etdikləri seçimi belə əsaslandırmağa çalışmışlar:" Bu olmamalı idi. Dövlətlərin də həm güclü, həm də zəif tərəfləri vardır. İndi Çin dağıdıcı gücə malikdir. Şəhər dövlətləri və vilayətlər bir qul kimi, hələlik ki, Çinə bağlıdırlar. Məhz buna görə Çinin daha üstün gücü qarşısında boyun əymək lazımdır. Əks təqdirdə bir gün də rahatlıq tapa bilmərik. Yalnız Çinin yüksək hakimiyyəti altında barış və sakitlik tapa bilərik.Yoxsa təhlükələr içində məhv olarıq. Bundan daha yaxşı nəsihət olarmı?" [20, s.261].

Hohənyəh və tərəfdarlarının bu sözləri maddi və mənəvi tənəzzül halını yaşayan insanların psixologiyasına güclü təsir göstərmişdir. İstər xalqın, istərsə də ayrı-ayrı şəxslərin həyatında olan maddi tənəzzül mənəvi tənəzzülü də özü ilə gətirir. Bu halı yaşayan insanlar həm özlərinə, həm də xalqa, vətənə etibar etməzlər. Onlar güclülər qarşısında sınan və təslimçi ruha və xarakterə sahibdirlər. Məhz Hohənyəh və onun tərəfdarları da bu qəbildən olmuşdur.

Çiçi və tərəfdarları isə qurtuluşu başqa bir dövlətin dəstəyi və himayəsində deyil, özlərinin gücündə görmüşdülər. Daha doğrusu, onlar həm özlərinə, həm də xalqa arxalanmışdılar. Fikirləri isə haqlarından və mübarizələrindən imtina etməyəcək qədər güclü olmuşdur. Türklərin istiqlala verdikləri dəyəri göstərmək üçün Çiçi və onun təfdarlarının Çin sənədlərində əksini tapmış fikirlərini öyrənmək kifayətdir: "Hunlar cəsarəti və qüvvəti təkrar edərlər; bağlı olmaq və köləlik onlara ən ağır bir şey kimi gəlmişdir. At belində döyüşmək və mübarizə aparmaq tərzi ilə dövlət qurulurdu. Qəbilələr içərisində qüvvət və nüfuz əldə edilirdi. İgid döyüşçülər ölüncəyə qədər döyüşürdü ki, varlıqlarını davam etdirə bilsinlər. İki qardaş taxt-tac üçün mübarizə etmişdir. Sonda isə ikisindən biri taxta sahib olacaqdır. O, (istiqlalı müdafiə edən) ölsə də onun nüfuzu (xalq içində) elə bir səviyyəyə çatacaq ki, övladları həmişəlik dövlətin sahibi olacaqdır. Həqiqətdir ki, indi Çin bizdən güclüdür; lakin hunların ölkəsini ilhaq edə bilməz! Nə üçün özümüzü Çinə bağlı edirik?Atalarımızın dövlətini çinlilərə verək? Bəli, belə olduqda (yəni Çinin hakimiyyətini qəbul etməklə) yenidən təsis oluna bilinsə belə qəbilələr arasında yenidən üstünlüyümüzü əldə edə

---

[7] Göytürk yazılarına görə istiqlalı itirmək üçün bu nəticələri ortaya çıxarırdı: 1) dövləti itirmək (ilsizləşmək), 2)rəhbəri itirmək (kağansızlaşmaq), 3) qadınların namusunu itirmək, 4) kişilərin vicdansızlaşması, 5) türk qayda-qanunlarını itirmək.

[8] Türklərin istiqlal kimi önəmli bir məsələ üzərində ikiyə bölünmələri təkcə hunların dövründə deyil, Göytürk,Səlcuq, Səfəvi,Osmanlı və s. türk dövlətlərində də olmuş və utanverici bir hal kimi qəbul edilmişdir.

bilərikmi? Biz ölsəkdə qəhrəman kimi şöhrətimiz artacaq, oğullarımız və nəvələrimiz həmişə dövlətin hakimi olacaqlar" [20, s.267].

Bundan sonra Çiçi və tərəfdarları başladıqları istiqlal mübarizəsini həyatları ilə birlikdə itirdilərsə də, gələcək nəsillər üçün ölməz bir ideal və nümunə qoyub getdilər.[9] Çünki türk istiqlalının bu bənzərsiz qəhrəmanları hələ mübarizəni başlamazdan əvvəl övladlarının həmişə dövlətin hökmdarı olacaq inancını daşımışlar. Həqiqətən də onlar dövlətlərini və müstəqillik uğrunda həyatlarını itirsələr də, inanclarını yaşatmağı bacarmışlar. Bir müddətdən sonra övladlarının ruhunda da müstəqillik fikri təkrarən oyanmış, babalarının və atalarının uğrunda həyatlarını verdikləri dövlətə və azadlığa təkrar qovuşmuşlar.

**Türk dövlətinin başçısı**

Qədim türklərdə dövlətin rəhbəri həm bütün dövlət təşkilatlarının, həm də bütün toplumun lideri olmuşdur. O, sadəcə içində yaşadığı zamandan deyil, eyni zamanda dövlətin və toplumun gələcəyi haqqında məsuliyyət daşıyırdı. Dolayısı ilə türk dövlətinin başçısının bəzi yüksək vəzifələrə sahib olması lazım idi. Bu dövlətlərin başında ürəkli (cəsur), qəhrəman (alp) kimi önəmli xüsusiyyətə sahib olan insan durmalı idi [20, s.71-75]. Çünki türk dövlətinin başçısı ilk növbədə "türk toplumlarını bir dövlət ətrafında birləşdirmək, üsyan edən toplumu itaət altına salmaq, qayda-qanunu və daxili barışı təmin etmək, düzgün qanunlar tətbiq etmək və qanunları ədalət prinsipini əsas tutmaqla müəyyən etməli idi. İqtisadi tədbirlər həyata keçirərək insanların maddi rifahını yaxşılaşdırmaq, yerdəyişmə və döyüşləri zəfərlə başa çatdırmaq, xalqın müstəqilliyini və mədəniyyətini qorumaq kimi dövlət və toplum həyatında son dərəcə önəmli işləri bacarmaq məcburiyyətində də idi. Qısaca desək, dövlət və toplumun taleyi, böyük ölçüdə dövlət başçısının bacarığına bağlı idi.

Türk dövlət başçısının yuxarıda göstərilmiş vəzifələrinin bəzilərini açıqlayaq: Türk dövlətinin başçısının ən önəmli vəzifələrindən biri türk dilində danışan və türk soyundan olan bütün toplumları bir dövlət ətrafında toplamaq olmuşdur. Bu da ki, yalnız silah gücünə həyata keçirilirdi. Bunun üçün başçı "ordunu cəlb edərək döyüşmək, müqavimət göstərənləri bitərəfləşdirmək, toplumları itaət altına almaq, birlik və bütövlüyü təmin etmək" məcburiyyətində idi. Bu hal Göytürk yazılarında "İlliyi (dövlət olanı) ilsizləşdirdik, "Kağanlığı" (xanı olanı) kağansızlaşdırdıq, dizliyə diz çökdürdük, başlıya baş əydirdik" [27, s.23, 70; 43, s.117] şəklində ifadə olunmuşdur.

Türk dövlətinin başçısı türk toplumlarını deyil, yad soydan və mədəniyyətdən olan qəbilələri də bir dövlət ətrafında birləşdirməyi özünə borc bilmişdir. Başqa sözlə desək, türk dövlətinin başçısı həmişə dünya hökmranlığı fikrində olmuşdur. Çünki o, dünya hakimiyyətinin tanrı tərəfindən bir vəzifə olaraq verildiyinə inanmışdır. İdeal bir dövlət başçısı olan Bilgə xaqan (716-734) bu keyfiyyətlə Göytürk yazılarında dünya hakimiyyətini qurmuş bir hökmdar kimi danışmışdır: "şərqdə günün doğmasına, cənubda günün ortasına, qərbdə günün batmasına, şimalda gecənin ortasına qədər, onun içindəki xalqların hamısı mənə tabedir.Bu xalqların hamısını bir dövlət ətrafında birləşdirdim" [22, s.17; 41, s.84].[10] Bu sözlər şübhəsiz ki, onun çatmış olduğu bir hədəfi deyil, çatmaq istədiyi bir məqamı göstərməkdədir.

Türk dövlətinin başçısı dövlətə aid işlərdə qərarları tək verməzdi. Qədim türk dövlətlərində siyasi, hərbi, sosial-iqtisadi və mədəni məsələlərdə mübahisələrin aparıldığı və məlum siyasətin müzakirələri keçirilərkən qərar verəcək məclis var idi. Bu məclisə "toy, kendeş, ternek (dərnək) və qurultay" kimi adlar verilirdi.[11] Məclis üzvlərinə isə "toyqun" deyirdilər. Təbii ki, məclisə dövlət

---

[9]Bir türk dövləti tənəzzül edərkən və yaxud istiqlalını itirərkən, gələcək nəsillərə bu idealı hədəf göstərmək nümunəsi türklərin bütün tarixi boyu davam etmişdir. Bunun bariz nümunəsi Azərbaycanda da izləmək mümkündür. Azərbaycan türkləri ta qədim zamanlardan özünün dövlətini qurmuş, zəifləyib tənəzzül etsə də onu yenisi ilə əvəz etmişdir. Hətta tam müstəqil dövlətinin olmadığı zaman belə istiqlaliyyət məfkurəsini qoruyub saxlamış, əlverişli məqamda isə reallaşdırmışdır.

[10] Türklər dünyanın dörd cəhətdən ibarət olduğunu düşünürdülər. Və dörd tərəfdəki millətləri hakimiyyət altına almaqla özlərini dünya hökmranlığına çatmış hesab etmişdilər.

[11] Demokratiyanın təməl qurumlarından olan məclis, bütün türk dövlətlərində mövcud olmuşdur.

başçısı rəhbərlik edirdi. Dövlət başçısı olmadığı zaman isə məclis "ayqua" və ya "üqe" ünvanı ilə tanınan dövlət təmsilçisinin rəhbərliyi altında toplanırdı. Məclisin üzvləri, başda "Xatun, tiqinlər (şahzadələr), hökmüdarın qardaşları" olmaqla, qəbilə başçıları arasından seçilməklə təyin olunurdu [12, s.207; 24, s.11-15; 5, s.27; 20, s.28]. Bu halda meydana çıxacaq hər hansı bir şübhəyə aydınlıq gətirmək məqsədi ilə deyə bilərik ki, türk dövlətlərində qanunsuz və hökmüdarın şəxsi iradəsinə bağlı idarəçilik sistemi heç bir zaman mövcud olmamışdır. Lakin səriştəsiz hökmüdarların zamanında dövlətdə və toplumda intizam zəifləmiş, qanun və qayda pozulmuşdur. Belə vaxtlarda qayda-qanunu yenidən nizamlamaq və qanunun hökmranlığını təmin etmək bir vəzifə kimi dövlət başçısının üzərinə qoyulurdu. Hətta o bununla da qalmamalı idi: "doğru-dürüst qanunlar tətbiq edərək, ədalətlə həyata keçirməli idi. Belə ki, türklərdə ədaləti dövlətin təməli hesab edən bir hüquqi anlayış var idi. Bu anlayış Qaraxanilər dövrünün məşhur siyasət kitabı olan "Kutadqu Biliq" – də "Bəyliyin təməli ədalətdir" [34, s.819, 821] kimi ifadə olunmuşdur. Ədalətli və dürüst qanunlara "Köni törü" deyilirdi. Bu kitabda köni törünü də hökmüdar "Kün-toğdi" (Günəş doğdu) ifadəsi təmsil etmişdir [9, s. 107]. göründüyü kimi bu əsərdə türk dövlətinin başçısı günəşə bənzədilmişdir. Çünki günəş işığını və istisini bütün canlılara bərabər olaraq çatdırmaqdadır. Dövlət başçısının hərəkəti də hamı üçün eyni olmalı, heç kimsənin soyuna, mövqeyinə və əmlakına toxunmamalı idi.

Türklərdə xalq dövlət üçün deyil,dövlət xalq üçün idi. Bu anlayışın təbii nəticəsi olaraq türk dövlətinin başçısı, xalqı iqtisadi baxımdan rifaha çatdırmalı və rifah içində yaşatmalı idi. Bilgə xaqan göytürk yazılarında "tanrının buyurduğuna görə, özüm dövlətli olduğum üçün, xaqan olaraq oturdum. Xaqan olaraq oturub ac xalqı doyurdum, Çılpaq xalqı geydirdim, kasıb insanları varlı, azlıqda olan soyu çoxaltdım" deyən, bu vəzifələri həqiqətə çevirmiş ilk türk dövlət başçısı kimi bizə məlumdur. Qeyd etmək lazımdır ki, Bilgə xaqanın bu arzularının həqiqətə çevrilməsi o qədər də asan olmamışdır. O, qardaşı Költigin ilə birlikdə gündüz oturmadan, gecə yatmadan, ölənəcən, bitənəcən işləmələri lazım olmuşdur [27, s.25, 39; 50, s.174; 4, s.176].

Çünki xalqın zənginliyi dövlətin və onun başçısının zənginliyi deməkdir. Odur ki, dövlətin rəhbəri xalqın gəlirini öz gəlirindən irəli tutmalıdır. Hökmdarın gəliri isə xalqın gəliri içərisində olmaqla ondan fərqlənməməlidir.

**Türk mədəniyyətinin qüdrəti**

Türk mədəniyyəti və tarixi üzərində bir araşdırma aparılarkən məlum olur ki, türk soyu uzun bir tarix boyunca bir dəfə yurd, bir dəfə dinvə iki dəfə mədəniyyət dəyişdirmişdir. Bu günkü türk dövlətlərinin əcdadı olan türk toplumları bu ölkələrin ərazilərinə gələrək, özləri üçün əbədi bir vətən yaratmışlar. Bu dövlətləri qurmuş türk toplumları X əsrdən etibarən "Göytürk inancı ilə, köçəri türk mədəniyyətindən ayrılaraq, islam dini və mədəniyyətini qəbul etmiş, XIX əsrdən etibarən isə müsəlman qalmaq şərti ilə qərb mədəniyyəti dairəsinə daxil olmuşdur. Bunlardan: köçəri türk mədəniyyətini hunlar, göytürklər, uyğurlar; islam mədəniyyətini Qaraxanilər, Qəznəvilər, Səlcuqlar, Məmluklar, Səfəvilər, Osmanlılar; qərb mədəniyyətini isə müasir türk dövlətləri (Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan) quran türk xalqları təmsil etməkdədirlər.

Qeyd edək ki, türk xalqlarının həyatında baş vermiş tarixi inkişafın və dəyişikliyin içində ilk vaxtlardan özünü daim qoruyub saxlaya bilmiş "türk mədəniyyəti" olmuşdur. Milli mədəniyyət deyrkən sadəcə özünə məxsus xüsusiyyətlər və dəyərlər deyil, həm də onun üçün tarixi boyunca müxtəlif mənbələrdən götürərək özünküləşdirdiyi bütün xüsusiyyətlər və dəyərlər də nəzərdə tutulur. Xalqların maddi və mənəvi cəhətdən yüksəlmələrində və irəliləmələrində başlıca şərtlərdən biri də toplumlararası mədəni əlaqələrdir. Məlumdur ki, millətlər üçün mədəni əlaqələr güclü xarici təsirlər altında ancaq əzilməmək şərti ilə həmişə faydalı olmuşdur.

Türklər özlərinin milli mədəniyyətlərini yaratmışdırlar. Hansı ki, bu mədəniyyəti ilə öz varlığını və kimliyini bu günə qədər qoruyub saxlamış və inkişaf etmişdir. Başqa bir sözlə, türk xalqları və mədəniyyəti, bir-birlərinin davamlı varlıq səbəbi və həyat mənbəyi olmuşdur. Bundan da belə bir nəticə çıxarmaq olar: xalqlar üçün mədəniyyət həmişə həyati bir önəm daşımaqdadır. Belə

ki, uzun bir tarix içərisindən bu günə qədər gəlib çatmış hər bir xalq bunu özünə məxsus mədəniyyət sayəsində sübut edə bilmişlər.

Hər bir xalqın keçmişi kimi gələcəyi də milli mədəniyyətə bağlıdır. Belə ki, gələcəkdə mövcud olmaq əzmində olan hər bir xalq, bunu yalnız öz mədəniyyəti sayəsində edə bilər. Bu da ki, yalnız milli mədəniyyətin yeni nəsillər tərəfindən mənimsənilməsi, qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi ilə mümkün ola bilər. Əks halda isə, milli mədəniyyətinə arxa çevirən və onun bütövlüyünü qoruyub saxlamaqda məsuliyyətsizlik göstərən xalq gələcəkdə yox olmaqdan qurtara bilməyəcək. Belə ki, bir millətin başına gələ biləcək ən böyük fəlakət onun milli mədəniyyətini tamamilə itirməsidir. Beş min illik yazılı tarix bu gerçəkliyi açıq bir şəkildə göstərmişdir ki, bir xalq nə bir döyüşdə yenildiyi, nə ölkəsinin işğal olunduğu, nə də iqtisadi tənəzzülə uğradığı zaman milli varlığını itirməmişdir, o, yalnız milli mədəniyyətini itirərkən tarix səhnəsindən silinmişdir.

Xalq mədəniyyətinə sahib durduqca yüksələr və ucalar, mədəniyyətindən isə uzaqlaşdıqca mənəvi gücünü itirər və zəifləyər. Belə ki, milli mədəniyyətinə arxa çevirən millətlərin, yad mədəniyyətlərin təsirinə məruz qalması, özünü itirməsi və digər xalqlara kölə olması çox asandır. Tarix bu halı göstərən nümunələrlə zəngindir.

Milli həyatın davam etməsi baxımından ən böyük təhlükə, şübhəsiz ki, xalqın bütövlüyünün pozulması, dağılması və parçalanmasıdır. Bununla belə, milli mədəniyyət dedikdə yad mədəniyyətin qəbul edilməsi şəklində anlamaq düzgün olmazdı. Belə ki, mədəniyyətin özünü və təməlini şərtləndirən dəyərlər heç bir zaman dəyişmir. Türklərin mədəniyyətinin ən önəmli xüsusiyyəti onun son dərəcə dinamik bir mədəniyyət olmasıdır. Dolayısı ilə bu mədəniyyəti yaradan qədim türk toplumları son dərəcə canlı, hərəkətli və dinamik olmuşlar. Qədim türk toplumlarına dinamizm qazandıran xüsusiyyət isə “yardımlaşma və yarışma” olmuşdur.[12]

“Yardımlaşma”, toplumun həmişə birlik və mətinlik rəmzi hesab edilmişdir. Belə ki, bütün türk toplumları ehtiyac olduqda bir-birlərinə yardım edən bir ailə kimi yaşamışlar.

Yarışma isə eyni toplumun hamısı ilə həyata keçirilirdi. Çünki, “yarışmanın” gücünü, üstün gəlmək və hakim olmaq düşüncəsi və anlayışı müəyyən edirdi. Bu düşüncəyə sahib olan fərdlər və xalqlar, daima canlı, hərəkətli və dinamik, əksinə bunlardan məhrum olan fərdlər və xalq isə durğun, hərəkətsiz, tənbəl olurdu.

Yarışan fərdlər və xalqlar sahib olduqları ilə heç bir zaman kifayətlənməzdilər, onlar həmişə yaradıcıdırlar, bir yenilikdən digər yeniliyə, bir rekorddan digər bir rekorda tələsərdilər. Qədim türklərin həyatı daim belə olmuşdur.[13]

“Yardımlaşma” və “yarışma” anlayışları həyatda tam hakim olduqdan sonra, ortaya həmişə canlı, hərəkətli və dinamik bir toplum çıxmışdı. Məhz türk toplumlarının bütün dövrlərdə canlı, hərəkətli, güclü və sağlam olmasının sirri də bu idi.

Burada fikirlərimizi təməli Orta və Ön Asiyada, Cənubi Qafqazda qoyulmuş türk mədəniyyətinin qüdrətinə dair nümunələr qeyd etməklə tamamlamaq istəyirik:türk mədəniyyəti tarix boyunca, həmişə üstünlüyünü və güclü olduğunu nümayiş etdirmiş tayfaların mədəniyyətlərinə təsirini göstərmişdir. Məsələn, Çinin ən qədim və uzun ömürlü dövlətlərindən biri olan Çao dövlətinin (e.ə1050-247) əsasını bir türk toplumu qoymuşdur. Türklər Çao xanədanı zamanında

[12] Mahmud Kaşğari türkcə divanında yardımlaşma ilə bağlı 46, yarışma ilə bağlı 31, hər ikisi ilə birlikdə 114 nümunə vermişdir. Lakin bu sözlərin heç biri bu günkü türk lüğətlərinda yer almamışdır. Bunun səbəbi isə yardımlaşma və yarışma adətinin unudulmasıdır. Buna görə də hazırda türk xalqlarında nə yardımlaşma,nə də yarışma var.

[13] Həqiqətən də qədim türk toplumlarının hər bir fəaliyyətində yarışma olmuşdur.Yarışmalar isə bacarığın göstərildiyi bir məkanda keçirilirdi. Yarışmadan sonra isə bacarıqlı insanlar ön plana çıxırdılar. Bu insanlar toplumun nəzərində qəhrəman sayılır,hər zaman baş üzərində tutulur,hörmət və etibar görürdülər.Hətta sağlıqlarında belə onların bacarıqlarını tərənnüm edən şerlər yazılır, qəhrəmanlıq dastanları düzəldilirdi. Hansı ki, bu şer və dastanlar toylarda, bayramlarda və mərasimlərdə ozanlar tərəfindən qopuzla tərənnüm edilirdi. Bunlarda isə əsas məqsəd həm bacarığı olan adamları mükafatlandırmaq, həm də toplumdan yeni bacarıqlı insanların çıxmasını təmin etmək idi. Çünki qədim türk ailəsində hər ana və ata uşaqlarını böyüdərkən,idealını bu bacarıqlı adamların şəxsində görür və onları uşaqlara örnək kimi göstərirdilər.

Çinə türk mədəniyyətinin ən önəmli ünsürlərindən olan atı, arabanı, tuncu, 12 heyvan simvollu türk təqvimini və "Göy tanrı inancını" gətirmişdilər. Daha önəmlisi isə e.ə. IVəsrin son rübündə Çao dövləti zamanında çin ordusunun geyim və silahlarında dərin bir islahat keçirilərək, hun türklərinin süvari üsulu mənimsənilmiş, geyim və silahları isə eyni olaraq tətbiq olunmuşdur. Beləliklə, Çin ordusunun əsgərlərinə, bu günkü mədəni geyimə yaxın olan "Hun börkü" (papağı), şalvarı, gödəkçəsi və çəkməsi geydirilmiş, hun silahları ilə hun üsulunda təlim verilmişdir. Çinlilər yalnız bu islahatdan sonra hunları sərhədlərindən kənarlaşdırmış və onların yenilməzliyi mifini dağıda bilmişdilər [20, s.6].

Türk mədəniyyəti sadəcə Çin mədəniyyəti üzərində deyil, türklərin Avropa istiqamətində yayılmasının nəticəsində Qərb mədəniyyətinə də təsir göstərmişdir. Xüsusən də romalıların alt paltarının nə olduğunu bilmədikləri bir zamanda hun türkləri "yun köynəklər" geyməkdə idilər [11, s.17]. Daha sonra Qərb tayfaları türklərlə təmasda oluncaya qədər süvari texnikasında atın hərəkətini idarə etmək üçün lazım olan və manevr qabiliyyətini artıran "yüyəni" tanımırdılar." Alt paltarlarını, incə, uzun və çox xəfif dəstəkli türk qılınclarını, türk ox və kamanlarını, müstəqil qruplar halında döyüş sistemini "Qərb və Orta Şərq toplumlarına tanıdan məhz hun türkləri olmuşdur. Yüyəni isə Avropaya gətirən Avar türkləri olmuşdur [2, s.195]. Hər biri türklər tərəfindən icad olunan "cüt qaval"ı, "qopuz"u, "qatığı", "konservləşdirilmiş əti" və "basdırmanı" dünyaya tanıdan da məhz türklər olmuşdur [20, s.6]. Bu kimi nümunələri daha da artırmaq olar.

Beləliklə, deyə bilərik ki, mədəniyyətin dəyərləri fərd ilə xalq arasındakı sağlam əlaqələri qurur. Bu əlaqələr birləşdirici, bütövləşdirici bir rol oynayır; toplumdakı pozulmaları qabaqlayır, millətin bütövlüyünü həmişə qoruyub saxlayır.Belə ki, eyni bilgiyə sahib olan insanlar deyil, eyni mədəni dəyərləri paylaşan insanlar bir-birləri ilə anlaşa və bütövləşə bilirlər.

Bütün bu amilləri nəzərə alaraq tam əminliklə deyə bilərik ki, türk xalqlarının tarixdəki ən böyük nailiyyəti, şübhəsiz ki, milli mədəniyyətini bu günümüzə qədər, bütövlüklə qoruyub saxlamasıdır. Yuxarıda qeyd etdiyimiz kimi, türk xalqları tarixin məlum dövrlərində yurdunu və dinini dəyişdirməsinə baxmayaraq varlığının və istiqlalının təməl ünsürü olan mədəniyyətini hər bir zaman qoruyub saxlaya bilmişdir.Türklərin öz mədəniyyətlərinə son dərəcə bağlı olmalarının səbəblərindən biri də, şübhəsiz ki, türk mədəniyyətinin sağlam təmələ və ölməz dəyərə sahib olmasıdır.

Türk mədəni həyatını bir-birini təqib edən üç mərhələyə ayırmaq olar: 1) Köçəri türk mədəniyyəti, 2) İslami türk mədəniyyəti, 3) Qərb mədəniyyətinə inteqrasiya etmiş türk mədəniyyəti (buna Çağdaş türk mədəniyyəti də demək olar).

Türk mədəniyyətinin təməlləri, türklərin "köçəri" bir həyat tərzi keçirdikləri uzun bir tarixi dövrdə qoyulmuşdur. Həmin dövrdə türklərin varlığını həmişə ayaqda tuta biləcək ölməz dəyərlər yaradılmışdır. Türkü türk edən bu dəyərlər həm İslam mədəniyyəti, həm də Qərb mədəniyyəti içərisində yeni forma alması ilə onu daha da zənginləşdirmişdir. Məsələn, qədim türklərin həyatının əsas tiplərindən olan "kamlar (şamanlar)", islami dönəmdə də "övliya və ya ata", "alplar" və "qazi" qılığına girərək əsl xarakterlərini və funksiyalarını yeni mədəniyyət içərisində də qorumuşlar.

Lakin mədəniyyətin dəyişməsi (mədəniyyətin yeni şərtlərə uyğunlaşdırılmasına və yenilənməsinə elmi ədəbiyyatda "mədəniyyət dəyişməsi" deyilməkdədir) bir xalqın öz mədəniyyətini tamamilə unudaraq, yad bir xalqın içərisində heç də ərimməsi anlamına gətirmir.

**Nəticə**

Tam əminliklə deyə bilərik ki, türklər dünyanın ən qədim iri və sivil xalqlarından olmaqla tarix səhnəsinə çıxdıqları zamandan böyük mədəniyyət və dövlətçilik ənənələri yaratmaqla özlərinin tarixi fəaliyyətləri ilə dünya xalqları üçün də örnək olmuşlar.Heç şübhəsiz ki, Qərb və Şərq mədəniyyətinin inkişafında türk mədəniyyətinin böyük rolu olmuş, onlara güclü təsir göstərmişdir. Belə ki, türklər dünya mədəniyyətinə dəmirçilik,heyvandarlıq və hərb sənəti sahəsində ölməz adət-ənənələr bəxş etmişlər. Odur ki,türklər bir sıra xalqlar tərəfindən qısqanclıqla qarşılanmış və hələ də qarşılanmadadır.

**İstifadə edilmiş ədəbiyyat**


1.Baştar Ş. Avar imperatorluğu, Tarihte Türk dövletleri: I c.Ankara;1987.
2.Ceferoğlu A. Eski Uyğur Türkcəsi sözlüğü. İstanbul: 1968.
3.Chang J. Tang Devrindeki Doğu Göktürkleri Hakkında Yeni Belgeler.Tapei, 1968.
4.Danışmend İ. Türklük meseleleri. İstanbul: 1966.
5.Deer İ. İstep kültürü. Çeviren: Baştar Ş. Dil ve Tarih-Coğrafiya Fakultesi Dergisi, XII. 1954.
6.Ercilasun A.B. Türk dili Tarihi. Ankara:2004.
7.Gabain A.M.V. Eski Türklerin Grameri. Çeviren: M.Akalın. Ankara: 1988.
8.Genç R. Karahanlı Devlet Təşkilatı.İstanbul: 1981.
9.Giraud R. Göktürk İmperatorluğu. Çeviren: İ. Manqaltepe. İstanbul:1999.
10.Grenard F. Asiyanin Yükselişi ve Düşüşü. Çeviren:O.Yüksel. İstanbul: 1972. Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları,xaqanları, sərkərdələri: Bakı:1995
11.Kafesoğlu İ. Eski Türklerde Devlet Meclisi (Toy). Birinci Milli Türkoloji Konqresi. İstanbul; 1998.
12.Kafesoğlu İ. Kutadqu Biliq ve Kültür Tarihimizdeki Yeri.İÜ, E. F. Tarih Enstitüsü Dergisi, 1. 1970.
13.Kafesoğlu İ. Milli Kültürün Küdreti, Türk Kültürü, 70, 1969.
14.Kafesoğlu İ. Tarihde “Türk adi”, Reşid Rehmeti Arat için Ankara: 1966.
15.Kafesoğlu İ. Türk Milli Kültürü. Ankara: 1972.
16.Kaplan M. Orhun Abidelerinde Mekan-İnsan münasebeti. Türklük Araştırmaları Dergisi, 1. 1984.
17.Kaplan M. Türk Milletinin Kültürel Değerleri Ankara: 1987.
18.Kaşqarlı M. Divanü΄ i- Lüğati ΄t- Türk, I-III. Çeviren: B. Atalay. Ankara: 1939-1941.
19.Koca S. Türk Kültürünün Temelleri, II. Ankara: 2003.
20.Koca S.Türk Tarihində İstiqlal Mücadileleri: Atatürkte “İstiklali Tam” fikrinin Tarihi Temelleri: Milli Kültür, 42. 1983.
21.Koppers V.İlk Türklük ve ilk İno-Germenlik. Alm.Urtürkentum und Urindoger mantum. Bellefen, V: 1941.
22.Koymen M.A. Böyük Selcuklu İmperatorluğu Tarihi; I.Ankara:1989.
23.Koymen M.A. Türkler ve Demokrasi, Milli Kültür, 6, 1977.
24.Kurat A.N. Göktürk Kağanlığı. Dil ve Tarih-Coğrafiya Fakultesi Dergisi, X/1-2, 1952.
25.Nemeth G. Türklüğün Eski Çağı. Ülkü, XV/87,1940.
26.Orhun Abideleri; Haz. M. Ergin. İstanbul,1973.
27.Orkin H.N. Türk Adı. Ülkü,III/15,1934.
28.Oğel B. Türklerde Devlet Anlayışı. Ankara:1982.
29.Rasonyi L. Tarihde Türklük. Ankara; 1970.
30.Tomsen V. Moğolistan΄daki Türkce Kitabeler. Türkiyat Mecmuası, III.1935.
31.Tosun M. Şumer Dili ve Türk Dilleri Arasinda Karşılaşdırma. Atatürk konfransları,IV. Ankara:1973.
32.Tuna O.N. Şumer ve Türk Dillerinin tarihi ilgisi ile Türk dilinin yazı meseleleri. Ankara:1980.
33.Yusif H.H. Kutadqu Biliq. Yayımlayan ve Çeviren: R.R.Arat. İstanbul:1947.
34.Баскаков Н.А. Алтайский язык. М.:1958.
35.Бернштам А.Н. Происхождение турок. М.; 1937.
36.Гумилев Л.Н. Тысячелетие вокруг Каспия. Баку: 1991.
37.Гукасян В.Л. Тюркизмы в “Истории Албан “ Моисея Утийского.- Структура и история тюркиских языков.М.:1971
38.Гейбуллаев Г.А. К этногенезу азербайджанцев.Т.1. Баку:1991.
39.Жанузаков Т.Ж. Етюды о казахских етнонимах. Ономастика Средней Азии т.1. Фрунзе:1980.

40.Меликишвили Г.А.Уратские клинообразные падписки.М.:1960.
41.Мурад Аджи. Европа, Тюрки, Великий степ. М.: 1998.
42.Потапов Л.Н. Очерки по истории албанцев.М.-Л:1953.
43.Севортян Е.В. Етимологический словар. М.:1980.
44.Ямпольский З. Н. О тюрках V века до нашей еры. Уч.зап. АГУ им. С. М.Кирова, серия языка и литературы, 1970, № 5-6.
45.Юсифов Ю.В. Киммери, скифы и сакы в древнем Азербайджане. Кавказско-ближнивосточный сборник. Тблиси: 1988.-с.182-186.
46.Шукуров А.С. Первообразные нареиия в азербайджанском Языке. Тюркологический сборник. М.:1966.
47.Altheim F. Geschichte der Hunnen, I. BERLİN:1959.
48.Bazin. L. Les Turch des Mots, des Hommes, Notes sur les mots “oğur” et “Türk”. Budapeşt;1994
49.Covannes E. Dossiments sur le Tou-kiue Occiden-taix. Paris:1900.
50.Lui M.-tsai. Die Chinesischen N achristen rur Geschichte der Ost-Turken (T´u küe), I. Wiesbaden:1958.
51.Glauson S. Türk, Monqol, Tunquş A.M. nev, ser. V.8. Budapeşt:1960.
52.Munkatsi B. Die Bedeutunq des Nomens der Türken Körösi Csoma Archivum, I. 1976.
53.Müller F.K. Uigurika. II. Berlin:1911.
54.Nemeth S. Dr. Volksname Türk Körösi Csoma Archivium. II\4, 1927.
55.Vambery H. Die Primitive Cultine des Turko- Tatarischen Volks. Leipziq: 1879.
56.Yusifov Y.B. On the Skythians in Mannde.- Sosieties and Languages of the Ancient Near East. Warminster (England):1982.

**Arrahman AHMADOV**

## STATEMENT AND CULTURE IN THE ANCIENT TURKS

### Summary

The article reflects ideas based on scientific sources about the formation of the Turks as a nation and the origin of the word "Turk", as well as scientific explanations based on those ideas. Later, in the article, the emergence of the state and its administrative features in ancient Turks living a nomadic lifestyle were explained with scientific facts, and factual information was given about the uniqueness of Turkish culture and the factors that determined it. The general idea of the article is the political, economic, military, spiritual and cultural achievements of the Turks, who are one of the greatest and worthiest nations that history has seen, and their impact on other nations.

**Key words:** *Turks, Turkism, Turkish societies, Turkish peoples, Turkish statehood, Turkish culture, nomadic culture*

**Аррахман АХМАДОВ**

## ГОСУДАРСТВЕННОСТЬ И КУЛЬТУРА У ДРЕВНИХ ТЮРКОВ

### Резюме

В статье отражены основанные на научных источниках представления о формировании тюрков как нации и происхождении слова «тюрк», а также основанные на этих представлениях научные объяснения. Далее в статье с помощью научных фактов объяснялось возникновение государства и его административных особенностей у древних тюрков, ведущих кочевой образ жизни, а также приводились фактические сведения о своеобразии тюркской культуры и факторах, ее определивших. Общая идея статьи - политические, экономические, военные, духовные и культурные достижения тюрков, являющихся одним из величайших и достойнейших народов, которых видела история, и их влияние на другие народы.

**Ключевые слова:** *тюрки, тюркизм, тюркские общества, тюркские народы, тюркская государственность, тюркская культура, кочевая культура.*

**Rəyçi: s.e.d., professor Sevinc ƏLİYEVA**

**UOT 94(5)**

**Hacıfəxrəddin SƏFƏRLİ** *

# ARAZ-TÜRK CÜMHURİYYƏTİ VƏ NAXÇIVANIN ERMƏNİ TƏCAVÜZÜNDƏN QORUNMASI

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 fevral 2023; çapa qəbul edilmişdir: 20 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 15, 2023; accepted for publication: 20 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalədə 1918-1920-ci illərdə ermənilərin Naxçıvan bölgəsinə təcavüzü, Naxçıvanda törədilən faciələr və ərazinin ermənilər tərəfindən işğalının qarşısının alınmasından bəhs edilir. Qeyd olunur ki, bölgəni erməni təcavüzündən qorumaq üçün Naxçıvanın qabaqcıl insanları əhalinin erməni təcavüzünə qarşı təşkilatlanmasında mühüm rol oynamış, bu məqsədlə özünümüdafiə batalyonları yaratmış, kömək üçün Osmanlı dövlətinə müraciət etmişlər. Kazım Qarabəkir Paşanın başçılığı ilə əraziyə gələn türk qoşunları yerli əhali ilə birlikdə əraziyə erməni təcavüzünün qarşısını almış, quldur erməni generalı Andronik Ozanyan Naxçıvanı tərk etməyə məcbur edilmişdir. Ancaq yaranmış tarixi şəraitə, Mudros müqaviləsinin şərtlərinə əsasən Osmanlı qoşunları bütün Azərbaycanı, o cümlədən Naxçıvanı tərk etməyə məcbur oldu. Ona görə də, Naxçıvanın qabaqcıl insanları ərazini erməni işğalından qorumaq üçün 18 noyabr 1918-ci ildə Araz-Türk Cümhuriyyətini yaratdılar. Qısa bir müddət, təxminən 4 ay yaşamasına baxmayaraq Araz-Türk Cümhuriyyəti qarşısına qoyduğu məqsədə nail oldu. Mehridən Uluxanlıyadək geniş bir ərazidə yaşayan müsəlman-türk əhali erməni qırğınlarından xilas edildi.

**Açar sözlər:** *Azərbaycan, Naxçıvan, Araz-Türk Cümhuriyyəti, Osmanlı, batalyon, hökumət.*

## Giriş

Tarixi zərurətdən doğan, bölgədə yaranmış çox mürəkkəb vəziyyətdə zamanın tələblərinə uyğun olaraq Naxçıvanın görkəmli şəxsiyyətlərinin və məcburiyyət ucbatından Naxçıvanı tərk edən türk ordusunun komandanlığının təşəbbüsü ilə yaradılan Araz-Türk Cümhuriyyəti az bir müddət yaşamasına baxmayaraq qarşıya qoyulan məqsədinə nail olduğuna, bölgəni erməni işğalından qoruduğuna görə Azərbaycan dövlətçilik tarixində özünəməxsus iz buraxmışdır. Məlumdur ki, Birinci Dünya müharibəsinin davam etdiyi bir vaxtda, 1917-ci ilin fevral ayında Rusiyada baş verən burjua-demokratik inqilabı Romanovlar sülaləsinin 300 ildən artıq davam edən hakimiyyətinə son qoyulması ilə nəticələndi. Bu inqilabdan sonra Rusiya imperiyasında iki hakimiyyətlilik, hərc-mərclik və çox mürəkkəb bir vəziyyət yarandı. 1917-ci ilin oktyabr ayında baş verən çevriliş nəticəsində bolşeviklərin hakimiyyətə gəlməsi ilə başlanan vətəndaş müharibəsi Rusiyada vəziyyəti daha da gərginləşdirdi. Belə bir şəraitdə İranla Rusiya arasında 1813-cü ildə bağlanan Gülüstan, 1828-ci ildə imzalanan Türkmənçay və 1829-cu ildə Osmanlı dövləti ilə Rusiya arasında gerçəkləşən Ədirnə müqaviləsinin şərtlərinə əsasən İrandan və Osmanlı imperiyasından köçürülərək Cənubi Qafqazda, xüsusilə tarixi Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər yaranmış vəziyyətdən istifadə edərək ölkəmizə qarşı mənfur niyyətlərini həyata keçirmək üçün fəaliyyətlərini genişləndirdilər. Tarixi Azərbaycan şəhəri İrəvanı paytaxt etməklə 1918-ci ilin mayında yaradılan erməni daşnak hökuməti dünyanın böyük güclərinin köməyinə arxalanaraq uydurma “Böyük Ermənistan” xülyasını gerçəkləşdirmək üçün əvvəlki illərdə olduğu kimi Azərbaycana qarşı ərazi iddialarına başladı. Bu iddialarda Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan

* *AMEA Naxçıvan Bölməsinin direktoru, AMEA-nın müxbir üzvü, Azərbaycan, Naxçıvan*
*E-mail*: seferli949@mail.ru

bölgəsi xüsusi yer tuturdu. Öz mənfur məqsədlərinə nail olmaq üçün Rusiya ordusundan aldıqları silahlarla silahlanan ermənilər Azərbaycanın digər yerlərində olduğu kimi Naxçıvan bölgəsində də yaşayış məskənlərinə hücum edir, onları yandırır, dağıdır, viranəyə çevirirdilər. Azsaylı olmalarına baxmayaraq dövrünün müasir silahları ilə silahlandıqları üçün müxtəlif yerlərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədirdilər.

**Türk hərbi qüvvələrinin Naxçıvana köməyi**

Bütün bunlara görə Azərbaycanın hər yerində olduğu kimi Naxçıvanda da çox mürəkkəb vəziyyət yaranmışdı. Bu gərgin vəziyyət 1918-ci ildə pik həddə çatmışdı. Belə bir şəraitdə türk ordusunda xidmət edən, ancaq hərbi andına xəyanət etdiyinə görə osmanlılar tərəfindən qulağı kəsilməklə cəzalandırılan general Andronik Ozanyanın quldur dəstələrinin Naxçıvana soxulması bölgədə yaranan son dərəcə ağır vəziyyəti həddindən artıq mürəkkəbləşdirdi. Ermənilərin müsəlman-türk əhaliyə qarşı törətdiyi soyqırımların miqyası daha da genişləndi. Ona görə də Naxçıvanın qabaqcıl insanları ermənilərin bu qanlı cinayətlərinə son qoymaq, onların Naxçıvanı ələ keçirmək arzularını puça çıxarmaq üçün bölgənin aborigen əhalisi olan müsəlman-türklərin düşmənə qarşı təşkilatlanması, səfərbər olunması ilə əlaqədar bir sıra təşkilati tədbirlər həyata keçirdilər. Bu məqsədlə ilk növbədə Naxçıvan şəhərində və ətraf yerlərdə Milli Komitələr yaradılmağa başlandı. Qarşısında duran əsas vəzifə milli hərəkata rəhbərlik etmək, bölgəni və əhalini erməni təcavüzündən qorumaq və ermənilərə qarşı mübarizəni təşkil etmək, seçkili və yerli hakimiyyət orqanlarının fəaliyyətini tənzimləməkdən və sair ibarət olan Milli Komitələrin təşəbbüsü ilə Naxçıvanda və Culfada hərbi təşkilatlar və hər biri 200 nəfərdən ibarət olan süvari dəstələr təşkil edildi [1, s.38, 39].

Qeyd etmək lazımdır ki, erməni təcavüzünün başlanması ilə yaradılan bu hərbi birləşmələr, könüllü dəstələr düşmənin qarşısının alınmasında mühüm rol oynayır, hətta onlara sarsıdıcı zərbələr də vururdular. Məsələn, 1918-ci ilin ortalarında Böyük Vedidə uğursuzluğa düçar olan erməni daşnak birləşmələri Şərur üzərinə hücuma keçdilər. Bu zaman onların qarşısını Sədərək partizanları, könüllü müdafiə dəstələri kəsdi. Kəndin bütün əhalisi düşmənə qarşı mübarizəyə qalxdı. Təşkil olunan özünü müdafiə dəstələri düşmənə qarşı 3 gün şiddətli müqavimət göstərdi. Ancaq düşmənin atlı qoşununun təzyiqi altında dağlara çəkilməyə məcbur oldular. Az sonra Şərur və Naxçıvandan gələn könüllü müdafiə dəstələri ilə birləşib düşmən ordusunu Arazdəyənə qədər qovdular [7, s.118].

1918-ci ilin ortalarında Naxçıvana gələn və bölgədə təhlükəsizlik tədbirləri ilə məşğul olan türk zabiti Xəlil bəy kiçik bir müsəlman ordusunun özəyini yaratmağa çalışırdı. Bu məqsədlə 20-22 yaşlı gənclərə silah verildi, 3 gün ərzində Şahtaxtı və Şərurda 2 minə yaxın canlı qüvvə toplandı, onlarla təlimlərə başlandı. Şahtaxtıda 4 top, 150 əsgər və 165 atlıdan ibarət bir süvari batareyası yaradıldı [1, s.50,51]. Xəlil bəy Nuru paşanın tapşırığı ilə Naxçıvanda, Şərurda, Şahtaxtıda və Ordubadda Milli dəstələr yaratmağa başladı. Bu məqsədlə gənclərə silah verilmiş, piyada, süvari və topçu dəstələri üçün təlimlər təşkil olunmuşdu. Bu hərbi hissələrin qaydaya salınıb nizamlanması bölgədə asayişi qorumaq, ilk növbədə düşmənə qarşı mübarizə aparmaq, ən önəmlisi isə sərhədin o tərəfindəki ermənilərdən mühafizə olunmaq üçün vacib idi.

Naxçıvan ərazisinin düşməndən müdafiəsini təşkil etmək üçün həyata keçirilən bu tədbirlərdən əlavə, türk hərbi birlikləri Naxçıvan şəhərinə gəldikdən sonra türk zabitlərinin rəhbərliyi ilə bölgədə könüllülər dəstəsinin yaradılmasına başlandı. İlk növbədə 18-20 yaşlı yerli gənclərdən əsgər toplanmağa başlandı. Bu iş Naxçıvan qəza polis komissarı Məmmədəli xan Naxçıvanskiyə tapşırıldı. Onun səyi ilə təkcə Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən 200-ə qədər gənc orduya cəlb olundu [9, s.30,31]. Sonradan türk hərbi dairələri 20-40 yaşlı kişilər arasında əsgər toplanacağını və həftədə bir dəfə təlim keçəcəklərini elan etdilər. Təlim yalnız əsgər yığılan kişilərə deyil, Naxçıvan şəhər əhalisinə də keçilirdi. Yerli hökumət bu hərbi təşkilatlanma işini apararkən bölgədəki silahlı kişiləri də yaddan çaxarmamış, onları Naxçıvana çağırmış, yığıncaq keçirilmişdi. Məhəllə müvəkkillərinə verilən əmrdə əhalinin əlindəki silahların miqdarı, növü haqqında məlumat tələb olunmuşdu [1, s.82].

Məlumdur ki, Birinci Dünya müharibəsində məğlub olan Osmanlı dövləti 30 oktyabr 1918-ci ildə Antanta ölkələri ilə Mudrosda müqavilə imzalamğa məcbur oldu. Müqavilənin şərtlərinə

əsasən Osmanlı dövləti işğal etdiyi ərazilərdən əl çəkməklə yanaşı, bir sıra şərtlərə, o cümlədən Azərbaycandan, həmçinin Naxçıvandan qoşunlarının geri çəkilməsinə razılıq verdi. Müqavilənin şərtlərinə əməl edərək türk hərbi birləşmələri Naxçıvanı tərk etdikdən sonra erməni işğalı təhlükəsi gücləndi. Bunu nəzərə alan Osmanlı hərbi rəhbərliyi bir tərəfdən tərxis olunan əsgərlərdən qalan silahların bölgə əhalisinə paylanmasını təmin etdi, digər tərəfdən bölgənin etibarlı müdafiəsinin təşkili məqsədi ilə yerli hökumət təşkilatları qurmaq üçün səylər göstərdi. Həmin dövrdə baş verən hadisələrin şahidi olmuş dosent Lətif Hüseynzadə yazır ki, Rəhim xanın evinin qabağında keçirilən yığıncaqda Kazım Qarabəkir Paşa çıxış edərək demişdir. "Naxçıvanın gələcək müqəddəratını təmin etmək üçün burada bir hökumət qurulması çox vacib və zəruridir. Zatən siz naxçıvanlılar milli azadlıq mübarizəsində tarixə şanlı səhifələr yazmışsınız. Dövlətçilik hüququna və ləyaqətinə maliksiniz. Siz bu hüququ, haqqı döyüş meydanlarında düşmənə qələbə çalaraq qazanmışsınız. Şərqin qapısında, Naxçıvanda bir cümhuriyyət qurulmalıdır" [14, s.60].

**Araz-Türk Cümhuriyyəti Hökuməti**

Araz-Türk Cümhuriyyətinin yaradılmasında Naxçıvanın görkəmli şəxsiyyətləri, qabaqcıl insanları fəal rol oynadılar və erməni qəsbkarlarının bölgəyə təcavüzünün qarşısının alınması, bu məqsədlə əhalinin səfərbər olunmasını sistemli və nizamlı şəkildə apara biləcək yerli hökumətin yaradılmasına nail oldular. Beləliklə, 18 noyabr 1918-ci ildə Araz-Türk Cümhuriyyəti yaradıldı. Hökumətin yaradılması haqqında Quruluş bəyannaməsində deyilir: "18 Təşrini-sani (noyabr) 1334-də Rəvan vilayətində, Araz vadisində olan 1 milyona qədər əhali Osmanlı ordusu getdikdən sonra özlərinin təhlükə altında qalmaması naminə çarə tapmaq üçün Rəvan mühacirləri, Naxçıvan, Şərur, Eçmiədzin və Sürməli bölgələrinin nümayəndələri yuxarıda qeyd etdiyimiz tarixdə Qəmərli qəsəbəsində bir yığıncaq keçirdilər və bir sıra təklif və müzakirələrdən sonra bir təşkilat yaratmağı qərara aldılar. Biz Araz kənarında yaşayan bir milyona qədər müsəlman camaatı hüququmuzu müdafiə və mühafizə üçün Araz-Türk hökuməti adında təşkilat yaratdıq" [1, s.107].

Bu hökumətin başlıca məqsədi Naxçıvanın erməni işğalından etibarlı müdafiəsini təmin etmək istiqamətində əhalini səfərbər etməkdən ibarət idi [5, s.125]. Qarşıya qoyulan məqsədə uyğun olaraq paytaxtı Naxçıvan şəhəri olan bu hökumət yarandığı andan bu istiqamətdə bir sıra işlər görmüş, qərarlar qəbul etmişdi. Hökumətin ilk iclaslarının birində Naxçıvanın nüfuzlu şəxsləri bu qərarları qəbul etmişdi: 1. Məcburi səfərbərlik; 2. Əsgərləri batalyonlara bölmək və kazarmalarda saxlamaq; 3. Hökumət anbarında olan buğdadan əsgərlərin qidalanması üçün 14 min pud verilməsi; 4. Təzə əsgərlərə hökumət tərəfindən geyim və sair əşyanın verilməsi; 5. Əsgərliyə getməyən əhalidən silahları yığaraq, silahı olmayan əsgərlərə paylamaq; 6. 20-35 yaşlar arasında kişilərin hamısını əsgərliyə çağırmaq [1, s.113].

Göründüyü kimi, Araz-Türk Cümhuriyyəti Hökuməti qarşıda dayanan əsas məqsədin uğurlu həllinə nail olmaq üçün yarandığı andan bu istiqamətdə fəaliyyətə başlamışdı. Çünki artıq erməni silahlı birləşmələri Araz-Türk Cümhuriyyəti ərazisinə daxil olan bir sıra yerlərdə qırğınlar törətməyə başlamışdılar. Onlar 10 dekabr 1918-ci ildə Uluxanlı-Qəmərli xətti ilə Şərura hücuma keçdilər. Hücuma Doluxanov rəhbərlik edirdi. Bununla yanaşı, Osmanlı dövləti ərazisində yaşayan ermənilər Dərələyəzə hücumlar edir, qətllər törədir, dinc əhalinin qanını axıdırdılar. Erməni liderlərindən Yapunla əməkdaşlığa girən quldur Andronikin dəstələri Xudafərin körpüsünə doğru hərəkətə başlamışdılar. Ermənilərin zülmündən canlarını qurtarmaq üçün əhali Naxçıvana çəkilirdi. Yaranmış mürəkkəb vəziyyətdə Şərur ərazisinə gələn Araz-Türk Cümhuriyyəti rəhbərləri Yengicə stansiyasında yığıncaq keçirmiş, kökumət rəisi Əmir bəy və digər nüfuzlu şəxsiyyətlər çıxış edərək belə bir qərara gəlmişdilər ki, vətən müdafiə olunmalıdır. Çünki ermənilər artıq Dəvəlini ələ keçirmişdilər və Sədərəyə yaxınlaşırdılar.

Mərkəzi Naxçıvan şəhərində yerləşən Araz-Türk Cümhuriyyəti Hökuməti 1918-ci ilin sonlarında ermənilərlə azərbaycanlılar arasında sülh yaratmaq üçün diplomatik yollardan da istifadə etmiş, bu məqsədlə İran hökumətinə müraciət etmişdi. Bu müraciətdən sonra bölgəyə gələn İran nümayəndə heyəti Naxçıvan təmsilçiləri Hacı Mirbağır ağa, Heydərqulu bəy və Cəfərqulu xanla birlikdə 1918-ci il dekabrın 24-də İrəvana getdilər. Lakin Dəmirçi və Quşçu kəndlərini işğal edərək

qüvvələrini bu kəndlərdə cəmləşdirən erməni komandiri Doluxanov naxçıvanlı nümayəndələri həbs edərək Şərur və Yengicə kəndlərinə hücum əmri verdi. Ermənilərin Şərur tərəfə hərəkəti Araz-Türk Cümhuriyyəti Hökumətinə çatan kimi hökumət tərəfindən sərəncam verildi ki, erməni qoşunlarının hücumunun qarşısı alınsın. Bu məqsədlə, erməni qoşunlarının hücumunu dayandırmaq üçün Kəlbəli xan Naxçıvanskinin və Məşədi Ələsgər ağanın başçılığı ilə yerli müdafiə dəstələri Şərur qəzasındakı "Qurd qapısı" adlı yerə göndərildi. 1919-cu il yanvar ayının axırlarında Kəlbəli xanın və Məşədi Ələsgər ağanın başçılıq etdikləri könüllü müdafiə dəstələri Maxta və Dəmirçi kəndlərini ermənilərdən azad edib, bir gün sonra Qurd qapısında (Dəhnə boğazında) düşmənə ağır zərbə vurdular. Doluxanov hücumun istiqamətini Vedinin Qaralar, Qabqıran, Şirazlı, Reyhanlı, Əfşan kəndlərinə yönəltsə də, uğur qazana bilmədi və Dəvəlidəki mövqeyinə çəkildi [4, s.202, 203]. Bu məsələdən bəhs edən, sonralar general rütbəsinədək yüksələn mayor Veysəl Ünüvar yazır ki, Şərur və Yengicə üzərinə hücuma keçən Doluxanov xalqın müqaviməti ilə qarşılaşdı və məğlub oldu, Dəvəli stansiyasına, İrəvanın yaxınlarına qədər qovuldu. Xalqın müdafiə əzmi sayəsində erməni təcavüzü bir müddət dayandı [11, s.22]. Göründüyü kimi, naxçıvanlılardan təşkil olunan yerli könüllü müdafiə dəstələri hətta ermənilərin nizami qoşun dəstələri ilə döyüşə girmiş, onları ağır məğlubiyyətə uğratmış, qələbə qazanmışdılar.

Ərazisini erməni təcavüzündən qorumaq, əhalini qırılmaqdan xilas etmək üçün Araz-Türk Cümhuriyyəti hökuməti bir sıra təşkilati tədbirlər həyata keçirmişdi. Yarandıqdan az bir müddət sonra hökumət bu məsələ ilə bağlı böyük bir yığıncaq keçirmişdi. Həmin yığıncağa bölgənin hər yerindən nümayəndələr dəvət olunmuşdu. Yığıncaqda aparılan uzun və geniş müzakirələrdən sonra belə bir qərara gəlinmişdi ki, ermənilər hücum edərlərsə, tək bir nəfər qalana qədər mübarizəni davam etdirəcəklər [1, s.122].

Erməni təhlükəsi gücləndiyi üçün Araz-Türk Cümhuriyyəti hökuməti yerli əhalidən silahlı qüvvələrin yaradılmasına diqqəti artırdı. Bu məqsədlə hökumət rəhbərlərindən Əmir bəy, İbrahim bəy və digərləri fəaliyyətə başladılar. İbrahim bəy 500 nəfərlik süvari alayı yaratmağa başladı. Bu dəstəyə yazılmaq üçün bölgənin müxtəlif yerlərindən gələn könüllülər Dəmirçi kəndinə toplaşırdılar və süvari alaya yazılrldılar. Şərurda da bu iş uğurla davam etdirilirdi. Həmin vaxt İbrahim bəy Şərur bəylərindən birini cəbhəyə mövqe komandiri təyin etmişdi. Bölgədə həyata keçirilən bu tədbirlərin nəticəsi olaraq qısa müddət ərzində müxtəlif yerlərdə 20-yə qədər könüllülər batalyonu yaradılmışdı. Hər biri 220-500 nəfərdən ibarət olan həmin batalyonların dördü Naxçıvanda, üçü Şərur-Dərələyəzdə, digərləri Vedibasar, Zəngibasar, Qəmərli və Başkənddə (Aralıqda) təşkil olunmuşdu. Həmin vaxt Naxçıvanda yaradılan batalyonlardan Kəblə Muxtarın rəhbərlik etdiyi Nehrəm batalyonu, Kəblə Kərimin rəhbərlik etdiyi Cəhri batalyonu, Məmmədrza bəyin rəhbərlik etdiyi Dizə batalyonu, Hüseyn Əliyevin rəhbərlik etdiyi Şərur batalyonu, Həsən Şahverdioğlunun rəhbərlik etdiyi Şərur-Sədərək kəndlərindəki birliklər, Məşədi Ələsgər ağanın rəhbərlik etdiyi Yengicə qüvvələri, Möhsün Camalovun başçılıq etdiyi Kərkər qüvvələri, Fətullah Hüseynov və Kərbəlayi Həbib bəyin rəhbərlik etdiyi Zeyvə-Düdəngə kənd qüvvələri, İbrahimxəlil Axundovun komandirlik etdiyi Ordubad batalyonu diqqəti xüsusi ilə cəlb edirdi. Bu könüllü dəstələri sonrakı mərhələlərdə ermənilərə qarşı uğurlu əməliyyatlar aparmış, onların təcavüzkar niyyətlərinin həyata keçirilməsinə, Naxçıvan ərazisini işğal etmək, əhalini qırmaq və dədə-baba yurdlarından didərgin salmaq niyyətlərini puça çıxarmışdılar.

Qeyd etmək lazımdır ki, tarixi zərurətdən yaradılan bu batalyonlar qarşıya qoyulan məqsədlərinə uğurla nail olmuşdular. Məhz buna görə də Naxçıvanın erməni işğalından xilas edilməsində böyük fədakarlıqlar göstərmiş bu dəstələrin rəhbərləri, üzvləri və bir sıra görkəmli şəxsiyyətlər Naxçıvana gələn Osmznlı qoşunları komandanlığı tərəfindən mükafatlandırılmışdır. Məsələn, Cəfərqulu xanın oğlu Kəlbəli xan Osmanlı dövlətinin "Məcidiyyə" ordeni, Ordubad könüllü xalq taborunun komandiri İbrahimxəlil Axundlu, Şərur tabor komandiri Həsən Şahverdiyev, Nehrəm tabor komandiri Kalba Muxtar və bir çox başqaları zabit rütbəsi, medal və qiymətli hədiyyələrlə təltif olunmuşdular [14, s.48].

Əhalinin silahlandırılması ilə əlaqədar Araz-Türk Cümhuriyyəti hökuməti tərəfindən bir sıra tədbirlər həyata keçirilmiş, bu məqsədlə 1918-ci ilin sonlarında Naxçıvan və ətraf bölgələrdə

yaşayan əhalinin əlində olan silahlar barədə məlumat toplanmışdı. Nəticədə məlum olmuşdu ki, gələcəkdə baş verə biləcək təhlükənin qarşısını almaq üçün əldə olan bu silahlar kifayət deyildir. Ona görə də 9-cu Qafqaz diviziyası komandiri Rüşdü bəy 9 noyabrda teleqramla müraciət edərək ordudan Naxçıvan regionunda yaradılmış könüllülər batalyonu üçün 400, Alagöz könüllü batalyonu üçün 350, Cəhri batalyonu üçün 300 tüfəng və kifayət qədər hərbi ləvazimat istəmişdi. Həmçinin bölgədə hələ təşkilat şəklinə salınmamış xalq üçün də silah, hərbi ləvazimat göndərilməsi tələb edilmişdi. Rüşdü bəyin bu xahişi Şövqi Paşa tərəfindən müsbət qarşılanmış, Naxçıvan və İqdır əhalisinə paylamaq üçün 2000 ədəd silah göndəriləcəyi bildirilmişdi. Ancaq silahlar 9-cu Qafqaz diviziyasına çatmadığı üçün Rüşdü bəy əlavə xahişlər etmişdi. Türkiyəli alim İ.Atnurun fikrincə bu təkliflər müsbət nəticə vermişdi [1, s.105, 106].

Belə bir vaxtda, 1919-cu ilin əvvəllərində ingilislər Naxçıvanı tutdular. İngilislərin bölgəni işğal etməsindən sonra Araz-Türk Cümhuriyyətinin varlığına son qoyuldu. Araz-Türk Cümhuriyyəti az müddət yaşamasına baxmayaraq yaradılarkən qarşısında qoyulan məqsədin həyata keçirilməsində, yəni bölgə qüvvələrinin ermənilərə qarşı birləşdirilməsində və ərazinin erməni işğalından qorunmasında əhəmiyyətli rol oynadı [16, s.75]. Başqa sözlə desək Araz-Türk Cümhuriyyəti qısa müddət, yəni 1918-ci ilin noyabrından 1919-cu ilin martınadək olan təxminən 4 aylıq müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq tabeliyində olan ərazinin müsəlman-türk əhalisini erməni qəsbkarlarına qarşı birləşdirə bildi, onları ümumi düşmənə qarşı səfərbər etdi və ermənilərin əzəli və əbədi Azərbaycan torpağı olan Naxçıvana və digər ərazilərə yiyələnmək arzusunu gözündə qoydu. Bu Araz-Türk Cümhuriyyətinin Azərbaycan tarixində ən böyük uğuru və xidməti idi. Beləliklə, Araz-Türk Cümhuriyyətinin silahlı qüvvələrinin köməyi və yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı [3, s.9]. Bütün bunlarla yanaşı Araz-Türk Cümhuriyyəti hökuməti erməni zülmündən və qətllərdən canını qurtarmaq üçün Naxçıvana gələn türk-müsəlman əhalisinə də yardım göstərir, onların yerləşdirilməsi ilə məşğul olurdu. Çünki, indiki Ermənistan ərazisinə daxil olan yerlərdən əhali böyük bir axınla Naxçıvana gəlirdi. 1919-cu ilin yanvarında onların sayı 100 min nəfərə çatmışdı [13, s.101].

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bütün çətinliklərə baxmayaraq vəziyyəti öyrənmək və əhalinin ehtiyacları ilə tanış olmaq məqsədi ilə 1918-ci ilin axırlarında Naxçıvana İrəvan quberniyası müsəlmanlarının Həmyerlilər Cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırovun rəhbərliyi ilə nümayəndə heyəti göndərmişdi. Nümayəndə heyəti 20 fevral 1919-cu ildə əhali ilə görüşmüş, onlara öz gəlişlərinin məqsədini və Azərbaycan hökumətinin onlara kömək etməyə hazır olduğunu bildirmişdi. Nümayəndə heyəti Naxçıvana gələrkən ərazi ingilislər tərəfindən tutulduğu üçün 22 fevral 1919-cu ildə ingilis-general qubernatoru ilə görüşmüşdü. 1919-cu il fevral ayının 23-də isə Naxçıvan şəhər Came məscidində Azərbaycan hökumətinin nümayəndə heyəti ilə Araz-Türk Cümhuriyyəti Hökuməti üzvlərinin iclası keçirildi. İclasda Bakıdan gələn nümayəndələr Naxçıvana nə məqsədlə gəldiklərini bildirdikdən sonra əhali onları alqışlarla qarşılamış, yekdilliklə Azərbaycana birləşmək istədiklərini bildirərək, xahiş etmişdilər ki, öz məmurlarını göndərsinlər.

Həmçinin iclasda Naxçıvanda siyasi, hərbi, iqtisadi, maddi və mədəniyyət sahələri üzrə aktlar tərtib olunmuşdu. Həmin aktlar nümayəndələr ilə birlikdə hökumət, milli şura və yerli əhalinin nümayəndələri tərəfindən imzalandı və hökumətin möhürü ilə təsdiq olundu. Bu aktların iki nüsxəsini Naxçıvan nümayəndələrinə, bir nüsxəsini isə Şərur, Zəngibasar və Vedibasar nümayəndələrinə verməklə Azərbaycan hökumətinə çatdırmaq üçün təlimatlandırırlar [6, s.171-173].

1919-cu ilin əvvəllərində Naxçıvanı ələ keçirən ingilislərin əsas məqsədi Naxçıvanı Ermənistanın tərkibinə vermək idi. Bu siyasətin nəticəsi olaraq 1919-cu ilin iyun ayında daşnaklar ingilis zabitlərinin köməyi və iştirakı ilə Naxçıvanın bir hissəsini tutsalar da Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşun birləşmələrini darmadağın edərək Naxçıvan ərazisindən kənara atmışdı [3, s.14]. Həmin ilin iyun ayında Naxçıvan şəhərində və Şərur qəzasında ingilis-erməni təcavüzkarlığına qarşı əhalinin üsyanı baş verdi. Üsyan demək olar ki, bütün

Naxçıvan qəzasını bürüdü. İngilislərin Naxçıvanda qubernator Varşamyanın başçılığı ilə yaratmış olduğu erməni daşnak hökuməti qovuldu. Naxçıvandakı və Şərurdakı qarnizonlar pərakəndə surətdə Naxçıvan ölkəsini tərk edib qaçdı [8, s.189]. İyulda daşnak hərbi dəstələri ingilislərin köməyi ilə Şərur mahalını tutsalar da yerli hərbi qüvvələr daşnakların hərbi hissələrini buradan qovub çıxarmışdı [3, s.14].

Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri naxçıvanlıların bu qəhrəmanlığını yüksək qiymətləndirir, hətta parlamentin iclaslarında bu haqda məlumat verirdilər. Məsələn, Parlamentin 18 avqust 1919-cu il tarixli iclasında bu məsələdən bəhs edən Baş nazir Nəsib bəy Yusifbəyli naxçıvanlıların öz qüvvələri ilə erməni istilaçılarını devirərək Azərbaycanla birləşməyə hazır olduqlarını vurğulamışdı. 22 dekabr 1919-cu ildə parlamentdə çıxış edən Baş nazir N.Yusifbəyli demişdi: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər, onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..." [3, s.22].

Həmin dövrə aid arxiv materialları, müasirlərin xatirələri, tədqiqat əsərləri birmənalı şəkildə təsdiq edirlər ki, Araz-Türk Cümhuriyyəti zamanında olduğu kimi, sonrakı vaxtlarda da yerli əhali bölgədə baş verən bütün məsələlərin həllində yaxından iştirak etmiş, öz sözünü demişdir. Böyük dövlətlərin Naxçıvanda ermənilərin xeyrinə həyata keçirmək istədikləri planların iflasa uğramasında da Naxçıvan əhalisi fəal iştirak etmişdir. Məlum olduğu kimi 28 avqust 1919-cu ildə Bakıya gələn ABŞ ordusu Baş qərargahının polkovniki Vilyam Haskelin Naxçıvana gələn ermənipərəst nümayəndələri Naxçıvanda Amerika general qubernatorluğu yaratmaq istəyirdilər. 1919-cu il avqust ayının sonlarında Naxçıvana gələn amerikalı polkovnik Rey Naxçıvan Milli Komitəsinin rəhbəri Cəfərqulu xanla danışıqlar zamanı ABŞ hökumətinin bu fikrini – Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılması ideyasını elan etmişdi. Ancaq ABŞ-ın Naxçıvan barədə fikrini bilən Milli Komitə rəhbərləri bu ideyanı qəbul etməmişdilər. Ona görə də Naxçıvan, Şərur, Sürməli, Vedibasar, Melistan əhalisi adından Əli Səbri Qasımov, Z.Məmmədov, G.Əsgərov və başqaları tərəfindən memorandum (diplomatik sənəd) imzalanaraq ali komissar V.Haskelə təqdim olunmuşdu. Memorandumda əhalinin başlıca tələbi bundan ibarət idi ki, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını heç bir qüvvə doğma Azərbaycandan ayıra bilməz.

Bu məsələ ilə əlaqədar Naxçıvan rəhbərləri Əli Səbri Qasımovu səlahiyyətli nümayəndə kimi V.Haskelin yanına göndərmişdilər. Görüş zamanı V.Haskelin "Naxçıvanın və digər regionların əhalisi bu regionların erməni hökumətinə verilməsinə necə baxar?" – sualına "Əldə silah ləyaqətli ölümü üstün tutaraq bu hökuməti bütün qüvvələri ilə rədd edərlər" cavabını verən Əli Səbri Qasımov həm də naxçıvanlıların fikrini ifadə edərək V.Haskelə demişdi: "Biz bu və ya digər hökumət tabeliyini qəbul etməyəcəyik. Təyini-müqəddərat istəyirik. Buna bizim haqqımız var. Biz bunu kiməsə güzəştə getməyəcəyik. Belə bir halda mənim xalqım memorandumda xatırlatdığı kimi, özünü haqlı bilir ki, əldə silah namusla ölsün. Xalq öz gücü ilə azadlıq əldə edib və qəsbkarı qovmuşdur. Özünə azadlıq əldə edən xalq hətta doğma Azərbaycan hökumətinə də ixtiyar vermir ki, onun xəbəri olmadan onun taleyini həll etsin" [17, f. 582, siy. 1, iş 43, v. 45.].

Ancaq Naxçıvanı və Şəruru bitərəf zona elan etmək, son nəticədə ermənilərə vermək fikrində olan V.Haskel Naxçıvanda yaradılması nəzərdə tutulan Amerika general-qubernatorluğuna rəhbərlik etmək üçün 24 oktyabr 1919-cu ildə polkovnik Edmond Dellini Naxçıvana göndərdi. ABŞ nümayəndəsinin əsl niyyətindən xəbərdar olan Naxçıvanın qabaqcıl adamları xalqın dəstəyi ilə bu planın pozulmasına nail oldu. Həmin vaxt Naxçıvanda təşkil olunan ümumi şəhər yığıncağında əhalinin adından çıxış edən Hacı Həsənəli Qurbanov tərcüməçi vasitəsi ilə Edmond Delliyə demişdi: "Biz ingilis hökumətinin qərarı ilə razılaşmayacağıq. Naxçıvan ölkəsini hər cür təcavüzkarlardan öz qanımızla müdafiə edəcəyik" [8, s.198]. Ona görə də, E.Delli Naxçıvanda general-qubernator kimi deyil, Paris sülh konfransının nümayəndəsi kimi işə başladı. Xalqın tələbi qarşısında aciz qalan E.Delli ermənilərin təkliflərinə məhəl qoymadı və Naxçıvana gəlmiş amerikalı zabitləri İrəvana göndərdi. 1920-ci ilin yanvarında isə polkovnik E.Delli bütün amerikalı zabitlərlə

birlikdə Naxçıvanı tərk etdi. Beləliklə, əhalinin müqaviməti nəticəsində Naxçıvanda Amerika general-qubernatorluğu yaradılması planını iflasa uğradı [4, s.213, 214].

Naxçıvanın demokratik ziyalıların və milli burjuaziyanın təşəbbüsü ilə 25 yanvar 1919-cu ildə Cəfərqulu xan başda olmaqla Müsəlman Milli Şurası yaradıldı [2, s.202]. Milli Şura yarandığı andan Naxçıvanın erməni təcavüzündən qorunması və bölgənin ərazi bütövlüyünün təmin olunması üçün mühüm əhəmiyyətli tədbirlər həyata keçirdi. Milli Şuranın rəhbərliyi, əhalinin qüvvəsi ilə Naxçıvanı işğal etmək fikrindən əl çəkməyən ermənilərə sarsıdıcı zərbələr yendirildi. Naxçıvan Milli Şurasının sədrinin Azərbaycan Xalq Cümhuriyyətinin Xarici işlər naziri M.Y.Cəfərova yazdığı məktubda ifadə olunan fikirlər bu qurumun qarşısında qoyulan məqsəd və onun fəaliyyəti istiqamətləri haqqında aydın təsəvvür yaradır. Məktubda yazılırdı: “Biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik və əminik ki, hər hansı səbəbdən hərbi qüvvə ilə kömək edə bilməsə də, heç olmasa top, tüfəng və patronla Azərbaycan bizə kömək edəcəkdir. Və hətta Azərbaycan bundan da imtina etsə, biz bu yolda canımızdan keçəsi olsaq belə, müqəddəs vədimizi yerinə yetirəcəyik” (12, 25 yanvar 2014-cü il). 1919-cu ilin axırlarından 1920-ci ilin iyul ayına kimi ermənilər yenidən fəallaşmış, bir sıra yerləri işğal etmişdilər. 1920-ci il iyulun əvvəllərində Şərur və Sədərək kəndi ermənilər tərəfindən işğal olunsa da, A.Şadlinskinin rəhbərlik etdiyi “Qırmızı tabor” və “Naxçıvan polku”nun gücü ilə həmin ilin noyabrın axırı-dekabrın əvvəllərində bu ərazilər, həmçinin Ordubad erməni işğalçılarından azad olundu.

Beləliklə, Naxçıvanın görkəmli şəxsiyyətlərinin apardığı təşkilati işlər və əhalinin qətiyyəti sayəsində nəinki Naxçıvan bölgəsinin əhalisi, həmçinin Mehridən Uluxanlıya qədər geniş bir ərazidə yaşayan müsəlman-türk əhalisi erməni qırğınlarından xilas edildi. Ermənistanın Baş naziri O.Kaçaznuni 1923-cü ildə etiraf edirdi ki, “Müsəlman Naxçıvanı və Şərurunda, ...müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik” [15, s.458, 459].

**Nəticə**

Yekun olaraq deyə bilərik ki, Naxçıvanın müsəlman-türk əhalisi əraziyə erməni təcavüzünün başlandığı ilk günlərdə olduğu kimi, Araz-Türk Cümhuriyyətinin hakimiyyəti dövründə də, həmçinin bu dövlətin süqutundan sonrakı vaxtlarda da bölgənin erməni işğalından qorunmasında, əhalinin ermənilər tərəfindən soyqırıma məruz qalmasının, ata-baba yurdlarından didərgin salınmasının qarşısının alınmasında mühüm rol oynamışlar. Yerli əhali bu kimi taleyüklü məsələlərin həllində Naxçıvanın qeyrətli, qabaqcıl və vətənpərvər şəxsiyyətlərinin rəhbərliyi ilə erməni təcavüzünə qarşı çox mərdliklə dayanmış, bölgədə maraqları olan və erməniləri açıq-aşkar müdafiə edən Amerika Birləşmiş Ştatları və İngiltərə kimi böyük və güclü dövlətlərin təzyiqlərinə baxmayaraq sonadək mübarizə aparmış, nəticədə öz məqsədinə nail olmuşdur. Beləliklə, Naxçıvan diyarının ermənilərə verilməsinin, yaxud da ermənilər tərəfindən işğal edilməsinin qarşısı alınmışdır.

**İstifadə edilmiş ədəbiyyat**

1.Atnur İ. Osmanlı idarəçiliyindən Sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: “Əcəmi” NPB, 2013, 496 s.

2.Azərbaycan tarixi. Akademik Ziya Bünyadov və professor Yusif Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, 680 s.

3.Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev. Naxçıvan: “Əcəmi” NPB, 2010, 384 s.

4.Cəfərli E.Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2008, 280 s.

5.Cəfərli E. Rusiya və Türkiyənin Cənubi Qafqaz siyasətində Naxçıvan (XX əsrin əvvəlləri). Naxçıvan: “Əcəmi” NPB, 2017, 224 s.

6.Cəfərov F. Naxçıvan qəza polisi (1828-1920-ci illər).Bakı: Nurlan, 2008, 192 s.

7.Cəfərov F. Erməni vəhşiliyi. Bakı: Nurlan, 2009, 186 s.

8.Cəfərov F. Naxçıvan polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri. Bakı: Nurlan, 2011, 388 s.

9.Cəfərov F. XIX-XX əsrlərdə Naxçıvanda hüquq-mühafizə orqanlarının (polis) yaranması və fəaliyyəti (1828-2000-ci illər). Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Naxçıvan, 2013, 54 s.

10.Əliyev M.B. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). Bakı: Azərnəşr, 1993, 142 s.

11.General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Türkiyə türkcəsindən çevirən və ön sözün müəllifi Ə.Quliyev. Naxçıvan: Əcəmi, 2006, 104 s.

12.Hacıyev İ. Əhalinin qətiyyətli mövqeyi Naxçıvan diyarını xilas etdi. "Şərq qapısı" qəzeti, 25, 28 yanvar 2014-cü il.

13.Hacıyev A. Qars və Araz-Türk Respublikalarının tarixindən. Bakı, 1994.

14.Hüseynzadə L. Araz şahiddir. Türk ordu generalı Kazım Qarabəkir Paşa Naxçıvanda (1919-1920-ci illər). Bakı:ADPU –nun mətbəəsi, 2018, 99 s.

15.Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşi-Cahan Naxçıvan. Bakı: Elm, 1998, s. 458-459.

16.Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Yenidən işlənmiş, təkrar – ikinci nəşri. Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, 385 s.

17.Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi.

**Hajifakhraddin SAFARLI**

## THE ARAZ-TURKISH REPUBLIC AND PROTECTION OF NAKHCHIVAN FROM ARMENIAN AGGRESSION

### Summary

The article discusses the aggression of Armenians in the Nakhchivan region in 1918-1920, the tragedies committed in Nakhchivan and the prevention of the occupation of the territory by Armenians. It is noted that in order to protect the region from Armenian aggression, the leading people of Nakhchivan played an important role in organizing the population against the Armenian aggression, for this purpose they created self-defense battalions and appealed to the Ottoman state for help. Turkish troops led by Kazim Garabakir Pasha, together with the local population, prevented the Armenian aggression on the area, and the bandit Armenian general Andronik Ozanyan was forced to leave Nakhchivan. However, due to the historical circumstances and the terms of the Treaty of Mudros, the Ottoman troops were forced to leave all of Azerbaijan, including Nakhchivan. Therefore, the leading people of Nakhchivan established the Araz-Turkish Republic on November 18, 1918 to protect the territory from Armenian occupation. In a short time, despite living for about 4 months, the Araz-Turkish Republic achieved its goal. The Muslim-Turkish population living in a large area from Mehri to Ulukhanli was saved from the Armenian massacres.

**Key words:** *Azerbaijan, Nakhchivan, Araz-Turkish Republic, Ottoman, battalion, government.*

**Гаджифахреддин САФАРЛИ**

## АРАЗСКО-ТУРЕЦКАЯ РЕСПУБЛИКА И ЗАЩИТА НАХЧЫВАНА ОТ АРМЯНСКОЙ АГРЕССИИ

### Резюме

В статье говорится об агрессии армян в Нахчыванском регионе в 1918-1920 годах, трагедиях в Нахчыване и предотвращении оккупации территории армянами. Отмечается, что для защиты региона от армянской агрессии передовые люди Нахчывана сыграли важную роль в организации населения против армянской агрессии, создали для этого батальоны самообороны, обратились за помощью к Османскому государству. Турецкие войска под предводительством Казыма Карабекир-Паши вместе с местным населением предотвратили

армянскую агрессию в регионе, а армянский генерал Андроник Озанян был вынужден покинуть Нахчыван. Однако в силу сложившихся исторических условий, условий Мудросского договора османские войска были вынуждены покинуть весь Азербайджан, в том числе и Нахчыван. Поэтому передовые люди Нахчывана для защиты территории от армянской оккупации 18 ноября 1918 года создали Аразско-Турецкую Республику. Несмотря на короткий срок существования, около 4 месяцев, Аразско-Турецкая Республика достигла поставленной цели. Мусульманско-турецкое население, проживавшее на обширной территории от Мехри до Улуханли, было спасено от резни армян.

**Ключевые слова:** *Азербайджан, Нахчыван, Аразско-Турецкая Республика, Османлы, батальон, правительство.*

**Rəyçi: t.e.d., professor Eynulla MƏDƏTLİ**

UOT 327

**Kərim RZAYEV***

# ABŞ-IN CƏNUBİ QAFQAZ SİYASƏTİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 20 fevral 2023; çapa qəbul edilmişdir: 03 mart 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 20, 2023; accepted for publication: 20 March 2023; published online: 30 March 2023*

**Xülasə**

Bu məqalədə ABŞ-ın Cənubi Qafqazla bağlı olan siyasətinin, Soyuq müharibənin bitməsindən başlayaraq, 2010-cu ilə qədərki dövrü araşdırılmışdır. Müəllifin fikrincə Cənubi Qafqaz ABŞ üçün olduqca mühüm bölgələrdən biridir. Buna əsas səbəblər, Cənubi Qafqazın coğrafi mövqeyi və təbii sərvətləridir. 2010-cu ilə qədərki dövrə qədər olan əsas hadisələrdən biri isə, 2008-ci il avqust hadisələridir. Məqalədə yekun olaraq, məhz 2008-ci ildə Gürcüstanda baş verən hadisələr, ABŞ-ın və digər iri dövlətlərin bu hadisələrə reaksiyası araşdırılmış və təhlil edilmişdir.

**Açar sözlər:** *Cənubi Qafqaz, ABŞ, siyasət, Azərbaycan, Gürcüstan, Ermənistan*

## Giriş

Dünyanın mühüm strateji regionlarından biri olan Cənubi Qafqaz regionu Rusiya, İran və Türkiyə kimi regional güclərin yanında yerləşərək Avropanın Asiyaya çıxışını və nəqliyyatını təmin edir. Birliyin dağılması zəminində Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının müstəqillik əldə etməsi ilə siyasi səhnədə hakimiyyət uğrunda mübarizə üçün yeni boşluqlar yaranmağa başladı. 1990-cı illərin əvvəllərində yerli məktəblərin əsas məqsədlərindən biri hərbi münaqişələrin həlli ilə yanaşı, yeni yaranmış dövlətlərdə iqtisadi təhlükəsizliyin azad hökmranlıq şərtlərinə nail olmaq və son nəticədə qloballaşan dünyada son izahatlara nail olmaq idi. İkiqütblü dünya düzəninin strukturu və onun çoxqütblü dünyaya inteqrasiyası yeni müstəqil dövlətlərin mühüm hissələrinin və onun siyasətində geostrateji elementlərin meydana çıxmasına səbəb olmuşdur. 20-ci əsrin sonlarına doğru dünyada yaşayan siyasi qruplar Cənubi Qafqazın siyasi konyukturasını, o cümlədən onların yerləşdiyi fəal regionları dəyişdi. Cənubi Qafqaz və qlobal güclər arasında ümumi bəyanatlar regionun müstəqilliyi ilə yeni mərhələyə qədəm qoydu. Müstəqilliyini əldə etdikdən sonra ABŞ siyasi elitasının domeninə çevrilən Cənubi Qafqaz regionun Rusiya cinahlarını və Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyi strateji ərazilərini strateji region kimi qorudu.

## Cənubi Qafqazın strateji əhəmiyyəti

Strateji cəhətdən dünyanın mühüm nöqtələrindən biri olan Qafqaz coğrafi baxımdan Zaqafqaziya və ya Qafqazdan kənar adlanan Şimali Qafqaz və Cənubi Qafqazdan ibarətdir. Geosiyasi baxımdan Qafqazın coğrafi mövqeyi Aralıq dənizi-Egey dənizi, Avropa, Asiya və Afrika qitələrinin arasına girmiş beş min kilometr uzunluğunda olan Mərmərədir.

Boğazlar-Qara dəniz və Azov dənizi kimi bir-birinə bağlı daxili dənizlərin yaratdığı su dəhlizinin sonundadır və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya ilə birləşir.

Qafqazın dağlıq bölgədə olması nəinki nəqliyyatı çətinləşdirib, həm də buradakı insanların təcrid olunmasına, mədəni və etnik cəhətdən bölünmüş coğrafiyanın formalaşmasına gətirib çıxarıb. düşmənlər. Lakin Qafqaz xalqlarının sosial-mədəni quruluşu onların digər sivilizasiyalarla və digər sivilizasiyalarla (Türk, Hun, Xəzər, Qıpçaq, Yunan, Roma, Bizans koloniyaları, Orta və Ön Asiya sivilizasiyaları kimi) sıx əlaqələr qurmağa imkan vermişdir. Qafqaz mədəniyyətinin

---

* *Bakı Dövlət Universiteti, magistr. Azəraycan, Bakı*
*Email:* kerim137@mail.ru

formalaşmasında mühüm rol oynamışdır. Qafqazda yerli əhali daha çox dağlıq ərazilərdə, kənardan köçən xalqlar isə cənub və şimalda kənar ərazilərdə yaşayırlar.

Qafqazın geosiyasi əhəmiyyəti keçmişdən bu günə tədricən artmışdır. Soyuq Müharibədən sonra SSRİ-nin parçalanması ilə Qafqaz regionunda geosiyasi boşluq yaranıb və bu boşluğu doldurmaq istəyən qlobal və regional aktorlar hakimiyyət mübarizəsinin şahidi olublar. O, həmçinin Mərkəzi Asiya neft və qaz yataqlarının qərbində Qafqaz yolunun üzərində yerləşir. Yəni Şərqi və Qərbi Avropa ölkələri üçün mühüm enerji marşrutları bu bölgədən keçir. Bu zəngin ehtiyatların daşınma yolları; Bakı-Tbilisi-Ceyhan, Bakı-Novorossiysk, Tengiz-Novorossiysk Neft Boru Kəmərləri və TANAP və Cənub Axını Təbii Qaz Boru Kəmərləri layihə mərhələsindədir.

Şimali Qafqazın enerji marşrutları regionunda yerləşməsi Avropa ölkələri üçün geosiyasi əhəmiyyət kəsb edir. Bu geosiyasi əhəmiyyət onun geostrateji əhəmiyyətini də artırır. Şərqlə Qərb arasında körpü olan Qafqazın tarix boyu əvvəlcə Türkiyə və Rusiya, sonra isə digər güc mərkəzləri üçün böyük siyasi və iqtisadi əhəmiyyəti olub və bu gün də bu əhəmiyyət artmaqda davam edir.

Keçmişdən bu günə qədər Qafqazın geosiyasi əhəmiyyəti artmışdır. Soyuq Müharibədən sonra SSRİ-nin dağılması ilə Qafqaz regionunda geosiyasi boşluq yarandı və bu boşluğu doldurmaq istəyən qlobal və regional aktorların hakimiyyət mübarizəsinə səhnə oldu. Bundan əlavə, Qafqaz Mərkəzi Asiya neft və təbii qaz yataqlarının Qərbə gedən yolundadır. Yəni Şərqi və Qərbi Avropa ölkələri üçün mühüm enerji marşrutları bu bölgədən keçir. Bu zəngin ehtiyatların daşınma yolları; Layihə çərçivəsində Bakı-Tbilisi-Ceyhan, Bakı Novorossiyk, Tengiz-Novorossiyk Neft Boru Kəmərləri və TANAP və Cənub Axını Təbii Qaz Boru Kəmərləri.

Avropa ölkələri üçün Şimali Qafqazın enerji marşrutları regionunda yerləşməsi onun geosiyasi əhəmiyyətini yaradır. Bu geosiyasi əhəmiyyət onun geostrateji əhəmiyyətini də artırır. Şərqlə Qərb arasında körpü rolunu oynayan Qafqazın əvvəl Türkiyə və Rusiya, sonra isə digər güc mərkəzləri üçün siyasi və iqtisadi baxımdan böyük əhəmiyyəti olub və bu əhəmiyyət günü-gündən artmaqda davam edir.

Məlum olduğu kimi, qlobal nüfuza malik ölkələrin, o cümlədən ABŞ və Cənubi Qafqaz respublikalarının ikitərəfli münasibətlərini araşdırmaq həmişə vacibdir. ABŞ uzun müddət regiona özünün Yaxın Şərq siyasətinin tərkib hissəsi kimi baxıb və Cənubi Qafqazı İran və Rusiyanın regional gücünün zəiflədilməsi kontekstində qiymətləndirib. Region ölkələrinin iqtisadi və siyasi üstünlükləri münasibətlərə yeni istiqamət vermiş və nəticədə üç ölkənin siyasi üstünlükləri onların xarici siyasət strategiyalarını müəyyən etmişdir.

Bölgədə öz maraqları uğrunda fəal mübarizə aparan əsas dövlətlərdən biri olan ABŞ, əsasən qlobal geosiyasi güc iddiaları və iqtisadi maraqları çərçivəsində hərəkət edir. ABŞ-ın Cənubi Qafqaz siyasətinin əsasını regional sabitliyin qorunması, dondurulmuş münaqişələrin yenidən alovlanmasının qarşısının alınması, demokratik dəyişikliklərin dəstəklənməsi, o cümlədən İkinci Qarabağ Müharibəsindən sonrakı dövrdə Azərbaycan, Gürcüstan və Ermənistan arasında regional əməkdaşlığın və inteqrasiyanın təşviqi dayanır.

ABŞ-ın Cənubi Qafqaz siyasətinin formalaşmasında təsirli olan amillərə gəlincə, birinci amil Rusiyanın bu regiondakı xarici siyasətidir. Bu siyasət marşrutu NATO-nun genişlənməsi ilə bağlı hərəkətləri istisna edir. İkinci mühüm amil İranın regional geosiyasi oyunçu kimi regiona təsir imkanlarıdır. Üçüncüsü, ABŞ-ın nəzarətindən kənar – Cənubi Qafqaz regionunda separatçı münaqişələrin mövcudluğu ABŞ-ın geosiyasi rəqibləri üçün manevr imkanı yaradır. Bütün bunlarla yanaşı, beynəlxalq terrorizmlə mübarizədə mühüm strateji mövqeyə malik olması ABŞ-ın xarici təhlükəsizlik siyasətində Cənubi Qafqaz istiqamətinin prioritetini müəyyən edir.

Hər bir cəmiyyətin siyasi sistemini möhkəmlədən sabitlik siyasi sistemin dinamik inkişafını təmin edir. Ümummilli lider Heydər Əliyev haqlı olaraq göstərirdi: «Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai- siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt, heç bir yana əyə bilməsin, heç bir böyük dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin” [7, s.67].

Siyasi sistemlərin təbiətindən asılı olaraq onların sabitliyinin təmin edilməsi də müxtəlif olur. Totalitar siyasi sistemlər çərçivəsində siyasi sabitliyin təmin edilməsi fikir və ifadə azadlığının məhdudlaşdırılması, total nəzarətin bərqərar edilməsi ilə təmin olunur. Totalitar siyasi sistemə malik olan ölkələrdə təhlükəsizliyini təmin etmək məqsədilə siyasi hakimiyyət tabeliyində olan müxtəlif vasitələrdən, ordudan, xüsusi orqanlardan, manipulyasiyadan geniş istifadə edir.

Demokratik siyasi sistemlərdə isə əksinə siyasi təhlükəsizliyin təmin edilməsi hüquqi dövlətin və vətəndaş cəmiyyətinin mövcudluğu, yüksək siyasi mədəniyyət, demokratiyanın inkişafı ilə əlaqələndirilir. Cəmiyyətin siyasi sisteminin sabitliyinin, eləcə də daxili siyasi təhlükəsizliyin təminatçısı kimi hakimiyyət bölgüsü prinsipinin də mühüm rolu vardır. Siyasi təhlükəsizliyin möhkəm olmasının əsas şərtlərindən biri də ictimai həmrəyliyin bərqərar olmasıdır. Belə ictimai həmrəylik dövləti və cəmiyyəti konfliktlərdən, hərbi toqquşmalardan qorumaqla, siyasi sistemin səmərəli fəaliyyətini və inkişafını, ən əsası isə legitimliyini təmin edir. Həmçinin ictimai həmrəylik əsas insan hüquq və azadlıqlarının qorunmasına təminat verməklə, cəmiyyətin azad inkişafı üçün perspektivlər açır. Bununla yanaşı hər bir ölkənin xarici və daxili siyasətində baş verən dəyişiliklər, cəmiyyətin mənəvi-əxlaqi dəyərləri də cəmiyyətdə siyasi təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır.

Bütün bunları qeyd edərək belə bir nəticəyə gəlmək mümkündür ki, siyasi təhlükəsizliyin təmin olunması baxımından hüquqi dövlət və vətəndaş cəmiyyətinin normal inkişafım təmin etmək,

ilk növbədə cəmiyyətin siyasi sisteminin daxili sabitliyinə nail olmaq ən başlıca şərtlərdən biridir. Yalnız daxili sabitliyə nail olunduğu bir şəraitdə milli təhlükəsizlik obyektlərinin normal inkişafını təmin etmək mümkündür.

Milli təhlükəsizlik hökumətin siyasi, diplomatik, iqtisadi, hərbi və digər təsir vasitələrindən istifadə edərək öz vətəndaşlarının müdafiəsini nəzərdə tutur, milli müstəqilliklə başlayır və milli maraqlara söykənir. Hər bir dövlətin milli təhlükəsizliyi onun uzunmüddətli milli maraqları üzərində qurulur. Başqa sözlə, milli təhlükəsizlik milli maraqların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla, aşağıdakılardır:

- dövlətin müstəqilliyi və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;
- xalqın vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;
- vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;
- demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmin edilməsi ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;
- beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;
- bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;
- təbii sərvətlərdən səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;
- dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluq və həmrəyliyin möhkəmləndirilməsi;
- Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi.

Milli təhlükəsizliyi təmin edən tədbirlər aşağıdakılardır [5]:

- diplomatiyadan istifadə edərək tərəfdaşlar qazanmaq və təhlükələri təcrid etmək;
- əməkdaşlığı asanlaşdırmaq, hətta zəruri etmək üçün iqtisadi potensialı artırmaq;
- effektiv Silahlı Qüvvələr yaratmaq;
- mülki müdafiə və fövqəladə hallara hazırlıq tədbirlərini (terror əleyhinə qanunvericilik daxil olmaqla) həyata keçirmək;
- mühüm infrastrukturların mühafizəsini təmin etmək;
- kəşfiyyat orqanlarından istifadə edərək təxribat təhlükəsinin qarşısını vaxtında almaq və informasiyanı gizli saxlamaq;
- əks-kəşfiyyat və polis orqanlarından istifadə etməklə əhalini daxili təhlükələrdən qorumaq.

Azərbaycan Respublikasının milli təhlükəsizliyi dedikdə, onun müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, konstitusiya quruluşu, xalqın və ölkənin milli maraqları, insan, cəmiyyət və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması başa düşülür. Milli təhlükəsizliyin obyektləri insan, cəmiyyət və dövlətdir.

**Nəticə**

Etibarlı və sərfəli enerjiyə çıxış iqtisadi inkişaf, sosial sabitlik və siyasi təhlükəsizlik üçün vacib olduğu üçün enerji təhlükəsizliyi regional təhlükəsizliyin mühüm aspektidir. Enerji resurslarının mövcudluğu, enerji istehsalı və nəqli üçün infrastruktur və enerjidən istifadəni tənzimləyən siyasətlər regional təhlükəsizlik üçün əhəmiyyətli təsirlərə malik ola bilər.

Enerji sektoru bir-birindən yüksək dərəcədə asılıdır, ölkələr enerji təchizatı və infrastruktur üçün bir-birlərinə arxalanırlar. Bu qarşılıqlı asılılıq zəifliklər yarada bilər, çünki enerji sisteminin bir hissəsindəki nasazlıqlar bütün regionda ardıcıl təsirlərə malik ola bilər. Məsələn, bir neçə ölkədən keçən böyük neft və ya qaz kəməri terror hücumları və ya təxribatların hədəfi ola bilər, enerji təchizatını pozar, iqtisadi və sosial qeyri-sabitliyə səbəb ola bilər.

Fiziki təhlükəsizlik narahatlıqları ilə yanaşı, enerji təhlükəsizliyi də mühüm iqtisadi və siyasi təsirlərə malikdir. Etibarlı və əlverişli enerji təchizatına malik olan ölkələr daha çox xarici investisiyaları cəlb edir, sosial və siyasi sabitliyə töhfə verə biləcək iqtisadi artımı yaşayırlar. Əksinə, idxal olunan enerjidən çox asılı olan ölkələr ciddi iqtisadi və siyasi nəticələrə səbəb ola biləcək qiymət şoklarına və təchizatın pozulmasına daha həssasdırlar.

Enerji təhlükəsizliyinin təmin edilməsi enerji mənbələrinin şaxələndirilməsini, enerji infrastrukturuna investisiyaları, enerji səmərəliliyini və bərpa olunan enerjini təşviq edən siyasət və qaydaların işlənib hazırlanmasını əhatə edən kompleks yanaşma tələb edir. Bölgədəki ölkələr resursları və təcrübələri paylaşmaqla, siyasətləri əlaqələndirməklə və regional enerji infrastrukturunu inkişaf etdirməklə enerji təhlükəsizliyini təşviq etmək üçün birlikdə işləyə bilərlər. Beynəlxalq təşkilatlar da enerji təhlükəsizliyinin təşviqində mühüm rol oynayır. Beynəlxalq Enerji Agentliyi (IEA) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) kimi təşkilatlar texniki yardım göstərir, qabaqcıl təcrübələri təşviq edir və enerji təhlükəsizliyi problemlərinin həlli üçün beynəlxalq səyləri əlaqələndirir.

Nəticə etibarilə, enerji təhlükəsizliyi regional təhlükəsizliyin mühüm iqtisadi, sosial və siyasi təsirləri olan kritik aspektidir. Enerji təhlükəsizliyinin təmin edilməsi enerji mənbələrinin şaxələndirilməsini, enerji infrastrukturuna investisiyaları, enerji səmərəliliyini və bərpa olunan enerjini təşviq edən siyasət və qaydaların işlənib hazırlanmasını nəzərdə tutan kompleks yanaşma tələb edir. Enerji təhlükəsizliyinin təşviqi və davamlı iqtisadi və sosial inkişafın təmin edilməsi üçün regional əməkdaşlıq və beynəlxalq təşkilatların dəstəyi vacibdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasbəyli A., Nəcəfov E. “Beynəlxalq münasibətlər nəzəriyyəsi Mürtəcim nəşriyyatı”, Bakı, Qanun, 2007, 208 səh.
2. Adıgözəlov K. “Azərbaycanın neft strategiyası beynəlxalq siyasətin aparıcı istiqamətlərindən biri kimi”, Bakı, Qanun, 2004, 158 səh.
3. Həsənov Ə. “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti Azərbaycan nəşriyyatı”, Bakı, Elm, 2005, 637 səh.
4. Qasımov C., Nağıyev N. “Milli təhlükəsizliyin əsasları”, Dərslik. Bakı, [MTN-nin H. Əliyev ad. Akad.], 2015, 407 səh.
5. Qələndərova E. “Gənc hüquqşunasın tribunası və Beynəlxalq hüquq jurnalı Qanun 01 (267)”, 2017, 102 səh.
6. Məmmədov Q., Xəlilov M. “Ekologiya və Ətraf mühitin mühafizəsi”, Bakı, Elm nəşriyyatı, 2014, 435 səh.
7. Məmmədzadə, V.M. “Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri”. Dərs vəsaiti / V.M.Məmmədzadə, X.İ.İskəndərov. Bakı, “UNİCOPY”, 2020, 145 səh.
8. Ömərov V. “İnsan hüquq və azadlıqlarının müdafiəsi və milli təhlükəsizlik”, // Səs, 5 sentyabr 2015, 15 səh.
9. Baylis J., Smith S., Patricia O. “The Globalization of world politics”. An Introduciion to intemational relations. Oxford Univcrshy Press, 2017, 187 p.
10. Bemell D., Christopher A. Simon. “The Energy Security Dilemma: US Policy and Practice”. Routledgc 2016, 157 p.
11. Caroline K., Michacl F. Keating. “The Global Energy Challenge”. Palgrave; 2015, 145 p.

12. Collins A. “Contemporary Security Studies”, Oxford-New York, Oxford University Press, 2007, 306 p.
13. Dannreuther Roland International security The contemporary agenda Second edition Polity Press, 2013, 207 p.
14. Edward A. Kolodziej, “Security and International relations”, Cambridge University Press, 2005, 250 p.
15. Energy Security and Global Politics. Daniel M oran (Editor). Routledge; Rcissue edition 2010.
16. Моздаков А.Ю. “Социальная безопасность и безопасность личности”, Государство и право. 2008, № 6, 211 стр.
17. Ожегов С.И., Под ред. проф. Скворцова Л.И. “Толковый словарь русского языка: ок. 100 000 слов, терминов и фразеологических выражений”, М., 2010, стр.13-60
18. Фролов К.В. и др. “Безопасность России: правовые, социально-экономические и национально-технические аспекты”. Словарь терминов и определений М., 1999, 361 стр.
19. Ходаковский Е.А. “Россия в глобальном противостоянии Запада и Востока”. СПб, 2007, стр.33-35.

**Musamil MUSABEYLİ**

## CONCEPT OF REGİONAL SECURİTY

### Summary

Regional security refers to measures taken by states in a certain geographical region to nsure peace, stability and security in that region. It implies a complex interaction of political, economic, social and military factors affecting the security of the region as a whole. Regional security is often considered a subset of global security, but it has its own dynamics that require a special approach.

The concept of regional security emerged in response to the challenges posed by global conflicts, instability and terrorism. The purpose of regional security is to promote stability and cooperation among countries in a given region, prevent the escalation of conflicts, and address common security challenges. This approach is based on the belief that regional actors are better placed than foreign actors to identify and address security threats.

**Keywords:** *regional security, peace, stability, geography*

**Мусамил МУСАБЕЙЛИ**

## КОНЦЕПЦИЯ РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

### Резюме

Региональная безопасность относится к мерам, принимаемым государствами в определенном географическом регионе для обеспечения мира, стабильности и безопасности в этом регионе. Он предполагает сложное взаимодействие политических, экономических, социальных и военных факторов, влияющих на безопасность региона в целом. Региональную безопасность часто считают частью глобальной безопасности, но она имеет свою динамику, требующую особого подхода.

Концепция региональной безопасности возникла в ответ на вызовы, порожденные глобальными конфликтами, нестабильностью и терроризмом. Целью региональной безопасности является содействие стабильности и сотрудничеству между странами данного региона, предотвращение эскалации конфликтов и решение общих проблем безопасности. Этот подход основан на убеждении, что региональные субъекты имеют больше возможностей, чем иностранные субъекты, для выявления и устранения угроз безопасности.

**Ключевые слова:** *региональная безопасность, мир, стабильность, география.*

**Rəyçi: t.e.d, professor Sevinc Əliyeva**

SOSİOLOGİYA. SOSİAL PSİXOLOGİYA. SİYASƏT
SOCIOLOGY. SOCIAL PSHYCHOLOGY. POLITICS 2023 Cild 3, N 1

131-139

UOT 327

**Rüfət İSLAMOV***

# FORMALAŞAN YENİ DÜNYA DÜZƏNİNDƏ UKRAYNANIN GEOSTRATEJİ ÖNƏMİ, UKRAYNA UĞRUNA MÜBARİZƏ-RUSİYA VƏ QƏRB KONFRONTASİYASI

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 fevral 2023; çapa qəbul edilmişdir: 20 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 15, 2023; accepted for publication: 20 February 2023; published online: 30 March 2023*

**Xülasə**

XX əsrin sonlarında SSRİ-nin süqutu ilə yeni dünya nizamı formalaşmağa başladı. Nəticə etibarı ilə, ikiqütblü sistemdən təkqütblü sistemə keçid ilə ABŞ-ın qlobal liderliyi reallaşdı. SSRİ-nin süqutu ilə isə varislik Rusiya dövlətinə keçdi. Təbii ki, SSRİ-nin süqutu ilə razılaşmaq istəməyən Rusiya hər cəhdlə həmin dövlətləri öz ətrafında birləşdirərək yenidən onlara nəzarət etmək istəyirdi. Əslində elə bu Rusiyanın "yaxın çevrə" adlandırdığı siyasətin bir hissəsi idi. İlkin hədəf olaraq isə Rusiya həmin dövlətlərin Qərbə meyllənməsinin qarşısını almağa çalışır və beynəlxalq arenada aparıcı dövlətlərdən birinə çevrilməyi düşünürdü. Bu istəklərinə nail olmaq üçün isə müxtəlif özünəməxsus inteqrasiya layihələri irəli sürməyə başladı. Təbii ki, bu dövlətlər arasında Rusiya üçün ən önəmli yeri Ukrayna tutmaqda idi.

Nəzərə almaq lazımdır ki, ortaq tarixi keçmişə və mədəniyyətə sahib olması, Ukraynanı Rusiya üçün məxsusi edir. Ukrayna həm də təhlükəsizlik baxımından da Rusiya Federasiyası üçün mühüm əhəmiyyət kəsb ediröğ. Həm də Avrasiyaçılıq nəzəriyyəsinə görə Ukrayna "tampon" bölgə kimi görülməkdədir. Məhz buna görə, Ukrayna bəzən Qərblə-Rusiya arasında körpü rolunu, bəzən isə sadəcə rəqabət meydanını oynamaqdadır.

**Açar sözlər:** *Ukrayna krizisi, Rusiya, ABŞ, Avropa İttifaqı, "yaxın çevrə", NATO, revizionism*

## Giriş

Ukrayna və Rusiya çətin birgəyaşayış, geosiyasi qarşıdurma və tarixi və mədəni rəqabət tarixini bölüşürlər. Demoqrafik müstəvidə hər iki dövlət etnik slavyan əhaliyə əsaslanır, baxmayaraq ki, tarixi trayektoriya baxımından əhəmiyyətli dərəcədə fərqlidirlər. Hər ikisi də 1991-ci ildə dağılmış Sovet İttifaqının üzvü idi. Növbəti illərdə Ukrayna siyasi müstəvidə rəqib tərəfindən ifadə edilən qərbyönlü və Rusiyayönlü geosiyasi oriyentasiya arasında getdikcə qütbləşən bir mühitdə siyasi qüvvələr və namizədlər olaraq bölünəcəkdi [7].

2014-cü ildə Avro-Maydan etirazları ilə qərbyönlü siyasi qüvvələrin qəti qələbəsi və sonradan Ukraynanın Aİ-yə yaxınlaşmaq cəhdi, eləcə də dövrün ümumi geosiyasi vəziyyəti Rusiya rəsmilərini Ukraynaya qarşı aqressiyasını və revizionizmini gücləndirməyə inandırdı [4, s.53].

## Ukraynanın geostrateji önəmi

Heç şübhəsiz ki, Rusiyanın imperiya qurmaq üçün ilk addımını atacağı ərazi Ukrayna coğrafiyası olmalıydı. Bu səbəbdən Rusiya Ukraynanı aşağıdakı xüsusiyyətlərə görə məxsusi fərqləndirirdi:

* *Bakı Mühəndislik Universiteti, magistr. Azərbaycan, Bakı*
*E-mail*: rufatislamov90@gmail.com

- Ukraynanın cənub-şərqində yerləşən kosmik-raket, energetika, metallurgiya, kimya sənayesinin mövcudluğu Rusiya üçün əvəzedilməzdir;

- Rusiyanın təbii qazını Avropaya daşıyan kəmər bu ölkədən keçməlidir. Rusiya üçün enerji suverenliyini davam etdirmək çox vacibdir;

-Ukraynada rus milli kimliyi əhəmiyyət kəsb , təxminən 17 milyon (1/3); [1, s.21-22].

-Ukrayna Rusiya üçün Avropaya giriş qapısıdır;




- Ukrayna Rusiyanın xüsusən qərbdə, daha sonra Yaxın Şərq və Balkanlarda siyasi və iqtisadi mövcudluğu üçün əlverişli imkan yaradan geosiyasi əhəmiyyətə malikdir;

- Krımda yerləşdirilən rus hərbçilər də Rusiya üçün danılmaz əhəmiyyət kəsb edir

-Ukrayna həm də Rusiyanın Avrasiya İttifaqı idealı üçün çox önəmlidir. Rusiyanın fikrincə Ukraynanın NATO və Avropa Birliyinə üzv olmaq imkanları var və vəziyyət son vaxtlar Avrasiya İttifaqının qarşısında mühüm maneəyə çevrilib və bu da Rusiyanı çox narahat edir. Belə ki, Ukraynanın Qərblə əməkdaşlığının genişləndirilməsi və NATO-ya üzv olması halında, NATO hərbi qüvvələrinin burada yerləşdirilməsi Rusiyanın milli təhlükəsizliyinə təhdiddir və bu, Rusiyanın milli maraqlarına ziddir

-Ukraynanın geniş əkin sahələri və mineral ehtiyatları da Rusiya üçün əhəmiyyətlidir

-Rusiyanın milli təhlükəsizlik siyasətində də Ukrayna həyati əhəmiyyət kəsb edir. Rusiyanın Ukrayna ilə uzun sərhəd xətti vardır. Nəzərə almaq lazımdır ki, bu məsafə digərləri kimi dağlı-kəskli deyil, daha asant qət ediləsi ərazidir. Bu əraziyə nəzarət Ukrayna ilə Qazaxıstan arasında geostrateji bölgəyə nəzarət deməkdir. Rusiya yaxşı başa düşür ki, xarici qüvvələr çox asantlıqla bu əraziləri ələ keçirtdə bilər. Bu həm də nəticə etibarı ilə Rusiyanın Qafqaz siyasətinin də sonu deməkdir.

- Həm də Rusiya üçün Novorossiskidən də daha önəmli Odessa və Sivestopol kimi limianlarının olmasını da qeyd etmək lazımdır. Bu limanların itirilməsi Rusiyanın Qara dənizdəki ticarət yollarını bağlayaraq onun Aralıq dənizinə çıxışına maneçilik törədə bilər.

-Rusiyanın Qara dənizdən başqa "donmayan" dənizlərə və okeanlara çıxışı yoxdur [3].

Hələ II Nikolayın hakimiyyəti dövründə Rusiya Avropanı Asiyadan ayıran boğazlara nəzarəti ələ keçirmək istəyirdi.

Rusiya Birinci Dünya Müharibəsi illərində bu planı yenidən həyata keçirməyə çalışsa da, uğursuz oldu. Lakin Sevr müqaviləsinə uyğun olaraq boğazlara nəzarətin Millətlər Cəmiyyətinə,

daha sonra isə Türkiyəyə keçməsi ilə Rusiya "isti dənizlərə" təhlükəsiz çıxışı əldə etdi. Hələ vaxtıyla Marşal Vasilevski İkinci Dünya Müharibəsində almanların Krımı işğal etmək üçün sona qədər vuruşduğunu və bu bölgəni nəzarətə götürməklə Rumıniya, Bolqarıstan və Türkiyəyə təzyiq edə biləcəklərini vurğulayırdı. Indi isə bu strateji bölgənin Qərbin əlinə keçməsi Rusiyanı narahat etməyə bilməzdi.

**İki güc arasında qalan Ukrayna**

Rusiya 400 ildən çoxdur ki, indiki Ukraynanın coğrafiyasına nəzarət etməkdədir. Əslində Rusiyanın Ukrayna ilə elə bir problem yoxdur sadəcə Ukraynanın demokratikləşməsinə qarşıdır. Rusiya yaxşı başa düşür ki, bu sadəcə və sadəcə ABŞ, NATO və Avropa Birliyinin (qərbin) Rusiyaya qarşı həyata keçirtdiyi "Anakonda" siyasətidir. (13)

Bu taktikanın məqsədi geosiyasi olaraq düşməni zəiflətmək üçün onun dənizlərə, okeanlara, müttəfiqlərə və təbii sərvətlərə çıxış yollarını bağlamaqdır. Buna nail olan tərəf təbii ki, öz geosiyasi mövqeyini möhkəmləndirməklə qarşı tərəfin mövqeyini zəiflətməkdədir. Qərb bundan yaxşı istifadə etdi.

Qərbin "Anakonda taktikası" ilə Rusiyaya qarşı "rəngli inqilablar"həyata keçirilməyə başladı [9].

Keçmiş Yuqoslaviya (2000), Gürcüstan (2003), Qırğızıstan (2005), Ukrayna (2004, 2014) bunlara bariz nümunədir. Bu inqilabların hədəfi Rusiyanın geosiyasi məkanını məhdudlaşdırmaq, Şərqi Avropa və postsovet coğrafiyasında nəzarətini itirməkdir [2, s.17].

Sovet İttifaqının dağılmasından sonra Rusiya Federasiyası Şərqi Avropa və Baltikyanı ölkələrinin itirilməsini qəbul etsə də, ABŞ və Avropa İttifaqı postsovet coğrafiyasında hökmranlığı ələ keçirməsini həzm edə bilmədi. Xüsusən də bu üstünlük Ukrayna kimi geosiyasi mövqeyə malik olan bir ölkənin sərhədləri daxilində baş verəndə Rusiya artıq dirənməyə başladı.

ABŞ-ın Sovet İttifaqındakı sonuncu səfiri Cek Metlok qeyd edirdi ki, Şərqi Avropa mövqeyindən əl çəkən Sovvetlər daha çox beynəlxalq statusa sahib olmaq istəyirdi. Yəni Rusiya Sovet İttifaqının malik olduğu statusu istəyirdi. Təbi ki, burda Rusiyanın ambisiyaları ilə onun tanınmış statusu arasında gələcək münasibətlərdə fəsadlar yarada biləcək fikir ayrılığı var idi.

Nəzəri kontekstdə realistlər Soyuq Müharibə bitdikdən sonra Şərqi Avropa və Baltikyanı ölkələrdə nəzarətin ələ keçirməsini və NATO-nun genişlənməsini yüksək qiymətləndirsələr də, postsovet coğrafiyasına doğru genişlənməni bəyənmirdilər. Realistlər düşünürdülər ki, NATO Gürcüstan və Ukraynanın üzvlüyə qəbul etməyə çalışsa bu məsələ Rusiyanı narahat edəcək və hegemonluq instinktini yenidən işə salacaq. Realist məktəbin nümayəndələrindən biri olan Corc Kennan qeyd edirdi ki, bu cür genişlənmə səhv hərəkətdir, atılmamalıydı [14].

Bill Klinton administrasiyası dövrü təmsil olunan liberallar isə realistlərdən fərqli olaraq Şərqi Avropa və postsovet coğrafiyasına hakim olmaq üçün doğru zaman olduğunu iddia edirdilər və əminliklə iddia edirdilər ki, bu məsələ Rusiyanın çox da böyük reaksiyasına səbəb olmuyacaqdır. Liberallar Soyuq Müharibənin başa çatması ilə dünya siyasətinin əsaslı şəkildə dəyişməsi fikrini bölüşürdülər. Bu dövrdə ABŞ və müttəfiqləri Şərqi Avropa dövlətləri ilə iqtisadi və siyasi əlaqələrini yaxşılaşdırmaq və bu dövlətləri Avropa İttifaqının sərhədləri daxilində görmək istəyirdilər. Liberallar geosiyasi reallıqdan asılı olmayaraq liberal nizamın bütün Avropanı formalaşdıracağını düşünürdülər. Ancaq Ukrayna timsalında göründüyü kimi, geosiyasi reallığı nəzərdən qaçırmaq mümkün deyildi. Rusiya bu amildən irəli gələn təhlükəni yaxşı görürdü [2,s.17-33].

Onu da diqqətə almaq lazımdır ki, Soyuq Müharibə başa çatdıqdan sonra ABŞ, Avropa Birliyi və Sovet liderləri birlikdə ABŞ ordusunun Avropada qalacağına və NATO-nun dağılmayacağına razılıq verdilər. Əslində hər şey sülhün qorunması adına olacaqdı. Lakin 1990-cı illərin ortalarında Bill Klinton administrasiyası Avropa İttifaqı və NATO-nun Şərqə genişlənmə strategiyasını həyata keçirtməyə başladı.

Qeyd edık ki, ABŞ və Avropa Birliyinin 1991-ci ildən bu günə qədər başda Rusiya olmaqla postsovet ölkələri ilə həyata keçirtmək istədiyi siyasətini 3 prinsipdə kateqoriyalaşdırmaq olar.

- NATO-nun genişlənməsi;
- Avropa İttifaqının genişlənməsi;
- Demokratiyanın genişləndirilməsi və möhkəmləndirilməsi.

1999-cu ildə Çexiya, Macarıstan və Polşanın NATO-ya qəbulu ilə təşkilatın Şərqə doğru genişlənməsinin ilk mərhələsi baş verdi. 2004-cü ildə NATO keçmiş Sovet İttifaqının sərhədlərinə qədər uzandı. Daha sonra isə Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya və Sloveniya NATO-ya qoşuldu. 1995-ci ildə NATO serbləri bombalayanda Rusiya bu təhlükəni daha yaxından hiss etdi. Növbəti məqsəd postsovet respublikaları sırasında olan Ukrayna və Gürcüstanın üzvlük prosesini sürətləndirmək idi.

Beləliklə, 3-4 aprel 2008-ci ildə keçirilən NATO Zirvə toplantısında Ukrayna və Gürcüstanın üzvlük məsələsi müzakirə olundu. ABŞ bu ölkələrə dəstəyini təzələdi. Lakin Fransa və Almaniya bu dövlətlərin təşkilata qəbulunun Rusiyanı narahat edəcəyini iddia edərək buna etiraz etdilər. Nəhayətdə, Zirvə Toplantısında ortaq məxrəcə gəlindi ki, Ukrayna və Gürcüstanın təşkilata üzv olması üçün rəsmi prosedurlara başlanmasa da, onların yolu açılsın. Rusiya Prezidenti Vladimir Putin sərt şəkildə mövqeyini nümayiş etdirsə də qarşı tərəf bunu nəzərə almadı [11].

ABŞ və Avropa İttifaqı buna məhəl qoymadan 2008-ci ildə “Şərq Əməkdaşlıq Proqramı”na start verdi. Proqramın məqsədi Ukrayna, Moldova, Gürcüstan və digər dövlətlərin iqtisadi inkişafına kömək etmək və Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirmək idi. Təbii ki, hərbi sənayesini qüvvətləndirməkdə olan Rusiya, ilk fürsətdə şansından istifadə edib ABŞ və Avropaya cavab vermək üçün uyğun vaxtı gözləyəcəkdi.

Əlverişli vaxt 2008-ci ildə Gürcüstanın Abxaziya və Cənubi Osetiya üzərində suverenliyini bərpa etmək üçün hərbi əməliyyatlara başladığı vaxt oldu. Səkkiz günlük işğaldan sonra ABŞ və Fransanın vasitəçilik cəhdləri nəticəsində Rusiya ordusunu geri çəkdi, lakin Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımaqla ABŞ və Avropaya xəbərdarlıq etdi. Bütün bunlara baxmayaraq, ABŞ və Avropa Rusiyanın bu hərbi təhlükəsini kifayət qədər ciddi qəbul etmədi və 2009-cu ildə Albaniya və Xorvatiya NATO-ya yeni üzv kimi qəbul etdi.

Nəzərə çatdırıaq ki, ABŞ Ukraynanın iqtisadi inkişafı və demokratikləşməsi üçün 1991-2013-cü illər aralığında bu ölkəyə 5 milyard dollar sərmayə qoydu. Bu yardımın böyük hissəsini ABŞ-da fəaliyyət göstərən Demokratiyanın Təşviqi Milli Fondu tərəfindən həyata keçirdildi. Bu Fondun maliyyə yardımı ilə Ukraynada demokratiyanın inkişafını, insan hüquqlarının müdafiəsini, Avropa ilə iqtisadi və siyasi inteqrasiyanı sürətləndirən 60-dan çox layihə həyata keçirildi. ABŞ və Avropa İttifaqının Ukraynada sosial və siyasi sahədə mühəndislik etmək cəhdlərini Rusiya birmənalı qarşılanmadı [14].

Ukrayna və Rusiya arasında ilk fikir ayrılığı 1992-1993-cü illərdə Sovet İttifaqının iqtisadiyyatının bölünməsi zamanı baş verdi. Daha sonra Krım və Qara dəniz donanmasının kimə məxsus olması ilə bağlı müzakirələr yarandı.Ukrayna Avropa ilə münasibətlərini yaxşılaşdırmağa çalışarkən, Rusiya faktorunu diqqətdən kənarda qoya bilməzdi və tərəflər arasında yaranmış problemləri həll etmək üçün 1997-ci il mayın 31-də dostluq və əməkdaşlıq müqaviləsi imzalandı. Müqavilədə tərəflərin bir-birinə təzyiq etməmək, üçüncü şəxslərlə bir-birinə qarşı yönəlmiş müqavilələr bağlamamaq öhdəliyi var idi.

Sovet İttifaqının dağılmasından sonra postsovet respublikalarında iqtisadi inkişaf, sosial problemlərin həlli vacib olsa da, sonrakı illərdə həlledici məsələ bu dövlətlərin siyasi gələcəyinin formalaşması ilə bilavasitə bağlı idi. Ukraynanın siyasi gələcəyini də məhz bu çərçivədə qiymətləndirmək olar.

Dövlətlərin geosiyasi yerləşimi və ya mövqeləri onlara müxtəlif sahələrdə imkanlar yaratsa da, bəzən təhlükələrə də səbəb ola bilir. Tarix boyu Ukraynanın geosiyasi mövqeyinə görə güclü və vahid dövləti olmamışdır. O, həmişə Qərblə Rusiya arasında mübarizə meydanı olmuşdur. Müxtəlif dövlətlər tərəfindən işğal edilmiş, əldən-ələ keçmişdir. 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra geosiyasi mövqeyindən irəli gələn imkanları dəyərləndirə bilməmişdir. Daha doğrusu, Ukraynanın siyasi və iqtisadi elitası olmadığından Sovet və Avropa dövlət idarəçiliyi modeli

əsasında qurulan dövlətdə köhnə sovet ideologiyası ilə qidalanan nəsil hakimiyyətə gəlmişdir. Bu nəsil Avropa dəyərlərini mənimsəməkdə çətinlik çəkdiyinə görə milli maraqlardan çox öz maraqlarını ön planda tutaraq dövləti idarə etməyə çalışmışdır [8].

Nəzərə almaq lazımdır ki, Rusiyanın təsirini minimuma endirmək mümkün olmadığından Avropaya inteqrasiya prosesində ciddi problemlər yaranmışdır. Tarixi konteksdən bilirik ki, Ukrayna coğrafi cəhətdən vahid olsa da, daxilində ideologiji bölünmə Sovet dövründə belə hiss olunurdu. Qərbi Ukrayna Avropa dəyərlərinə daha yaxın olduğu halda şərq bölgəsi bu dəyərlərdən uzaq gəzirdi. Səbəbi isə şərqi hissədə daha çox rusların məskunlaşması idi.

Sovet İttifaqının dağılmasından sonra Ukraynada yerləşdirilən nüvə silahlarının məhv edilməsi müzakirəyə çıxarıldı və 1994-cü il yanvarın 14-də Ukrayna növbəti 7 il ərzində öz sərhədləri daxilində bütün nüvə silahlarını məhv edəcəyinə söz verdi. Bunun müqabilində o, ABŞ və Avropadan maliyyə yardımı almalı, təhlükəsizliyini qorumaq üçün ABŞ və Rusiyadan, daha sonra isə Çindən zəmanət təmin etməli idi. Nüvə silahlarının məhv edilməsi müqabilində alacağı maliyyə yardımı ilə iqtisadi problemlərini həll edəcəyini düşünən Ukrayna nüvə silahlarını məhv etdi. Əslində isə bu Ukraynanın atdığı ən böyük səhv addım oldu.

Bu gün Ukraynanın üzləşdiyi təhlükəsizlik problemlərinin və elə işğalının da əsası budur. Nüvə silahına malik Ukrayna ABŞ, Avropa Birliyi və Rusiya arasında sövdələşmədə daha güclü mövqe tuta, milli maraqlarını qoruya bilərdi.

Qeyd edək ki, Postsovet respublikaları 2000-ci illərin sonuna qədər Rusiya, ABŞ və Avropa İttifaqı arasında balanslı siyasəti həyata keçirsələr də, son illərdə Rusiya, ABŞ və Avropa İttifaqı arasında münaqişə onları daha da çətin vəziyyətə salmaqdadır [5].

Orası da maraqlıdır ki, Rusiya, ABŞ və Avropa Birliyi postsovet ölkələrinin balans siyasətindən razı deyil və onları ortada -balanslaşdırılmış siyasətdə deyil, öz yanlarında görmək istəyirlər.

1995-ci ilin noyabrında Ukraynanın Avropa Şurasına üzv olması ona Avropa İttifaqı ilə münasibətlərini yaxşılaşdırmağa imkan verdi. Ukraynanın Avropa Şurasına üzv olması qurumun şərqə doğru genişlənməsi, demokratik dəyərlərin və insan haqlarının qorunması baxımından vacib idi. Ukrayna Avropa İttifaqı ilə münasibətlərini yaxşılaşdırarkən, NATO ilə də münasibətlərinə önəm verməyə başladı. 1997-ci ilin iyulunda tərəflər arasında "Ukrayna ilə NATO arasında xüsusi əməkdaşlıq sazişi" imzalandı. NATO-ya üzv dövlətlər Ukraynanın nüvəsiz dövlət statusuna uyğun olaraq müstəqilliyini qoruyacaq və demokratiyanın inkişafına kömək edəcəkdilər. Bundan əlavə, Kiyevdə tez-tez tərəflər arasında əməkdaşlığı koordinasiya edən NATO-nun İnformasiya və Sənədləşdirmə Mərkəzi açıldı [12].

Rusiya Ukraynanın ATƏT və Avropa Şurası ilə əlaqələrini alqışlasa da, onun Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafından narahat olduğunu açıq aydın göstərməkdəydi.

Avropa Birliyi son illərə qədər Ukraynanı üzv kimi görməyə tələsməsə də, bu ölkə ilə assosiativ saziş imzalamaq üçün danışıqlara başladı. 29 noyabr 2013-cü ildə Vilnüsdə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində Ukrayna ilə bu məsələ ilə bağlı razılıq əldə edilmiş və Assosiasiya Sazişi imzalanmalı idi. Noyabrın 21-də Ukrayna hökuməti ölkəsinin milli təhlükəsizliyini nəzərə alaraq Assosiasiya Sazişini imzalamayacağını bəyan etdi. Bu qərardan sonra hökumət MDB-yə üzv dövlətlərlə iqtisadi, texnoloji, ticarət, siyasi, enerji sahələrində əməkdaşlığın genişləndirilməsi proqramı qəbul etdi

Ukrayna hökuməti Assosiasiya Sazişini imzalamağı dayandırdıqdan sonra,
Aİ-dan vətəndaşlara satılan təbii qazın qiymətinin artırılmamasını, sənayenin bəzi sahələrində dövlət yardımının ləğv edilməməsini, ixrac sahəsinin genişləndirilməsini, metallurgiya sənayesi məhsullarının ixracına maneələrin yaradılmamasını tələb etdi.

Əslində Ukrayna baş naziri N. Azarov Aİ ilə assosiasiv sazişin imzalanmamasını və Ukrayna-Rusiya ticarət əlaqələrinin genişləndirilməsini Rusiyanın diktə etdiyini qeyd etməkdəydi. Bununla artıq Ukraynaya təhditin hardan gəlməsi aydın olurdu.

Ukrayna hökumətinin bu bəyanatından sonra Rusiya prezidenti Vladimir Putin Ukraynanın Aİ ilə iqtisadi əməkdaşlığının əleyhinə olmadıqlarını, lakin bu baş verərsə, Ukraynanın Rusiya ilə iqtisadi əməkdaşlığının indiki səviyyədə qalmayacağını, bu ölkənin NATO-ya üzvlüyünü qəbul etməyəcəklərini və bunu ciddi bir iş kimi qiymətləndirəcəklərini qeyd edirdi. Birbaşa Rusiya milli təhlükəsizliyinə təhdid kimi alğılanırdı [6].

Oktyabrın 22-də Ukrayna hökumətinin Assosiasiya sazişini imzalamayacağını bəyan etməsindən bir gün sonra isə müxalifətçi Aleksandr Yaçenyukun rəhbərliyi ilə mitinqlər və etiraz aksiyaları başlamış və bununla da Maydan hərəkatının əsası qoyulmuşdur. Yaçenyuk prezident Viktor Yanukoviçin Rusiyaya 20 milyard dollara satıldığını iddia edirdi.

Sammitdə Ermənistanın Assosiasiya Sazişindən imtina etməsindən sonra Ukrayna hökumətinin bu addımı atması Aİ-ni ciddi narahat etməyə başladı. Təbii ki, Aİ Ermənistandakı kimi səssiz qala bilməzdi. Aİ üçün Ermənistan və Ukraynanı iqtisadi, siyasi, təhlükəsizlik və digər parametrlər baxımından müqayisə etmək düzgün olmazdı.

Ukraynanın Maydan şəhərində mitinq və nümayişlər davam edərkən, AB rəsmi nümayəndəsi Herman Van Pompey, 28 yanvar 2014-cü ildə Aİ-Rusiya danışıqlarının nəticələrini qiymətləndirərkən, Ukraynanın demokratiyanın inkişafına kömək etmək öhdəliyini götürəcəyi təqdirdə Assosiasiya Sazişini imzalayacaqlarını bildirdi

Bu prosesdə Ukraynada keçirilən rəy sorğularında Aİ tərəfdarlarının 40-60% arasında olduğu məlum oldu. Təbii ki, Aİ bu ictimai rəyin dinamizmindən istifadə etməyə çalışdı. Aİ Ukraynanı kənardan Rusiyaya qarşı müdafiə edə bilməyəcəyini anladıqdan sonra qeyri-hökumət təşkilatlarından istifadə edərək prezident Viktor Ynukoviçə təzyiq göstərməyə üstünlük verdi. Sonradan bu prosesə tələbələr, iş adamları, sənayeçilər cəlb olundu və Yanukoviçin devrilməsi üçün hər cür dəstək verildi.

Ukraynanın daxili siyasətində böhranın dərinləşməsi nəticəsi olaraq müxalifət qüvvələri və hakimiyyət ortaq məxrəcə gələ bilmədi, Rusiya ilə Avropa Birliyi arasında razılaşma əldə olunmadı. Herman Van Pompey 2014-cü il fevralın 1-də Ukraynanın gələcəyinin Avropa Birliyinə aid olduğu barədə bəyanat verərkən, NATO-nun baş katibi Anders Foq Rasmussen Ukraynanın heç bir təzyiqlə üzləşmədən gələcəyini seçməli olduğunu bildirdi.

Etiraz dalğası böyüdükcə Ukrayna ordusu isə hadisələrə müdaxilə etməyəcəyini bəyan etdi. Maydan hərəkatı az qala vətəndaş müharibəsinə çevrildi. ABŞ və AB-dən siyasi dəstək alan müxalifət hökumətin bütün tələblərini qəbul etdirməsi üçün müqavimət göstərməkdə davam etdi. 28 yanvar 2014-cü ildə baş nazir Nikolay Azarov istefa verdiyini elan etdi

2014-cü ilin martında müxalifət hökumət binalarına nəzarət etməyə başladı. Paytaxt Kiyevdə bir çox dövlət qurumlarına nəzarət müxalifətin əlinə keçdi. Müxalifət cəbhəsindən "Batıkivşini" Hərəkatının liderləri -Arseni Yaçenyuk, Udar Partiyasının lideri Vitali Kliçko və deputat Petr Proşenko önə çıxmağa və Maydan Hərəkatına nəzarət etməyə başladılar. Qeyd etmək lazımdır ki, ordu müdaxilə etməsə də, polis və "Berkut" xüsusi təyinatlıları prezident Viktor Yanukoviçə dəstəkləyirdi.

Yanukoviç Rusiyanın siyasi dəstəyini, müxalifət isə ABŞ və Aİ-nin dəstəyini alaraq öz reallıqları çərçivəsində mübarizəyə başladılar. Əslində, Ukrayna dövlətinin gələcəyi ortada idi və heç kim bununla maraqlanmırdı. Hər iki tərəf demokratiyadan, insan haqlarından danışsa da, demokratiya adına tərəflər qanunları pozur, demokratiya uğrunda mübarizə aparırdılar. Ukrayna isə dövlətçiliyini itirərək uçuruma doğru irəliləyirdi

Aİ və Rusiyanın Ukrayna hökuməti ilə müxalifəti arasında vasitəçilik cəhdləri nəticəsində 21 fevral 2014-cü ildə tərəflər arasında razılıq əldə olundu. Saziş Polşa, Almaniya və Fransa Xarici İşlər Nazirliyinin səlahiyyətli nümayəndələri tərəfindən imzalandı. Razılaşmanın şərtlərinə görə yeni konstitusiya hazırlanmalı və on gün ərzində İtimat hökuməti qurulmalı, seçki qanunu dəyişdirildikdən sonra növbədənkənar prezident seçkiləri keçirilməliydi. Bundan əlavə, tərəflər bu razılaşmanı həyata keçirməyənə qədər güc tətbiq etməməliydilər.

Maraqlısı odur ki, iqtidarla müxalifət arasında razılaşmadan sonra ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Syuzan Elizabet Rays bəyan etdi ki, Yanukoviç hakimiyyətə demokratik seçkilərlə gəlsə də, artıq onu Ukrayna prezidenti kimi görmürlər. Bütün bunlar isə yeni konfrantasiyanın yaranması üçün zəmin idi [10, s.115-152].

Viktor Yanukoviçin devrilməsindən sonra Avropa İttifaqı-Ukrayna arasında Assosiasiya Saziş nəhayət ki, imzalandı və 1 sentyabr 2017-ci ildə tam qüvvəyə mindi. Daha sonra isə 24 fevral 2022-ci ildə Rusiya Ukraynanı işğal etməsiylə Ukrayna Aİ-na üzvlük üçün müraciət etdi. Ukrayna prezidenti Vlodimir Zelinski yeni xüsusi prosedur adı altında dərhal qəbul tələb etdi və səkkiz Aİ dövlətinin prezidenti üzvlük prosesinin sürətləndirilməsinə çağırdı. Təbii ki, Avropa Komissiyasının sədri Ursula fon der Leyen Ukraynanın üzvlüyünü dəstəklədiyini, lakin prosesin vaxt aparacağını bildirdi. Nəticə etibarıyla 1 mart 2022-ci il Avropa Parlamenti Ukraynanın rəsmi üzvlük namizədi olmasını tövsiyə etdi.

Onu da qeyd edək ki, Avropa Komissiyası Avropa Şurasına Ukraynaya Avropa İttifaqına üzv olmaq üçün namizəd statusu verməyi tövsiyə etmişdir.




Bunun ardınca, 2022-ci il iyunun 23-də Avropa Parlamenti Ukraynaya Avropa İttifaqına üzvlüyə namizəd statusunun dərhal verilməsini tələb edən qətnamə qəbul edir. Nəhayət , 2022-ci il iyunun 23-də Avropa Şurası Ukraynaya Avropa İttifaqına üzv olmaq üçün namizəd statusu verir [5].

**Nəticə**

Postsovet ölkələri sırasında məxsusi olaraq Ukrayna Rusiya üçün mühüm əhəmiyyət kəsb edirdi. Çünki ən azı hər iki dövlətin tarixən ortaq keçmişə və mədəniyyətə sahib olması ilə yanaşı, Ukraynanın yerləşdiyi əhəmiyyətli coğrafi mövqeyi, iqtisadi potensialı, sahib olduğu nüvə silahı arsenalı, Avropa ilə Rusiya arasında tampon ölkə mövqeyi və s. kimi amillər Ukraynanı Rusiya üçün önəmli edən keyfiyyətlər sırasında tuturdu.

SSRİ-nin təsis olunmasından tam 100 il ötür. və artıq aydındır ki, Putinin simvolik tarixlərə önəm verir. Təbii ki, müharibənin nəticələri istənildiyi kimi olsaydı, və eləcə də Ukraynanı Rusiya təsir sferasına qaytarmaq mümkün olsaydı bu hadisə Putinin triumfu kimi tarixə keçəcəkdi. Şübhə yoxdur ki, Ukrayna dərhal Rusiya-Belarus İttifaq Dövlətinə qoşulacaqdı. Əsaslı şəkildə burda Rusiyanın bütün keçmiş SSRİ coğrafiyasında tam hegemonluq qurma hazırlığından söhbət gedirdi. Nəticə etibarıyla, Ukraynaya hücum əmri verən Putinin baş planı bu idi. Lakin plan baş tutmadı.

Rusiya hər zaman Ukraynanın Qərbə inteqrasiya etməsindən narahat idi. Çünki, bu, Qərb dövlətlərinin və beynəlxalq təşkilatlarının həm siyasi, həm də hərbi baxımından Rusiyaya yaxın olması demək idi. Təbii ki, bu birbaşa Rusiya milli təhlükəsizliyinə hədədir və Rusiyanın milli maraqlarına ziddir. Bütün bu prosseslər rəsmi Moskvanın Ukraynaya daim nəzarət etmək istəyi yaradırdı və buna əsasən Rusiya Ukraynanın Qərbə inteqrasiya etməsinin qarşısını almaq üçün ilk əvvəl “soft power” tətbiq edərək, Ukraynanın Rusiyanın formalaşdırdığı yeni iqtisadi və siyasi inteqrasiya layihələrinə qoşulmasını istəyirdi. Nəticə etibarıyla, Rusiyanın “soft power” riçağı işə yaramayınca “hard power” alətindən məharətlə istifadə etməyə başlayır.

Bir məqam da artıq göz önündədir ki, Rusiyanın regional və qlobal səviyyədə nüfuzu 23 fevral 2022-ci ildəki qədər deyil, onun çox gerisindədir. Görünən tərəf isə odur ki 2023-cü ildə Rusiyanın Ukrayna cəbhəsində məğlub olması adına qlobal geosiyasətdə Rusiya adlı böyük oyunçudan artıq danışmaq mümkün olmayacaq.

Bu gün Şərqi Avropada üstün olanmağa çalışan güclərin məqsədi Avrasiya məkanını ələ keçirdərək klassik geosiyasi nəzərriyələrdə deyildiyi kimi dünyaya hakim olmaq niyyətindədirlər. Bütün bu strateji prinsip Ukrayna üzərindən baş verən proseslərin fonunda özünü göstərir. Bu gün Ukrayna faktiki olaraq Qərb və Rusiyanın geostrateji savaşının hərbi-siyasi platformasını təşkil edir. Təbii ki, bu da təsadüfi deyil.

**İstifadə edilmiş ədəbiyyat:**

1.Cafersoy Nazim. Rus Ulusal Güvenlik Kültürünün Yapıtaşları, Milli Güvenlik ve Askeri Bilimler, İlkbahar 2014, Cilt 1, Sayı 2, s.21-22 ve s.25.

2.Erol M. Seyfettin, Demir Sertif. Amerika’nın Karadeniz Politikasını Yeniden Değerlendirmek, Akademik Bakış, Cilt 6 Sayı 11, Kış 2012, ss. 17- 33.

3.Tecer Ömer Çağrı. Jeopolitik ve tarihsel bir rekabet sahası olarak Ukrayna ve Dış Politika parametrleri, Sosial Araşdırmalar Dergisi, Cilt 3, Say 4, 2014

4.Aleprete Jr. Minimizing Loss: Explaining Russian Policy: Choices during the Ukrainian Crisis, Soviet and Post-Soviet Review 44 (2017): 53-75

5.Babenko V.N. Ukraina-Rossiya (1991-2010), Rossiyskaya Akademiya Nauk, Moskva, 2010

6.Geopolitics of the War in the Ukraine, Foreign Affairs Institute, Report no 4, June 2022

7.Potichnyi P.J. Ukraine and Russia in Their Historical Encounter, Toronto: Canadian Institute of Ukrainian Studies Press, 1992; Magosci,

8.Shyrokykh Karina. The evolution of the Foreign policy of Ukraine-external actors and domestic factors, Europe-Asia Studies , June 2018

9.Walberg Eric. Postmodern Imperialism: Geopolitics and the Great Games. Atlanta, GA: Clarity Press, Inc. 2011

10.Yekelchyk, S. The Conflict in Ukraine: What Everyone Needs to Know, New York: Oxford University Press, 2015, 115-152

11.Велиев Э. НАТО на Южном Кавказе пока не будет, «Зеркало».-2009. 3 апреля.-№55.-С.1

12.Внутренняя и внешняя политика Украин, http://www.webkursovik.ru/kartgotrab.asp?id=-78937

13.Комлева Н.А. Украинский кризис как элемент «тактики анаконды», Пространство и Время, 2(16)/2014, http://www.space-time.ru/as sets/files/2-16.2014/2226-7271provr-st2-16.2014.13-komleva.pdf.

14.Миршаймер Д. Почему Запад повинен в кризисе на Украине, http://www.globalaffairs.ru/number/Pochmu-Zapad-povinen-vkrizise-na-Ukraine-16921, 3 сентября 2014

**Rufat İSMAYİLOV**

## THE GEOSTRATEGIC IMPORTANCE OF UKRAINE IN THE EMERGING NEW WORLD ORDER, STRUGGLE FOR UKRAINE - CONFRONTATION BETWEEN RUSSIA AND THE WEST

**Summary**

At the end of the 20th century, with the fall of the USSR, a new world order began to take shape. As a result, with the transition from a bipolar system to a unipolar system, US global leadership was realized. With the collapse of the USSR, the succession passed to the Russian state. Of course, Russia, which did not want to agree with the collapse of the USSR, wanted to unite those states around itself and control them again. In fact, this was part of Russia's so-called "inner circle" policy. As a primary goal, Russia tried to prevent those states from leaning towards the West and thought of becoming one of the leading states in the international arena. In order to achieve these wishes, he began to put forward various unique integration projects. Of course, the most important place for Russia among these states was occupied by Ukraine.

It should be taken into account that having a common historical past and culture makes Ukraine special for Russia. Ukraine is also of great importance for the Russian Federation from the point of view of security. Also, according to the theory of Eurasianism, Ukraine is seen as a "buffer" region. That is why Ukraine sometimes plays the role of a bridge between the West and Russia, and sometimes just a competition.

**Keywords:** *Ukraine crisis, Russia, USA, European Union, "inner circle", NATO, revisionism*

**Руфат ИСМАИЛОВ**

## ГЕОСТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ УКРАИНЫ В СОЗДАВАЕМОМ НОВОМ МИРОВОМ ПОРЯДКЕ, БОРЬБА ЗА УКРАИНУ - ПРОТИВОСТОЯНИЕ РОССИИ И ЗАПАДА

**Резюме**

В конце 20 века, с распадом СССР, начал формироваться новый мировой порядок. В результате с переходом от биполярной системы к однополярной реализовывалось глобальное лидерство США. С распадом СССР правопреемство перешло к Российскому государству. Конечно, Россия, не желавшая соглашаться с распадом СССР, хотела объединить эти государства вокруг себя и снова их контролировать. На самом деле это было частью политики так называемого «ближнего круга» России. Первоочередной задачей Россия пыталась не допустить склонения этих государств к Западу и думала о том, чтобы стать одним из ведущих государств на международной арене. Для достижения этих пожеланий он стал выдвигать различные уникальные интеграционные проекты. Безусловно, самое важное место для России среди этих государств занимала Украина.

Следует учитывать, что наличие общего исторического прошлого и культуры делает Украину особенной для России. Украина также имеет большое значение для Российской Федерации с точки зрения безопасности. Также, согласно теории евразийства, Украина рассматривается как «буферный» регион. Именно поэтому Украина иногда играет роль моста между Западом и Россией, а иногда просто конкурента.

**Ключевые слова:** *украинский кризис, Россия, США, Евросоюз, «ближний круг», НАТО, ревизионизм.*

**Rəyçi: t.ü.f.d., dosent Sevinc Ruinten**

UOT 327

Ürfan MƏMMƏDZADƏ*

# XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-DƏ SİYASİ ÇƏKİŞMƏLƏR FONUNDA ƏRAZİ BÜTÖVLÜYÜ MƏSƏLƏSİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 fevral 2023; çapa qəbul edilmişdir: 20 fevral 2023; onlayn çap edilmişdir: 30 mart 2023*

*The article was submitted to the editors: February 15, 2023; accepted for publication: 20 February 2023; published online: 30 March 2023*

**Xülasə**

Məqalədə Azərbaycanın sovetləşdirilməsindən sonra tarixi Azərbaycan torpaqları olan Naxçıvan, Qarabağ və Zəngəzura bolşevik cildinə girmiş erməni millətçilərinin ərazi iddiaları, Azərbaycan daxilində süni olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ətrafında siyasi proseslər araşdırılmışdır. Dövrün müxtəlif siyasi xadimlərinin Dağlıq Qarabağ probleminin həlli ilə bağlı mülahizələri oxucuların diqqətinə çatdırılmışdır.

**Açar sözlər:** *Sovet Azərbaycanı, Dağlıq Qarabağ Muxtar Vilayəti, Qarabağ ermənilər, Nəriman Nərimanov, Əliheydər Qarayev.*

## Giriş

Cənubi Qafqazın sovetləşməsindən sonra ortaya çıxan başlıca problemlərdən biri 1918-1921-ci illərdə mövcud olmuş milli respublikalardan miras qalmış ərazi mübahisələrinin ədalətli şəkildə idi. Bu xüsusən də sovet Azərbaycanı və Ermənistanı arasında olan ərazi problemlərində özünü daha aydın şəkildə büruzə verirdi. Bolşevik maskası geyinmiş erməni daşnakları məkrli siyasət yürüdərək özlərinin "Böyük Ermənistan" xülyasını həyata keçirmək üçün yeni dövrün ictimai-siyasi reallıqlarından istifadə etməyə can atırdılar. Bu istiqamətdə onlar çoxşaxəli fəaliyyət yürüdərək Azərbaycanın əzəli və tarixi torpaqları olan Qarabağ, Naxçıvan, eləcə də Zəngəzur üzərinə müxtəlif səpkidə ərazi iddiaları irəli sürürdülər.

Azərbaycanın sovetləşməsindən sonra sosialist beynəlmiləlçiliyini əsas tutan kommunistlərin atdığı ilk addımlardan biri indiyə qədər bu regionda "əzilən" bütün xalqlara milli və dini azadlıq vəd etmək oldu. Bu mənada ölkəmizdəki etnik azlıqlar arasında, xüsusən də Qarabağın dağlıq hissəsində XIX əsrin əvvəllərindən etibarən Rusiya tərəfindən məqsədyönlü şəkildə köçürülən ermənilər üstünlük təşkil edirdilər. Azərbaycan SSR formalaşdığı ilk gündən etibarən yerli bolşevik rəhbərliyi Dağlıq Qarabağda mövcud olan sosial-iqtisadi, eləcə də etnomədəni xüsusiyyətləri diqqətlə öyrənməyə başladı. Dağlıq Qarabağ ermənilərinin hələ o dövrdən etibarən geniş vüsət alan separatçı çıxışları bölgədə Azərbaycan dövlətinin suveren hüquqlarının təsbit olunması üçün ciddi maneə törədirdi.

1920-ci il aprel ayının 23-29-da indiki Xocavənd rayonu ərazisində yerləşən Tağaverd kəndində qondarma "Dağlıq Qarabağın əməkçi kəndlilərinin IX qurultayı" keçirildi. Qurultay heç bir hüquqi əsas və səlahiyyəti olmadan Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olması barədə qərar qəbul etmişdi. Bütün bu təxribatlara cavab olaraq, aprel ayının 30-da Azərbaycanın Müvəqqəti İnqilab Komitəsi daşnak Ermənistanının siyasi rəhbərliyinə nota göndərək bunları qəti şəkildə tələb etmişdir:

"1. Qarabağ və Zəngəzur ərazilərindən qoşunlarınızı çıxarın.
2. Öz sərhədlərinizə çəkilin.
3. Millətlərarası ədavətə son qoyun.

* *Azərbaycan Universiteti, magistr. Azərbaycan, Bakı*
*Email:* urfanmemmedzade@gmail.com

Əks halda Azərbaycan Sovet Sosialist Respublikası İnqilab Komitəsi özünü Ermənistan Respublikası hökuməti ilə müharibə vəziyyətində hesab edəcək" [1].

Bu dövrdə Azərbaycanda mövcud olan müxtəlif siyasi qruplaşmaların ərazi bütövlüyü məsəsləsindəki mövqeyi də tədqiqatımız üçün maraq doğurur. Azərbaycanın siyasi rəhbərliyində yer alan başlıca iki qrup:

1) Nərimanovun başçılıq etdiyi milli təmayüllü kommunistlər,

2) Sosialist internasionalizmini əsas götürən Qarayev-Hüseynov qrupu bu mövzuda da bir sıra hallarda əks fikirli mövqe nümayiş etdiriblər. Bununla belə tədqiqat zamanı məlum olmuşdur ki, sözügedən tarixi şəxsiyyətlərin konkret situasiya barədə səsləndirdiyi fikirlər elmi ədəbiyyatlarda təhrif olunmuş şəkildə oxuculara çatdırılmışdır.

Belə ki, bu illərdə Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı Azərbaycan siyasi rəhbərliyi arasında yürüdülən müzakirələrdə fəal rol oynamış şəxslərdən biri də Əliheydər Qarayev olmuşdur. Bu mənada qeyd etmək lazımdır ki, sovet rejiminin süqutundan sonra qeydə alınan bir çox elmi ədəbiyyatlarda sözügedən tarixi şəxsiyyətin ictimai-siyasi fəaliyyətinə qeyri-elmi faktlar əsasında yanaşıldığından ortaya bir çox subyektiv mülahizələr çıxmışdır. Qarayevin bolşevik ideologiyasından təbii olaraq irəli sürdüyü beynəlmiləlçi və "xalqlar dostluğu"na əsaslanan dünyagörüşü təhrif edilərək, onun guya Qarabağ məsələsinin həllində Azərbaycan əleyhinə mövqe tutması barədə yanlış təsəvvür formalaşdırılmışdır. Lakin konkret dövrə aid olan arxiv sənədlərinin, eləcə də Əliheydər Qarayevin şəxsi imzası ilə nəşr edilən kitab və qəzet məqalələrin obyektiv surətdə təhlili bunun heç də belə olmadığını bizə aydın şəkildə göstərir. Belə ki, o, hələ 1920-ci ilin mart ayında daşnak silahlı qüvvələrinin Şuşa şəhərinə hücumu ilə bağlı cümhuriyyət parlamentindəki çıxışı zamanı bildirmişdir: "...Yəqin ki unutmamışsınız, martın 9-da burada Kars hadisələri müzakirə olunurdu. Mən işbu mənbələrdən hökumətə dedim ki, siz bu gün Kars xüsusunda verdiyiniz bəyanatı gələcəkdə Qarabağ üçün də verəsəksiniz. Bir neçə vaxt bundan əvvəl yazmışdıq ki, Qarabağda böyük bir fəlakət olacaq. Bunun qarşısı alınmalıdır, ciddi tədbirlər görülməlidir. Biz demişdik ki, bir nəfər İrəvan Parlamentinin üzvü Qarabağda əyləşib orada üsyan hazırlayır. Biz bunların hamısını o zaman hökumətə xəbər verdik. Dedik ki, yatmayınız, Kars hadisələrinin eyni Qarabağda təkrar ediləcəkdir. İndi bu gün görürük ki, bizim sözlərimiz doğru idi. Əfəndilər! Bu gün əgər daxiliyyə naziri və hökumət bu məsələyə ancaq Qarabağ məsələsi kimi baxsalar səhv etmiş olarlar. Məsələ Qarabağ məsələsi deyil, məsələ ümumşərq aləminin, xüsusən Anadolu və Türkiyənin məsələsidir" [16].

Obyektivlik naminə erməni tarixçilərinin Əliheydər Qarayevin şəxsiyyəti və Qarabağ məsələsindəki ictimai-siyasi fəaliyyəti barədə düşüncələri də tədqiqatımız üçün xüsusi maraq doğurur. Bu səpkidə araşdırma apararkən, erməni publisisti, üstəlik I Qarabağ müharibəsində xalqımıza qarşı aparılan döyüşlərdə aktiv iştirak etmiş Aşot Xaçaturyan adlı şəxsin öz xatirələri əsasında 2008-ci ildə İrəvanda çap etdirdiyi "Xalqımın tragediyası" («Трагедия моего народа») adlı bir kitabı qarşımıza çıxdı. Sözügedən əsərdə 1920-ci illərdə Azərbaycandakı sovet hakimiyyətinin Qarabağ məsələsinə dair siyasətinə də toxunulur. Müəllifin fikrincə, Əliheydər Qarayevin başçılıq etdiyi komissiya 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərini müəyyənləşdirərkən qəsdən bir sıra məhsuldar təsərrüfat əraziləri və Şaumyan rayonunu bütövlükdə (indiki Goranboy rayonu ərazisində yerləşir) DQMV-in tərkibindən kənarda saxlayıb. O yazır: "Qarayev və əlaltıları Qarabağın tarixi Gülüstan vilayəti və Dizaqın şərq ətəklərindəki onlarla kənd və məhsuldar torpaqları özbaşına şəkildə "ana vücud"dan ayıraraq, Dağlıq Qarabağdan kənarda saxladılar" [17, s.23].

Təhrifə məruz qalan fikirlər sırasında həmçinin Nəriman Nərimanovun Ermənistanın sovetləşməsindən sonra 1 dekabr 1920-ci il tarixində verdiyi məşhur bəyanatı misal göstərə bilərik. Belə ki Ermənistanda sovet hakimiyyətinin qurulması münasibətilə həmin tarixdə Bakı Sovetinin təntənəli iclası baş tutmuşdu.

İclasda çıxış edən Azərbaycan İnqilab Komitəsinin sədri Nərimanov daha sonra sovet Azərbaycanının "qardaşlıq" bəyanatını oxuyur. Bəyanatda göstərilirdi:
"Sovet Azərbaycanı zəhmətkeş qardaş erməni xalqının, bizim ən yaxşı kommunist yoldaşlarımızın Ermənistan və Zəngəzur hüdudlarında qanını axıtmış və axıtmaqda olan daşnaklara qarşı mübarizəsində ona yardım göstərmək məqsədilə elan edir ki, bundan sonra heç bir ərazi məsələsi əsrlər boyu qonşu olmuş iki xalqın - ermənilərlə müsəlmanların qarşılıqlı qan tökməsinə səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının əraziləri Sovet Ermənistanının ayrılmaz tərkib hissələridir, Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə tam olaraq öz müqəddəratını təyin etmək imkanı verilir, Zəngəzur hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları isə oradan çıxarılır" [2].

Əvvəla, onu qeyd etmək lazımdır ki, Nərimanovun bu bəyanatı ilə AKP MK-nın 4 və 30 noyabr tarixli qərarları arasında ciddi uyğunsuzluq var. Belə ki, həmin tarixdə AKP MK-nın Siyasi Bürosu Stalin və Orconikidzenin də iştirakı ilə keçirilən iclasda Rusiya-Ermənistan müqaviləsini müzakirə edərkən qərara almışdı: "Naxçıvanın və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif edilən maddə nə siyasi, nə də strateji baxımdan sərfəli deyildir". Noyabrın 30-da keçirilən AK(b)P MK-nın iclasında 4 noyabr qərarına zidd olaraq, Zəngəzurun Ermənistana verilməsi haqqında qərar qəbul edildi. Bununla belə, hətta orada da Naxçıvan və Qarabağla bağlı hansısa ibarəyə rast gəlmək mümkün deyildir [3,v.58-59].

Görünür, Ermənistanın sovetləşməsindən sonra Moskva Azərbaycan torpaqları hesabına erməni xalqını şirnikləndirmək yolu tutmuşdu. Bu məsələdə Stalin və Orconikidze kimi şovinist xarakterə malik bolşeviklər xüsusi fəallıq nümayiş etdirirdilər. Belə ki, onlar bu bəyanatdan sonra daha da ruhlanaraq, guya Naxçıvan, Qarabağ və Zəngəzurun Azərbaycana lazım olmadığı barədə sərsəm fikirlər belə səsləndirməkdən çəkinmirdilər [4]. İ.Stalin isə hətta bir qədər də irəli gedərək, 1 dekabr bəyanatında nəzərdə tutulmayan Qarabağı belə Ermənistana "bağışlamaqdan çəkinmir": "...Dekabrın 1-də Sovet Azərbaycanı könüllü surətdə mübahisəli əyalətlərdən imtina edərək, Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini bəyan etmişdir" [5].

Hadisələrin bu cür inkişafı Ermənistanda sovet hakimiyyətinin qələbəsindən ruhlanan Nərimanovun məlum çıxışının çox ciddi tarixi-siyasi yanlışlıq olduğunu aydın şəkildə göstərdi. Belə ki, 3 dekabr 1920-ci il tarixində Rusiya ilə Ermənistan arasında imzalanan hərbi-siyasi müttəfiqlik haqqında müqavilədə Zəngəzurun şərq hissəsi Ermənistan ərazisi kimi göstərilmişdi [6,s.43].

Bununla belə onu da qeyd etmək lazımdır ki, Dağlıq Qarabağın muxtariyyət şəklində belə olsa, Azərbaycanın inzibati əraziləri çərçivəsində saxlanmasında Nəriman Nərimanovun misilsiz xidmətləri olmuşdur. Belə ki, istər sovet Ermənistanının siyasi rəhbərləri, istərsə də onların Moskvadakı Orconikidze, Kirov və Stalin kimi havadarları azərbaycanlı kommunistlərin erməni xalqına qarşı beynəlmiləlçi və xoşməramlı münasibətindən sui-istifadə edərək, ölkəmizdən daha çox ərazi qopartmaq üçün dəridən-qabıqdan çıxırdılar.

Nərimanovun sözügedən bəyanatının Bakıda nəşr olunan "Kommunist" (2 dekabr 1920-ci il) və "Bakinskiy raboçiy" (03.12.1920-ci il) qəzetlərindəki nəşrində Dağlıq Qarabağın əməkçi kəndlilərinə "öz müqəddəratını təyin etmək" haqqının verilməsindən söhbət gedirdisə, Moskvadakı "Pravda" qəzetinin 4 dekabr və Ermənistanda nəşr olunmuş "Kommunist" qəzetinin 7 dekabr tarixli müvafiq nömrələrində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi qeyd edilirdi. 1 dekabr bəyanatının mətninin açıq təhrifə məruz qalması, bir qədər sonra Nərimanovun özünün də ciddi narazılığına səbəb olmuşdur.

O, 1921-ci ilin iyun ayında Tiflisdə səfərdə olan Xarici işlər üzrə xalq komissarı Mirzə Davud Hüseynova göstəriş vermişdi ki, onun Dağlıq Qarabağ barədə bu mövqeyini Qafqaz Bürosuna çatdırsın: "Əgər mənim bəyanatıma istinad edirlərsə orada, sözbəsöz belə deyilmişdir: Dağlıq Qarabağa öz müqəddəratını təyin etmək hüququ verilir" [7, c.89].

Hüseynov isə ona cavabında bu fikirlərə yer vermişdir: "Yaxşı. Hər şeyi çatdıraram. Hər halda deyim ki, bizim qərarımız, şübhəsiz, çox soyuq qarşılanacaqdır". Yenə həmin gün Mirzə

Davud bu haqda Qafqaz Bürosuna məruzə etdi. Bu məsələ üzrə Qafqaz Bürosunun fövqəladə plenumunu çağıraraq, Nərimanov və Myasnikyanı Tiflisə dəvət etmək qərara alındı. Belə bir siyasi-tarixi şərtlər daxilində Tiflisdə Qafqaz Bürosu plenumunun iclası keçirilirdi.

Erməni tarixşünaslığı Qafqaz Bürosunun 5 iyul 1921-ci il tarixli qərarının qəbul edilməsində Stalinin əsas söz sahibi olduğunu sübut etməyə çalışırlar. Əslində isə RK(b)P MK-nın Qafqaz Bürosunun 4 və 5 iyul iclaslarında Stalinin rolunun nədən ibarət olması barədə iddialar konkret faktlarla təsdiqlənmir.

Moskva Qafqaz Bürosunun timsalında hələ SSRİ-nin yaradılmasından, Azərbaycan və Ermənistan SSR-nin ittifaq dövlətində birləşdirilməsindən əvvəl praktiki olaraq sərhəd məsələsinə müdaxilə etməklə səlahiyyətli tərəf kimi çıxış etdi.Dağlıq Qarabağ məsələsini ikitərəfli müzakirədən üçtərəfli müzakirə predmetinə çevirdi; Qafqaz Bürosu səlahiyyəti olmadan bu "hüququndan" istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ barəsində elan etdiyi öz müqəddəratını tə- yinetmə müddəasının təbii-tarixi şəkildə yerinə yetirilməsinə imkan vermədi, onu "geniş vilayət muxtariyyəti" kimi ifadə etdi. Qafqaz Bürosu 4 iyul qərarı ilə Azərbaycana (yəni, Dağlıq Qarabağ Ermənistana verilə bilər!), səhəri gün isə bu məsələyə qayıtmaqla Ermənistana təsir göstərmək (yəni, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması təsdiq edilə bilər!) və Mərkəz üçün əlverişli mövqeyi təmin etmək istəyirdi, buna da (yəni Dağlıq Qarabağa muxtariyyət verilməsinə) nail oldu [8, s.27-28].

Buna baxmayaraq, Qarabağ separatçıları RK(b)P-nın Qafqaz bürosunun 5 iyul 1921-ci il tarixli qərarını qəbul etmək istəmirdilər. Qarabağın ermənilərin məskunlaşan hissəsində bu dövrdə bir sıra üsyan və etirazlar müşahidə olunmaqda idi.Azərbaycan rəhbərliyi Qarabağda suverenliyimizi təmin etmək üçün əraziyə bir sıra nümayəndələr göndərmək qərarına gəldi. Askanaz Mravyan Qarabağdan İrəvana qayıtdıqdan sonra, bura Əliheydər Qarayevin başçılığı altında Mir Cəfər Bağırov və Levon Mirzoyandan ibarət nümayəndə heyəti göndərildi. Bu barədə qərar Nəriman Nərimanovun başçılığı altında Azərbaycan SSR Xalq Komissarları Sovetinin 13 iyul 1921-ci il tarixli iclasında qəbul edilmişdir [9, s.1-2].

Təcili surətdə Şuşaya yola düşən Ə.Qarayev 23 iyul tarixində buradan N.Nərimanov və M.D.Hüseynovun adına teleqram göndərir. Bu teleqramda Sovet Ermənistanının Fövqəladə Səlahiyyətli səfiri Ter-Simonyanın Gorusda müsəlman, rus və erməni dillərində yazılmış bəyanat yayaraq Qarabağın dağlıq hissəsinin Sovet Ermənistanına birləşdirildiyini elan etməsi barədə məlumat öz əksini tapmışdı [19, s.44].

Azərbaycan SSR-in siyasi rəhbərləri bu dövrdə Qarabağ ərazisində həm hərbi-siyasi, həm də diplomatik üsullarla nəzarət qurmaq üçün çalışırdı. Lakin 1921-ci il avqust ayının 1-də Dağlıq Qarabağda baş tutan kənd şuralarının fövqəladə iclasında Azərbaycanın xeyrinə qərar qəbul edilmədi. Bunu əsas tutan Levon Mirzoyan 8 avqust 1921-ci il tarixində Bakıya qayıdaraq Dağlıq Qarabağa milli muxtariyyət statusunun verilməsini təklif etdi.

Bütün bunlara cavab olaraq, 1921-ci il sentyabr ayının 26-da Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi və Təşkilat Bürosu "Qafqaz Bürosunun Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi barədə 5 iyul tarixli qərarına bir daha baxılması"nı xahiş edən qərar qəbul etdi. Bu qərarla birlikdə təcili surətdə Qarabağdakı vəziyyət barədə material toplanması üçün Qarayev, Mirzoyan, Əfəndiyev və Stukalovdan ibarət fövqəladə komissiya təşkil edilir [10, v.158].

Sözügedən komissiya Qarabağda 1921-ci il oktyabr ayının 21-də iştirakçılarının əksəriyyəti Qarabağın Şuşa,Cavanşir, Qubadlı və Qaryagin qəzalarının müsəlman işçilərindən olan bir konfrans təşkil etməyə müvəffəq olur. Əliheydər Qarayev bu konfransda "Qarabağdakı vəziyyət" barədə məruzə ilə çıxış edir. Konfransın qətnaməsində qeyd edilmişdi: "Qarabağ fəhlə konfransı Dağlıq Qarabağın ayrıca muxtar vilayətə bölünməsini məqsədəuyğun hesab etməyərək, qətnamədə qeyd olunan bütün məsələləri Qarabağ probleminin həlli üçün məqsədəuyğun hesab edir." Burada həmçinin sözügedən qərarlarla razılaşmayan şəxslərin amansızcasına məhv edilməsi qeyd olunmuşdu.Qətnamənin VII maddəsində isə millətçi ruh və düşüncəyə malik bütün şəxslərin (Qarabağda həmin dövrdə daşnak siyasəti yürütməyə çalışan şəxslər nəzərdə tutulur – *red.*) dərhal

məsul vəzifələrdən uzaqlaşdırılaraq, onların yerinə beynəlmiləlçi ideyalara sadiq şəxslərin təyin olunması tələb edilirdi. Qarayevin məruzəsi və məruzə ətrafındakı uzun müzakirələrdən sonra konfrans "Dağlıq Qarabağın əlahiddə muxtar vilayətə ayrılmasını məqsədəuyğun hesab etmədi" [11, s.23-24].

Azərbaycan rəhbərliyinin atdığı bu kimi qətiyyətli addımlar nəticəsində bir müddət Qarabağ məsələsi ətrafında müzakirələr səngisə də, Kirov və Orconikidzenin təşəbbüsü ilə Zaqafqaziya Diyar Komitəsi Rəyasət Heyətinin 1922-ci ilin oktyabr ayının 27-də keçirilən iclasında AK(b)P MK-ya Qafqaz Bürosunun 5 iyul qərarının reallaşdırılması tapşırıldı. Zaqafqaziya Diyar Komitəsinin həmin iclasının qərarı ilə A.Karakozov Qarabağ İcraiyyə Komitəsinin sədri təyin edildi, eyni zamanda Ermənistanda fəaliyyət göstərən S.Şaduns Qarabağa məsul vəzifəyə təyin edilmək üçün Azərbaycan KP MK-nın sərəncamına göndərildi. Bundan 3 gün sonra AK(b)P MK rəhbərliyi "Dağlıq Qarabağın muxtariyyəti haqqında" məsələni müzakirə edib Zaqafqaziya Diyar Komitəsinin tapşırığını həyata keçirmək üçün müvafiq komissiya yaratdı. Elə həmin gün Ağamalıoğlu başda olmaqla Karakozov və Sviridovdan ibarət olan bu komissiyanın tərkibi də iclasda təsdiq edildi.

Bütün bunlara baxmayaraq, Nərimanovun başçılığı altında Azərbaycan siyasi rəhbərliyindəki milli təmayüllü kommunistlərdən ibarət qruplaşma Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsini mümkün qədər gecikdirmək üçün çalışırdılar. O, bu barədə 1923-cü ildə Stalin, Trotski və Radekə göndərdiyi məktubda qeyd etmişdi: "...Mənim Azərbaycanda daşnak işi haqqında mülahizələrimin o biri yarısı, fikrimcə, elə bu il məlum olacaqdır. Dağlıq Qarabağ Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir. Mənim vaxtımda bu mümkün olmamışdı, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndlilərinin özləri bunu istəmirdilər. Mirzoyan bu müddət ərzində erməni daşnak müəllimlərin köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya Diyar Komitəsində keçirdi" [15, s. 38].

Eyni zamanda AKP MK-nın tapşırığı ilə Qarabağın dağlıq hissəsində olan kənd sovetləri sədrlərinin və partiya təşkilatları katiblərinin müşavirəsini keçirmək üçün Levon Mirzoyan və Əliheydər Qarayev həmin ilin noyabr ayında ayında Şuşaya ezam edildilər. Qarayev burada Dağlıq Qarabağın inzibati vahid kimi Azərbaycanın tərkibində saxlanmasını tələb edirdi. Üç günlük müzakirələrdən sonra müşavirə Dağlıq Qarabağın muxtar vilayət qismində Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul etdi [12]. Bunun ardınca noyabr ayının 30-da Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi Qarabağ muxtariyyətinin infişafını hazırlamalı olan komissiyanın yaradılması barədə qərar qəbul etdi. Dekabrın 14-də isə "Dağlıq Qarabağda muxtariyyət yaradılması" məsələsi barədə daha bir xüsusi komisiyanın formalaşdırılması barədə dekret qəbul edildi.

AK(b)P MK Rəyasət Heyətinin Sergey Kirovun başçılığı altında keçirilən 1 iyul 1923-cü il tarixli iclasında Qarabağ haqqında məsələ müzakirəyə çıxarıldı və aşağıdakı qərarlar qəbul edildi:

a) Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə təklif olunsun ki, Rəyasət Heyəti adından mərkəzi Xankəndi olan "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradılsın. Onun sərhədləri xüsusi komissiya tərəfindən müəyyənləşdirilsin.

b) İcraiyyə Komitəsi yaranana qədər sədri Karakazov, tərkibi 5 nəfərdən ibarət olan İnqilab Komitəsi yaradılsın.

c) Tərkibi 5 nəfərdən ibarət olan vilayət partiya komitəsi yaradılsın, katibi olan Manuçyana tapşırılsın ki, digər üzvləri müəyyənləşdirsin.

d) İnqilab Komitəsinə tapşırılsın ki, iki ay müddətinə Sovetlər qurultayını çağırsın [13, s. 145].

e) Komissiyaya (sədr Qarayev) tapşırılsın ki, Qarabağ muxtar vilayətinin sərhədlərini, Kürdüstanda vəziyyəti və Aşağı (düzən) Qarabağın inzibati sərhədlərini müəyyənləşdirsin. Komissiyaya tapşırılsın ki, 7 gün müddətində yekun təkliflərini MK-nın Rəyasət Heyətinə təqdim etsin.

Dağlıq Qarabağ ermənilərinin hüquqlarının qorunması ilə bağlı Moskvanın ardıcıl təzyiqləri nəticəsində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi həmin ilin iyul ayının 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında" dekret qəbul etməyə məcbur oldu [14, s.9]. Qərarda bunlar qeyd olunmuşdu: "Çarizm dövründə Rusiya imperiyasının azlıqda qalan milli diyarı olan bu bölgədə müxtəlif millətlər arasında bir-birini öldürmək halları çox idi. 1905-1906-cı illərdə erməni-müsəlman qırğınları Zaqafqaziyada velikorus şovinizminin güclənməsini göstərirdi. Həmin vaxt Vorontsov-Daşkov rejiminə qarşı çıxan erməni və müsəlmanların doğma, tarixi əlaqələri olmuşdur.

Milli talanların və milli düşmənçiliyin ləğv edilməsi, bərabərlik, xalqların beynəlmiləl əlaqələri, zəhmətkeşlərin qardaşlığı və dostluğu, vahid dövlət ittifaqında yaşamaq fəhlə-kəndli inqilabının və Sovet hökumətinin başlıca vəzifəsidir. Bu vəzifələri nəzərə alaraq Mərkəzi İcraiyyə Komitəsi qərara alır:

1. Azərbaycan SSR-nin tərkib hissəsi olan və mərkəzi Xankəndi olan Dağlıq Qarabağın ermənilər yaşayan hissəsindən ibarət Muxtar vilayət yaradılsın.

2. Muxtar vilayətin idarəçilik orqanı Vilayət İcraiyyə Komitəsi və yerli Sovetlərdir.

3. Vilayət İcraiyyə Komitəsi yaradılana qədər müvəqqəti inqilab komitəsi yaradılsın, ona icazə verilsin ki, iki aydan gec olmayaraq daimi icraiyyə orqanı yaratmaq üçün Sovetlər qurultayı çağırsın.

4. Bütün zəruri maliyyə və texniki avadanlıq hamısı Azərbaycan MİK-in sərəncamındadır.

5. Dağlıq Qarabağın inzibati sərhədlərini işləyib hazırlamaq üçün avqustun 15-dək qarışıq komissiya yaradılsın.

1923-cü il sentyabrın 18-də AK(b)P-nin Qarabağ Vilayət Komitəsinin iclasında erməni separatçılarının təsiri nəticəsində ölkəmizin tarixi-mədəni irsinə qarşı növbəti təcavüz aktı baş tutmuşdur. Belə ki, orada DQMV-nin inzibati mərkəzi olan Xankəndi şəhərinin tarixi adının dəyişdirilərək 1918-ci ildə mart qırğınları və Bakı XKS-nin əsas təşkilatçılarından biri olmuş S.Şaumyanın "şərəfinə" Stepanakert adlandırılmasına qərar verilmişdi [18, s.187-188].

**Nəticə**

1923-cü ildə Azərbaycan xalqının milli maraqlarına zidd şəkildə, Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsi, Qarabağ problemini həll etmək əvəzinə Azərbaycan və erməni xalqları arasında milli ədavət və düşmənçilik münasibətlərinin daha da dərin kök salmasına xidmət etdi. Vilayətin təşkil edildiyi illərdə Ermənistan SSR-də yaşayan yarım milyona yaxın türk-müsəlman əhaliyə nəinki muxtariyyət verilməmiş, hətta ən təbii milli-mədəni hüquqları belə kobudcasına pozulmuş, Sovet İttifaqının süqutuna qədər davam edən tarixi mərhələ ərzində məqsədyönlü şəkildə öz tarixi dədə-baba torpaqlarından zorla deportasiyası siyasəti həyata keçirilmişdir.

Bu dövrdə Azərbaycan ərazisində ermənilərin kiçik bir qrupu üçün milli-ərazi vahidinin yaradılması azərbaycanlı əhaliyə qarşı gələcəkdə kütləvi zorakılıq və geniş terrorçuluq əməllərinin həyata keçirilməsi üçün qondarma "hüquqi" əsas rolunu oynamışdır. Ermənistan Respublikasının hərbi-siyasi rəhbərliyi və Qarabağ separatçıları keçən əsrin sonlarında Azərbaycan Respublikasına qarşı yeritdikləri işğalçılıq siyasəti və elan edilməmiş müharibədə nəinki keçmiş DQMV torpaqlarını, hətta ərazisi ondan 2 dəfə daha böyük olan, ermənilərin tarixən məskunlaşmadığı ətraf 7 rayonu da zorla qəsb edərək, əsl simalarını beynəlxalq ictimaiyyət qarşısında da açıq şəkildə göstərmiş oldu. 2020-ci ildə isə müzəffər Azərbaycan ordusu 44 günlük Vətən Müharibəsi ərzində ali baş komandan İlham Əliyevin başçılığı altında torpaqlarımızı işğaldan azad edərək, beynəlxalq hüquq və ədalət prinsiplərini bərpa etdi.

**İstifadə edilmiş ədəbiyyat:**

1."Kommunist" qəzeti, 1 may 1920-ci il.
2. "Kommunist" qəzeti, 2 dekabr 1920-ci il, № 178.
3. Azərbaycan Respublikası İctimai-Siyasi sənədlər Arxivi, fond 1, siyahı 74, iş 124.
4. "Kommunist" qəzeti, 6 dekabr 1920-ci il, № 181.

5. «Правда» qəzeti, 4 dekabr 1920-ci il, № 273.
6. İsmayıl Musa. "Azərbaycanın xarici siyasəti". II hissə, Bakı, "Bakı Universiteti" nəşriyyatı 2010, 515 s. Азернешр
7. «К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР». Документы и материалы. Баку, Азернешр 1989, 333 с.
8. Aydın Mirzəzadə. "Qarabağ düyünü". Bakı, "Azərbaycan" nəşriyyatı 2012, 550 s.
9. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 411, siyahı 1, iş 17.
10. Azərbaycan Respublikası İctimai-Siyasi sənədlər Arxivi, fond 1, siyahı 2, iş 18, AKP MK-nın siyasi və təşkilat bürosunun 30 nömrəli protokolu.
11. Azərbaycan Respublikası İctimai-Siyasi sənədlər Arxivi, fond 1, siyahı 2,iş 74, Qarabağın (Şuşa, Cavanşir, Qubadlı və Qaryagin qəzalarının) məsul işçilərinin, AK(b)P MK Təşkilat Bürosu üzvləri ilə birgə keçirdiyi konfransın iclasının protokolu.
12. Cəmil Həsənli "Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri" (1920-1923), 525-ci qəzet.- 30 oktyabr 2010-cı il.
13. Azərbaycan Respublikası İctimai-Siyasi sənədlər Arxivi, fond 1,siyahı 74,iş 132.
14. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 379, siyahı 3, iş 3215.
15. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, Azərnəşr 1992, 80 s.
16. Azərbaycan Respublikası Dövlət Arxivi , fond 895, siyahı 1, iş 249, h*əmçinin:* "Azərbaycan" qəzeti 4 aprel 1920-ci il, № 67.
17. Хачатрян А. М. «Трагедия моего народа». Ереван, Амарас, 2008, 308 с.
18. Юнусов А. Карабах: Прошлое и настоящее. Институт мира и демократии. Информационное агентство «Туран». Баку, 2005, 85 с.
19. Məmmədov N.R. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat iqtisadi və mədəni inkişaf (1923-1991). Bakı, Təhsil NPM, 2008, 568 s.

**Urfan MAMMADZADEH**

**POLİTİCAL STRİFE İN THE AZERBAİJAN SSR İN THE 20S OF THE 20TH CENTURY AGAİNST THE BACKGROUND OF THE İSSUE OF TERRİTORİAL İNTEGRİTY**

**Summary**

In the article, the territorial claims of the Armenian nationalists, who entered the Bolshevik territory of Nakhchivan, Karabakh and Zangezura, which are the historical Azerbaijani lands after the sovietization of Azerbaijan, and the political processes surrounding the artificial creation of the Nagorno-Karabakh Autonomous Province within Azerbaijan were investigated. Opinions of various political figures of the time regarding the solution of the Nagorno-Karabakh problem have been brought to the readers' attention.

**Keywords:** *Soviet Azerbaijan, Nagorno-Karabakh Autonomous Region, Karabakh Armenians, Nariman Narimanov, Aliheydar Garayev.*

**Урфан МАМЕДЗАДЕ**

**ПОЛИТИЧЕСКАЯ БОРЬБА В АЗЕРБАЙДЖАНСКОЙ ССР В 20-Х ГОДАХ XX ВЕКА НА ФОНЕ ВОПРОСА О ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ**

**Резюме**

В статье рассматриваются территориальные претензии армянских националистов, вторгшихся на большевистскую территорию Нахчывана, Карабаха и Зангезура, которые после советизации Азербайджана являются историческими азербайджанскими землями, и политические процессы вокруг искусственного создания Нагорно-Карабахской Автономной провинции в составе Азербайджана. Вниманию читателей были представлены мнения

различных политических деятелей того времени относительно решения нагорно-карабахской проблемы.

**Ключевые слова:** *Советский Азербайджан, Нагорно Карабахская Автономная Область, Карабахские армяне, Нариман Нариманов, Алигейдар Караев.*

**Rəyçi: t.e.d., professor Qabil Əliyev.**

# MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR

## JURNAL HAQQINDA

“Sosiologiya. Sosial psixologiya. Siyasət” elmi araşdırmalar jurnalı 2020-ci ildə “Rezonans” Sosial Araşdırmalar İctimai Birliyi tərəfindən təsis edilmişdir. 18 iyun 2020-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4307 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. 08 yanvar 2021-ci ildə mərkəzi Fransanın Paris şəhərində yerləşən Beynəlxalq Serial Nəşrlərin Qeydiyyatı Mərkəzi tərəfindən “Sosiologiya. Sosial psixologiya. Siyasət” elmi araşdırmalar jurnalına Beynəlxalq Standart Seriya Nömrəsi (İSSN L: 2709-7854) verilmişdir.

Jurnalda əsasən sosiologiya, psixologiya, siyasət, fəlsəfə, tarix, hüquq kimi ictimai və humanitar elm sahələrinin ümumkonseptual məsələlərini elmi-metodoloji cəhətdən ifadə edən, müəlliflərin yeni ideya və yanaşmalarını əks etdirən elmi-analitik məqalələrin, yeni nəşrlərə dair diskussiya məzmunlu rəy və şərhlərin dərcinə üstünlük verilir.

Müstəqil, resenziyalı, elmi nəşrdir. İl ərzində 4 sayı çap edilir. Jurnalın nüsxələri kitabxanalara, beynəlxalq indeks təşkilatlarına, abunəçilərə və məqalə müəlliflərinə çap olunduqdan sonrakı 1 ay ərzində təqdim edilir.

Azərbaycan, türk, rus və ingilis dillərində məqalələr dərc edilir.

## ÜMUMİ QAYDALAR

### *I. Məqalələrin məzmunu*

Jurnala göndəriləcək məqalələr sosial elmlər sahəsinə öz töhfəsini verəcək və sosial elmlərə yenilik gətirəcək səviyyədə aktual və orijinal olmalı, analitik xarakter daşımalı və akademik tələblərə cavab verməlidir. Elmi məqalənin **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmalı, **Mətn** hissəsində tədqiq edilən məsələlər, qaldırılan problemlər bölmələr üzrə ətraflı şərh edilməli, **Nəticə** hissəsində elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi qənaət, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməli, təklif və tövsiyələr irəli sürülməlidir.

### *II. Məqalələrin strukturu, tərtib edilmə qaydaları və həcmi*

Redaksiyaya təqdim edilən məqalələr Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu tələblərə (http://aak.gov.az) və “Sosiologiya.Sosial psixologiya.Siyasət” elmi araşdırmalar jurnalının “Müəlliflər üçün qaydalar”ına tam cavab verməlidir.

**Məqalələr dəqiq strukturlaşdırılmalıdır. Hər məqalədə ardıcıl olaraq:**

- UOT indekslər və PACS tipli kodlar təqdim edilir.
- Müəllifin adı və soyadı, Müəllifin işlədiyi qurumun adı və ünvanı, Müəllifin vəzifəsi, elmi dərəcəsi və elmi adı, təmsil etdiyi ölkə və electron poçt ünvanı səhifənin yuxarı sağ küncündə göstərilir.
- **Məqalənin adı** - səhifənin ortasında, böyük hərflərlə, qaraldılmış sriftlərlə (başlıq və mətn arasında - sətir atlama) verilir.
- Məqalənin yazıldığı dildə **Xülasə** və ən azı 5 **açar söz** göstərilir.
- Məqalənin Giriş hissəsi müəllif tərəfindən müəyyən edilir.
- **Əsas mətn** yarımbaşlıqlara bölünür.
- Tədqiqatın əsas elmi nəticələri qısa və ümumiləşdirilmiş şəkildə **Nəticə** hissəsində təqdim edilir.
- Məqalələrin sonunda iki dildə (azərbaycan dilində olan məqalələrə rus və ingilis, türk və rus dilində olan məqalələrə azərbaycan və ingilis; ingilis dilində olan məqalələrə azərbaycan və rus dillərində) **“Xülasə”** verilir (burada tədqiqatın elmi yeniliyi, tətbiqi əhəmiyyəti və nəticə göstərilir)
- Hər bir “Xülasə”dən sonra **açar sözlər** təqdim edilir.
- Cədvəl və şəkillərin adı olmalı və nömrələnməlidir.
- Məqalənin həcmi yuxarıdakı şərtlər nəzərə alınmaqla 8 səhifədən az olmamalıdır. A4 formatında, Times New Roman şrifti, şrift ölçüsü – 12, sətir aralığı - 1,5, abzas - 1 sm, haşiyələr: sol – 2,5 sm, sağ - 1,5 sm, yuxarı və alt - hər biri 2 sm olmalıdır.

- **Məqalədə rast gəlinən mənbələrə istinad olunma qaydası:**
- Məqalədə yalnız istinad edilən ədəbiyyat kodlaşdırılaraq sonda əlifba sırası ilə verilir.
- İstinad edilmiş ədəbiyyatın kodu mötərizədə yazılır. (Məs.: Duqlas Nortun fikrinə görə,
- "*İnstitutlar cəmiyyəti ... formal çərçivələrlə məhdudlaşdırır və sosial münasibətləri təşkilatlandırır*" [76, s. 35-36].)
- Məqalənin sonunda Ədəbiyyat siyahısı verilir.
- Ədəbiyyat siyahısı dissertasiyalara şamil edilən müvafiq qaydalara uyğun tərtib olunmalıdır.
- **Məqalələrin redaksiyaya təqdim edilmə qaydası:**

Məqalələr electron qaydada təqdim edilə bilər. Jurnalın saytında xüsusi "Online məqalə qəbulu" bölməsi vardır.

Müəlliflər məqalələri jurnalın electron poçtuna da (ssps.journal2020@gmail.com) göndərə bilərlər.

Məqalə ilə yanaşı müəlliflər jurnalın saytındakı (sosiologiya-jurnali.az) **Arayış** bölməsində tələb edilən məlumatları yerləşdirib redaksiyaya təqdim etməlidirlər.

***III. Məqalələrin qiymətləndirilməsi, resenziyalaşdırılması və dərci***

"Sosiologiya.Sosial psixologiya.Siyasət" elmi araşdırmalar jurnalına göndərilən məqalələr əvvəlcə redaksiya tərəfindən jurnalın nəşri prinsipləri baxımından qiymətləndirilir. Nəşr prinsiplərinə uyğun olmayan məqalələr düzəldilmək üçün müəllifə göndərilə və ya resenziyalaşdırmadan imtina edilə bilər.

Resenziyalaşdırma üçün qəbul edilən məqalələrin resenziya prosesində elmi obyektivlik və elmi keyfiyyət kriteriyalarına xüsusi diqqət yetirilir. Resenziyalaşdırma üçün qəbul edilən yazılar müvafiq sahəyə aid iki resenzentə göndərilir. Resenzentlərin adları məxfi saxlanılır. Müəlliflərin resenzentlərin və redaksiyanın tənqid, irad və təkliflərini nəzərə almaları zəruridir. Müəlliflər razılaşmadıqları məqamlarla bağlı əsaslandırılmış şəkildə etiraz etmək hüququnu saxlayırlar. Nəşrə qəbul edilməyən məqalələr müəlliflərinə qaytarılmır.

***IV. Kompliyuasiya və plagiatlıq halları***

Bütün məqalələr kompliyasiya və ya plagiat ola biləcəyi ehtimalına görə nəzərdən keçirilir. Plagiatlıq hallarına rast gəldikdə məqalə dərhal çap prosesindən kənarlaşdırılır.

***V. Müəlliflik hüquqları***

Jurnalda dərc edilən məqalələrdə müəlliflik hüququ qorunur və bu məqalələrin bütün nəşr hüquqları "Sosiologiya.Sosial psixologiya.Siyasət" elmi araşdırmalar jurnalına aiddir.

Göstərilən tələblərə cavab verməyən məqalələr dərc edilmir.

Hər hansı bir nömrədə nəşr edilmiş məqalələrdə rast gəlinən səhvlərin növbəti saylarda göstərilməsini nəzərdə tutan **"DÜZƏLİŞ"** bölməsi vardır.

**Nəşrin müəlliflərə təqdim edilməsi**

Jurnalın pulsuz çap nüsxəsini müəllif redaksiyada əldə edə bilər. Jurnalın müvafiq nömrəsinin elektron variantı Jurnalın web səhifəsində yerləşdirilir və müəlliflərin elektron poçt ünvanlarına PDF variantda göndərilir.

**Redaksiyanın ünvanı və əlaqə telefonları:**
**AZ11075**, Azərbaycan, Bakı, A.M.Cümə 19/69, b.28, m.28
**Tel.**: (+994 12) 464 83 56; (+994 55) 768 94 26

**URL:** www.sosiologiya-jurnali.az
**E-mail:** ssps.journal2020@gmail.com

# YAZARLAR İÇİN KURALLAR

## DERGİ HAKKINDA

"Sosyoloji. Sosyal psikoloji. Politika" bilimsel araştırma dergisi "Rezonans" Sosyal Araştırmalar Halk Birliği tarafından 2020 yılında kurulmuştur. 18 Haziran 2020 tarihinde Azerbaycan Cumhuriyeti Adalet Bakanlığı'nda 4307 numara ile basılı yayınlar siciline dahil edilmiştir. 8 Ocak 2021'de Uluslararası Standart Seri Numarası (ISSN L: 2709-7854), merkezi Paris, Fransa'da bulunan Uluslararası Seri Yayınları Tescil Merkezi tarafından "Sociology. Social Psychology. Politics" bilimsel araştırma dergisine atandı.

Dergide ağırlıklı olarak sosyoloji, psikoloji, siyaset, felsefe, tarih, hukuk gibi sosyal ve insani bilimlerin genel kavramsal konularını ifade eden, yazarların yeni fikir ve yaklaşımlarını yansıtan bilimsel-analitik makaleler, yeni yayınlara ilişkin tartışma görüş ve yorumları yayınlanmaktadır.

Bağımsız, hakemli, bilimsel bir yayındır. Yılda 4 sayı yayınlanmaktadır. Derginin kopyaları, yayın tarihinden itibaren 1 ay içinde kütüphanelere, uluslararası indeks kuruluşlarına, abonelere ve yazarlara sağlanır.

Makaleler Azerice, Türkçe, Rusça ve İngilizce olarak yayınlanmaktadır.

## GENEL KURALLAR

***I. Makalelerin İçeriği***

Dergiye gönderilecek makaleler, sosyal bilimlere katkı sağlayacak ve sosyal bilimlere yenilik getirecek ölçüde konuyla ilgili ve özgün, analitik ve akademik gereksinimleri karşılamalıdır. Bilimsel makalenin giriş bölümünde konunun uygunluğu kanıtlanmalı, metin bölümünde araştırılan konular, sorunlar bölümler halinde ayrıntılı olarak açıklanmalı, sonuç bölümünde yazarın bilimsel sonucu çalışmanın niteliğine göre yapılmalıdır. Alan ve makale, bilimsel yenilik, pratik önem, ekonomik verimlilik vb. netleştirilmeli, öneri ve önerilerde bulunulmalıdır.

***II. Makalelerin yapısı, kuralları ve hacmi***

Yazı işleri ofisine gönderilen makaleler, Yüksek Onay Komisyonu'nun süreli yayınlar (http://aak.gov.az) gerekliliklerini ve "Sociology. Social Psychology. Politics" bilimsel dergisinin "Yazarlar için Kuralları"nı tam olarak karşılamalıdır.

Makaleler net bir şekilde yapılandırılmalıdır. Sırayla her makalede:

- UOT endeksleri ve PACS tipi kodları sağlanır.
- Yazarın adı ve soyadı, yazarın çalıştığı kurumun adı ve adresi, yazarın konumu, bilimsel derecesi ve bilimsel unvanı, temsil ettiği ülke ve e-posta adresi sayfanın sağ üst köşesinde görüntülenir.
- Makalenin başlığı sayfanın ortasında, büyük harflerle, kalın yazı tipinde (başlık ile metin arasında - satır atlamalı) verilir.
- Özet ve makalenin dilinde en az 5 anahtar kelime.
- Makalenin giriş kısmı yazar tarafından belirlenir.
- Ana metin alt başlıklara ayrılmıştır.
- Araştırmanın temel bilimsel sonuçları, Sonuçlar bölümünde kısa ve genelleştirilmiş bir şekilde sunulmaktadır.
- Makalelerin sonunda iki dilde "Özet" verilmektedir (Azerice makaleler Rusça ve İngilizce, Türkçe ve Rusça makaleler Azerice ve İngilizce olarak; İngilizce makaleler Azerice ve Rusça olarak)
- Anahtar kelimeler her "Özet"ten sonra sunulur.
- Tablo ve şekiller isimlendirilmeli ve numaralandırılmalıdır.
- Makalenin hacmi yukarıdaki koşullar dikkate alınarak 8 sayfadan az olmamalıdır. A4 formatı, Times New Roman yazı tipi, yazı tipi boyutu - 12, satır aralığı - 1,5, paragraf - 1 cm, kenarlıklar: sol - 2,5 cm, sağ - 1,5 cm, üst ve alt - her biri 2 cm .
- Makalede bulunan kaynaklara nasıl başvurulur:
- Makalede sadece atıfta bulunulan literatür kodlanmış ve sonunda alfabetik sıraya göre verilmiştir.

- Alıntı yapılan literatürün kodu parantez içinde yazılmıştır. (Örnek: Douglas North'a göre,
- "Kurumlar toplumu ... resmi çerçevelerle sınırlar ve sosyal ilişkileri düzenler" [76, s. 35-36].)
- Kaynakça listesi makalenin sonunda verilmiştir.
- Bibliyografya, tezler için geçerli olan ilgili kurallara uygun olarak derlenmelidir.
- Yazı İşleri Müdürlüğüne Makale Gönderme Prosedürü:

Makaleler elektronik olarak gönderilebilir. Derginin web sitesinde özel bir "Çevrimiçi makale gönderme" bölümü bulunmaktadır.

Yazarlar ayrıca derginin e-posta adresine (ssps.journal2020@gmail.com) makale gönderebilirler.

Yazarlar, makale ile birlikte derginin web sitesinin (sosiologiya-jurnali.az) Kaynaklar bölümüne gerekli bilgileri yerleştirmeli ve editörlere sunmalıdır.

***III. Makalelerin değerlendirilmesi, hakem değerlendirmesi ve yayınlanması***

"Sociology. Social Psychology. Politics" adlı bilimsel dergiye gönderilen makaleler ilk olarak yayın kurulu tarafından derginin yayın ilkeleri açısından değerlendirilir. Yayınlanma ilkelerine uygun olmayan yazılar, düzeltilmesi veya gözden geçirilmesi için yazarına gönderilebilir. Hakemliğe kabul edilen makalelerin değerlendirilmesinde bilimsel objektiflik ve bilimsel kalite kriterlerine özel önem verilir. İncelenmek üzere alınan yazılar, ilgili alandaki iki hakeme gönderilir. Hakemlerin isimleri gizli tutulur. Yazarlar, hakem ve editörlerin eleştiri, yorum ve önerilerini dikkate almalıdır. Yazarlar, anlaşmazlık noktalarında nesnel olarak katılmama hakkını saklı tutar. Yayına kabul edilmeyen yazılar yazarlarına iade edilmez.

***IV. Komplikasyon ve intihal vakaları***

Tüm makaleler olası yanlış beyan veya intihal için gözden geçirilir. İntihal durumunda makale derhal baskı sürecinden çıkarılır.

***V. Telif hakkı***

Dergide yayınlanan makalelerin telif hakları saklıdır ve bu makalelerin tüm yayın hakları "Sociology. Social Psychology. Politics" adlı bilimsel dergiye aittir.

Bu şartlara uymayan makaleler yayınlanmayacaktır.

Herhangi bir sayıda yayınlanan makalelerin, sonraki sayılardaki hataları belirtmesi amaçlanan bir "**DÜZELTME**" bölümü vardır.

**Yayının yazarlara sunumu**

Yazar, derginin ücretsiz basılı bir kopyasını editör ofisinden alabilir. Derginin ilgili sayısının elektronik versiyonu derginin internet sitesinde yer almakta ve PDF versiyonu yazarların e-posta adreslerine gönderilmektedir.

**Yazı işleri müdürlüğünün adres ve iletişim numaraları**:

AZ11075, Azerbaycan, Bakü, AM Juma 19/69, s.28, m.28
Tel.: (+994 12) 464 83 56; (+994 55) 768 94 26

URL: www.sosiologiya-jurnali.az
E-posta: ssps.journal2020@gmail.com

## ПРАВИЛА ДЛЯ АВТОРОВ

### О ЖУРНАЛЕ

Научно-исследовательский журнал «Социология. Социальная психология. Политика» учрежден в 2020 году Общественным объединением социальных исследований «Резонанс». 18 июня 2020 года он был включен в реестр печатных изданий под номером 4307 в Министерстве юстиции Азербайджанской Республики. 8 января 2021 года Международный стандартный серийный номер (ISSN L: 2709-7854) был присвоен научно-исследовательскому журналу «Социология. Социальная психология. Политика» Центром регистрации международных серийных изданий со штаб-квартирой в Париже, Франция.

В журнале в основном публикуются научно-аналитические статьи, отражающие общие концептуальные вопросы социальных и гуманитарных наук, таких как социология, психология, политика, философия, история, право, отражающие новые идеи и подходы авторов, дискуссионные мнения и комментарии к новым публикациям.

Это независимое рецензируемое научное издание. В год выходит 4 номера. Копии журнала предоставляются библиотекам, международным индексным организациям, подписчикам и авторам в течение 1 месяца после публикации.

Статьи публикуются на азербайджанском, турецком, русском и английском языках.

### ОСНОВНЫЕ ПРАВИЛА

***I. Содержание статей***

Статьи, представляемые в журнал, должны быть актуальными и оригинальными, аналитическими и соответствовать академическим требованиям в той мере, в какой они вносят вклад в социальные науки и привносят инновации в социальные науки. Во вступительной части научной статьи должна быть обоснована актуальность темы, в текстовой части подробно изложены исследуемые вопросы, проблемы по разделам, в заключительной части научный вывод автора по характеру изучаемой темы. область и статья, научная новизна, практическая значимость, экономическая эффективность и др. должны быть разъяснены, должны быть сделаны предложения и рекомендации.

***II.Структура, правила и объем статей***

Статьи, представляемые в редакцию, должны полностью соответствовать требованиям ВАК к периодическим изданиям (http://aak.gov.az) и «Правилам для авторов» научного журнала «Социология. Социальная психология. Политика».

**Статьи должны быть четко структурированы.** В каждой статье по порядку:

- Приведены индексы UOT и коды типов PACS.
- Имя и фамилия автора, название и адрес учреждения, в котором работает автор, должность автора, ученая степень и научное звание, страна, которую он представляет, и адрес электронной почты отображаются в правом верхнем углу страницы.
- Название статьи дается посередине страницы, прописными буквами, жирным шрифтом (между названием и текстом - пропуск строки).
- Резюме и не менее 5 ключевых слов на языке статьи.
- Вступительная часть статьи определяется автором.
- Основной текст разбит на подзаголовки.
- Основные научные результаты исследования представлены в краткой и обобщенной форме в разделе «Результаты».
- В конце статей дается «Резюме» на двух языках (статьи на азербайджанском языке на русском и английском языках, статьи на турецком и русском языках на азербайджанском и английском языках; статьи на английском языке на азербайджанском и русском языках)
- Ключевые слова представлены после каждого «Резюме».

- Таблицы и рисунки должны быть названы и пронумерованы.
- Объем статьи должен быть не менее 8 страниц с учетом вышеуказанных условий. Формат A4, шрифт Times New Roman, размер шрифта — 12, межстрочный интервал — 1,5, абзац — 1 см, поля: левое — 2,5 см, правое — 1,5 см, верхнее и нижнее — по 2 см.
- Как ссылаться на источники, встречающиеся в статье:
- Только ссылочная литература в статье кодируется и приводится в алфавитном порядке в конце.
- В скобках указывается код цитируемой литературы. (Пример: по словам Дугласа Норта,
- «Институты ограничивают общество... формальными рамками и организуют общественные отношения» [76, с. 35-36].)
- В конце статьи приводится список литературы.
- Список литературы должен быть составлен по соответствующим правилам, применимым к диссертациям.
- Порядок подачи статей в редакцию:
- Статьи могут быть представлены в электронном виде На сайте журнала есть специальный раздел «Онлайн-подача статей». Авторы также могут присылать статьи на электронный адрес журнала (ssps.journal2020@gmail.com).
- Вместе со статьей авторы должны разместить необходимую информацию в разделе «Справочная информация» на сайте журнала (sosiologiya-jurnali.az) и представить ее в редакцию.

### *III. Оценка, рецензирование и публикация статей*

Статьи, представляемые в научный журнал «Социология. Социальная психология. Политика», предварительно оцениваются редакционной коллегией с точки зрения принципов публикации журнала. Статьи, не соответствующие принципам публикации, могут быть направлены автору для исправления или отказа от рецензирования.

В процессе рецензирования статей, принятых на рецензирование, особое внимание уделяется критериям научной объективности и научного качества. Записи, полученные на рассмотрение, отправляются двум рецензентам в соответствующем поле. Имена рецензентов держатся в секрете. Авторы должны учитывать критические замечания, замечания и предложения рецензентов и редакторов. Авторы оставляют за собой право объективно не соглашаться по пунктам разногласий. Статьи, не принятые к публикации, авторам не возвращаются.

### *IV. Случаи сложности и плагиата*

Все статьи проверяются на возможное искажение фактов или плагиат. В случае обнаружения плагиата статья немедленно снимается с печати.

### *V. Авторское право*

Статьи, опубликованные в журнале, защищены авторским правом и все права на публикацию этих статей принадлежат научному журналу «Социология. Социальная психология. Политика».

Статьи, не соответствующие этим требованиям, не будут опубликованы.

Статьи, опубликованные в любом номере, имеют раздел **«ИСПРАВЛЕНИЕ»,** предназначенный для указания на ошибки в последующих выпусках.

### Презентация публикации авторам

Автор может получить бесплатный печатный экземпляр журнала в редакции. Электронная версия соответствующего номера журнала размещается на сайте журнала и высылается в формате PDF на электронные адреса авторов.

**Адрес и контактные телефоны редакции:**
AZ11075, Азербайджан, Баку, А.М.Джума 19/69, стр.28, м.28
Тел.: (+994 12) 464 83 56; (+994 55) 768 94 26

URL: www.sosiologiya-jurnali.az
Электронная почта: ssps.journal2020@gmail.com

## RULES FOR AUTHORS

### ABOUT THE JOURNAL

"Sociology. Social psychology. Politics" scientific research journal was established in 2020 by "Resonance" Social Research Public Union. On June 18, 2020, it was included in the register of printed publications under the number 4307 in the Ministry of Justice of the Republic of Azerbaijan. On January 8, 2021, the International Standard Serial Number (ISSN L: 2709-7854) was assigned to the scientific research journal "Sociology. Social Psychology. Politics" by the Center for Registration of International Serial Publications, headquartered in Paris, France.

The journal mainly publishes scientific-analytical articles expressing general conceptual issues of social and humanitarian sciences such as sociology, psychology, politics, philosophy, history, law, reflecting the authors' new ideas and approaches, discussion opinions and comments on new publications. .

It is an independent, peer-reviewed, scientific publication. 4 issues are published per year. Copies of the journal are provided to libraries, international index organizations, subscribers and authors within 1 month of publication.

Articles are published in Azerbaijani, Turkish, Russian and English.

### GENERAL RULES

***I. Content of articles***

Articles to be submitted to the journal must be relevant and original, analytical and meet academic requirements to the extent that they contribute to the social sciences and bring innovation to the social sciences. In the introductory part of the scientific article the relevance of the topic should be substantiated, in the text part the researched issues, problems should be explained in detail by sections, in the concluding part the scientific conclusion of the author according to the nature of the field and article, scientific novelty, practical significance, economic efficiency, etc. should be made clear, suggestions and recommendations should be made.

***II. Structure, rules and volume of articles***

Articles submitted to the editorial office must fully meet the requirements of the Higher Attestation Commission to periodicals (http://aak.gov.az) and the "Rules for Authors" of the scientific journal "Sociology. Social Psychology. Politics".

***Articles must be clearly structured. In each article in sequence:***

- UOT indices and PACS type codes are provided.
- Name and surname of the author, name and address of the institution where the author works, position of the author, scientific degree and scientific title, country he represents and e-mail address are displayed in the upper right corner of the page.
- The title of the article is given in the middle of the page, in capital letters, in bold fonts (between the title and the text - line skipping).
- Summary and at least 5 keywords in the language of the article.
- The introductory part of the article is determined by the author.
- The main text is divided into subheadings.
- The main scientific results of the research are presented in a short and generalized way in the Results section.
- At the end of the articles "Summary" is given in two languages (articles in Azerbaijani in Russian and English, articles in Turkish and Russian in Azerbaijani and English; articles in English in Azerbaijani and Russian)
- Keywords are presented after each "Summary".
- Tables and figures should be named and numbered.

- The volume of the article should not be less than 8 pages, taking into account the above conditions. A4 format, Times New Roman font, font size - 12, line spacing - 1.5, paragraph - 1 cm, borders: left - 2.5 cm, right - 1.5 cm, top and bottom - 2 cm each .
- How to refer to the sources found in the article:
- Only the referenced literature in the article is coded and given in alphabetical order at the end.
- The code of the cited literature is written in parentheses. (Example: According to Douglas North,
- “Institutions limit society ... to formal frameworks and organize social relations” [76, p. 35-36].)
- A list of references is given at the end of the article.
- The bibliography should be compiled in accordance with the relevant rules applicable to dissertations.
- Procedure for submitting articles to the editorial office:

  Articles can be submitted electronically. The magazine's website has a special "Online article submission" section. Authors can also send articles to the journal's e-mail address (ssps.journal2020@gmail.com).

  Along with the article, the authors must place the required information in the Reference section of the journal's website (sosiologiya-jurnali.az) and submit it to the editors.

### *III. Evaluation, peer review and publication of articles*

Articles submitted to the scientific journal "Sociology. Social Psychology. Politics" are first evaluated by the editorial board in terms of the principles of publication of the journal. Articles that do not comply with the principles of publication may be sent to the author for correction or refusal to be reviewed.

In the process of reviewing articles accepted for review, special attention is paid to the criteria of scientific objectivity and scientific quality. Entries received for review are sent to two reviewers in the relevant field. The names of the reviewers are kept confidential. Authors should take into account the criticisms, comments and suggestions of reviewers and editors. The authors reserve the right to objectively disagree on points of disagreement. Articles that are not accepted for publication will not be returned to the authors.

### IV. Cases of complication and plagiarism

All articles are reviewed for possible misrepresentation or plagiarism. In case of plagiarism, the article is immediately removed from the printing process.

### V. Copyright

Articles published in the journal are copyrighted and all publishing rights to these articles belong to the scientific journal "Sociology. Social Psychology. Politics".

Articles that do not meet these requirements will not be published.

Articles published in any issue have a **"CORRECTION"** section, which is intended to indicate errors in subsequent issues.

### Presentation of the publication to the authors

The author can get a free printed copy of the magazine in the editorial office. The electronic version of the relevant issue of the magazine is placed on the website of the magazine and sent in PDF version to the e-mail addresses of the authors.

### Address and contact numbers of the editorial office:

AZ11075, Azerbaijan, Baku, A.M.Juma 19/69, p.28, m.28
Tel .: (+994 12) 464 83 56; (+994 55) 768 94 26
URL: www.sosiologiya-jurnali.az
E-mail: ssps.journal2020@gmail.com

**DÜZƏLİŞLƏR**